*Aydın Mədətoğlu Qasımlı*

# *DÜNYANIN TACI TÜRKLƏR*

**Bakı – 2005**

**İçindəkilər**


*ÖN SÖZ* ……………………………………………… səh.

**I FƏSİL**
**Türklər və Dünya Dinləri**

1.1. Türklərdə dini dünyagörüş …………………..……
1.2. Türklərdə Tanrı və Din anlayışı ……………………
1.3. Türklərdə Mələk və Şeytan anlayışı …………………
1.4. Türklərdə Peyğəmbər sevgisi …………………………
1.5. Türklərdə Vəhy anlayışı ………………………………
1.6. Türklərdə İman anlayışı ………………………………

**II FƏSİL**
**Türk Mənəviyyatı**

2.1. Türklərdə Nəfs anlayışı ………………………………
2.2. Türklərdə Ruh anlayışı ………………………………
2.3. Türklərdə Ölüm anlayışı………………………………
2.4. Türklərdə Əxlaq anlayışı ……………………………
2.5. Türklərdə Eşq, Məhəbbət, Sevgi anlayışı ……………

**III FƏSİL**
**Türklərin tarixi missiyası**

3.1. Dünya və Türklər ……………………………………
3.2. Türklərin Cahan Hakimiyyəti idealı………………
3.3 Tanrı Ordusu – Türklər …………………………..
3.4. Dünyanın Tacı Türklər ……………………………
3.5 Bugünkü Dünya düzəni və Türklər ………………
3.6 Tarixi sorumluluq ……………………………..
3.7. Milliyətçilik bir Milli Kimlik məsələsidir ………..
3.8. Müqəddəs dava ……………………………………….
3.9. Lidersizlik ……………………..…………………………
3.10. Güvəncimiz Sizlərsininz, ey Türk Gəncliyi ……..........

# ÖN SÖZ

Millətin gələcəyi üçün tarix, xüsusilə, siyasi və mənəvi tarix yazmaq tarixi yaratmaq qədər müqəddəs bir işdir. Çünki millətin tarixi millətin özünə layiq bir şəkildə yazılmasa və bu yazılacaq tarix millətin mənəvi – mədəni və təfəkkür qaynağı olmasa, o tarix torpaq altında qalan qiymətli xəzinələr kimi heç bir məna və dəyər kəsb etməz. Türk milləti tarixdə nə qədər əzəmətli bir mövqeyə sahibdirsə də Onun Öz tarixini yazmaqda səriştəsi bir o qədər qüsurludur. Belə ki, milli tariximizin böyük bir dövrünü əhatə edən nə siyasi, nə ictimai, nə iqtisadi, nə dini, nə mənəvi, nə mədəni və nə də fəlsəfi və hüquqi sahələri üzrə sanballı tarix kitablarımız yox dərəcəsindədir. Yazılmış tarix kitablarımızın əksəriyyəti yalnız xronoloci xarakter daşıyaraq ayrı–ayrı hökmdarların, rəhbərlərin, qəhrəmanların tərcümeyi-hallarını, dövlət və xalqların bir-biri ilə savaşlarını və qarşılıqlı münasibətlərini əks etdirir. Millətimizin düşüncə tərzi, onun mənəvi keyfiyyətləri, ictimai-siyasi, dini-əxlaqi baxışları, bədii zövqü və s. bu kimi mənəvi mədəniyyəti küll halında tədqiqata cəlb edilməmişdir.

Türkün tarixi bir okeandır. Möhtəşəm və əzəmətli bir tarixi olan bu millətin tarixini bütün yönləri ilə araşdırmaq bir şəxsin, beş-on tədqiqatçının işi deyil. Bu tarixi həryönlü incələmək üçün onlarla alim-tədqiqatçı-tarixçi, dilçi, arxeoloq, din alimi, filosof, psixoloq, sosioloq və s. cəlb edilməli və istənilən miqdarda para sərf edilməlidir.

Ən azı beş min illik bir kimlik tarixinə malik olan Türk millətinin (Artıq dünya tarixşünaslığı sübut etməkdədir ki, Dünya mədəniyyətinin ilk yaradıcılarından biri Turan xalqıdır. Ən qədim qızıl, gümüş əşyalar, svastika, xaç və s. sənət əsərləri məhz Turan ərazisindən tapılmışdır – A.M.) bu mənəvi dəyərlərini küll halında araşdırıb təqdim etmək təkcə Türk millətinə deyil, bütün insanlığa bir xidmətdir qənaətindəyik. Çünki ən azı iki min beş yüz il Asyanın, min beş yüz il Avropanın böyük bir qisminin, dörd yüz il Afrikanın şimal

hissəsinin taleyini, müqəddəratını həll edən bir millətin o müdhiş fədakarlığını inkar etmək əslində bəşər tarixinin böyük bir dövrünü inkar etmək deməkdir.

Türkün tarixini, Onun düşüncə sistemini incələmək üçün Türklərin maddi və mənəvi dəyərlərini, tarixi istiqamətləndirmək və hətta dəyişdirmək qüdrətində olan hökmdar və qəhrəmanlarının həyatını, onların dövründə yaradılan maddi-mənəvi mədəniyyət nümunələrini dərindən öyrənmək gərəkdir.

Türkün əsl tarixi yazılmasa da Onun şüurlarda, hafizələrdə, bədii əsərlərdə, yaratdığı sənət əsərləri və dastanlarda yaşamış, nəsildən nəslə ötürülmüş tarixi bir çox xalqların əfsanə və mifə dayanan tarixlərindən daha realdır, əsil tarixdir. Böyük mütəfəkkirlər söyləyiblər ki: «Mif, əfsanə özünə yer tapdığı zaman elm iflasa uğrayar». Deməli, mif və əfsanələri elmləşdirmək insanlığı geriyə, əsl elmi əfsanələşdirmək, mifləşdirmək isə irəliyə aparar. Türkün əsl tarixi elmə dayandıqca o, əfsanələşəcək, mifləşəcək və Türkün dünya tarixindəki əsl yeri, rolu bəlirlənəcək.

Biz indiyə qədər görülən müsbət işləri yüksək dəyərləndirməklə yanaşı Türk mənəvi dəyərlərinin qısa xülasələrini verməklə bu işə kiçicik də olsa işıq tutmağa çalışdıq. «Dünyanın tacı Türklər» adlandırdığımız bu kiçicik əsərdə Türklərin dini, mənəvi və əxlaqi dünyagörüşləri, onların dünya tarixindəki rolu və yeri haqqında müəyyən təsəvvür yaratmağa çalışmışam.

Əsər «Ön söz» və üç fəsildən ibarətdir. «Ön söz» də məqsədimi açıqlamışam. Birinci fəsil «Türklər və Dünya Dinləri» adlanır və altı başlığı özündə ehtiva edir. Bu fəsildə insanlığın ilkin inanc sistemi olan Animizmdən tutmuş son müqəddəs din olan İslamdan, Türklərin Tanrı, din, Mələk, Şeytan, Vəhy, İman anlayışlarından və Reyğəmbər sevgisindən bəhs edilmişdir.

İkinci fəsil «Türk mənəviyyatı» adlanır və beş başlığı özündə birləşdirir. Bu fəsildə Türklərin Nəfs, Ruh, Ölüm, Əxlaq, Eşq və Məhəbbət anlayışları haqqında müəyyən fikir və mülahizələri öz əksini tapmışdır.

Üçüncü fəsil «Türklərin tarixi missiyası» və on başlıqdan ibarətdir. Bu fəsildə əsasən Türklərin tarixdəki rolu, bugünkü dünya düzənində Türklərin yeri haqqında və Türk gənclərinin gələcəkdə Türklük üçün çalışmaları barəsində müəyyən tövsiyələr öz əksini tapmışdır.

**Qeyd:** Məlumat üçün bildiririk ki, əsərin «Ön söz»ü, «Türklərin Cahan Hakimiyyəti idealı» və «Milliyətçilik bir Milli Kimlik məsələsidir» mövzuları istisna olmaqla qalan bütün mövzular «Milliyət» qəzetinin 2003-cü il tarixli müxtəlif nömrələrində dərc edilmişdir (Müəllif).

Məlumat üçün bildirirəm ki, ömrümün qırx ili müəzzəm Türk tarixini, Türk mənəviyyatını, Türk dili və ədəbiyyatını öyrənməyə və incələməyə sərf edilib. Bu kiçicik əsər münəccimlik, özünəvurğunluq deyil, real həqiqətdir. Mövzu ilə bağlı bir çox dünya və Türk tədqiqatçılarının xeyli əsərlərini oxumuş, onların bir çoxundan yararlanmış, bir çoxundan da fərqli düşünmüşəm. Mövzunu tarixi-siyasi, mənəvi-fəlsəfi və ideoloci baxımdan şərh etməyə çalışmışam.

Mövzunun tam işləndiyi iddiasında deyilik. Bu kiçicik əsər bir insanın böyük və müəzzəm bir millətin mənəvi dəyərləri ilə bağlı apardığı araşdırmaların, tarixdən anladıqlarının və öyrəndiklərinin qısa və həm də çox qısa bir xülasəsidir. Əsəri oxucuların müzakirəsinə buraxır və qərəzsiz tənqidləri səmimiyyətlə indidən qəbul edirik.

***Müəllif***

# I FƏSİL
# Türklər və Dünya Dinləri

## Türklərdə dini dünyagörüş

Türklər Yer kürəsində tək millətlərdəndir ki, dünyada mövcud olan əksər din və inanclardan bu və ya digər dərəcədə istifadə etmişlər. Bu Din və inanclar Türklərə bir çox uğurlar qazandırsa da itkiləri də az olmamışdır.

Türklər ilkin inanclardan sayılan **ANİMİZMDƏN** tutmuş **ŞAMANİZMƏ**, atalar kultundan və Göy Tanrı inancından tutmuş Çin mifologiyası və fəlsəfəsinə dayanan Konfusiçilik və Taoiizmə, Hind – Tibet Buddizmindən tutmuş Manixeizmə, Atəşpərəstlikdən tutmuş təkallahlı din olan Musəviliyə, Xristianlıqdan tutmuş son təkallahlı din olan İslama qədər bütün dini dünyagörüşə sahib olmuş və bununla da sanki özləri ümumbəşəri bir inanc simvoluna çevrilmişlər.

Kainatı “Ruhlar Dünyası” kimi qəbul edən Türklərin dini inanclarının əsasını **RUHUN** əbədiliyi təşkil edir. Ona görə də Türklərin ilkin inanclarının əsasında məhz dədə - babaların **RUHU** dayanır. Qədim Türklər dədə-babaların **RUHUNA** qurbanlar kəsər, ehsanlar verərdilər.

**RUHA** sitayiş dini dünyagörüşdə **ANİMİZM** adlanır. Elə latınca, “anima” sözünün anlamı “ruh” deməkdir.

Türklər kimi dünyanın bir çox xalqlarının da ilkin inanclarından sayılan Animizmə görə, insanları, maddi aləmin bütün cism və hadisələrini **RUH** idarə edir. Bu dini dünyagörüşə görə İnsan bədəni bu və ya digər hadisə ilə bağlıdırsa, **RUH** qeyri-məhdud və əbədi olduğundan tamamilə müstəqildir.

Qədim Türklərin ilkin dünyagörüşünə görə, İnsanın doğuluşu, ölümü, yuxusu, bayılması və hətta xəstəliyi də **RUHUN** fəaliyyəti ilə bağlıdır. Bu ilkin dini dünyagörüşə görə **RUH** hətta konkret varlıqdır. Qədim Türklərdə İnsanın gözdə

əks olunan surəti və hətta pərvanə belə dədə-babaların evə gəlmiş **RUHU** sayılırdı. Axirət dünyasına inam, əcdada və təbiətə pərəstiş də buradan yaranmışdır. Bu ilkin dini inancın bir çox ünsürünə sonrakı təkallahlı dinlərdə belə təsadüf edilir.

Türklərin ilkin inanclarından sayılan və bu gün belə **SAKA** və Altay Türklərində yaşamaqda olan Şamanizm **RUHLARLA** ünsiyyət inamına əsaslanan **İLKİN DİNİ** dünyagörüşlərdən sayılır. Özünü ekstaz halına gətirmək bacarığı olan və **RUHLARLA** əlaqəyə girib, xəstələri müalicə edən (fala baxan ) şəxs **ŞAMAN** adlanır. "Şaman" sözü evenk dilində "coşqun, ehtiraslı" deməkdir. Təbiidir ki, xəstələri müalicə edən hər bir adama və hər hansı bir falabaxana Şaman deyilməz. Həmçinin hər hansı ehtiraslı və coşqun adama, özünü ekstaz vəziyyətinə gətirə bilənə də Şaman deyilməz. Şaman hər şeydən əvvəl öz xüsusi üsulları vasitəsilə ekstaz vəziyyətinə gələn, **RUHUNU** göylərə yüksəldə və ya yerin altına endirə bilən və oralarda dolaşmaq üçün **RUHUNUN** bədənindən ayrıldığını hiss edən bir vəcd ustasıdır. Bu vəcd ustası **RUHLARI** öz hökmü altına alaraq ölülərlə, şeytan, cin və pərilərlə əlaqə yaratmağa müvəffəq olan seçkin insandır. Bu xüsusiyyətləri ilə insanlar üzərində qorxu və sayqı yaradan **ŞAMAN** "İnsan **RUHUNUN** mütəxəssisi" kimi xalq kütlələrinin mənəviyyatına nəzarət edən bir din adamıdır.

**ŞAMANÇILIĞIN** ən böyük xüsusiyyəti nüfuz etdiyi insanları **RUH** aləminə bürümə qabiliyyətidir. Ruhlar aləminə nəzarət edə bilməsi Şamanizmə yeni keyfiyyətlər bəxş etmiş, ona bir din nüfuzu qazandırmış və özündən sonrakı bir çox dinlərə qüvvətli təsir göstərmişdir.

Bütün kainatı "Ruhlar Aləmi" hesab edən qədim Türklər Ruhu – yaxşı və pis olmaqla – iki qrupa ayırmışlar. Qədim Türk inancına görə yaxşı **RUHLAR** insanlara xoşbəxtlik, pis **RUHLAR** isə bədbəxtlik gətirirlər. Təbiətdə insan yaşayışına yarayan hər şeyi, xüsusilə, Göyü, Günəşi, Ayı, Ulduzu, Dağı, Dənizi təkcə maddi deyil, həm də mənəvi hesab edən qədim Türklər bunları da birər **RUH** qəbul edərək onları "Təbiət Tanrıları" adlandırmış və onlara qurbanlar kəsmişlər. Türk

xaqanları belə, gündüz Günəşə, gecə Aya, Ulduza, Göyə təzim etmişlər.

Dünyanın bir çox qədim xalqlarında da mövcud olan ölmüş böyüklərə təzim, atalar kultuna inam Türklərdə daha böyük məna kəsb etmişdir. Belə ki, Türklər yazda ataların **RUHUNA** qurbanlar kəsər, Türk məzarlarına təcavüz edən, onları yağmayanlara qarşı ağır cəzalar verər, bir sözlə, ataların, anaların əbədi dünyada rahat yaşamaları üçün hər cür fədakarlığa baş vurardılar. Tarixdə "Tanrının Qırmancı" kimi tanınan Atillanın "İkinci Balkan Səfəri"nin mühüm bir səbəbi də məhz Türk hökmdar ailəsinə mənsub qəbirlərin Bizansın Marqus yepiskopu tərəfindən açılaraq soyulması idi. Türk tarixində belə şeylər çox olmuşdur. Bunun başlıca səbəbi Türk ölülərinin silahları, qiymətli əşyaları ilə birlikdə gömülməsi idi. Atalar kultuna yarımtanrı sayğısı göstərən qədim Yunan, Hind, Sami, Slovyan və bir çox Avropa xalqlarından fərqli olaraq, Türklər heç vaxt nə atalar kultuna, nə də Tanrıya insan qurban kəsməmişlər. Öz vəhşi hərəkətlərinə haqq qazandırmaq üçün Türklərin də insan qurban kəsdiklərini öz saxta tarixlərində əks etdirmiş İordanesdən tutmuş İbn Fadlana və nəhayət bu saxta tarixçilərdən istifadə edən Bartolda qədər – hamısı qırmızı yalana yol vermişlər. Əksinə, Türklər hakim olduqları bütün yerlərdə insan qurban kəsmək adətini qadağan etmişdir. Qədim Türklər bütün tarixləri boyu yalnız qoyundan qoç, atdan ayqır, dəvədən buğra qurban kəsmişlər ki, bu, sonradan Sami xalqlarda da insan qurbanının heyvanla əvəz edilməsi (İsmayılın qurban kəsilməsi hadisəsi) ilə nəticələnmişdir.

Bütün bunlarla yanaşı, Türklərin ən qədim və əsil dini, Göy Tanrı dini idi. Göy Tanrı qədim Türklərdə tək yaradıcı, tam iqtidar sahibi idi. Türk dini dünyagörüşü sisteminin mərkəzində dayanan Göy Tanrı bütün Türklərin ana kultu olmuşdur. Qədim Türk yazılı abidələrində, hətta Göy Tanrı "Türk Tanrısı" kimi də qeyd edilərək "milli bir Tanrı"ya çevrilmişdir. Göy Tanrını milliləşdirən qədim Türklər hətta özlərini də ilahiləşdirərək "Göy Türklər" adlandırmışlar.

Türk düşmənləri bu ilahi adı da saxtalaşdıraraq Göy Türkləri "qolubiye Tyurki" kimi tərcümə etmiş və bununla da böyük bir tarixi alçaqlığa baş vurmuşlar. Halbuki Göy Türk Xaqanlığından bəhs edən heç bir tarixi mənbədə Türklərin "göy" rəngdə olduğu qeyd edilməmişdir.

Göy Tanrını "Türk Tanrısı" olaraq milli bir Tanrı kimi qəbul edən qədim Türklərə görə Göy Tanrı yaradan, bütün varlıqlara həyat bəxş edən, öldürən, Öz iradəsinə görə hökm edən, insanlara yardım edən, onlara bilgi verən, yol göstərən, onları cəzalandıran ulu bir Varlıqdır.

Dinlər tarixində sübut edilmişdir ki, heç bir din, heç bir dövrdə tək etiqad və əməldən ibarət olmamış, heç bir Tanrıya tək başına itaət edilməmiş, səmavi dinlərdə belə Allah ilə bərabər mələklərə, peyğəmbərlərə, kitablara və hətta əzizlərə iman gətirilmişdir. Göy Tanrı dinində isə mələklərin, peyğəmbərlərin, kitabların və əzizlərin yerini Günəş, Ay, Ulduz, Göy Türk Xaqanlığı dövründə İsə Yer və Su inancları tutmuşdur. Fəqət unudulmamalıdır ki, qədim Babildə Samas, Misirdə Amon-re, Hindistanda Varuno, Romada Mithra və s. kimi tanrılar Günəşi, Ayı, Ulduzları təmsil etdiyi halda, Göy Tanrı dinində Türklər bunlara ikinci planda yer vermiş, Tək Tanrı yalnız Göy Tanrı sayılmışdır. Göy Tanrı dinini bütün başqa dinlərdən fərqləndirən bu xüsusiyyət, bu inanc sistemi – Orxan kitabələrində də ifadə edildiyi kimi - Onu Türklərin "milli" dini halına gətirib çıxarmışdır. Göy Tanrı dilindəki «Tanrı» sözünün türkcə olması da bu fikri təsdiq edir. Qədim Kanqar dilində (Şumer dili) də bu söz "Tinqir" (qədim Türkcədə "Tanqrı") kimi səslənmişdir. Tanrı sözü sonradan İslamı qəbul edən Türklər tərəfindən "Allah"ı ifadə etmək üçün işlədilir.

Qədim Türk din adamlarına ümumiyyətlə «Qam» deyilmişdir. «Bisutun» yazısında Qam Ata, Avropa Hunlarında Ata Qam, Eş Qam adları bunu bir daha təsdiq edir.

Çox təəssüflər olsun ki, qədim Türklərin bu mükəmməl Göy Tanrı dininin nə ibadət qaydaları, nə də yazılı bir Kitabı haqqında bu gün əlimizdə tutarlı bir mənbə yoxdur.

Təbiətlə daim təmasda olan, bütün Kainatı «Ruhlar Dünyası» hesab edən Türklər Yer və Su deyimi ilə ifadə etdikləri bu müqəddəs Yer kürəsini böyük imperatorluqlar qurduqları dövrlərdə bir Yurd, bir Vətən inancı halına gətirmişlər.

Başlanğıcdan günümüzədək dünya tarixində əsaslı rol oynayan Türklər təmasda olduqları xalqların dini inanclarına hörmətlə yanaşmaqla bərabər, hətta o xalqların mənsub olduqları dinləri də qəbul etmiş, müxtəlif Türk xalqları bu gün belə ayrı – ayrı dinlərə inanmaqdadırlar.

İlk öncə çinlilərlə əlaqədə olan qədim Türklər Çin mifologiyası və fəlsəfəsinin, xüsusilə, Çin Buddizminin təsiri ilə bütün «milli» xüsusiyyətlərinin yasaq edilməsi nəticəsində 495-ci ildən etibarən tamamilə çinliləşmişlər. Beşinci əsrdən çinliləşən bu Türklər Çin Buddist mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərmişlər. Məşhur Yunq-Kanq və Lonq-Mən Budda heykəllərinin yaradıcısı da bu Türk Tabqaçlardı.

Buddizmi bütün Qərbi Göy Türk Xaqanlığında yaymağa çalışan və bununla da Göy Türkləri də çinliləşdirməyə səy göstərən Çinlilər ağır məğlubiyyətə düçar olmuş və Buddizm ikinci Göy Türk Xaqanlığı tərəfindən tamamilə rədd edilmişdir.

Həmçinin Uyğurların hakimiyyəti dövründə Baku xan tərəfindən Manixeizm Türklər arasında yayılmış, onların Türküstandakı hakimiyyətləri dövründə tamamilə yerləşmiş, bu dövrdə hətta Göy Türk yazısı dəyişdirilərək yerinə Soğdi mənşəli və tamamilə Türkçəyə yad olan Uyğur yazısı işlədilmişdir. Sonradan Buddizmin də təsiri ilə Manixeist və Buddist əsərlərin Uyğur dilinə tərcüməsi nəticəsində zəngin bir dini ədəbiyyat yaranmışdır. Bu ədəbi-dini əsərlər Türklərə məxsus heca vəznində yazılmış ilahilər, manixey duaları və ən başlıcası, X əsrdə Uyğur dilinə tərcümə edilən "Altun Yaruk"dur (=Altun İşıq).

Tarixdə Budda adı ilə məşhur olan Siddhartha Qautama və ya Şakya Muniyə tərəfindən yaradılan Buddizm dünyada ən geniş yayılmış dinlərdən biri hesab edilir. Eradan əvvəl VI-V əsrlərdə Hindistanda yaranmış Buddizm Hindistanda Brahmanizm və Hinduizmlə, Çində Daosizmlə, Yaponiyada

Sintoizmlə, Tibetdə isə yerli dinlərlə qovuşaraq müxtəlif cərəyanların mənbəyi olmuşdur.

Buddizmə görə İnsan həyatı şər və əzablardan ibarətdir. Əzab və şəri isə İnsanın arzu və ehtirasları doğurur. Son məqsəd bütün arzu və ehtiraslardan imtina edib Ruhun nicatına nail olmaqdır. Bu isə mütləq sakitlik şəraitində hər cür ehtirasa, xudpəsəndliyə laqeydliklə, dünya nemətlərinə biganəliklə əldə edilə bilər.

Buddizmin dini-fəlsəfi məzmununu əsasən şeylərin təbiəti və onların dərk olunması haqda dini təlim təşkil edir. Bu təlimə görə maddi aləmə məxsus şeylər və psixi hadisələr, daim hərəkətdə, yanıb-sönməkdə olan xırda hissəciklərdən-dharmalardan ibarətdir. Bu dini təlimə görə varlığın əsası dərk edilməz **RUH**, ilahi vücuddur. Maddi aləm – Təbiət isə İlahi Vücudun təzahürüdür.

Buddizmə görə üç dünya mövcuddur:

1. İnsan, heyvan və Ruhlara məxsus bu yaşadığımız dünya;
2. Tanrının məskən saldığı Səma səltənəti;
3. Buddanın yaşadığı mütləq boşluqlar dünyası.

İnsanın son məqsədi özünü üçüncü dünyaya – Budda aləminə hazırlamaqdır.

Tarixən Türklər Buddizm və Manixeist dini mədəniyyətinin də ən ünlü təmsilçilərindən olmuşlar.

Eradan əvvəl altıncı əsrdə Çin mütəfəkkiri Konfusi tərəfindən yaradılmış və iki min ildən artıq bir dövr ərzində Çinin ictimai, siyasi və mənəvi həyatında mühüm rol oynamış, etik, siyasi, fəlsəfi və ideoloci bir dini təlim olan Konfusizm və ya Konfusiçilik də bu və ya digər dərəcədə Türk dini həyatına daxil olmuş, Türk dini dünyagörüşü ilə qaynayıb-qarışaraq Türklüyə xidmət etmişdir.

Bu dini – fəlsəfi dünyagörüşün əsas prinsipi **insanpərvərlikdir .** Bu təlimə görə İnsan taleyini Səma – Göy müəyyənləşdirdiyindən insanların "nəciblərə" və "miskinlərə" bölünməsi dəyişilə bilməz. Ona görə də "nəcib" insanlar "miskinlərə" nümunə olmalıdırlar.

Konfusi (Kunq Fu-tzu) əxlaqının ana xəttini yaxşılıq, doğruluq, ədəblilik, ağıllılıq və inam təşkil edir.

Bu təlimə görə həyat, ölüm, rifah və şərəf kimi ərdəmlərin hamısı Göydən gəlir. Bu dini təlimin bir inanc sistemi və dini təşkilatı olmayıb. Lakin bu dini təlim iki min ildən artıq bir müddətdə Çinin dövlət dini olmuşdur.

Türklər tarixən bu dini təlimi dövlət səviyyəsinə qaldırmasalar da onun beş əsas ana xəttinə – yaxşılığa, doğruluğa, ədəbliliyə, ağıllılığa və inama, həmçinin, atalar kultuna daim əməl etmişlər.

**"Zərdüştü düşün ! Fəlsəfəsi, eşqi, dühası**
**Həp Atəşə tapdırmaq idi zümreyi – nası"**
***(H.Cavid)***

Türklərin Göy Tanrı dinindən sonra bəşəriyyətə bəxş etdiyi ən böyük və mükəmməl dinlərdən biri də ATƏŞPƏRƏSTLİKdir.

Atəşpərəstlik dünyanın ən qədim təkinanclı dinlərindən sayılır. Atəşpərəstlik, adından da göründüyü kimi, "Oda pərəstiş", Oda ilahi qüvvə kimi səcdə etmək deməkdir.

Oda pərəstiş ibtidai cəmiyyətlərdə dünyanın bir çox xalqları arasında yayılmışdı. Fəqət Oda pərəstlik ilk dəfə Türk muğlar tərəfindən Ali Tanrı Hürmüzə inamla monoteist səciyyə daşımışdır. Eradan əvvəl II-I minillikdə yaşadığı güman edilən Türk Azərdüşt Peyğəmbər tərəfindən yaradılan və bəzən tarixi mənbələrdə Azərdüştlük kimi qeyd edilən bu din bəşər tarixinin ilk monoteist dini sayılır.

Türkləri "dinləri, kitabları, Peyğəmbərləri olmayan" bir xalq adlandıranlar bilməlidirlər ki, Türklərin Göy Tanrı, Şamançılıq və Atəşpərəstlik kimi dinləri, "Avesta" kimi kutsal kitabı, Nuh, Yafəs, Türk, Xızır, İlyas, Azər və Azərdüşt (Zərdüşt) kimi Peyğəmbərləri olmuşdur.

Dünyanın qədim mədəniyyətinin yaradıcılarından sayılan Misirlilər Fironlar və kahinlər dövrünü yaşayanda Türklərin artıq Azərdüşt (Zərdüşt) kimi Peyğəmbəri, Atəşpərəstlik kimi dini, "Avesta" kimi mükəmməl dini kitabı var idi.

Mütəxəssislər dini fəlsəfənin yaradılmasını məhz Atəşpərəstliklə bağlayırlar. Deməli, Türklər həm də dini fəlsəfənin yaradıcılarıdırlar.

Sonralar Türklərin yaratdığı bu pak dinə parslar öz çirkin adət-ənənələrini də qataraq ilkin "Avesta"nı yandırdılar və özlərinə uyğun ikiallahlı bir din yaratdılar. Tarixdə məşhur on iki min camış dərisinə yazılmış qədim "Avesta"nı yandıran və mixi yazısını Manna, Elam və Midyalılardan mənimsəyən parslar sonradan özlərinin etnik və siyasi maraqlarını əks etdirən yeni bir «Avesta» tərtib etdilər ki, həmin pars «Avesta»sı da Makedoniyalı İskəndər tərəfindən yandırıldı. Öz tarixi vandalizmlərini ört-basdır etmək üçün bu tarixi hadisəni tarixdən tarixə ötürərək bütünlüklə Makedoniyalı İskəndərin adına yazdılar. Parslar tərəfindən yenidən yaradılan və günümüzə qədər gəlib çatan "Zəndi – Avesta" isə zaman - zaman parslaşdırılaraq saxtalaşdırılmışdır. Bu parslaşdırılmış şovinist "Zəndi – Avesta" da Turanlılar parsların əbədi düşməni kimi qeyd edilmiş, "Avesta"nın ilkin yaradıcıları olan Türk maqlar isə irandilli kimi qələmə verilmişdir.

Tarixi saxtalaşdırmaqda və Herodotun dəfələrlə qeyd etdiyi kimi "özgə xalqların adətlərini qəbul etməkdə usta" olan parslar özlərini qədim Türk Midyalıların mədəniyyətinin varisinə çevirdilər. Ön Turanlıların bütün mədəni, maddi və mənəvi dəyərlərini mənimsəyib özəlləşdirən bu saxtakar şovinist parslar hətta onların dini dünyagörüşlərinə də sahib çıxdılar. Parslar Türk ön Turanlı olan Midyalılardan "ariliyi" mənimsəyib məzmununu dəyişdirdiyi kimi, onların Atəşpərəstlik dinini, müqəddəs kitabları olan "Avesta"sını və hətta Azərdüşt (Zərdüşt) Peyğəmbərlərini də özününküləşdirdi. Parslar bütün bunlarla da kifayətlənməyib Assurları təqlid edərək Türklərin Ali Tanrısı Hörmüzü (Ahuramazda) – Xeyir Tanrısını insan şəklində təsvir etdi və Şahı da onun Yer üzərindəki təmsilçisi elan etdi. Şaha Tanrı səlahiyyətləri verən və hətta Tanrının adını belə mənimsəyən (bax: Hörmüz – 579-590) bu pars hörmüzçülüyü hakimiyyətləri altında olan bütün xalqları Şahın «bəndəsi və qulu» elan etdi və imperatorluğun bütün xalqlarını şaha Tanrı gözü ilə baxmağa, ona səcdə

etməyə, onun verdiyi bütün əmr və fərmanları bir kölə kimi yerinə yetirməyə mükəlləf etdirdi.

Parslar tərəfindən Atəşpərəstlik dini təərrüzə uğradılaraq Tanrıya Ona yaraşmayan yeni bir keyfiyyət – Şər başlanğıcı verilərək bu monoteist dini daha çox dualizmə yaxınlaşdırdı. Parslar tərəfindən "Avesta"nın dəyişdirilmiş şəkildə bu gün əldə olan mətnində ifrat dualizm hakimdir. Bu gün əldə olan "Avesta"ya, daha doğrusu, "Zəndi – Avesta"ya görə dünyada həm maddi, həm də ruhi olan hər şey xeyir və şər başlanğıca malik olmaqla iki qismə ayrılır. Hörmüz xeyirxahlığın, Əhrimən isə şər başlanğıcın ifadəsi və rəmzidir. Əslində Tanrı şər başlanğıc ola bilməz. Tanrını şərləşdirmək pars təxəyyülünə xas cəhətdir. Dünyaya və İnsan cəmiyyətinə xas olan bu iki əzəli başlanğıcın – Xeyirlə Şərin, Həqiqətlə Yalanın mübarizəsinin dinə və qarşılıqlı olaraq Tanrıya heç bir aidiyyətı yoxdur. Xeyrin Şərə, Həqiqətin Yalana və ya əksinə - Şərin Xeyrə, Yalanın Həqiqətə qalib gəlməsi əslində dünya proseslərinin məzmununu təşkil edir ki, bu mübarizədə Tanrının yox, İnsanın rolu fəaldır. Əsas diqqət real aləmə verildiyindən İnsan Xeyirlə Şər arasındakı mübarizədə sərbəst olaraq istədiyi tərəfi təmsil edə bilər. Məhz İnsan Xeyrin Şər, Həqiqətin Yalan üzərindəki qələbəsi üçün fəal səy göstərməlidir. Bu mübarizədə İnsanın başlıca silahı xeyirxah fikir, xeyirxah söz və xeyirxah əməldir.

Bütün bu sadalanan dinlərdən başqa, Türklərin tarixən işlətmədikləri digər politeist dinlər də vardır ki, bunların ən başlıcaları haqqında da qısa məlumat verməyi gərəkli sayırıq.

Bu çoxallahlı dinlərdən biri Totemizmdir. Doğrudur, qədim Türklərdə müəyyən totemlərə inam olmuşdur. Fəqət, bu, başqa xalqlarda olduğu kimi din şəklini almamışdır. Belə ki, qədim Türklərdə daha çox "Bozqurd", daha sonra Oğuz Türklərində "Qartal", "Bayquş" və s. kimi onqonlar olmuşdur. Bu adı çəkilən və ya çəkilməyən heyvan və quşlara sayğı göstərmək heç də onları ilahiləşdirmək demək deyildir. Çünki totemçilik hər hansı bir heyvanı və ya quşu sadəcə ata kimi tanımaqdan ibarət deyildir. Bir inanc sistemi olmaq üçün onun

bütün ictimai və hüquqi sahələri də vardır ki, dini sistemin mövcudluğu üçün bu şərtlərin hamısının olması vacibdir.

Əslində Totemizm müəyyən İnsan qrupu ilə heyvan və ya bitkilərin qohumluq əlaqəsinə inamdır. Totemizmin Şimali Amerika hindularının dilində hərfi mənası "onun nəsli" deməkdir. Ona görə də hər tayfa və ya qəbilə öz toteminin adını daşıyır. Totemi öldürmək və ya yemək qadağandır. Əgər Amerika hindularının Türk əsilli olduğunu qəbul etsək, yalnız o zaman Türklərdə də Totemizmin olduğunu qəbul etməliyik.

Totemizm bir çox dünya xalqları arasında geniş yayıldığından onun qalıqları sonrakı bütün dünya dinlərində qorunub saxlanılmışdır.

Bir klan dini olan Totemçilikdə mülkiyyət ortaqlığı olduğu halda, Türklərdə tarixən xüsusi mülkiyyət böyük rol oynamışdır. Həmçinin Totemçilikdə eyni totemə bağlı olanlar bir–biri ilə qohum sayılır. Halbuki Türklərdə qan qohumluğu əsas şərtdir. Totemizmə inanan xalqlarda hər klanın "ata" hesab etdiyi ayrı-ayrı totemləri vardır. Türklərdə isə bütöv bir qövmün qutlu saydığı bir heyvan və ya quş mövcuddur. Totemçilikdə hətta bir daş parçası, yağış suyu və s. də totem ola bilər. Türklərdə isə belə bir dini inanc yoxdur.

Nəhayət, totemçilikdə Ruhun ölməzliyinə inanılmadığı halda bütün Kainatı belə "Ruhlar Dünyası" kimi qəbul edən qədim Türklərdə dini inancın təməllərindən birini məhz Ruhun əbədiliyi təşkil edir.

Bütün bunlara baxmayaraq, "Bozqurd", "Qartal" və "Bayquş" Türk inancında mühüm yer tutmuş və dünyanın müxtəlif xalqlarında totemləşməsi məhz Türklərin təsiri ilə gerçəkləşmişdir. Xüsusilə, Qartalın Bizans, bir çox Avropa və Slovyan dövlətlərində hakimiyyət rəmzi kimi işlədilməsi məhz Türk gələnəyinin nəticəsidir.

Türklərin mənsub olmadığı digər bir çoxallahlı din Fetişizmdir. Fetişizm maddi əşyaları ilahiləşdirib ona sitayiş etməkdir. Daş, ağac parçası, heyvan bədəninin bir hissəsi və s. kimi fetişləşdirilən əşyalar dünyanın müxtəlif xalqlarında başqa-başqadır.

Dünya dinlərinin bir çoxunda indi də quru cəsədlərə, ikonaya, müqəddəs yerlərə "Qara Daş"a pərəstiş şəklində Fetişizm qalmaqdadır.

Türklərdə tarixən işlədilməyən çoxallahlı dinlərdən biri də Sintoizmdir. Sintoizm təbiət kultuna, nəsil və tayfa tanrıcıqlarına inam və müxtəlif sehrkarlıq adətlərinə əsaslanmaqla Yaponiyada meydana gəlmişdir. "Sinto" yaponca "allahın yolu" deməkdir. Bu dini təlimə görə İnsanın mənşəyi sonsuz sayda Ruhlardan, nüfuzlu allahlardan başlayır. Bu allahlar içərisində Günəş ilahəsi Amaterasu xüsusi yer tutur. Sintoizmin əsas ibadət növü saflaşdırma, qurban kəsmə və ehsan vermə, qısa dua və şərab nəziridir.

Türklərin işlətmədiyi politeist dinlərdən biri də Caynizmdir. Caynizm əslində dini-fəlsəfi təlim olub, eradan əvvəl altıncı əsrdə Hindistanda yaranmışdır.

Caynizmin banisi Vardhamana sayılır. Sonralar ona "Mahavira" (Böyük qəhrəman) və "Cina" (Qalib) adları verilmişdir ki, təlimin adı da "Cina" ilə əlaqədardır. Canlı vücudlar və onlara xas olan mükəmməl və qeyri-mükəmməl varlıqların qəbul edilməsi Caynizmin əsasıdır. Ruhi və cismani ünsürlərin bir-birinə münasibətlərindən asılı olaraq bu mükəmməl və qeyri-mükəmməl varlıqlar özlərinə məxsus pillə yaradırlar. Ən aşağı pillədə qeyri-üzvü şeylər və bitkilər, ən yüksək pillədə isə heyvan, İnsan və Tanrılar dayanır. Bu təlimə görə şeh damlası, İnsan və Tanrı prinsipcə eyni varlıq növlərinin vahid sistemində bir pillədirlər.

Caynizm dini-fəlsəfi təliminə görə qurtuluşun əsas yolu tərki-dünyalıqdır.

Türklərin işlətmədiyi çoxallahlı dinlərdən biri də Veda dinidir. Veda dini dünyagörüşü qədim hind abidələri olan "Vedalar" da öz əksini tapmışdır. Bu çoxallahlı din təbiət qüvvələrini ilahiləşdirmiş, ictimai bərabərsizliyə haqq qazandırmış, hətta İlahə Aditini allahların anası hesab etmişdir. Veda dininin dəyişikliyə uğraması nəticəsində Brahmanizm yaranmışdır.

Türklərin işlətmədiyi Brahmanizm dini də təbiət qüvvələri ilə yanaşı ictimai qüvvələri də ilahiləşdirən və hətta animistik

etiqada da əsaslanan bir dini dünyagörüşüdür. Brahmanizm təlimi "Mahabharata", "Brahmana", "Upanişada" və s. kimi dini kitablarda öz əksini tapmışdır.

Cəmiyyətin və dövlətin təbəqələrə bölünməsini müdafiə edən Brahmanizm eradan əvvəl birinci minilliyin birinci yarısında meydana gəlmiş Buddizmə qarşı mübarizədə və onun təsiri altında eramızın birinci minilliyində Hinduizm şəklinə düşmüşdür.

Hinduizm dini də Türklərdə işlədilməmişdir. Hinduizm əslində islahata məruz qalmış Brahmanizm olub eradan əvvəl VI-IV əsrlərdə Buddizm və Caynizmin yayılmasına qarşı meydana gəlmişdir. Hinduizm yekcins din deyildir. Burada vahid ehkamlar, vahid ayinlər, mütəşəkkil dini ocaqlar yoxdur. Hinduizmdə Brahmanizm ünsürlərindən başqa Veda və digər yerli dinlərin ünsürləri – suya, heyvanlara sitayiş, əcdadların kultlarına inam və hətta mübarizə apardığı Buddizmin də ünsürləri vardır.

Vedaların "Riqveda", "Samaveda", "Yacurveda" və "Atxarvaveda"nın müqqəddəs kitab kimi qəbul edilməsi, sansara təlimi, karma qanununa əsasən – ölümdən sonra Ruhların köçərək müxtəlif canlı varlıqlarda təcəssüm tapması Hinduizm dini – fəlsəfi təsəvvürləri üçün ilahililiyin təzahür etdiyi İnsan Ruhu "atman" və dünya Ruhu "brahman" Təbiətə qarşı duran Ruhi mahiyyətlər təlimi səciyyəvidir. Hinduizmə görə İnsan həyatının məqsədi ilahililiyin təzahür etdiyi İnsan Ruhunu Təbiətdən azad etmək və "brahman"la qovuşdurmaqdır.

Hinduizmin başlıca Tanrısı üç mühüm xüsusiyyətə malikdir: 1. Yaratmaq-Brahma; 2. Qoruyub saxlamaq – Vişnu və 3. Dağıtmaq – Şiva.

Brahmaya, demək olar ki, ibadət olunmur.

Vişnu və Şivaya ibadət etməkdən asılı olaraq Hinduizmdə iki əsas istiqamət – Vişnuizm və Şivaizm yaranmışdır. Vişnuizm daha çox Buddizmə uyğunlaşdığından onun təminatçısı Budda hesab olunur ki, bu dini təlimin Türklərdəki təzahür forması haqqında əvvəlki yazımızda məlumat vermişik.

Dünyadakı din alimlərinin fikrinə görə monoteist, yəni təkallahlı din ilk olaraq eradan əvvəl birinci minilliyin ortalarında Yerusəlimdə Yahvə məbədinin kahinləri tərəfindən yaradılmış və bununla da hər şeyə qadir olan tək Tanrı haqqında baxışlar meydana çıxmışdır.

Dünyada İudaizm, Xristianlıq və İslam monoteist – təkallahlı dinlər hesab edilirlər. Lakin monoteizm anlayışı da nisbidir. Çünki bu dinlərin hər üçündə də ibtidai qəbilə tanrıçalarına – əcdadlara, canlı müqəddəslərə etiqad izləri vardır. Həmçinin bu dinlərin heç biri bütün bəşəriyyəti əhatə edə bilmədiyindən heç bir milli təəssübkeşliyə yol vermədən bir bəşəri Təkallahlı dinə ehtiyac duyulur.

Dilimizdə "Musəvilik", "Yəhudilik" kimi də adlandırılan İudaizm qədim yəhudi qəbilələrinin politeizmindən yaranmış, eradan əvvəl yeddinci əsrdən başlayaraq monoteist din olmuşdur. Vahid Tanrı Yahvəyə, "Tovrat"ın müqəddəs səmavi Kitab olduğuna, axirət və "Qiyamət günü"nə, ölülərin diriləcəyinə, Ruhun varlığına, taleyə inam və Məsihin (Yağlanmış kimsənin) zühur edəcəyinə inam İudaizm və ya Yəhudiliyin əsas etiqad ehkamlarındandır.

Bu din Musa Peyğəmbərin Tanrıdan Sina Dağında aldığı əmrlər toplusudur. Həzrəti Musaya Sina Dağında vəhy edilən "On əmr". Tanrı tərəfindən göndərilən "Tovrat"ın həm "Cıkış" həm də "Təsniyə" bölümlərində yer almışdır. Yəhudilər bu müqəddəs "Kitab"larına "Tanah" və ya "Tora", müsəlmanlar "Tovrat" və ya "Əhdi-ətiq", xristianlar isə "İncil"lə birlikdə "Bibliya" deyirlər. "Tanah" və ya "Tora" yəhudicə «Qanun, təlim» deməkdir.

"Tovrat" "Əhdi-ətiq"ə daxil "Bibliya"nın ilk beş Kitabı olub, üç bölümə ayrılır: 1) Tora (həm "Tovrat"ın bir bölümü, həm də bütünü); 2) Nəbim və 3) Kətubim.

Bu ilk beş Kitab "Varlıq", "Axirət", "Ruhani", "Rəqəm" və "İkinci Qanun"dur.

Musaya Sina Dağında Tanrı tərəfindən vəhy edilən "On Əmr" qısa şəkildə aşağıdakılardır:

1) Səni (yəni Musa Peyğəmbəri) Misir diyarından, əsirlik evindən çıxaran Tanrın Yehova Mənəm. Qarşımda başqa Tanrıların olmayacaqdır.
2) Özün üçün oyma büt yapmayacaqsan.
3) Tanrın Rəbbin adını boş yerə ağzına almayacaqsan.
4) Səbt Gününü (Şənbə gününü) anmaq üçün onu xatirində saxla.
5) Atana və anana sayqı göstər.
6) Öldürməyəcəksən.
7) Zina etməyəcəksən.
8) Oğurlamayacaqsan.
9) Qonşuna qarşı yalançı şahidlik etməyəcəksən.
10) Qonşunun evinə göz dikməyəcəksən.

Yəhudi millətinə gəldiyi üçün Musəviliyə Yəhudilik də deyilir.

Yəhudilər inandıqları tək Tanrıya "Yahvə" və ya "Elohim" deyirlər. Lakin bu adı tələffüz etməz, bunun əvəzinə "Adonay" (Rəbb) sözünü işlədərlər.

Bu dini dünyagörüşə görə Tanrı təkdir, hər şeyin sahibidir, hər yerdə hazırdır, insan təsəvvürünə sığmadığından rəsmi çəkilməz, heykəli yapılmaz. Aləmi var edən, ilk insanı yaradan, millətləri, bütün təbiət hadisələrini idarə edən Odur. Yəhudiləri – İsrail oğullarını Öz xalqı olaraq seçən Odur. O, Yəhudilərin Tanrısıdır. Musaya və digər Peyğəmbərlərə vəhy verən Odur. Tanrı Öz iradəsini insanlara Peyğəmbərləri vasitəsilə bildirir. İnsana da yaxşı işlər görmək üçün azadlıq vermişdir.

Yəhudilər İbrahim Peyğəmbəri böyük bir Peyğəmbər kimi qəbul edirlər. Yəhudi dinində qadın Peyğəmbərlər də vardır. Bunlar Həzrəti Musanın bacısı Məryəm və Deborahdır. Həm hökmdar, həm də Peyğəmbər olan Davud və oğlu Süleymanı da hörmətlə yad edərlər.

Yəhudilərin müqəddəs Kitabı olan «Tovrat»ın qəti redaktəsi və sistemə salınması eradan əvvəl dörd yüz qırx dördüncü ildə dini-siyasi islahatçı Ezra (Üzeyir) tərəfindən başa

çatdırılmışdır. "İkinci Qanun" Kitabı isə eradan əvvəl altı yüz iyirmi ikinci ildə Yudeya çarı Yosiya zamanında yaranmışdır.

Göründüyü kimi Musəviliyin təməlini təşkil edən bu müqəddəs Kitab zaman-zaman əlavə və dəyişikliklərə uğramışdır. Bütün bunların nəticəsidir ki, səmavi din olan Musəvilik siyasiləşmişdir. Yəhudi irqinin bütün dünya xalqlarının ağası olduğuna inanan yəhudilər dinlərinə də bəşərilik yox, milli bir keyfiyyət qazandırmışlar. Hətta onların inamına görə Yəhudi irqindən olmayan bir kimsənin bu dinə girməsi də yasaqlanmışdır.

Yəhudilər Şhavra və ya Sinaqoq adını verdikləri yerdə ibadət edərlər. Onlar din adamlarını "xaxam" adlandırırlar.

Əsrlər boyu dəyişikliklərə uğrayıb siyasi anlam kəsb edərək səmaviliyini itirən "Tovrat"da Yəhudilərin Tanrı tərəfindən "üstün" yaradılması fikri zaman – zaman Yəhudilər tərəfindən yanlış təfsir edilmişdir. Belə ki, əslində bu üstünlük o anda Yəhudilər içərisindən çıxmış Peyğəmbərlərin çoxluğu ilə bağlı üstünlükdür. Və bu üstünlük həm də Yəhudilərin Tanrı tərəfindən sorumluluğunu daha da artırmalıydı. Əksinə Yəhudilər bu sorumluluğu unudub öz milli və irqi "üstünlüklərini" qabartdılar və səmavi bir dini milli dinə çevirərək millətlər arasında və bununla də tarixi bir kibrə saplanıb qaldılar. Əslində isə bütün səmavi Kitablarda "üstünlük" millətlərin və xalqların bir – birindən üstünlüyü deyil, yalnız Tanrı hökmlərinə əməl edib – etməyənlərə aiddir.

Yəhudilərin Tanrı sözlərini "bilə – bilə dəyişdirdiklərini və təhrif etdiklərini" (Bəqərə, 75), "Tanrı dərgahından olmayan bir Kitabı bilə – bilə oxuduqları"nı (Ali İmran, 78) və bununla da "Tanrının qəzəbinə uğradı"qlarını (Bəqərə, 61) Qurani Kərim dönə-dönə qeyd etmiş, ayrı-ayrı qaynaqlar və din alimləri də bu fikirləri dəstəkləmişlər. Yəhudilərin bu tarixi "kəşfi" irqçiliyin əsasını qoymuş və bu irqçilik nəzəriyyəsindən ən çox əzab çəkən də elə Yəhudilərin özləri olmuşdur. Belə ki, Babillilər, Asurlar, Perslər, Yunanlar, Romalılar və nəhayət, faşistlər tərəfindən təərrüzə məruz qalan Yəhudilər Tanrı qəzəbinə düçar olaraq dünyanın hər yanına səpələndilər və Tapınaqlarını, dövlətlərini itirərək yalnız iki min ildən sonra,

daha doğrusu, 1948-ci ildə özlərinin İsrail dövlətini qura bildilər.

Dövlətlərini itirdikdən sonra tarixən dünyanın müxtəlif yerlərinə səpələnən Yəhudilər yaşadıqları ölkələrdə bütün güclərini, istedad və bacarıqlarını zənginləşdirməyə, iqtisadi "hakimiyyət" qurmağa sərf etmişlər. Fəqət var-dövlətləri əllərindən alınınca gizli "iqtisadi hakimiyyətləri" də ortadan qalxmış, özləri də səfalətə sürüklənmişlər. Çünki zənginlik düşmənçilik istehsal edən ən başlıca səbəbdir. Təbiidir ki, iqtisadi hakimiyyətin arxasında hərbi güc və siyasi hakimiyyət olmayanda o, daim iflasa uğrayar. Adətən, iqtisadi hakimiyyət texnologiyaya güvənərək mədəniyyət tarixinə öz damğasını müvəqqəti vursa da, sonda köləlik yaradır və onu yaradanın içini boşaldır, əslində onu «mədəni kölə» edir.

Yəhudilərin dinlərindən gələn bu irqçi «üstünlük» iddiaları və onların zənginlik simvolu sayılan Həzrəti Süleymandan sonra min illər boyu davam edən zənginləşmə ehtirası əsrlərcə onları siyasi hakimiyyətdən və qarşılıqlı olaraq dövlət və mədəniyyətdən məhrum etmişdir. Ona görə də Türklərdən fərqli olaraq Yəhudilərin siyasi və mədəni tarix kitablarında adları anılmır.

Əgər bu gün dünyada siyasi və mədəni tarix əvəzinə əhatəli bir "Ticarət tarixi" yazılarsa, onların imperatorluqlar, dövlətlər, cümhuriyyətlər quran, tarixin heç bir dönəmində siyasi hakimiyyətdən məhrum olmayan tanrısal gücə malik Türklərin əvəzinə baş rol Yəhudilərə verilər.

Saxtalaşdırılmış "Tovrat"da Yəhudilərin "üstünlüyü"nü və guya Tanrı tərəfindən "seçkin millət" olduğunu təlqin edən Yer üzündə olan bütün qövmlərdən üstün olaraq İsrail oğullarını» seçdiyini və onların "Allahın qövmü" olduğunu və ən əcaibi – Musa Kəlimullahın dilindən: "Məhz indii bildim ki, bitün dünyada Allah yoxdur. O ancaq İsraildə vardır" kimi "Tövrat"ın özünə də zidd fikir və ifadələr vardır.

Bu saxtalaşdırılmış "Tövrat"da həmçinin Yəhudiləri başqa xalqlara qarşı qoyan "… onlarla anlaşma yapmayacaq və onlara mərhəmət göstərməyəcəksiniz. Onlarla evlənməyəcək, qızınızı onların oğluna verməyəcək, onların qızını də oğlunuza

almayacaqsınız… Onları öldürəcək və bütünlüklə yox edəcəksiniz… Onlara mərhəmət göstərməyəcəksiniz” – kimi fikirlər vardır.

Ezra (Üzeyir) tərəfindən “Tövrat”a edilən dəyişikliklərdən biri də faiz və ya sələmdir. Belə ki, bu məsələdə də Yəhudilər başqalarından fərqləndirilir. Saxta “Tövrat”da açıq şəkildə göstərilir ki, “Para faizi olsun, ərzaq faizi olsun, yaxud da borc verilən hər şeyin faizi olsun, faizlə qardaşına borc verməyəcəksən. Yabançıya faizlə borc verə bilərsən, fəqət qardaşına faizlə borc verməyəcəksən”.

Bütün bu irqçi təfəkkürə söykənən, hətta Tanrını belə özəlləşdirən saxta «Tövrat»ın müddəaları ən ağır zərbəni elə Yəhudilərin özlərinə vurmuş, onları min illərlə yurd-yuvalarından didərgin salmış, “özgələrə qazdıqları quyuya özləri düşmüşlər”. Onlar hətta belə bir fikir də irəli sürmüşlər ki, “Əgər Tanrı istəsəydi başqalarını da Yəhudi yaradardı”.

Bütün bu qadağalara baxmayaraq dünyada mövcud olan bütün xalqlara, onların dinlərinə və mədəniyyətlərinə yaradıcı yanaşan Türklər tarixin müəyyən dönəmində Musəviliyi də qəbul etmiş və tarixdə məşhur Xəzər Türk İmperatorluğunu qurmuşlar.

Xəzər Türklərinin müstəqil bir siyasi varlıq kimi tarix səhnəsinə çıxmaları eramızın altıncı əsrinə təsadüf edir. Az zaman içərisində İmperatorluğun ərazisinə daxil etdikləri geosiyasi baxımdan çox mühüm əhəmiyyətə malik ərazilərdə böyük ticarət mərkəzləri – şəhərlər salmışlar. VII-IX əsrlərdə Xəzər Türklərinin hakimiyyəti daha da genişlənərək Şərqi Avropanın ən böyük İmperatorluğu səviyyəsinə yüksəlmişdir. Heç təsadüfi deyildir ki, ilk adı türkcə Sambat olan Kiyev şəhəri Xəzər Türklərinin ticarət mərkəzlərindən biri idi. Sonrakı Kiyev Rus dövlətinin yaranmasında Xəzər Türklərinin mühüm rolu olmuşdur.

988 – ci ildə xristianlığı qəbul edən ilk Rus Knyazı Vladimir Monomarx Xəzər Xaqanlarını təqlid edərək özünü “Xaqan” adlandırmışdır.

İlk öncə Xəzər dövləti, daha sonralar isə Xəzər Xaqanlığı (İmperatorluğu) adlanan Türk dövlətinin başında Xaqan

durурdu. Musəviliyi Yəhudi qəlbindən çıxarıb Türk törə və adətləri ilə bəzəyən Xəzər Türkləri "hər kəs öz inamına görə Tanrıya ulaşa bilər" fikrini əsas tutaraq tam bir vicdan hürriyəti meydana gətirmiş, dövrü üçün "modern" bir cəmiyyət qurmuşdular. Bunun nəticəsi idi ki, İmperatorluğun ərazisində dörd-beş din yan-yana sərbəst şəkildə yaşaya bilmişdir. Xəzər Türk Xaqanlığı iqtisadi cəhətdən yüksəldikcə İmperatorluğun müdafiəsi üçün müxtəlif ölkələrdən gətirilən və çoxu müsəlman olan "muzdlu" əsgərlərdən ibarət ordu təşkil etmişdilər. İlk zamanlar bunların faydası olsa da, iqtisadiyyat zəiflədikcə Xəzər Türkləri yeni bir Türk boyunun tarix səhnəsinə çıxması ilə IX əsrin sonlarından zəifləməyə başladı və nəhayət X əsrin sonunda Peçeneklərin, Rus və slavların hücumları nəticəsində tamamilə sarsıldı. Dövlət tarix səhnəsindən silinsə də, onun təmsilçisi olan xalq bu gün də yaşamaqda, böyük bir qismi İslam dinini qəbul etsə də, az bir qismi bu gün də Azərbaycanda Türk, müsəlman adları ilə Yəhudi dinini yaşatmaqdadırlar. Bu gün "Quba cuhudları" və Yəhudi icması sayılan bu xalq etnos olaraq Xəzər Türklərinin təmsilçiləridirlər. Onların bütün adət-ənənələrinə sayqı göstərmək, dini inanclarına hörmət etmək hər bir Azərbaycan vətəndaşının şərəf, vicdan və ləyaqət borcudur.

Ən qədim Türk boylarından olan Karaimlər də Yəhudi dininin bir məzhəbinə inanırlar. Bü gün Karaimlərin bir qismi Krımda, digər bir qismi isə Ukrayna, Polşa, Litva və İsraildə yaşamaqdadırlar. II Dünya Savaşında faşistlər tərəfindən Yəhudi kimi məhvə məruz qalmışlar. Dünyadakı sayları cəmi altı minə yaxındır.

Kırımçaqlar da yəhudi dininə inanan Türk soylarındandırlar. Dünyada cəmi iki minə yaxın Kırımçaq vardır.

Türklərin tarixən işlətdiyi dinlərdən biri də Xristianlıqdır. Xristianlıq İsa Məsih tərəfindən eramızın birinci əsrində yaradılmış dünyəvi dinlərdən biridir. Bu dinin yaradıcısı İsa Məsih də yəhudi idi. İsa Məsih Fələstində Nəsirə (Nəzarət) adlı qəsəbədə dünyaya gəlmiş, 33 yaşında yəhudi din adamlarının fitfası ilə Romalı vali Pilat tərəfindən Deytun dağında

həvarilərindən birinin xəyanəti ilə tutulmuş və edama məhkum edilmişdir. Onun çarmıxa çəkilərək öldürülməsi və üç gün sonra dirilərək həvarilərin yanına gəlməsi, onlarla qırx gün bir yerdə olması, hətta bəzi xristianların Onu görməsi, daha sonra isə göyə yüksələrək, "qiyamət günü"nə yaxın yenidən qayıdacağı müqəddəs Kitab "İncil"də qeyd edilməkdədir. İslam inancına görə isə çarmıxa çəkilən İsa Məsih deyil. Onu ələ verən həvarisidir.

Xristian ifadəsi ilk öncə eramızın qırx – əllinci illərində Roma İmperatorluğunun ən mühüm üç şəhərindən biri olan Antakyada işlənməyə başlamışdır. Bu da onu göstərir ki, Xristianlıq da Buddizm kimi yarandığı ölkədə deyil, başqa ölkələrdə daha çox yayılan dinlərdəndir.

Xristianlıqda bütün ilahi dinlərdə xüsusi anlam daşıyan Tanrı, vəhy, Müqəddəs Kitab, Peyğəmbər, axirət, mələk, şeytan və s. haqqında bilgilər vardır. Xristianlıq İsus Xristosun bakirə Məryəmdən – Ruh vasitəsilə dünyaya gəldiyindən Onu Allahın Oğlu kimi qəbul etməyi təlqin edir. "İsus Xristos" yunanca "Allahdan xeyir-dua almış İsa" deməkdir.

Bu din İsa Məsihin günahları bağışlama missiyası, "qiyamət qopacağı", İsanın "Qiyamət günü"ndə zühur edəcəyi, Tanrının əvəz verəcəyi və ilahi quruluş yaradacağı, Ata Allah, Oğul Allah və Müqəddəs Ruha inam kimi inanclar üzərində qurulmuşdur.

İsa Məsihin zamanında çox az tərəfdarı olan Xristianlığı daha sonra Onun həvariləri yaymışlar. Bu işdə ilk öncə Xristianlığın amansız düşməni olan, daha sonra isə həvarilərə qoşulan Pavelin çox böyük rolu olmuşdur. Bugünki Xristianlıq onun yozumlarına əsaslanır.

Xristianlıq ehkamları və ibadətinin əsasında "Bibliya" - yaxud Müqəddəs Kitab durur. "Bibliya" sözünün hərfi mənası "Kitab" deməkdir. Xristian kilsəsi buraya otuz doqquz kitabdan ibarət «Əhdi-ətiq» də daxil etmiş və beləliklə, "Bibliya" "Əhdi-ətiq" və iyirmi yeddi kitabdan ibarət "Əhdi-Cədid"dən meydana gəlmişdir.

Tanrının İsa Məsihə göndərdiyi Müqəddəs Kitab "İncil" adlanır. İncil dörd Mücdə, Həvarilərin işləri, iyirmi bir Məktub

və Vəhydən ibarətdir. Bu Müqəddəs Kitab da, "Tövrat" kimi, bir çox dəyişikliklərə uğramışdır. Bu din ətrafa yayıldıqca getdiyi yerlərdəki inanc, fikir və cərəyanlardan da bəhrələnmişdir. Bu dini təlimin formalaşmasında Şərq dini təfəkkürünün və yunan – Roma fəlsəfəsinin və hətta Türk və hind dinlərinin də böyük rolu olmuşdur. "İncil" bir neçə əsr ərzində formalaşmış və sonda Bizans İmperatoru Konstantinin əmri ilə 325- ci ildə İznikdə Böyük Kilsə Məclisi toplanmış və «İncil» lərin sayı dördə endirilmişdir. Bunlar "Mattanın Mücdəsi", "Markosun Mücdəsi", "Lukanın Mücdəsi" və "Yuhannanın Mücdəsi" olub, bu və ya digər dərəcədə bir-birindən fərqlənirlər. Xristianlığın bü Müqəddəs Kitabında Mücdələrlə yanaşı, Həvarilərin işləri, Yəqub və Həvari Pavelin məktublarında da İsa Məsihdən sonra meydana gələn hadisələrə yer verildiyindən "İncil" sanki səmaviliyini itirmiş, Tanrı kəlamı olmaqdan sıyrılmışdır. Bu həqiqətləri açıq-aydın hiss edən və digər həvarilərdən fərqli olaraq geniş biliyə sahib, savadlı Pavel bütün bunları məhz Allahın insanlar vasitəsilə verdiyi məsləhətlər kimi qiymətləndirir və: "Göyü, Yeri və içindəki hər şeyi yaradan Hökmdar Allah… Sən Müqəddəs Ruh vasitəsilə qulun atamız Davudun ağzı ilə danışdın" kimi ayələri "İncil"ə etkiləyir.

Beləliklə, eramızın birinci minilliyi Müqəddəs Kitab, inanc və dini mərasim məsələlərinə çözüm aramaqla keçmiş, Şərq və Qərb xristianlığı arasındakı mübahisələr nəhayət, XI əsrdə qəti bir ayrılma ilə nəticələnmişdir. Qərb Kilsəsi Katolik, Şərq Kilsəsi isə Ortodoks adlandı. XVI əsrdə Roma kilsəsi içində bir Protestant hərəkatı baş qaldırdı. Bu, Şərq-Qərb parçalanmasında olan dini parçalanma ilə yanaşı, həm də siyasi bir parçalanma oldu. Roma kilsəsi artıq başqalarına basqı yapmaqla yanaşı, digərlərindən vergi almağa başladı və ən başlıcası, "İncil"in başqa dillərə tərcümə edilməsini yasaqladı. Bütün bunlar isə Xristian dinində bir çox dəyişik məzhəblərin ortaya çıxmasına zəmin yaratdı və Xristianlıq Katolik, Pravoslav və Protestantlıq kimi üç böyük məzhəbə ayrıldı.

Xristian dini Tanrını üçləşdirən "Ata Allah, Oğul Allah və Müqəddəs Ruh" inancına dayanır. Bu üçləşmədə hətta iş

bölümü də müəyyənləşdirilmişdir. Belə ki, Ata Allah yaradır, Oğul Allah qurtarır, Müqəddəs Ruh isə yaranışa həyat və qayda gətirir. Başqa sözlə, Xristian dini təliminə görə Ata Allah yaradır, qurtuluş işini yerinə yetirmək üçün Oğlunu göndərir, Oğul isə Məsihin yerinə yetirdiyi işi insanlara çatdırmaq və buna inam gətirmək üçün Müqəddəs Ruhu göndərir. Xristian doktrinası bundan ibarətdir ki, Allah Öz varlığı etibarilə təkdir. Fəqət bu "İlahi varlıq" üç növ və üç formada təzahür edir ki, onların də hər biri Şəxsiyyət təşkil edir və "İlahi varlıq" bütün tamlığı ilə bu üç Şəxsiyyətin hər birinin daxilində olur. Başqa sözlə, Tanrı tək Varlıqdır, lakin O, üç Şəxsdə mövcuddur. Ona görə də Xristianlar dua edərkən və cocuqları "xaç suyu"na çəkərkən: "Ataya, Oğula və Müqəddəs Ruha həmd olsun" deyirlər və bununla da üç ayrı-ayrı Varlığa tapınmış olurlar.

Xristianlığın hər üç məzhəbində "Xaç suyu" və "Çörək-Şərab ayini" yeganə birləşdirici amildir. Belə ki, Katoliklər və Pravoslavlar yeddi ayini qəbul və icra etdikləri halda Protestantlar yalnız "Xaç suyu" və "Çörək – şərab ayini"ni icra edirlər.

Xristianlıqdakı bu yeddi ayin aşağıdakılardır:

1) Xaç suyu – Dualı su ilə Müqəddəs Ruhdan inayət alma;
2) Çörək – Şərab ayini – İsa Məsihin həvariləriylə son axşam yeməyinin xatırlanması.
3) Müqəddəs Ruhun köməyini yağlama ilə möhkəmlətmək.
4) Tövbə.
5) Son yağlama – Təqdis edilən yağın xəstəyə sürtülməsi.
6) Yerarxiya – Müqəddəs Rahib silsiləsi.
7) Nigah – Boşanmamaq.

Bütün bu mərasimlər yalnız papazın (keşişin) nəzarəti ilə yerinə yetirilməlidir.

Xristianlığın ibadət yeri Kilsə, din xadimləri papaz və rahib (rahibə)lərdir.

İslam dini İsa Məsihi Peyğəmbər, "İncil"i də Müqəddəs Kitab hesab edir.

Tanrını üçləşdirmə inancının Türk dini dünyagörüşünə yad olmasına baxmayaraq, IV əsrin əvvələrində Roma İmperatoru Konstantinin fərmanı ilə Xristianların təqibinin

dayandırılması və bütün məzhəblərə sərbəstlik verilməsi ilə əlaqədar, Azərbaycan və Albaniyada Xristian missionerlərinin təbliğatı nəticəsində Xristianlıq az da olsa yayılmağa başlayır. İki yüz illik təbliğatın nəticəsidə, nəhayət, VI əsrin əvvələrində Albaniyada III Bacaqanın dövründə Xristianlığın monofizit etiqadı qəbul edilir. Bu «bir mahiyyətli» xristian dini təlimi 499-cu ildə Efes məclisi tərəfindən təsdiq edilmişdi. Bu təlimə görə Xristos ilahi və insani mahiyyətə yox, yalnız ilahi mahiyyətə malikdir. Bütün bunlarla yanaşı alban xristianlarının bir qismi də Bizans hakimiyyətini tanıyır və diofizit etiqadına meyl göstərirdilər. Dövrün siyasi şəraitinin Albanyada xristian dininin təbliğinə imkan verdiyindən bir çox kilsələr tikildi və VI əsrin ortalarında Bərdə şəhəri xristian dini mərkəzinə çevrildi. VIII əsrin əvvələrində isə Bizans İmperatoru İraklinin Albanyaya yürüşü ilə əlaqədar olaraq dini mərkəz Bərdədən Arsaxa köçürülür. Bu dövrlərdə Albanya ərazisində tikilən bütün kilsələr məhz Azərbaycan Türklərinə aid maddi mədəniyyət nümunələridir.

Azərbaycan xristianlığı isə daha çox nestorian təriqətinə əsaslanır. Xristianlığın bu təriqəti din xadimi Nestorun adı ilə bağlıdır. Bu dini təlimə görə Xristos insan olmuş, sonra Müqəddəs Ruh tərəfindən Məsihə çevrilmiş və Tanrı Onun simasında cəmləşmişdir. Bu təriqət də deofizit provaslav etiqadına əsaslanır və Xristosu “Allahın Oğlu və İsus” adı altında insan hesab edir.

Azərbaycanda xristianlıq hələ eramızın birinci əsrindən Yerusəlim xristian mərkəzinə bağlı olan apostol Faddey tərəfindən təbliğ olunmuş, o, şəhid edildikdən sonra şagirdi Yelisa bu işi davam etdirir. Bu məqsədlə o, təbliğatını davam etdirərək Dərbənd yaxınlığındakı Colla (indiki Cullu), İti vilayəti və nəhayət, Kür çayının sol sahilində Qəbələ yaxınlığındakı Qıs (indiki Kiş) kəndinə gəlir və burada kilsə tikdirir. Geri qayıdarkən atəşpərəstlərin ibadətgahı olan Zerqun dərəsində şəhid edilir. Onun Kiş kəndində tikdirdiyi kilsə o dövrdə «Şərq kilsələrinin anası» hesab edilirdi.

Azərbaycan xristian dini mərkəzi Artaz (Maku) sayılardı.

Xristian dini Albanya və Azərbaycan ərazisində əsasən yunan, yəhudi və ərəb dilində təbliğ edildiyindən yerli əhali daha çox tərcüməçilərin köməyindən istifadə edirdi.

Qədim alban, qrobar, kartli əlifbalarının yaradıcısı sayılan Mesrop Mastos və şagirdləri Yerusəlimdən xeyir-dua alaraq Albanyaya gəlir və Yuxarı Qarabağda məskən salırlar. Lakin Türk hunların Albanyaya gəlişi onların bu fəaliyyətini dayandırır. Göy Tanrı inancına sahib olan Türk hunlar üç Tanrılı bir dünyagörüşü qəbul etmədiklərindən bu dinin təbliğatçılarını ölümə məhkum edirlər.

Xristianlığın Azərbaycan türklərinin mənəvi dünyasına tam təsir edə bilməməsi, nəticədə, yaratdığı bütün xristian maddi mədəniyyət nümunələrindən imtinaya gətirib çıxardı. Bundan maksimum yararlanan xristian qonşularımız səkkiz yüz ildə zərrə-zərrə yaratdığımız maddi mədəniyyət abidələrimizə sahib çıxdı, onları özününküləşdirərək, dünyaya öz mədəniyyətləri kimi təqdim etməyə başladı. Və bununla da biz Türkləri bu ərazilərə gəlmə, özlərini isə yerli xalq kimi göstərməklə öz çirkin əməllərini separatçılıqla həyata keçirməyə nail oldular.

Şükürlər olsun ki, Azərbaycan Türkləri yalnız maddi mədəniyyət abidələrini itirməklə yetindilər. Digər Türklər nəinki maddi mədəniyyət nümunələrini, hətta özlərini belə itirib çinliləşdi, slavyanlaşdı, avropalaşdı, ərəbləşdi. Bunlara misal olaraq, Buddizmin təsiri ilə çinliləşən Tabqaçları, Xristianlığın təsiri ilə slavyanlaşan Bolqarları, Peçeneqləri, Kumanları, bütün Türk mədəniyyətindən uzaqlaşan Macarları, İslam dininin təsiri ilə ərəbləşən Tuluniləri, İxşidiləri, İudizmin təsiri ilə yəhudiləşən «Quba cuhudlar»ını, Karaimləri və Krumçaqları göstərmək olar.

Bunlardan əlavə öz Türklüklərini itirməsələr də, xristian olan Çuvaşlar, Qadauzlar və başqa Türk xalqları mövcuddur.

Bütün bu deyilənlər onu sübut edir ki, özgələşmək özünü itirmək deməkdir. Mövzunu bir hindu qəbilə başçısının sözləri ilə tamamlayıram. O deyir: “Başlangıcda xristianlığın İsası var idi, bizim isə altunlarımız. Sonda qızıllar onların, İsa da bizim oldu”.

Türklərin Göy Tanrı və Şamanizmlə yanaşı zaman, məkan və kütləvilik baxımından ən çox etiqad etdiyi din İslam dinidir.

İslam dini Məhəmməd Peyğəmbər(s) tərəfindən yeddinci əsrin birinci yarısında Ərəbistan Yarımadasında yaradılmış, daha sonra Asiya, Afrika və qismən də Avropada yayılmış təkallahlı dünyəvi dinlərdəndir.

İslam dininin ideya mənbəyi İudizm, Xristianlıq, Atəşpərəstlik və qədim Şərq dünyagörüşüdür. Müqəddəs ayədə buyurulduğu kimi «Tanrı Nuha etdiyi tövsiyəni dində Sizin üçün də qanun etdi. Sənə (Məhəmməd Peyğəmbərə A.M.) vəhy etdiyimiz İbrahimə, Musaya və İsaya tövsiyə etdiyi budur: **"Dini qoruyub saxlayın və onda parçalanmayın".**

İslam dini beş sütun üzərində qurulmuşdur:

1. **Vahid Tanrıya inam – Tövhid;**
2. **Namaz;**
3. **Oruc;**
4. **Xums və zəkat;**
5. **Həcc ziyarəti.**

IX-X əsrlərdə İslam dini teoloci-fəlsəfi sistemlə qovuşmuş, daha da təkmilləşərək müsəlman hüquq normaları işlənib hazırlanmışdır.

İslam dinində Kainatın, İnsanın, Təbiətin, bitki və heyvanların mənşəyi və mahiyyəti dini tərzdə izah olunur. İslam dini də İudizm və Xristianlıq kimi ilahi dinlərdəndir. Bu din də digər ilahi dinlər kimi Peyğəmbərə gələn vəhy əsasında formalaşan Kitablı dinlərdəndir. İslam dininin Müqəddəs Kitabı Qurandır. Quran yüz on dörd surədən ibarətdir. Quranda Tanrının doxsan doqquz adı çəkilir.

İslam dinində də, digər ilahi dinlərdə olduğu kimi, Allah, mələk, şeytan, axirət, tale kimi ortaq inanışlar vardır. Bu dində də ibadət, ibadətə dəvət, ibadət etmək üçün şərtlər, tövbə, nigah və vərəsəlik kimi məsələlər də vardır.

İslam dini haqq dinidir. İslam dini doğru dindir. İslam dini Tanrının bəyəndiyi dindir. İslam dini insanlığın son dini, Məhəmməd Peyğəmbər (s) insanlığın son Peyğəmbəridir. İslam dini bütün insanlığa göndərilmiş dindir. İslam dini təkallahlı

dindir. İslam dini dünya və axirətə əsaslanan dindir. İslam dinində dünya axirətin «tarlası» hesab edilir. Bu dünyada kim nə "əksə", axirətdə də onu "biçəcək". Yəni hər kəs bu dünyadakı əməlinə görə axirətdə dəyəndiriləcək. İslam dinində dini anlayışlar sadə və aydındır, əqlə və məntiqə sığandır, yerinə yetirə bilməyəcəyi heç bir əmr və göstəriş yoxdur. İslam dinində kimsənin günahı kimsəyə yüklənməz, bütün sorumluluqlar fərdidir, hər bir adam öz əməlinin qarşılığını alacaq.

İslam dini əslində bütün insanlığa, ümmətin ruhuna dayanan, bütün insanlığın sosial həyatını təmin edən ideal bir dindir. İslam dininə görə bütün insanlar Tanrı yanında bərəbərdilər, insan insana qul ola bilməz. İnsan yalnız Tanrının quludur. Tanrının qulunu özünə qul edən insan Tanrıya özünü şərik edir. Müqəddəs Kitab olan Quranda buyurulub ki: **"Tanrıya şərik qoşanları öldürün".**

İslam dini digər dinlərdən fərqli olaraq sinkretik, yəni məntiq, fəlsəfə və elmlə silahlanmış bir dindir. İslam dini Buddizm, İudizm və Xristianlıqdan fərqli olaraq Tanrıdan başqa həyatda olan bütün əşya və hadisələri məntiqlə izah etməyə icazə verir. İslam dini başqa dinlərdən fərqli olaraq təkamülü qəbul edir, dində yeniləşməyə imkan verir. Bu cəhətdən İslam dini digər dinlərdən fərqli olaraq dini təlim kimi də çox mükəmməldir.

İslam dini fəlsəfədən fərqli olaraq təsadüfləri qəbul etmir. O, həyatda olan hər şeyi zərurət qəbul edir.

İslam dininin məntiqi əsası kəlamdır. Kəlam İslam dininin fəlsəfəsidir. Bu fəlsəfə özünəqədərki bütün dünya fəlsəfəsini özündə ehtiva edir.

Dünyanın bəlli-başlı dinlərində cavabsız qalan xeyli suallar olduğu halda İslam dinində bu cavabsız sualların hamısına Qurani – Kərim, Peyğəmbərin (s) hədisləri, İslam alim və filosoflarının izah və şərhləri cavab verir. Bu sadalanan mənbələrdə istənilən sualın cavabı vardır.

Çox təəssüflər olsun ki, bu mükəmməl təlimdən Şərqdən daha çox Qərb, müsəlmanlardan daha çox başqaları yararlanmış, Şərq sözdə, Qərb isə işdə buna yiyələnmişdir.

Bugünkü Qərb liberalizminə ən yaxın din İslam dinidir. Həmçinin İslam dininin demokratik dəyərləri bugünkü Qərb sosial-demokratiyasına daha çox yaxındır. Deməli, İslam demokratiyası sol demokratiyadır. Qərb İslam dininin sosial tələblərinin doxsan faizini yerinə yetirib. Şərq isə min dörd yüz il bu dinin daşıyıcısı olsa da, onun sosial tələblərinin heç doqquz faizini də yerinə yetirməyib. Bütün bunlar isə İslam dininin deyil, ona yarımçıq xidmət edənlərin qüsurudur.

Din siyasətdən, siyasət dindən ayrı olmalıdır. Dini siyasətə və əksinə siyasəti dinə alət etmək olmaz. Dini siyasətə alət etmək mənəviyyatı maddiyata qurban vermək deməkdir. Çünki İnsan maddidən daha çox mənəvi varlıqdır.

İslam dininə qulluq edənlərə müsəlman deyilir. Müsəlmanların ibadət yerləri məscidlər, qibləl變ri Kəbədir.

Sosial-iqtisadi, siyasi-ideoloci və tarixi inkişafla əlaqədar olaraq İslam dinində bu dinə xidmət edənlərin qəlbində dərin bir xəncər yarası olan **sünnilik və şiəlik cərəyanları və mötəzilik, sufilik, vəhabilik, ismailik, babilik, bəhailik və s.** kimi təriqətlər yaranmış və uzun illər boyu eyni dinə mənsub insanları bir-birinə düşmən etmiş, İslam dinini içəridən parçalamışdır.

Tanrı bəndələrini bir-birindən ayırmadığı halda, bəndələri özləri ilə ayrılmış, ilahi din yerinə yeni-yeni insani dinlər və hətta təriqətlər icad etmişlər. Halbuki din Tanrı tərəfindən insanlara bəxş edilmiş bir qanunlar toplusu – Anayasadır. Din əslində bir həyat nizamı, Tanrı elmidir. Din insanlar üçün izzət və məsuliyyətdir. Din insan həyatının mənası, onun adekvat ifadə formasıdır.

Çox təəssüflər olsun ki, Həzrəti Peyğəmbər (s) və ilk dörd İslam xəlifəsindən **(Əbubəkr, Ömər, Osman, Əli)** sonra bu dini səmavilikdən və ümmətçilikdən ayırıb, **"Cahiliyyə dövrü"**nün ərəb milliyətçiliyi və hətta irqçi təfəkkürünə tabe tutan **Əməvilər** və **Abbasilərin** səyi nəticəsində İslam dini Yəhudilərdə olduğu kimi milli bir dinə çevrilmə təhlükəsi ilə üzləşdi. Əməvilər və daha sonra Abbasilərin dövründə ərəb qəbilə gələnəkləri İslam dininin təməl daşı sayılan ümmətçiliyi sarsıtdı və "İslamlaşma" "Ərəbləşmə" ilə əvəz edildi. Ərəblər İslamı qəbul edən bir çox xalqlara, xüsusilə də Türklərə yuxarıdan

aşağı baxmağa, onları təhqir edən bədii, tarixi əsərlər yazmağa və hətta bütün bu aşağılamaları uydurma "hədislər" və Quranla əsaslandırmağa çalışdılar.

Ərəblərə görə Tanrı ərəbləri bütün insanlardan üstün yaratmış, bütün Peyğəmbərlər guya Sami irqindən çıxmışdır. Halbuki Quranda açıq-aşkar göstərilmişdir ki:**"Hər bir ümmətin bir Peyğəmbəri vardır..." Biz** (Tanrı – A.M) **hər bir Peyğəmbəri ancaq öz camaatının dilində danışan göndərdik ki, onlara aydınlaşdıra bilsin" və s.**

Səkkizinci əsr ərəb alimi (əgər bunlara alim demək mümkünsə – A.M) **"Kəlilə və Dimnə"** əsərini hind dilindən ərəbcəyə çevirən **İbn əl-Müqəffadan** tutmuş doqquzuncu əsr tarixçisi və coğrafiyaçısı, ərəblərin "Herodot"u sayılan **Məsudiyə**, yenə doqquzuncu əsr ərəb alimi **Bəlxidən** tutmuş onuncu əsrdə yaşamış ərəb alimi **Əbu Həyyana** və on birinci əsrdə yaşamış **Əndəlüslü Səid əl-Əndəlüsidən** tutmuş **Təbəriyə** qədər bir çox ərəb alim və tarixçiləri ərəb islam irqçiliyini önə sürərək ümmətçilikdən tamamilə uzaqlaşmış, İslam dininin təməllərini sarsıdaraq, yeri gəldikcə, bütün xalqları, daha çox da Türkləri aşağılamış, onlara qarşı bütün kin və nifrətlərini biruzə vermişlər. Tarixi Türk düşmənçiliyi ərəb ədəbiyyatı, ərəb şeri və xüsusilə, **"Min bir gecə nağılları"**nda qabarıq şəkildə özünü göstərmişdir. Bu iş bütün tarix boyu davam etdirilmişdir. Belə ki, Türklərə qarşı yüzlərlə cəfəngiytlar uyduran ərəb irqçiləri hətta Quranda mənfi anlamda adı çəkilən Yəcuc – Məcucları də Türklərlə əlaqələndirmişlər.

Həmçinin, Türklərin böyük Sultan Mehmet Fatehin başçılığı ilə İstanbulu fəth etməsi ilə yeni dövrün başlanması olayına da qısqanclıqla yanaşan ərəb şovinistləri Məhəmməd Peyğəmbərin (s) Türklərlə bağlı **"Türklər sizə toxunmadıqca siz də Türklərə toxunmayın", Türk dilini öyrənin, çünki onlara əbədi hakimiyyət verilmişdir",** Tanrı adından Peyğəmbərə sunulan **"Mənim** (Tanrının – A.M.) **bir ordum var, adına Türk deyərlər. Kim Sənə** (Məhəmməd Peyğəmbər nəzərdə tutulur – A.M.) **tabe olmasa, Mən öz ordumu** (Türklər nəzərdə tutulur – A.M.) **o xalqın üzərinə yeridərəm"** və **"İstanbulun fəthi"** ilə bağlı məşhur hədislərini belə ya inkar etmiş, ya da ağlasığmaz şəkildə

yozmuşlar. Bu Türk düşmənlərindən sayılan Misirli Rəşid Rza adlı birisi hətta yazır ki,:«İstanbulun həqiqi fəthi, oranın Türk quldurlarının əlindən ərəblər tərəfindən qurtarılması və yenidən fəthi ilə olacaqdır».

Ərəblərin bütün bu irqçi təfəkkürlərinin nəticəsidir ki, Ərəb xilafəti mərhələ-mərhələ çökdü və sonda öz yerini ümmətçiliyi tarix boyu qoruyub saxlayan Türklərə tərk etdi.

634-cü ildə Yarmuq savaşı ilə Bizans ordularını Suriyadan çıxaran, 635-ci ildə Qadisiyam və 641-ci ildə Nihavənd savaşları ilə Sasani İmperatorluğunu sarsıdan ərəb xilafət orduları Çindən Avropanın mərkəzlərinə qədər bütün bölgələrdə min iki yüz il hökmranlıq etmiş, Asiya və Avropa qitəsində bir çox dini, siyasi, sosial və etnik izlər buraxan Türklərlə Göy Türk imperatorluğunun çökdüyü və Çinə tabe olduğu bir dönəmdə qarşı-qarşıya gəldilər. Son Sasani imperatorluğunu darmadağın edərək Mavəraünnəhrə qədər irəliləyən ərəb xilafət orduları mərkəzdə Xəlifə Ömərin və Osmanın öldürülmələri və nəhayət, İmam Əli ilə Müaviyə mücadiləsi və xilafətin daxilində «Xarici»lərin üsyanları ilə VIII əsrin əvvələrinə qədər surətini azaltmış oldu. Bu iş xilafəti genişləndirmək məqsədi ilə Əməvilər tərəfindən davam etdirilərək Talasa qədər irəlilədi və Türklərlə qarşılaşınca böyük başarıya ulaşa bilmədi. Fəqət Türklərin yeni gələn İslam dininin qədim Türk Göy Tanrı dini inancları ilə uyğun olduğunu görüncə könüllü şəkildə İslam dinini qəbul etmələri dünya tarixinin ən mühüm hadisələrindən sayılır. Belə ki, yeni gələn İslam dini ilə Türklərin qədim Göy Tanrı dinində mövcud tək Tanrı inancı, Ruhun ölməzliyi, axirət, Tanrıya qurban kəsmə mərasimi, əxlaqi dəyərlər, cihad və s. kimi köklü məsələlər eyniyyət təşkil etdiyindən Türklər İslam dinini doğma bir din kimi qəbul etdilər.

Türklər çeşidli ölkələrdə Qaraxanlılar, Qəznəvilər, Səlcuqlular, Xarəzmşahlar, Moğollar, Teymurilər, Osmanlılar, Hind Türk və Səfəvilər kimi imperatorluqlar, Azərbaycan, Anadolu, İraq, Suriya, Kirman Səlcuqluları, Tulunilər, İxşidilər, Misir Türk Dövləti, Dehli Türk Sultanlığı, Şirvanşahlar, Sacilər, Salarilər, Eldənizlilər, Elxanilər,

Qaraqoyunlular, Ağqoyunlular, Əfşarlar, Qacarlar və s. kimi dövlətlər və bir çox Atabəyliklər quraraq Orta Asiya, Sibir, Rusiya, Çin, Hindistan, İran, Azərbaycan, Anadolu, Yaxın Şərq, Misir və Şərqi Avropanın son min illik tarixinə istiqamət verərək İslam dünyasının müqəddəratını həll etdilər. Türklər hətta özlərindən olan Maniçiliyə və Budda dininə inanan Uyğurlarla yanaşı, Əfqanların və Pakistanlıların da İslamlaşmasında mühüm rol oynamışlar.

İslam dini ilə Türklərin mənəvi birliyi həm Türklərin qüdrət və əzəmətini tarixə nümayiş etdirdi, həm də İslam dininin əbədiyaşarlığını təmin etdi. Bu iş xüsusilə, əzəmətli Türk sultanlarının XX əsrin əvvəllərinə qədər həm Osmanlı Türk Sultanı Sultan Səlim Yavuzdan başlayaraq, Osmanlı Türk Sultanı, Həm də İslam dünyasının xəlifəsi olması və xiləfətin mərkəzinin İstanbula köçməsi ilə daha da rövnəqləndi. İslam dini Türklərin sayəsində yenidən ümmətçilik ideologiyasına qayıtdı.

Türklər həm dini, həm də tarixi mifləşdirən, əfsanələşdirən yunanlardan və farslardan, dini özəlləşdirən yəhudilərdən və ərəblərdən fərqli olaraq dinə imanla, inamla, inancla və məntiqlə, tarixə isə obyektiv yanaşmışlar.

İslam dini ərəb, həbəş və farslarla yanaşı bir çox xalqları sosial bəladan xilas etdiyi və bu xalqlarda insani və ailə münasibətlərini tənzimlədiyi halda Türklərin İslama qədər əsrlər boyu yaşadığı sosial həyatını, insani və ailə münasibətlərini təsdiq etdi.

Min il İslam dininin qorunub saxlanmasında milyonlarla şəhid verən, İslam dininin günümüzə qədər gəlib çıxmasında əvəzsiz xidmətləri olan, bu müqəddəs dini üç qitədə əsrlər boyu yaşadan – bu dinin yaradıcısı olan ərəblər və guya özlərini bu Dinin təəssübkeşi sayan farslar deyil, məhz Tanrı ordusu Türklərdir.

Getdikcə güclənən və zaman keçdikcə bütün İslam aləmində söz sahibi olan Türklərin fəzilətlərini yaxından görən, duyan və qələmə alan Cahiz, Azərbaycan valisi Yezid bin Məzyəd, İbn Hassul və s. kimi vicdanlı tarixçilər Türkləri öymüş, onlardan ağız dolusu bəhs etmişlər. Türklərin

fəzilətlərindən bəhs edən **Cahiz** yazmışdır: **«Türklərin əxlaqi keyfiyyətləri maddi dəyərlərindən də üstündür». Türklər enercili, canlı, fəal və zəkalıdırlar. Onlar qənaəti miskinlik, döyüşdən çəkinməyi soysuzlaşma sayarlar. Yurdsevərlik Türklərdə çox güclüdür».**

Əslən ərəb olan Azərbaycan valisi **Yezid bin Məzyəd** yazır: **«Türk ümid edilməyəcək bir şeyə qarşı ümid bəsləməz. Yaxşı bilmədiyi bir şeyin heç bir tərəfini bilməz. Yaxşı bildiyi hər bir məsələni sağlam yapar. Hər işini özü görər. İçi də dışı kimidir. Heç bir nəticəsi olmayan bir şeylə uğramaz».**

XI əsrdə yaşamış əslən ərəb olan **İbn Hassul** isə Türklər haqqında yazdığı bir risalədə göstərir ki: **«Bütün xalqlar arasında şücaət və cəsarət baxımından Türklərdən üstün, böyük hədəflərə ulaşmaq üçün onlardan dəyanətli heç biri yoxdur. Tanrı onları aslan sifətində yaratmışdır. Türk göbəyi kəsildiyi andan etibarən ordunun başçısı, bölgənin əmiri olmaqdan və bu yolda özünü bütün əziyyətlərə qatlaşdırmaqdan başqa bir şey düşünməz».**

Fəqət Türklərin Ərəb dünyası ilə əlaqələri Türklərin bütün arzu və istəklərinə baxmayaraq, istənilən nəticəni vermədi. Bu işdə ərəb dünyasını öz nüfuz dairəsinə keçiirmək istəyən Avropa müstəmləkəçilərinin fəaliyyəti həlledici rol oynamışdır. Belə ki, Avropa Qərbdə Türklərə qarşı həyata keçirdiyi xristian kilsə təəssübkeşliyini, Şərqdə fundamentalist islam ərəb təəssübkeşliyini Türklərə qarşı yönəltməyə nail oldu.

Tarixən Türkləri fürsət düşdükcə arxadan vurmağa çalışan millətçi ərəblər Misirdə ikən «Məhəmməd ümmətinin dostu və müsəlman», Fransada isə «katolik olan», əslində isə özünün də dediyi kimi, «Mən dinlərə inanmıram» söyləyən Napoleon Bonapartı belə dəstəkləyərək Türkləri Misirdə ağır məğlubiyyətə uğratmışlar.

Həmçinin Türklər əleyhinə Türk düşmənləri ilə işbirliyi yapan Vəhabilər ərəblər arasında təbliğat apararaq göstərirdilər ki, guya İslamın özündən uzaqlaşmağının başlıca sorumlusu Türklərdir. Vəhabilər belə bir fikir irəli sürürdülər ki, guya «Türklər dinsizdilər. Onlar nə ibadət edər, nə oruc tutar, nə zəkat verər, nə də həcc ziyarətini yerinə yetirərlər.

Əksinə, onlar bütün Ramazan ayı boyunca şərab içərlər». Bu və ya buna bənzər Vəhabi ərəb şovinizmi indii də Türklərə qarşı öz əks-təbliğatlarını davam etdirməkdədirlər.

Ərəblərdən fərqli olaraq Türklər min il İslam aləminə başçılıq etdikləri dönəmlərdə əllərində bütün hakimiyyət və səlahiyyətlər olmalarına baxmayaraq heç bir xalqa, xüsusilə də ərəblərə qarşı özlərini üstün tutmamış, irqçi bir anlayışda belə bulunmamışlar. Əksinə, ərəbləri «nəcib qövm» adlandırmış və bununla da özlərinə baha başa gəlsə də, İslam dininin ümmətçiliyə dayanan ideoloci sisteminə daim əməl etmişlər.

XX əsrin əvvəlləri, xüsusilə I dünya müharibəsi dönəmində Avropa Türk Osmanlı imperatorluğunu tam məğlubiyyətə uğratmaq və imperatorluğun ərazilərini öz aralarında bölüşdürmək üçün ərəb milliyətçiliyi ideologiyasını dövriyyəyə buraxdı və bütün yönlərdən ona dəstək verdi. İmeratorluğa daxil olan bütün xalqları Türklər əleyhinə qaldıran Avropa geniş plan hazırlayaraq mərhələ-mərhələ həyata keçirdi: «Sykes planı» adı ilə tarixdə tanınan planda oxuyuruq: **«Ərazidə olan xristian və yəhudiləri Türklərin geri gəlməsinə qarşı ordularını ifadə etməyə zorlamalıyıq.**

**Bu işdə bədəvilərin köməyini para ilə ödəməliyik. Türklərə qarşı kini həmişə canlı tutmalı və bizi ərəb milliyətçiliyinin qoruyucusu kimi tanıtdıran millətçi basın və yayına para dəstəyi göstərməliyik».**

Türklərə qarşı bu ənənəvi irqçi ərəb təfəkkürünü daha da körükləyən Avropa müstəmləkəçiləri nəhayət XX əsrin əvvəllərində Türkləri Afrika və Yaxın Şərqdən tamamilə sıxışdırıb çıxardı və Türklərin hakim olduğu bölgələri öz hakimiyyətləri altına aldılar.

Türkləri məğlub etməklə Avropa İslam dünyasının onurğa sütununu qırdı və bu işdə özünü müsəlman adlandıran ərəblər də böyük rol oynadı.

Bu gün Avropa Türkləri daha da zəiflətmək üçün «Kürd Kartı»nı işə salıb, demokratiya pərdəsi altında Türkiyəni də parçalamağa çalışır. Ayıq-sayıq olmalıyıq.

Tanrı dinini yalnız Tanrı ordusu – Türklər qorumağa qadirdir.

**Tanrı yardımçın olsun, ey Türk!**

## Türklərdə Tanrı və Din anlayışı

Dünyanın ən qədim və köklü xalqlarından olan Türklər Asiya, Avropa, Afrika və hətta Amerika qitəsinə yayılmış bir millətdir.

Bəşər sivilizasiyasının Doğu və Batısını, Quzey və Güneyini çulğalaşdıran Türklər bəşərin ayrı-ayrı Tanrı qavramlarını da ümumiləşdirmiş, sanki bütün dini dünyagörüşləri bir araya gətirərək bəşəri bir din yaratmışlar.

Bütün dinlərdə mövcud Tanrı qavramalarını bir araya toplayan Türklərə görə Tanrı:

Təkdir. Şəriki yoxdur. Bənzəri yoxdur.

Əvvəldir. Axırdır. Hər şeyin varlığı Ona bağlıdır.

Əzəlidir. Əbədidir. Mütləq həqiqətdir. Yerin, Göyün sahibidir. Zahirdir. Batindir.

Qadirdir. Məğlubedilməzdir. Qüdrət və qüvvət sahibidir.

Mehribandır. Həlimdir. Rəhimlidir. Mərhəmətlidir.

Pakdır. Müqəddəsdir. Heç bir şeylə qarışığı yoxdur.

Hər şeyi biləndir. Müdrikdir. Hikmət sahibidir. Hər bir işdən xəbərdardır. Aləmin düzənini yönəldəndir.

Bütün canlı və cansız varlıqları yaradan və idarə edəndir. Bütün varlıqların varlığının səbəbidir. Kainatı yaradan və idarə edəndir. Gözəgörünməzdir. Harda çağırsan, ordadır.

Yaratdıqlarına kömək edən, onları doğru yola yönəldən, onlara ruzi, nemət, nicat verəndir.

Yaratdıqlarına yaxşılıq edən, onların günahlarını bağışlayan, tövbələrini qəbul edən, onların xeyirxah əməllərindən razı qalan və onların əvəzini verən, haqq-hesab çəkən, əfv edən, bütün yaratdıqlarının keçmişini və gələcəyini bilən, hər bir işdən xəbərdar olan, istədiyini bağışlayan, istədiyinə əzab verən, yaratdıqlarını yaşadan və onların işlərini yoluna qoyan, hər şeyi eşidən, görən, bilən, yaratdıqlarını imtahan edən, diriləri öldürən, ölüləri diriləndir.

Gecəni gündüzə, gündüzü gecəyə qatandır. Ana bətnində olanlara istədiyi surəti verən, istədiyini yüksəldən, istədiyini alçadandır. Haqq ilə nahaqqı bir-birindən ayırandır. Öz vədinə və əhdinə əməl edəndir. Əzabı şiddətli, lütfü tükənməzdir. Gizli şeyləri zahirə çıxarandır. Öz istədiyini edəndir. Duaları qəbul edən, öz Peyğəmbərlərinə «Lövhi – məhfuz»dan hissələri öyrədən, bütün eyb və nöqsanlardan kənar ən ali, ən müqəddəs Varlıqdır, bütün varlıqların başlanğıcıdır.

Türklərə görə Tanrı:

Yaradan, yaşadan, bəsləyən, köçürən, hər şeyə hökmü keçən, heç birköməyə ehtiyacı olmayan əzəmətli bir Varlıqdır.

Tanrı hər şeyə bir səbəb yaradandır. Hər şeydən azad olan yalnız Odur.

Tanrı yaratdıqlarına şəfqətlidir, onların üzərində tam hakimdir. İnsanın içini, çölünü, bütün əməllərini bilən, onun günahlarından keçən, dualarını eşidən, tövbələrini qəbul edəndir.

Tanrı adil, rəhmli və əhdinə sadiq insanları sevər, zalımları, əhdindən dönənləri, həddini aşanları sevməz, onları doğru yola yönəltməz.

Tanrı Ona şərik qoşanları bağışlamaz.

Tanrı izzətlidir. Onun lütfü böyükdür. Ömrü verən də, alan da Odur. Tanrıdan izinsiz bir kimsə ölə bilməz.

Tanrı yeməz, içməz, lakin yaratdığı bütün canlı varlıqları yedizdirər, içizdirər.

Tanrı gözə sığmaz, imanlı insanın könlünə sığar.

Tanrı fəzilətlidir. Tanrının fəzli kimə yetişsə, o bütün arzularına çatar. Tanrı kimə inayət və yardım etsə, o hər iki dünyanın səadətinə nail olar. Tanrı kimi qorusa, o qorunar. Tanrıya kim sidq ilə inansa, o, bəla və qayğı qapılarını bağlamış olar. Tanrı kölgəsinə sığınan İnsanın kini də dostluq, günahı taət olar.

Türklərin anlayışına görə Tanrı İnsanı Özünü dərk etdirmək üçün yaratmışdır. Məşhur bir hədisdə buyurulduğu kimi: «Tanrı İnsanın, İnsan da Tanrının sirridir».

Tanrı İnsana qavramaq, dərk etmək, düşünmək və danışmaq qabiliyyəti vermiş, onu yaratdıqlarının əşrəfi

etmişdir. Tanrının bu zəhməti İnsan üçün bir əmanətdir ki, o əmanət bir gün soruşulacaq.

Yaradılmış bütün varlıqlar ehtiyac içindədir. Ehtiyacsız olan yalnız Tanrıdır.

Tanrı ulu kəlamlarını zaman-zaman insanlara Peyğəmbərləri, övliyaları, dahiləri və müdrikləri vasitəsilə çatdırır. İman gətirən insanlar isə onları qavrayır, doğru yola gələrək Tanrıya səcdə edir, xeyirxahlıq edərək pis əməllərdən çəkinir, Tanrıya, Onun insanlar içərisindən seçdiyi Peyğəmbərlərə, göndərdiyi müqəddəs kəlamlara, Tanrının «Axirət günü»nə, mələklərinə inanaraq əməli-saleh olurlar. Çünki bütün bunlar insanlığa yol göstərir, öyüd verir, insanları əbədiyyətə qovuşdurur.

Türklərə görə Tanrı yolu haqq yoludur. Bu yolda öldürülən, ölən İnsan ölü deyil, diridir. Millət, Xalq, Vətən yolu da Haqq yolu olduğundan bu yoldakı ölüm də Tanrı yolundakı ölüm qədər şərəflidir.

Tanrı Ona güvənənləri sevər, imanlı insanları doğru yola yönəldər. Çünki Tanrıya güvənən, Ona iman gətirən, xeyirxahlığı ürəkdən edən insanın qabağına Tanrı xeyirxahlıq çıxarar.

Tanrı tərəfindən hikmət bəxş edilən, yaxşı davranan, səbirli olan insanın xeyir-bərəkəti də çox olar. İman gətirib sonradan küfr edən insanın tövbəsi də Tanrı tərəfindən qəbul edilməz. Çünki imanı küfrə dəyişdirən insan doğru yoldan, Haqq yolundan sapan, Şeytana uyandır. Sözündən dönən, Haqq yolundan sapan, Şeytana uyan insan isə günaha batar. Günaha batan insanın qazancı isə özünün əleyhinədir. Bu əslində insanın özü-özünə xəyanətidir. Xəyanət edib suça batan insanı isə Tanrı lənətlər.

Tanrı ürəkdən inanan və yaxşılıq edənin əvəzini verər. Ürəkdən inanmaq və yaxşılıq etmək heç də üzü Şərqə və ya Qərbə çevrilib yalandan ibadət etmək deyil. İman və yaxşılıq odur ki, insan Tanrıya, «Axirət günü»nə, Tanrının mələklərinə, Kitablarına, Peyğəmbərlərinə iman gətirsin, Tanrı sevgisi ilə yaxınlara, yetimlərə, kimsəsizlərə, yoxsullara, yolçulara, həqiqi ehtiyacı olanlara mal paylasın, namaz qılsın, oruc tutsun,

xüms, zəkat versin, əhdinə vəfalı olsun, çətin vəziyyətə düşəndə, darda olanda, savaş zamanında səbr göstərsin, doğru yola tapınsın ki , Tanrı əzabına düçar olmasın.

Türklərə görə insan insana qul ola bilməz. Bütün insanlar yalnız Tanrının quludur. Qulun qula qulluq etməsi yaraşmaz. Xidmətçiyə xidmət etmənin qiyməti olmaz. İnsana əbədi bir həyat, qocalığı olmayan bir gənclik, xəstəliyi olmayan əbədi sağlamlıq, daimi olmayan zənginlik bəxş edə bilməyən bir varlığa qulluq etməyə dəyməz. Bütün bunları heç bir insan insana bəxş edə bilməz. Ona görə də insanın insana qul kimi, nökər kimi qulluq etməsi yaraşmaz. İnsanı Tanrı qoruduğu kimi insan qoruya bilməz. Müdriklər demişkən:

**«Bu gedəcək olan can bir əmanətdir,**
**Əmanət başqasına əmanət edilə bilməz».**

Türk anlayışına görə, əgər insan övladı ruziyə bağlı olduğu qədər Ruzi verənə –Tanrıya bağlı olsa, mövqeyi mələklərdən də üstün olar.

Türk dünyagörüşünə görə Tanrıya doğru gedən yol insanın üzünə düşən nurun səadət yoludur. Bu yol, Tanrıya sədaqətli ibadət, Onun qoyduğu qanunlara əməl və Tanrıya ürəkdən edilən dualarla varılır. Çünki sədaqətli ibadət, Tanrı qanunlarına əməl və sidq ürəkdən edilən dua Tanrı tərəfindən insana güc, qüvvət, inam və ilham bəxş edən bir nemətdir. Bütün bunlar insanı süluk yoluna çıxarır, onu paklaşdırır, düz yola sövq etdirir, insana istiqamət verir. Bütün bunlar isə insan üçün əvəzsiz nemətlərdir.

Türk dünyagörüşünə görə Tanrı maddi Təbiətin bütün işlərinə nəzarət edir. Maddi Təbiət, bütün canlı və cansız varlıqlar Ulu Tanrının ayrılmaz enercisi olub Tanrının iradəsi ilə hərəkət edir. Maddi Təbiətdə heç nə idarə olunmadan fəaliyyətdə ola bilməz, özü-özünə təzahür edə bilməz. Maddi Təbiət və bütün canlı varlıqlar Ulu Tanrının hökmü və nəzarəti altındadırlar. Tanrı bütün təsirlərin qaynağıdır. Ona görə də varlıq aləmini hərəkət etdirən, bütün vəsilə və nəticəni yaradan Tanrıdır. Deməli, Ulu Tanrı, Maddi Təbiət, bütün canlı və cansız varlıqlar və zaman qarşılıqlı əlaqədə olduqları üçün

əbədidirlər. Həyatda və Kainatda əbədi olmayan yalnız fəaliyyətdir.

Türk dini dünyagörüşünə görə tam və mütləq həqiqət yalnız Ulu Tanrıdır. Bütün Kainat və həyatda olan hər şey yalnız Tanrı enercisindən təzahür edir. Ulu Tanrı insan şüurunun dərk edə bilmədiyi saysız-hesabsız müxtəlif növ enercilərə malikdir. Ona görə də Tanrı ən ali sitayiş obyektidir.

**«Tanrıdan başqa ilahi yoxdur»** ayəsi bütün səmavi dinlərin, xüsusilə, İslam dininin əsas qayəsidir. Bu ayə insanlıq üçün əbədiyyətin və Cənnətin qiymətidir. Bu müqəddəs ayə layiqincə dərk edildikdə həyat ilahiləşəcək və insanlıq düzgün istiqamətdə Tanrıya doğru irəliləyəcək.Çünki bütün həqiqi inam və dəyərlərin qaynağı, həqiqi əqidələrin kökü Tanrı Varlığına inamdadır. Bu dəyərlərin əsası isə Tanrını sevmək, Ona bütün varlığınla bağlanmaqdır. Digər bütün insani dəyərlər bu sevgidən törəyir. **«Türklər Tanrını sevərlərdi, İslamı qəbul etdikdən sonra həm də Allaha qorxu yarandı»** fikri də bu Tanrı sevgisi düşüncəsindən qaynaqlanmışdır. Çünki Türk düşüncəsinə görə Tanrıya könül verən, Onun eşqini qəlbində yaşadan insan Dünyaya, onun cah-cəlalına vurulmaz, dünya malı onun gözündə dəyərli olmaz.

Türk dünyagörüşünə görə Tanrı ilkin səbəb olduğundan O, bütün səbəblərin səbəbidir, əbədiliyin, biliyin, həzzin və s. hərtərəfli formasıdır. Tanrı Kainatın Nurudur. Hər qalaktika sisteminin öz Günəşi olduğu halda, Tanrı bütün Kainatın Günəşi, Nurlar Nurudur. Tanrı qüsursuz olduğu üçün Onun insan kimi maddi Təbiət qanunlarının təsiri altına düşməsi mümkün deyil. Qanunverici də, Hakim də Odur. Xilas və həlak etməyə qadir olan yalnız Tanrıdır. Yaratmaq və yaşatmaq yalnız Ulu Tanrıya xas keyfiyyətdir. Tanrının ayrılmaz hissəcikləri olan bütün canlı məxluqat, o cümlədən də insan bu işdə yalnız Tanrıya əməkdaşlıq edir. Ona görə də Tanrı canlı varlıqlara qarşı çox mərhəmətlidir. Çünki ədalət kimi mərhəmət də Tanrının ən mühüm keyfiyyətlərindən biridir.

Tanrı Türk dünyagörüşündə ən ali şüura malikdir. Ən ali şüura malik Tanrı ilə müəyyən şüura malik İnsan arasında bu anlamda müəyyən yaxınlıq olsa da, İnsan şüurundan fərqli

olaraq Tanrı şüuru Materiyanın təsirinə məruz qalmır və deməli, İnsandan fərqli olaraq maddi çirkab Tanrıya toxuna bilmir. Həmçinin öz müdrikliyi ilə qürrələnən İnsan Tanrını tam dərk etmədiyindən Tanrı onun naqisliyini göstərmək üçün dünyanın ən ağılsızlarını belə onlara başçı təyin edir, ən qüdrətli olanları belə utandırmaq üçün onları zəiflərə məğlub etdirir, ən ağıllıları ən səfehlərə möhtac edir ki, hər bir insan bundan nəticə çıxarıb heç vaxt Tanrı qarşısında qürrələnməsin.

Tanrıya inam, Tanrı varmı, yoxmu sualına indiyədək istər din xadimləri, istərsə də müdrik, dahi insanlar hərəsi bir cürə cavab vermişlər. Halbuki bu suala heç kim, heç bir zaman dolğun cavab verə bilməyib. Cavab vermək istəyənlər də yalnız qarşısındakını aldatmış, onu ələ salmışdır. Gözə görünməyən, insan idrakına sığmayan Tanrı açılmaz gizli bir sirrdir, sirri – Xudadır.

Tanrıya insanlar tərəfindən verilmiş adlar da, o adların şərhi də şərtidir. Çünki Onu hərə öz dili, öz sözüylə çağırır. Halbuki **«Tanrı ucalardan ucadır. Kimsə bilməz necədir?»**

Tanrını vəsf etməyə İnsan dili kafi deyil. Çünki bütün söz, ifadə, fikir və cümlələrin mütləq Hakimi və sultanı Tanrı Özüdür. Cahana sultan olan İnsanın özü də Tanrıya möhtacdır. Onun quludur.

Tanrının vəsfi tam anlamda İnsan idrakına sığa bilmədiyindən Onun bugünədək ərsəyə gətirdiyi Kitablara da sığmaz. Ən müqəddəs Kitablarda belə Tanrının doqquz yüz doxsan adı sadalanır. Onlardan üç yüzü «Tövrat»da, üç yüzü «Zəbur»da, üç yüzü «İncil»də, bunlardan əlavə doxsan doqquzu da «Quran» da sadalanır. Türk xalq deyimində isə: «Tanrının min bir adı var» - deyilir.

İnsan ağlına, idrakına sığmayan Varlığa, Kainatın yaradıcısına Tanrı adı qoyub. İnsanoğlu Tanrını zaman-zaman Böyük Səmavi Nəzarətçi, Səmavi Sentimental Baba, Odlu Kürə, Xəyali Fövqəltəbii Şəxsiyyət və ya Güc, Riyazi Əql və s. kimi düşünmüş və düşünməkdədir.

İnsan öz müdrikliyi ilə Tanrını tam dərk edə bilməsə də, hər bir insan öz qabiliyyəti çərçivəsində Onu tanımağa qadir ola bilər və öz qəlbindəki iman gözü ilə Onu görə bilər. İnsan

gözünə sığmayan Tanrının ən böyük müqəddəsliyi də məhz gözə görünməməzliyidir. Fəqət Türk dünyagörüşünə görə «Kainata sığmayan Tanrı imanlı, mömin insanın qəlbinə sığar».

Bütün dini dünyagörüşlərə görə İnsana, həmçinin bütün varlıqlara həyat verən Tanrıdır. Türk dünyagörüşündə isə həyat Kainatın ruhu, nuru, əsası, nəticəsi, xülasəsi, ömrün mənəvi Günəşidir. Deməli, həyatı bəxş edən kimdirsə, bütün Kainatın da yaradıcısı Odur. Həyatı alan, ölümü verən də Odur.

Türk dünyagörüşünə görə bütün mövcudat Tanrının izni ilə zaman çayında mütəmadi olaraq axır. Onlar «Qeyb aləmi»ndən göndərilir, mövcud aləmdə zahiri vücudlarına don geyindirilir, tədrici inkişaf edib böyüyərək yaşayır və sonda yenidən «Qeyb aləmi»nə göndərilirlər. Türk dünyagörüşünə görə, bütün bunlar bir Tanrı hikmətidir ki, mövcudatın ən alisi sayılan İnsan belə bu hikmətin sirrini billə bilməz. Bunun nəticəsidir ki, bir çox filosoflar «Haqq yolu»ndan üz döndərib küfr və dəlalət yoluna baxdıqda görmüşlər ki, inkar yolu Tanrını qəbul etmə yolundan min dəfə çətindir. Ona görə də məcbur olub ağılla Tanrıya tapınmış və belə bir sonuca varmışlar ki:»Haqqa gedən yol Tanrıya doğrudur. Tanrı bizimdir, biz də Onun. Biz Oyuq, O isə biz deyil».

Bütün canlı varlıqlar Ulu Tanrının ayrılmaz hissəcikləri, zərrəcikləri olduğu üçün Türk təfəkküründə canlı varlıqların hissləri, duyğuları da Tanrı hisslərinin ayrılmaz bir parçasıdır. Ona görə də hər cür şəraitdə Tanrı bütün canlı varlıqların, o cümlədən də İnsanın ürəyində, beynində olub, onların hiss və duyğularını istaqamətləndirir, özlərini Ona bağlamış canlı məxluqları idarə edir. Bütün canlı varlıqlar, o cümlədən də İnsan yalnız şəxsi bədənini hiss etdiyi, idarə etdiyi halda (halbuki bu da həmişə mümkün olmur) Ulu Tanrı bütün bədənləri duyur, hiss edir, idarə edir.

Ona görə də Türk dünyagörüşünə görə Tanrı pak və sədaqətli fədailərinin hiss və duyğularına tam nəzarət edir, haqq üçün çarpışanlara daim yardımçı olur. Belə insanlar sonda ilahi şəxsiyyətlərə çevrilir və əbədiyaşarlıq qazanırlar. Türk müdriklərinin söylədikləri kimi: «Ulu Tanrı haradadırsa,

bəxt İlahəsi də ordadır. Ulu Tanrı kiminlədirsə, qələbə də onunladır. Tanrıya sığınan basılmaz. Ən böyük fəlakətlər belə Tanrıya sığınanları qoxutmaz. Ülu Tanrı haqq, ədalət uğrunda çarpışan sevdiyi İnsanları daha ağır imtahana çəkir, onları heç vaxt zamana, məkana etibar etmir, onları ülviləşdirir, müqəddəsləşdirir, zamansızlaşdırır, məkansızlaşdırır, onlara haqları olan eşq nurunu bəxş edir, onların bütün istəklərini həyata keçirir. Ulu Tanrı ÖZ əbədi Fədaisi üçün daim əlverişli şərait yaradır və bununla da Fədainin qələbəsini həmişəlik təmin edir. Bütün ali keyfiyyətləri ilə bərəbər, Fədai, hətta ona şəxsi düşmənçilik edənlərdən də qisas almır. Beləleri Tanrı Fədaisinə zərər yetirdikdə Tanrı Özü onların cəzasını verir. Millətə, xalqa, insanlığa, haqqa, ədalətə, sədaqətə xidmət edən mərhəmətli, xeyirxah insanlar yüzlərlə həmcinsini də hər cür iztirablardan xilas edə bilər.

Türk dünyagörüşünə görə Tanrı bütün insanların qəlbini biləndir. Ona görə də Tanrı Onu ürəkdən sevənin, haqq yolu ilə gedənin, qəlbi mərhəmətlinin, ürəyi şəfqətlinin, ən ali səxavətlinin daim köməyi olar.

Tanrını zikr etmək qəlblərə nur, ruhlara qüvvət, bədənə ləzzət verir. Tanrını zikr etmək sinəyə dərman, ağıla nur, qəlbə həyat bəxş edir. Böyük Türk övliyaları buyurmuşlar ki: «Tanrını zikr edəni Tanrı da zikr edər». Tanrıya güvənən, Ona bel bağlayan, öz inam, cəsarət və şücaətini, iradəsini qoruyub saxlayan inamlı və imanlı bir şəxsiyyəti və ya bir milləti heç kim yox edə bilməz.

Türk dünyagörüşünə görə ən böyük Alim, ən kamil Memar, ən şəfalı Təbib, ən mahir Rəsam, ən yetkin Müəllim, ən istedadlı Bəstəkar Tanrıdır. Tanrı əzəliyyət şamını yandıran, əbədiyyətə işıq verən, Kainatı bəzəyən Nurdur.

Türk anlayışına görə Tanrı Öz səxavəti ilə Dünyanı İnsana bəxşiş verən, bütün varlıq silsiləsini nizama düzən, Kainatın intizamının qoruyucusu və tarazlayıcısı, dörd cəhətin hesablayıcısı, imkan, təsadüf və zərurətin babası, varı yox, yoxu var edən, insanlara ruh, ağıl, şüur, zəka və idrak bəxş edəndir.

Türk düşüncəsinə görə Tanrı həyatın nə zaman bitəcəyini, nə zaman nə baş verəcəyini, İnsan nəslinin hər birinin necə olmasını, nə zaman nə etməsini bilən qüdrət mücəssəməsidir. Tanrı «Qiyamət günü»nün hakimi, daimi şahlıq taxtının sultanıdır. Tanrı İnsan nəslinin yaradıcısı, həqiqət cəvahirinin sərrafı, çətin və ağlasığmaz incəlikləri kəşf etdirəndir.

Tanrı bütün gizliləri aşkar edən, aşkar olanları gizlədəndir.

Tanrı yaradılış binasının memarı, Dünya bağçasının bağbanıdır.

Tanrı zövq əhlinin munisi, əməl qapılarının açarı, bəxşiş xəzinələrinin sahibidir.

Tanrı kamil, tədbirli və adil bir bilicidir. Ona görə də hər iş üçün bir yer təyin edib və hər İnsan üçün də bir iş buyurub.

Tanrı əbədidir. Türk anlamında bu, o deməkdir ki, Tanrının heç zaman başlangıcı olmayıb və heç zaman sonu olmayacaq. Elə bir vaxt olmamış və olmayacaq ki, O , mövcud olmasın.

Tanrı sonsuzdur, hüdudsuzdur. Türk anlayışına görə bu, o deməkdir ki, Tanrı Kainatla məhdudlaşmayıb. Tanrı ölçülə bilən bütün müqəddəsliyin cəminin hüdudsuzluğuna malikdir.

Tanrı dəyişməzdir. Türk dünyagörüşünə görə bu o deməkdir ki, Tanrının məhəbbəti də, qəzəbi də sabit və sarsılmazdır. Tanrının qəzəbi və məhəbbəti İnsandan fərqli olaraq qabarma və çəkilmələrdən azaddır.

Tanrı qüdrətlidir. Türk anlayışına görə bu, o deməkdir ki, Tanrı bir anlıq istərsə, fələyin bacarıqsılığını göstərər, Dünyanın düyününü açar, zamanın gərdişini durdurar, Ulduzların surətini, seyrini yox edər, yoxluqdan doğan Yer kürəsini yoxluğa qaytarar, Ayı boyunbağı kimi qırıb atar, Züheylin daşını Zöhrənin şüşəsinə vurub hər ikisini yox edər, bir sözlə, Kainatı və qarşılıqlı olaraq İnsanı yaratdığı kimi məhv də edər.

Tanrı hər şeyi biləndir. Türk anlayışına görə bu o deməkdir ki, Tanrı İnsanın fikir və düşüncələri də daxil olmaqla Kainatda olan hər şeyi bilir. Tanrını heç nə təəccübləndirə bilməz.

Tanrı heç bir varlığa, heç bir varlıq da Tanrıya bənzəməz. Sonsuz Kainatda heç vaxt dəyişməyən yalnız Tanrıdır.

Mütləq ucalıq, mütləq paklıq yalnız Tanrıya xas keyfiyyətdir. Kainatın ağası Tanrıdır. Həyatda hər şey Tanrıya sığınır.

Tanrı kiçik nüftəyə belə qızıl tac qoyan, xırda çəyirdəkdən belə ağac yaradan, İnsanı qara torpaqdan yaradıb ona işıqlı ürək, pak ruh, təmiz ağıl, parlaq nitq verən, öldürən, dirildən, fəzilət nurunu İnsana bəxş edən yenilməz qüvvət və hikmət sahibidir.

Tanrı İnsana edə bilməyəcəyi hes bir əmri rəva görməyib. Türk dünyagörüşünə görə bu o deməkdir ki, Tanrı İnsanlar üçün elə bir qərar veribdir ki, hər kəs öz səyinin nəticəsində ona qismət olan ruzini yesin, tənbəllik törədən və bununla da aləmin nizamına qarışıqlıq salan məsələlərə etimad etməsin, kəsalət törədən və insan cəmiyyətinin inkişafına mane olan qəzavü-qədərə etiqad etməsin. Tanrı bütün insanlara istənilənləri əldə etmək niyyəti və bəxtin qapılarını açmaq ixtiyarını bərabər şəkildə vermiş, həmçinin «İnsan üçün səyindən başqa bir şey yoxdur» xəbərdarlığını etməklə onların qulaqlarını açmışdır ki, heç kim özünün zillət töhmətini Tanrıya isnad etməsin, istək yolunda bir bəhanə tapıb təşəbbüs göstərməkdən əlini üzməsin.

Türk anlayışına görə, Tanrının hicabı, pərdəsi, örtüyü Nurdur. Nuru nurlandıran da Tanrıdır. Tanrı Nurlar Nurudur. Tanrı Nura şəkil və biçim verəndir. Nur Tanrı deyil, çünki Nur da maddidir, yəni yaradılmış varlıqdır.

Tanrı İnsanın ehtiyacı üçün hər şeyi – torpağı, havanı, suyu, odu, soyuğu, istini, bütün vitamin və zülalları, yemək üçün ağzı, dişi, həzm etmək üçün mədə və bağırsağı, nəfəs almaq və iyi bilmək üçün burnu, eşitmək üçün qulaqları, görmək üçün gözləri, yerimək üçün ayaqları, iş görmək üçün əlləri, danışmaq üçün dili, dərk etmək üçün şüur və ağlı – bir sözlə, İnsanın nəyə ehtiyacı varsa, hamısını onun üçün mükəmməl yaratmışdır. Tanrı İnsana yaraşmayan hər şeyi yasaqlamışdır.

Tanrı pak insanları, comərdləri, yaxşı

lıq edənləri, ədalətli olanları, səbr edənləri, sözündə duranları, tövbə edənləri, hirs, öfkə və qəzəbini boğanları sevər.

Tanrı zalımları, özlərini bəyənənləri, yalan danışanları, pislik edənləri, xainləri, satqınları, fəsad törədənləri, araqarışdıranları, zina edənləri, başqalarının namusuna toxunanları, təkəbbürlüləri, günahkarları sevməz.

Tanrının hikməti gizli, hökmü aşikardır. Tanrı hikməti ağla, düşüncəyə sığmaz. Müdriklər söyləmişlər ki:

***"Kim Tanrının hökmünə əymədisə başını***
***Fələk qoymaz onun daş üstündə daşını".***

Tanrını duyanlar, Onu ananlar, Onu öz ağıl tutumları ilə dərk edənlər öz qələmləri ilə – Tanrıya tam layiq olmasa da – bəşər övladına gözəl – göyçək tanıtmağa çalışmışlar. Tanrının yaratdıqlarından yalnız İnsan Onu vəsf edə bildi. İnsanoğlu ağlında və dilində olan ən yaxşı söz və ifadələri Tanrının bəxş etdiyi ilhamla Ona ithaf etdi. Onu alqışladı və dedi ki :

- Ey Ulu Tanrı! Kainatın ağası sənsən! Həyatda hər şey sənə sığınır. Bütün varlıqlar yoxluqdur, var olan yalnız Sənsən! Ağıl ilk olaraq sənə inandı. Sən bu aləmdə damcı sudan və günəşdən işıqlı gövhər yaratdın. Sərrafın əlinə açarı Sən verdin. Daşların bağrına gövhəri Sən düzdün. Hər gövhəri rənglərə Sən boyadın. Sən istidən, soyuqdan, qurudan, yaşdan gözəl bir Cahan yoğurub yapdın. Sən xilqətə gözəl naxışlar vurdun. Sən Yerin işini, Kainatın gərdişini elə qurdun ki, İnsan düşüncəsi, fikri, zəkası Göylərə ucalsa da, Sənin möcüzələrin qarşısında özünü çox miskin saydı. İnsan ağlı Səndəki bu məharətə heyrandır. Bütün bəşər Sənin uca, mükəmməl sənətini seyr etməkdə , bu möcüzələr qarşısında mat qalmaqda, bütün tapıntılarında Sənə borclu olduğunu anlamaqda, daim sənə doğru yürüməkdə, yüksəlməkdədir. Sən elə bir Varlıqsan ki, İnsan zəkası Sənin o böyük qüdrətini, zatını tam dərk etmək qüdrətinə malik deyil. Hətta İnsan xəyalı belə Səni aradıqda Səndən yalnız zərrələri tapa bildi. İlk söz – «ol» da Sənindir, son söz – «öl» də. İnsan idrakı Səni yalnız bu qədər dərk edə bilər.

Tanrını tanıma arası olan Din İnsanla yaşıddır. Onu bu Dünyaya gətirən ilk şəxs Adəm Peyğəmbərdir. Daha sonra

insanlar çoxaldıqca zaman-zaman bir olan Din doğru yoldan uzaqlaşmış, insanlar Tanrıdan aralanmış başqa-başqa Təbiət qüvvələrinə, canlı və cansız varlıqlara, özləri tərəfindən yapılmış bütlərə tapınmışlar.

Bütün insanlığı yenidən doğru yola yönəltmək üçün Tanrı Öz Elçilərini göndərərək onları doğru yola çağırmışdır. Beləcə, Haqq Dinlər formalaşmış və bu dinləri yaymaq və yaşatmaq üçün ayrı-ayrı millət və xalqları bu işə məsul etmişdir. Tanrının bu müəzzəm sınağından Türklər daha şərəflə çıxmışlar. Belə ki, Tanrı bəndələrini bir-birindən ayırmadığı halda, bəndələri Tanrını ayırmış, İlahi Din yerinə yeni-yeni insani dinlər icad etmiş, insan oğlunu bir-birindən ayırmış, bir-biri ilə qarşı-qarşıya qoymuşlar.

Halbuki, Din Tanrı tərəfindən insanlara bəxş edilmiş bir ilahi qanunlar toplusu – Anayasadır. Bütün bunları unudan yəhudilər qədim **Kanqar, Şumer, Akkad** və **Misir** mədəniyyətini və iudizmi mənimsəyib özləşdirdiyi kimi, avropalılar da qərbi Roma mədəniyyətini və xristianlığı, farslar **Turan, Elam, Midiya** və **Manna** mədəniyyətini və Türklərin **Atəşpərəstlik** dinini, ərəblər isə **Bizans** mədəniyyəti və İslam dinini mənimsəyərək özləşdirmiş və hətta özlərini bunların siyasi-ideoloci varisləri elan etmişlər.

Türk mədəniyyətini, Türk **Göy Tanrı** dini və Atəşpərəstliyini dananlar, Türk iradəsini qəddarlıq kimi qələmə verənlər, Türk yaradıcı təfəkkürünü mənimsəyib öz adlarına çıxanlar, Türk mərdliyini «avamlıq» adlandıranlar, Türkün qorxusundan Ona «vəhşi» damğası vuranlar, Ona böhtanlar atanlar bunu da bilməmiş deyillər ki, Dünya mədəniyyətini bir-biri ilə çulğalaşdıran Türklər dünya Dinlərini də çulğalaşdırıb adsız bəşəri bir Din yaratmışlar. Atəşpərəstliyi farslaşdıran perslərdən, Buddizmi hindiləşdirən hindlilərdən, İudizmi yəhudiləşdirən yəhudilərdən, Xristianlığı avropalaşdıran qərblilərdən, İslamı ərəbləşdirən ərəblərdən fərqli olaraq Türklər öz Ruhlar aləmi və Göy Tanrı inancının ilhamı ilə bəşəriyyətə bütün bu Dinləri ehtiva edən yeni bir Din bəxş etdilər. Özləri super etnos olduğu kimi yaratdıqları

mədəniyyətlər də, dil və ədəbiyyatlar da, Din də bəşəri oldu. Əsl bəşəri Din də məhz Türk təfəkkürünün bəxş etdiyi Dindir.

Göründüyü kimi, Din ayrı-ayrı xalqlar və insanlar tərəfindən **«təbii din, qurucusu olan din, milli din, bəşəri din, haqq dini və batil dinlər»** deyə bölümlərə ayrılmışdır. Türklər bu bölünmə və ayrılmaları doğuran səbəbləri aradan qaldırmış və yenidən həm bəşəri və həm də İlahi bir Din vücuda gətirmişlər. İnsanoğlunun yaratdığı bütün mənəvi və maddi dəyərləri mənimsəyib onlara yaradıcı yanaşan Türklər dünya dinlərinə də həssas yanaşmış, onların ağla, idraka sığmayan heç bir məntiqi əsası olmayan hissələrini atmış, mükəmməl bir Din sistemi yaratmış və bu mükəmməl sistemə inamla, imanla xidmət etmişlər. Bütün mövcud dinlərdəki ortaq inancları – **Tanrını, Mələkləri, Şeytanı, Peyğəmbərləri, Vəhyləri, Axirəti, Ədəbiyyəti, Taleyi** – qəbul edən Türklərin onların hər birinə də öz baxışı, öz inancı vardır.

Bütövlükdə Din haqqında da ağla, idraka sığar məsələləri ümumiləşdirən Türk düşüncəsinə görə:

Din Tanrı göstərişlərinin məcmusu, insanların həyat proqramıdır.

Din Tanrı tərəfindən insanlara verilmiş əmr və göstərişlərin toplusudur.

Din Tanrı elmidir.

Din əslində bir həyat nizamıdır. Tarixin bütün dövrlərində insanlar bu və ya digər dərəcədə Dinə maraq gömtərmişlər. Tarixdə Din qədər süreklilik göstərən ikinci bir dünyagörüş yoxdur. Bu da Dinin insan üçün nə qədər əhəmiyyətli olduğunu göstərən amillərdəndir. Dinsiz cəmiyyət məhvə məhkumdur.

Din geniş anlamda böyüklüyünə və müqəddəsliyinə inanılan bir güc qarşısında boyun əymək deməkdir. Bu boyunəymə ya tam bir çarəsizlikdən, ya da heyranlıqdan doğur. Bu çarəsizlik və ya heyranlıq duyğusu insanda gücə tapınma şəklində ortaya çıxmışdır. Gücünü sadəcə bəlli varlıq və ya hadisələrə deyil, bütün Kainatda hiss etdirən bu böyük Qüdrətə **Tanrı** deyilir. Məhz bu Ulu və sonsuz Qüdrətə

tapınmaya, sevgiyə, sayğıya və inama **Din** deyilir. Başqa sözlə, Din insanları Tanrıya tapındıran ilahi qaydalar toplusudur.

Din insanoğlunun sahib olduğu inancların, əxlaqi və mənəvi dəyərlərin bütünüdür.

Din fərdin və toplumun özü ilə Tanrı arasındakı mənəvi – əxlaqi sistemdir.

Özünə görə bir dünya quran insanoğlunun həyatda qarşılaşdığı ilk təməl mövzu Dindir. İnsanoğlu dünyanı elmlə, fəlsəfə ilə yanaşı, Dinlə də dərk edir. Çünki Din Dünyanın dərkini **İman, inam, inanc və məntiq** üzərində qurur. Dinin öz fəlsəfəsi, öz məntiqi var.

Fəlsəfədən fərqli olaraq Din təsadüfləri qəbul etmir. Dinə görə hər şey zərurətdir. Yaranan da, ölən də, olan da. Hər şeyi, hətta insan taleyini də Tanrı həll edir.

Din Tanrını insanlara tanıtdırır. Din Tanrı haqqında olan bilgiləri özündə cəmləşdirib nəsillərdən nəsillərə ötürür.

Din insanları öz fəaliyyəti ilə xeyrə yönəldən ilahi bir sistem toplusudur. Dini bəşəri sistemlərdən ayıran ən mühüm cəhət Onun ilahi vəhyə əsaslanması, Tanrı kəlamı olmasıdır.

Din Tanrı tərəfindən insanlara bəxş edilən, insanları dünyada və əbədiyyətdə xoşbəxt edən və qurtuluşa ulaşdıran inanc və davranış qaydasıdır.

İnsanların görünməyən Ulu Varlığın buyuruqlarına görə yaşama arzusu Dini həyatı meydana gətirir. Bu həyata girən insan Ulu Varlıqla içdən bir ilişgi qurur, Onun sevgisinə ulaşır, qəlbini Ona açır. Bu Dinin psixoloci bir yönüdür. Fəqət Dini həyat yalnız insanın iç dünyasında qalmayıb, eyni zamanda, tarix və cəmiyyətlə bağlı Dini adət-ənənə və törənlərdə də özünü göstərir. Dinin mahiyyətini anlaya bilmək üçün bu iki yön arasındakı uyumlu əlaqəyə diqqət etmək lazımdır. Əslində hər bir fərdin və bütöv bir miiiətin mənəvi dünyası məhz bəlli bir Dini inancla şəkillənmişdir.

Din özünü tanımayan insanı özünə tanıtdıran Tanrı lütfüdür.

Din insanlığın məşəlidir.

Din qarmaqarışıq dünyanın qurtarıcısıdır.

Din insanlara səadət yollarını göstərir, onların səadətə çatmalarına yardım edir.

Din insan cəmiyyətinin nizamı baxımından bəşəriyyətə lazım olan bir müəssisədir. Bu müəssisə nə qədər dərin təməllərə, nə qədər dərin hikmətlərə dayanarsa insanlığa bir o qədər xeyir vermiş olar.

Din mənəviyyat elmidir.

Din insan ruhuna ən səmimi qida, ən şən əhval – ruhiyyə verən bir təfəkkür formasıdır.

Din insanların islahıdır.

Din haqsızlıqlara, fəsadlara qarşı cihad və mübarizədir.

Din insanları yaxşı, xeyirxah işlərə dəvət və pis işlərdən çəkindirməkdir.

Din zülmü, zilləti qəbul etməməkdir.

Din izzət və məsuliyyətdir.

Dünyəvi hiss və duyğuların təbibi elmdirsə, insanı əbədi sonsuzluğa yüksəldən ilahi hisslərin təbibi Dindir.

Din insanların qəlbini Tanrıya açmasıdır.

Din ordu, güc və mütləqiyyət günəşi deyil, ibrət və zəka Günəşidir.

Din hətta dünya üçün də fəda edilməz.

İstibdadı mühafizə üçün Din rüşvət verilməz.

Din Günəş kimidir, üfləməklə sönməz.

Din gündüz kimidir, göz yummaqla gecə olmaz. Kim Dindən üz döndərib göz yumarsa, özü üçün qaranlıq yaradar.

Din Ərşdən – Tanrı dərgahından gəlmiş ən qüvvətli, ən mətin, qırılmaz, qopmaz bir nur zənciridir.

Din heç vaxt məğlub olmayan ilahi bir qaladır.

İnsanlığı ayağa qaldıracaq amil ağıl və fəlsəfə ilə yanaşı, həm də Dindir. İnsanlığın yaratdığı elm, hikmət və fəlsəfənin işığı qəbrin qapısına qədər, Dinin yaratdığı işıq isə həyatdan başlayıb Tanrı nuruna qovuşana qədərdir.

Din insan idrakı və insan psixologiyasına əsaslandığından Onda məhəbbət və qorxu hissi hakimdir. Bu hisslərin, duyğuların hər biri ayrılıqda bu və ya digər dərəcədə Haqqa xidmət edir.

Din insan həyatının mənası, onun adekvat ifadə formasıdır.

Din insanları həyatı sevməyə, ictimai qanunlara əməl etməyə, fərdi hüquq və azadlıqları, insan bərabərliyini qorumağa səsləyir.

Din öz hökmlərinin köməyi ilə insanları bir-birinə qarşı vəfalı və sədaqətli olmağa çağırır.

Din insanlar arasında əlaqələri ilahi prinsiplər əsasında müəyyən formaya salır və bununla da insanlar arasında bağlılıq və sabitlik yaradır.

Din əxlaqi və mənəvi dəyərlər üçün möhkəm dayaqdır. Dinə əsaslanmayan əxlaqi dəyərlər daimi ola bilmədiyi üçün tezliklə etibar və dəyərdən düşür.

Din ağla və iradəyə zidd olan hər şeyi rədd edir.

Din ilahi hökmlərin cəmi olduğundan həyatda Onun yerini heç bir şeylə doldurmaq olmaz.

Din Tanrını vəsf elmidir. Din Tanrını vəsf edərkən Onun mənfi sifətlərdən uzaq və pak adlandırıb. Din Tanrının gözəl adlarını və kamil sifətlərini bəyan edib.

Din insanlara Tanrını tanıma yollarını göstərib. Din insanların təkamül yolu ilə Tanrını tanıyacağına, Ona tapınacağına, sonda Ona qovuşacağına və bununla da əbədi xoşbəxtliyə və səadətə çatacağına tam əmindir. Bilmək gərəkdir ki, Dinin məqsədi Tanrıya inam olsa da, hələ də insanlar Tanrını qavramaqda vahid bir fikrə gələ bilməyiblər.

İnsanın kamilliyi Dindən keçir. Dinə sahib olmayan insan imana çata bilməz.

Din Tanrını mütləq təsirə malik olan və qarşısında heç bir rəqib olmayan Qüdrət elan edib.

Din həyatda bütün təsir, iradə və ixtiyarların Tanrı hökmü və Onun təqdiri ilə olduğunu açıqlayıb.

Dində insanlar üçün çətinlik yaradacaq heç nə yoxdur. Müqəddəs ayədə buyurulduğu kimi**: ”Tanrı Dində Sizin üçün heç bir çətinlik yeri qoymadı”.**

Din istismarı, israfı, rüşvət, sələm və möhtəkirliyi haram hesab edir. Din əməli surətdə nadanlığı, fikir və əqidə

azğınlığına sürükləyən şeyləri, fərd və cəmiyyətə ziyan vuran yollarla gəlir əldə etməyi qadağan edir.

Din yaşanan həyatı mənasız hesab etmir, əksinə, onu "Axirət dünyası"na hazırlıq mərhələsi adlandıraraq insanları daha da məsuliyyətli olmağa çağırır.

Dinin yaranmasından minlərlə illər keçsə də, insanlar hələ də Onu tam qavramağa hazır deyil. Bunun əsas səbəblərindən biri də mövcud Dinlərin hər birinin özünəməxsusluğu, birinin digərini qəbul etməməsi və bununla da dünya nizamını pozmasıdır. Deməli, bütün bu ziddiyyətlər saf – çürük edilməli, insan idrakına uyğunlaşdırılıb bəşər cəmiyyətinin ümumi nizamına tabe edilməli, hikmət sahiblərinin idrakı Həqiqət güzgüsü üzərində şübhə tozu qoymamalıdır. Müdriklərin dediyi kimi:

**"Din bir olsaydı yer üzündə əgər,**
**Daha məsud olurdu cinsi–bəşər".**

Unudulmamalıdır ki, ayrı-ayrı fərdlər Dinsiz yaşaya bilsələr də, bəşəriyyət Dinsiz yaşaya bilməz. Oyanmış, özünü və həyatı dərk etmiş, insanlığın mahiyyətini anlamış İnsan Dinsiz yaşaya bilməz. Oyanmış bəşər qeyri-məhdud idrakına dayanaraq istinadgahın son nöqtəsi olan Tanrıya doğru inamla addımlamalıdır. Çünki elm və fəlsəfə ilə yanaşı, Din də cəmiyyətin ağıl və məfkurə qüvvəsidir. Əgər bunlar bəşər övladının qafatasından silinib getsə, insanlıq divanə həddinə çatar. Deməli, Din, elm və fəlsəfə **Yer** ilə **Göyü**, **Ərş** ilə **Fərşi** bir-birinə bağlayan həlqələrdir. Bu həlqələr qırılsa, daha doğrusu, İnsanla Tanrı arasındakı əlaqə kəsilərsə, insan məhv olar. Buradan belə bir nəticə hasil olur ki, Din, elm və fəlsəfə Göyü yox, məhz Yeri, Tanrını yox, İnsanı mühafizə edir. Ona görə də, Dini qorumaq və elmi inkişaf etdirmək Yer kürəsini və qarşılıqlı olaraq bütün canlı mövcudatı qorumaq və yaşatmaq deməkdir.

## Türklərdə Mələk və Şeytan anlayışı

Türk dini dünyagörüşü tək Tanrını qəbul etdiyindən Onun yaratdığı bütün Varlıqları da qəbul edir. Bu Varlıqlar içərisində Mələklərin xüsusi önəmi vardır.

Tanrının vasitəçiləri olan Mələklər bütün səmavi dinlərdə Tanrı və Axirət kimi ortaq anlayışlardır. Fəqət bütün dinlərdə Mələklər haqqında fikirlər də müxtəlifdir. Ona görə də, insan cəmiyyəti hələ indi də Mələklər haqqında vahid bir fikrə gələ bilməyiblər. Belə ki, bəzi dinlərdə hətta Mələkləri cinsinə görə bölərək Onları qadın (Xristian dinində – A. M.) və ya kişi (İslam dinində Mələklər kişi, Məleykələr isə qadın – A. M.) hesab etmiş, bəziləri Onları sırf Ruhdan, bəziləri isə Ruh və Bədəndən ibarət saymış, bəziləri gözəgörünməz, bəziləri hətta gözə görünən kimi təsvir etmişlər.

«Tövrat»da Mələklərdən Mikayılın (yeganə baş Mələk), Cəbrayılın (Şeypuru səsləndirən), Kerubimin və Serafimin (hər ikisi qanadlı məxluqlar kimi təsvir edilir- A.M.), «İncil»də Mikayıl və Cəbrayılın, «Quran»da isə Mikayıl və Cəbrayıllə yanaşı Əzrailin, İsrafilin, Harut və Marutun da adları çəkilir.

Mikayıl «Tövrat»da İsrailin xüsusi mühafizəçisi və baş rəislərindən biri, Musa ilə Sina və Horev dağında danışan yeganə baş Mələk kimi göstərilir.

Cəbrayıl isə «Tövrat»da qoç və keçi haqqında olan yuxunu Danielə izah edən və «Yetmiş həftə» haqqında Peyğəmbərliyi elan edən yeganə səlahiyyətli şəxs kimi çıxış edən Mələk kimi göstərilmişdir.

«İncil» də isə Mikayıl Musanın cəsədi üstündə Şeytanla mübahisə edən və göylərdə İblisə qarşı olan döyüşə rəhbərlik edən kimi təsvir edilmişdir.

Cəbrayıl isə «İncil»də Zəkəriyyəyə və bakirə Məryəmə görünərək iki «Böyük döyüş» - Zəkəriyyə və Elizavetdən Yəhyanın, Müqəddəs Ruhla Məryəmdən İsa Məsihin olacağı haqqında xəbər verən və Tanrı hüzurunda yüksək rütbəyə malik Mələk kimi təsvir edilmiş, Hətta Ona Tanrının Elçisi olmaq vəzifəsi tapşırılmışdır.

«Tövrat»da adı çəkilən Kerubim və Serafim isə qanadlı məxluqlar kimi təsvir edilərək Tanrı tərəfindən «Həyat ağacı»nı qorumaq üçün Kerubim odlu qılıncla «Ədən bağı»nın şərq girəcəyində yerləşdirilmişdir. Kerubimlər hətta «canlı məxluq» adlandırılaraq hər bir Kerubim dörd sifətdə – İnsan, şir, öküz və qartal sifətində təsvir olunmuşdur. Onların hər birinin – ikisi aşağıda, ikisi yuxarıda olmaqla bədənini örtmək üçün dörd qanadı göstərilmişdir.

Serafimlər isə «Tövrat»da altı qanadlı və uça bilən kimi təsvir edilmiş və qanadları nəzərə alınmasa, xarici görünüşləri İnsan formasında göstərilmişdir. Onlar da Kerubimlərlə yanaşı «Səma taxtı»nı birgə mühafizə edirlər. Bütün bunlar əslində Dinin yox, mifik təfəkkürün məhsuludurlar.

«Quran»da isə Tanrı anlayışı kimi Mələk anlayışı da mücərrəddir. Belə ki, «Quran»da Mələklərdən Mikayıl Tanrının ruzi, Cəbrayıl vəhy və elm, İsrafil dirilik, Əzrail isə can alma vasitəçisidir. Həmçinin, «Quran»da qeyd edildiyi kimi, Tanrının bir Mələyi vardır ki, O hər gün insanlara söyləyir: «Ey insanlar! Doğulun, ölmək üçün! Toplayın, dağılmaq üçün! Qurun, yıxılmaq üçün!»

Başqa bir Mələk isə belə söyləyir:

«Ey insanlar! Ölün, doğulmaq üçün! Dağılın, toplanmaq üçün! Yıxılın, qurmaq üçün!»

Başqa bir ayədə isə buyurulur ki:

«Hər bir insanın önündə və arxasında Mələklər vardır. Onlar Tanrının əmri ilə o insanı qoruyurlar».

«Quran»a görə Mələklər Tanrının «tədbir məmurları və haqq ordusu, Xilqət və yaradılış aləminin tədbirçiləri»dirlər.

Mələk və Məlaikələrin sayı haqqında da heç bir Müqəddəs Kitabda məlumat verilmir. Yalnız bəlli olan budur ki, Onlar çoxdurlar və çoxsaylı Mələklər arasında müxtəlif dinlərdə müxtəlif vəzifə bölgüsü mövcuddur. Hər halda Mövcud Səmavi Kitablarda və Babil mənbələrində yeddi baş Mələk qeyd edilir. Bunlar: Mikayıl, Cəbrayıl, İsrafil, Əzrail, Əzazil (İblis), Kerubim, Serafim («Tövrat»da – A.M.), Harut və Marutdur («Quran»da –A.M.).

Bütün dinlərdə Mələklər haqqında ümumi cəhətlərdən biri də budur ki, Mələklər insandan əvvəl yaradılmışlar. Bədəndən və Ruhdan ibarət olan insandan fərqli olaraq Onlar cisimsiz Varlıqlar kimi təsvir edilmiş («Tövrat» və «İncil»də bəzən Onlar cisim kimi də göstərilmişdir – A.M.), Onlar insanlar və digər varlıqlar kimi doğub doğurmur, artıb azalmırlar. Onlar əbədidirlər. Heç zaman qocalmır, ölmürlər.

Mələklərin ali Varlıq kimi tamamilə Ruhdan yaradıldıqlarına baxmayaraq Tanrı İnsanı Onlardan üstün tutmuş və Onları Adəmə səcdə etməyə məcbur etmişdir. Fəqət Onlar Tanrı kəlamlarında İnsandan daha güclü, daha qüdrətli təsvir edilmişlər. Mələklərin gücü və qüdrəti Onların şəxsi gücü və qüdrəti deyil, Onlara Tanrı tərəfindən verilən səlahiyyətlərdir.

Xristian dünyasında Angel adlanan bu Varlıqlar əslində Tanrı ilə Onun Elçiləri arasında əlaqəçidirlər. Bu baxımdan Mələklər Tanrının xidmətçiləridirlər.

İnsandan fərqli olaraq Mələklər Tanrını görürlər. Bu baxımdan Mələklər İnsandan yüksəkdirlər və daim Tanrıya səcdə edirlər.

Mələklər Həmçinin Tanrının işlərindən və lütfündən həzz alır, fərdi insanlarla maraqlanır, onların bütün işlərindən xəbərdar olurlar.

Mələklərin Yerdəki əsas fəaliyyətləri Tanrının iradəsini yerinə yetirmək, Tanrı düşmənlərini cəzalandırmaq, Tanrı dostlarına yardım etməkdir. Onlar Tanrı dostlarını dərin imanlarına görə həmişə qoruyur, onlara öz işlərini yerinə yetirmək üçün güc və qüvvət verirlər.

Bütün insanlarda bu və ya digər dərəcədə Mələklərə, pis və ya yaxşı ruhlara inam və Onlardan qorxu var.

Mələklər də Peyğəmbərlər kimi Tanrıya təriflər söyləyir, iman gətirir və iman gətirənlərin bağışlanmasını Tanrıdan diləyirlər:

«Rəbbimiz! Sən öz mərhəmət və biliyinlə hər şeyi əhatə edirsən! Tövbə edib Sənin yolunla gedənləri bağışla və onları Cəhənnəm əzabından qoru! Rəbbimiz! Onları, onların ata-analarından … nəsillərindən əməlisaleh olanları vəd etdiyin

Ədən bağlarına daxil et… Onları pis əməllərdən qoru… Sən kimi… pis əməllərdən qorusan, ona mərhəmət göstərmiş olarsan…».

Həmçinin Mələklər «…Öz Rəbinin şəninə həmd ilə təriflər deyir və Yerdə olanlar üçün bağışlanma diləyirlər».

Tanrı bütün Mələkləri kamil yaratmış və başlanğıcda Onlarda heç bir ruhi pozğunluq əlamətləri yox idi. Onlar eyni zamanda azad iradəyə malik olduqlarından günaha və tamaha da uğraya bilərdilər. İlk öncə kamil varlıq olan İblisin günaha necə meyl etməsi bir Tanrı sirri olaraq qalmaqdadır. Bəlli olan budur ki, İblis bütün Mələklərdən fərqli olaraq təkəbbürlük göstərərək Tanrının əmrindən çıxdığı və Adəmə səcdə etmədiyi üçün Tanrı dərgahından qovulmuşdur. İblisin Mələk olarkən Tanrı yanında mövqeyi uca, adı isə «Əzazil» idi. Öz ləyaqətini hifz etməyib, qisas məqsədi ilə aldatdığı Adəm və Həvva və ətrafı ilə birgə Öz məskənini tərk etdi və Tanrı tərəfindən lənətlənərək «Şeytan» adı aldı və Yerə Şeytan kimi düşdü.

Müdriklər söyləyiblər ki:

«***Əgər olmasaydı özü də Şeytan***
***Şeytana min lənət oxurdu Şeytan».***

Müqəddəs Kitablarda İblis, Şeytan adlandırılan bu Varlığın şəri təmsil edən bir çox sinonim və məcazi adları da vardır. O, İlan, Rəqib, Düşmən, Yalançı, Qatil, Belial, Baal-Zevul, İnsanı düz yoldan çıxaran, şər bir Varlıq kimi göstərilmişdir.

Şeytan Müqəddəs Kitablarda İnsanı «yoldan azdıran», Tanrı kəlamını «onun ürəyindən oğurlayan», «yaxşı toxumlar arasına dəlicələr səpən», «İnsanın və Tanrının düşməni», «başlanğıcdan İnsan qatili», «yalançı və yalançının atası» və s. kimi səciyyələndirilmişdir. Müqəddəs ayələrdə buyurulur ki:

«Ey insanlar!.. Şeytanın izi ilə getməyin. Həqiqətən Şeytan sizinlə açıq-açığına düşməndir».

«Şeytan sizə ancaq pis və murdar işlər görməyi və Tanrıya qarşı bilmədiyiniz şeyləri deməyi əmr edər».

«Şeytan cahil insanlara vədlər verir, onların ürəklərində yalançı arzular oyadır».

«…Şeytan insanın açıq düşmənidir…O Şeytan ki, cinlərdən də olur, insanlardan da».

Şeytan Tanrıya xidmətləri müqabilində Ondan sifət dəyişikliyi etmək, İnsan qəlbinə girmək və «Qiyamət günü»nə qədər yaşamaq izni almışdır. Bu iznin müqabilində, Şeytan Tanrı tərəfindən lənətlənərək son məhkəməyə məhkum edilmişdir. Tanrı dərgahından qovularkən Şeytan Tanrıya xitabən söyləmişdir ki:

«Rəbbim! Məni bu hala saldığın üçün Mən də Yer üzündə… insanlar arasındakı Sənin sadiq bəndələrindən başqa… onların hamısını yoldan çıxaracağam».

Əslində Tanrı bu səlahiyyəti Şeytana ona görə verib ki, insanları saf-çürük etsin. Şeytana uyaraq xəyala qapılanlar günah işlədərək bədənlərini və ruhlarını murdarlayır, idraksız heyvanlar kimi zərərli əməllərlə özlərini həlak edirlər. Belələri qarınlarını doyurmaq, öz şəhvətlərini söndürmək, var-dövlət əldə etmək üçün hər cür yaltaqlıq və alçaqlıqlara baş vururlar. Ona görə də Tanrı belələrini rəzil, ehtiraslarına təslim edərək onları Şeytanın ixtiyarına verir. Şeytan isə onları hər cür haqsızlıq, pislik, tamah, kin, həsəd, paxıllıq, hiylə, ədavət, qatillik, böhtan və təkəbbürlə silahlandıraraq insanlığı haqq yoldan sapdırmağa sövq etdirir.

İlk öncə Şeytan Adəmin qəlbini buğda dənəsi ilə alıb onu Özünün quluna çevirdi. Daha doğrusu, İnsan öz azadlığını çörəyə qurban verdi. Və beləliklə də Şeytanın ruhu İnsana daxil olaraq onda öncədən Tanrı tərəfindən bəxş edilmiş ilahi Ruhla ikiləşmiş oldu. İnsanda iki «Mən» yarandı. Və bu iki «Mən» əbədi olaraq bir-biriylə mübarizəyə başladı. Bu mübarizənin qələbəsindən asılı olaraq Tanrı Ruhu qalib gələn – İnsan, Şeytan ruhu qalib gələn isə heyvan adlandı. Şeytanın İnsanı yoldan çıxarma istəyi insanlığın ən böyük həqiqətinə çevrildi və Şeytan İnsan üzərində Öz qələbəsini təmin edərək Bəşəri ikiyə ayırdı. İnsanlıq hələ də nəyin Xeyir, nəyin Şər olduğunu dərk edə bilməyib. Artıq elə bir vəziyyət yaranıb ki, Şeytan həyatın bütün sahələrinə nüfuz edərək insanlığı öz məhvərindən çıxarmış, insanları Şeytanıləşdirərək haqq yolundan ayırmış,

Şeytan qalib bir sərkərdə kimi insanları Öz arxasınca Cəhənnəmə doğru sürükləməkdədir.

Türk düşünürlərinə görə isə Tanrı «Şeytanı İnsana ona görə yol yoldaşı etmişdir ki, İnsanı yaradıcı işə sövq etdirsin». Baxmayaraq ki, Şeytan İnsanla pişik siçanla oynadığı kimi oynayır. İnsan bilməlidir ki, «Şeytanın gücü ancaq Onu özlərinə himayəçi edənlərə və Onu Tanrıya şərik qoşanlara çatır» və «Həqiqətən Şeytanın iman gətirib öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmü yoxdur».

Həyatda Şeytana uymamaq, heyvani nəfsi öldürüb pis əməllərdən uzaqlaşaraq günaha batmamağın yeganə çarəsi daim Tanrını anmaq, Ona yaxınlaşmaqdır. Çünki harada Tanrı anılırsa, orada Şeytan yoxdur. Şeytan yalnız Tanrıdan qorxduğu üçün həmişə Ondan qaçır. Tanrını unutmayan Şeytandan qorxmaz. Müqəddəs ayədə də buyurulduğu kimi:

«Əgər sənə Şeytandan vəsvəsə gələrsə, onda Tanrıdan kömək dilə. Tanrı eşidən və biləndir».

Türk düşüncəsinə görə «Şeytan şər saçmaqla Xeyrə yol açan qadir bir qüvvənin bir hissəsidir». Şeytan hər şeyi inkar edən, bütün bədbəxtliklərin, şərin səsi olsa da, bütün murdarlıqların havadarı olsa da, insanları elmə, ürfana, ən Ulu Qüdrətə nifrət etməyə, göz qamaşdıran zərli-zibalı yalanlara uymağa sövq etdirsə də, insanları boş şeylərlə yükləyərək həyat vəhşətlərinə sürükləsə də, şərbət yerinə zəhər içirərək İnsan oğlunun dinclik və rahatlığını pozsa da, həyat səhnəsinin ən təbii suflyoru olsa da, Şeytan qoca, bəşər cavan olsa da, ölümlə, şərlə nəfəs alsa da, insanlığın bütün şər işlərinə nəzarət etsə də, bir çox ruhları göydəcə qapıb özünə xidmətə yönəltsə də O, heç də hər şeyə qadir və hər şeyi bilən deyil. İnsan Şeytanı bəhanə gətirərək məsuliyyətdən boyun qaçırmamalı, öz insanlıq adına layiq olmalı, şərə qalib gəlməlidir.

## Türklərdə Peyğəmbər sevgisi və Vəhy anlayışı

Tanrını insanlığa tanıtdıran Onun insanlar içərisindən seçdiyi Peyğəmbərlər, Övliyalar, Dahi və Müdrik şəxsiyyətlərdir.

Türklər Tanrı tərəfindən bəşəriyyətə bəxş edilmiş Peyğəmbərləri, Övliyaları, Dahi və Müdrik şəxsiyyətləri özlərindən saymış, Onların insanlığa ərməğan etdiklərini həyata keçirməyə səy göstərmiş və beləliklə də Türklər Yer kürəsinin Tanrı tərəfindən təyin edilmiş idarəedicisi, nizamlayıcısı olmuşlar. Ona görə də yüz iyirmi dörd min Peyğəmbər, bir o qədər də Övliya, Dahi və Müdriklər Türklər üçün doğma, müqəddəs sayılmışlar. Çünki Peyğəmbərlər Tanrı Elçisi, Övliyalar, Müdriklər, Dahilər isə seçkin insanlardır. Onlar insanlara Tanrı nuru paylayanlardır. Bu nurdan faydalana bilənlər əbədiyyətə qovuşur. Müqəddəs Kitabda buyrulduğu kimi:

*«Qoy Sizin* (Peyğəmbərlərin – A.M.) *işığınız insanların qarşısında elə parlasın ki, xeyirxah işlərinizi görsünlər və Göydəki Tanrıya həmd etsinlər».*

Peyğəmbərlər «Tanrının doğru yola yönəltdiyi Şəxslərdirlər». Onlar Tanrı tərəfindən islah olunmuş İnsanlardırlar. Onlar insanların təkəbbürünü yox etmək üçün zühur etmiş, insanları şeytani nəfsin çirkinliklərindən pak etməyə çalışmışlar. Çünki şeytani nəfs və təkəbbür insanı xeyir əməllərdən ayıraraq onu şər işlərə vadar edir. İnsan vücudunun və hisslərinin ayrılmaz tərkib hissəsi olan nəfsin cilovu buraxıldıqda o, quduzlaşır və insan onun əmrlərinə boyun əydikdə öz şəxsiyyətini, şərəf və ləyaqətini itirir, insanlıqdan çıxır. Heyvanıləşir. Deməli, Peyğəmbərlərin əsas vəzifələrindən biri də məhz insanın şəxsiyyətini, şərəf və ləyaqətini qorumaq, onu özünə qaytarmaqdan ibarətdir. Müqəddəs ayədə buyurulduğu kimi:

*«Biz Peyğəmbərləri mücdə gətirən və əzabla qorxudan kimi göndərdik ki, daha insanlar üçün Peyğəmbərlərdən sonra Tanrıya qarşı bir bəhanə yeri qalmasın».* Və unutmasınlar ki:

*"Kim Tanrıya və Onun Peyğəmbərlərinə qarşı çıxsa, Tanrı ona şiddətli əzab verər".*

Tanrının Peyğəmbərləri göndərməsində əsas son məqsəd insanların düz yola dəvət edilməsi, onların səadəti, xoşbəxtliyi, qurtuluşu və nicatı, Tanrını tanıyaraq Ona yaxınlaşmaq, insanlar arasında ədalət və bərabərliyi bərqərar etməkdir.

Müqəddəs Kitabda göstərilir ki: *"Hər bir ümmətin bir Peyğəmbəri vardır. Onların Peyğəmbəri gəldikdə onlar arasında ədalətlə hökm verilər və onlara zülm edilməz".*

Hər xalqın bir Yolgöstərəni vardır. Peyğəmbərlər Tanrının haqq yolçularıdırlar. Onlar Tanrıya doğru olan yolun əlamət və nişanələridirlər. Onlar bəşəriyyəti haqqa, ədalətə səsləyən həqiqət yolçularıdırlar. Tanrı hər bir millətə Peyğəmbər göndərmiş və buyurmuşdur ki:

*"Biz hər bir Peyğəmbəri ancaq Öz camaatının dilində danışan göndərdik ki, onlara aydınlaşdıra bilsin".*

İnsanın Peyğəmbər kimi göndərilməsinə şübhə edənlərə qarşı Tanrı buyurmuşdur ki:

*"De ki, əgər Yer üzündə rahat gəzib dolaşanlar İnsan deyil, Mələklər olsaydı, Biz də Göydən onlara Mələyi Peyğəmbər kimi göndərərdik".*

Tanrı insanlara yüz iyirmi dörd min Peyğəmbər göndərmişdir. Onlardan az bir qisminin adı və fəaliyyəti haqqında məlumat vardır. Onlardan birincisi insanların ulu babası sayılan Adəm Peyğəmbərdir, sonuncusu isə Məhəmməd Peyğəmbərdir.

Peyğəmbərlər iki dəstəyə bölünürlər. Birinci dəstəyə "ululəzm" adlanan şəriət sahibi olmuş Peyğəmbərlər daxildir ki, Onlara insanları tərbiyə etmək üçün bir sıra Tanrı qanun və hökmləri vəhy edilmişdir. Onların sayı dəqiq bilinməsə də Müqəddəs Kitab olan "Quran"da adı çəkilən Adəm, Nuh, (bizcə həm də Azərdüşt – A.M.), İbrahim, Davud, Musa, İsa Məsih və Məhəmməd (s) "ululəzm" Peyğəmbərlərdəndirlər. Çünki bu Peyğəmbərlər din yaratmışlar.

İkinci dəstəyə isə şəriət və qanun sahibi olmayan və yalnız yaşadıqları dövrdə mövcud olan ilahi şəriət qanunlarını təbliğ edərək yaymaq vəzifəsini həyata keçirən Peyğəmbərlər daxildir. Müqəddəs Kitab "Quran"da adı çəkilən Hud, Lut, (bizcə həmçinin Xızır, İlyas, Qutay, Azər, Yafəs, Arcuna, Mani və s. – A.M.), Saleh , İshaq, İsmayıl, Yəqub, Yusif, Şueyb, Harun, Süleyman, Zəkəriyyə, Yəhya və s. bu dəstəyə daxil olan Peyğəmbərlərdəndirlər. Müqəddəs ayədə də Tanrı buyurmuşdur ki:

*"Biz bu Peyğəmbərlərin bəzisini digərindəq üstün etdik. Onlardan eləsi var ki, Tanrı Onunla danışmış və bəzisini yüksək dərəcələrə çatdırmışdır".* Məhəmməd Peyğəmbər haqqında buyurmuşdur ki*: "Həqiqətən də Sən* (Məhəmməd (s) – A.M.) *mürsəl Peyğəmbərlərdənsən". "Biz Səni* (Məhəmməd Peyğəmbəri – A.M.) *haqq ilə Mücdəçi, Öyüd-nəsihətçi olaraq göndərdik. Elə bir millət yoxdur ki, onun içərisində bir Öyüd-nəsihətçi olmasın". "Tanrıya ibadət edin! Bütlərdən uzaq olun!"*

Tanrı Özünə xalis bəndəlik edən şəxslərə yüksək məqamlar bəxş etmişdir. İnsanlıq içərisində ən yüksək məqam Peybəmbərlikdir. Peyğəmbərlər Tanrı ilə əlaqə saxlayan və bir sıra ilahi üstünlük və xüsusiyyətlərə malik insanlardır. Peyğəmbərlər digər insanlardan fərqli olaraq qeyri-adi təfəkkürə, gücə və qüdrətə malikdirlər. Onlar insanlığın xeyir və səadəti naminə bütün əzab-əziyyətlərə səbrlə dözmüş, ən böyük inqilablar gerçəkləşdirmiş, bugünə qədər gəlib getmiş İnsanların ən seçkini olmuşlar. Bunun nəticəsidir ki, bugün belə milyardlarla insan seli Onların açdığı bu səadət yolu ilə əbədiyyətə doğru irəliləməkdədirlər.

Peyğəmbərlər qeybdən məlumat əldə etmək səlahiyyətinə malik İnsanlardırlar. Onlar digər insanlardan fərqli olaraq ilk öncə Xalqdan Haqqa doğru yüksələrək seyrə çıxmış, daha sonra isə Haqqla Xalqa doğru qayıdaraq tarixin gedişini Öz əllərinə almış və bu yolla «Kamillik Dünyası» yaratmaq üçün insanların həyatını sahmana salmış, onları düzgün yola yönəltmək üçün Tanrının əmrlərini insanlara çatdırmışlar.

Peyğəmbərlər insanları sülhə, səmimiyyətə, düzgünlüyə, bir-birlərinə əziyyət verməməyə, məhəbətə, ədalətə, həqiqətə,

mərifətə, gözəl əxlaqa dəvət etmiş, Tanrıdan başqa heç bir varlığa boyun əyməməyə çağırmış, insanları nəfsani istəklərdən və müxtəlif azdırıcı şeylərdən çəkindirməyə çalışmış, onları əsarət zəncirindən xilas edib, azad yaşamağa sövq etmişlər.

Peyğəmbərlər cəhalət və nadanlığa, zülm, istibdad və haqsızlıqlara qarşı mübarizə aparmış, digər insanlara nümunə olmuşlar. Onların niyyətləri saf və pak olduğundan xidmətləri müqabilində insanlardan heç bir şey ummamış, onları yalnız Tanrıya sədaqətli bəndəlik etməyə səsləmiş, dəvət və çağırışlarında misilsiz qətiyyət göstərmişlər.

Peyğəmbərlər bəşəriyyətin dünyagörüşünü hiss aləmindən ağıl və düşüncəyə, məhdudiyyətdən sonsuzluğa doğru istiqamətləndirməyə səy göstərmiş, Tanrı ilə insanlar arasında vasitəçi rolu oynamışlar. Onlar həmişə yüksək insani məqsədlər daşımış və insanları səadətin təməli olan əxlaq və fəzilətə səsləmişlər. Onların ideyalarının əsasını Tanrını insanlara tanıtmaq və sədaqət, ədalət, şərafət, əxlaq, yaxşılıq, xeyirxahlıq və s. kimi insani dəyərlər təşkil edir. Bu cəhətdən Onlar həm ilahi, həm də insani keyfiyyətlərə malikdirlər. Onlar heç vaxt şeytani nəfsin istəklərinə tabe olmamış, heç bir xəta və səhvə yol verməmiş, günah işlətməmiş, həmişə varlıqların gerçəklikləri ilə əlaqə yaratmış, Varlığın mənşəyinə qovuşmuş və bununla da hər bir mənfilikdən uzaq olmuş, aləmin fəxri, insanlığın şərəfi sayılmışlar. Peyğəmbərlər qınından sıyrılmış parlaq və ilahi bir qılıncdır ki, Onlarla qaranlıqlar aydınlaşmış, Onların nuru Cahana feyz və hidayət saçmışdır.

Peyğəmbərlər Tanrı şahididirlər. Onlar bunun üçün doğulmuş, bunun üçün Dünyaya gəlmişlər ki, Haqqa şəhadət etsin, Tanrı Varlığını tanıtsınlar. Tanrı haqqında söylənən ən mühüm söz, ifadə və fikirlər Peyğəmbərlərə məxsus olduğundan Haqq tərəfdarı olan hər bir şəxs bu gerçəkliyi – Onların Peyğəmbərliyini qəbul edir.

Peyğəmbərlik Tanrıdan gəldiyindən Peyğəmbərlər həqiqət möcüzəsidirlər. Onlar Tanrı tərəfindən Şeytanın əməllərini dəf etmək üçün seçilmiş, insanları qaranlıqdan aydınlığa çıxarmaq və Şeytanın əsarətindən qurtarıb Tanrıya döndərmək üçün təyin edilmişlər. Onlar Tanrının fəzilətlərini elan edərək bəşər

övladını Haqqa qovuşdurmağa çalışmışlar. Tanrının insanlar arasından seçdiyi bu Peyğəmbərlər heç bir səhvə yol verməmiş, heç bir günah işlətməmişlər. Çünki Onların bütün hərəkətləri Tanrı tərəfindən tənzimlənmişdir.

Peyğəmbərlər yaradılmışlar içərisində ən mükəmməl fərdlər, insanlar içərisində ən ali Şəxsiyyətlərdir. Onların mirası Tanrını anma dərsidir. Onlar bəşəriyyətə Tanrıya tapınmaq, əzəliyyət və əbədiyyət dərsi öyrətmişlər. Tanrının lütfü Onların həvəs qardaşı, rəhmi yol yoldaşıdır.

Peyğəmbərlər insanları əbədi səadətə, rəhmətə, hikmətə, ədalətə və nəhayət Cənnətə qovuşdurmaq üçün hər yerdə ölümü bədənlərində gəzdirərək Tanrı nurunu insanlar arasında paylamışlar. Onlar həmçinin Tanrı ayətlərini Kitab şəklində tərtib edərək insanlığa sunmuş, Tanrı dərgahının bir çox sirrlərini insanlara bəyan etmiş, ilahi bir güzgü vəzifəsini yerinə yetirmişlər.

Peyğəmbərlər düzgün, pak və ləyaqətli insanlar olduqlarından Tanrı Onları Özü ilə insanlar arasında əlaqəçi təyin etmiş, Onlar da ilahi söz və göstərişləri vəhy yolu ilə Tanrıdan alıb insanlara çatdırmış, bəşəriyyəti xeyirli işlərə yönəltmiş «Nəbi» adı qazanmışlar. Onlar vəhy vasitəsilə «Qeyb Aləmi»ndən məlumat əldə etmək səlahiyyətinə malik olan seçkin insanlardır. Bəşəriyyətin ilahi ehtiyaclarından doğan vəhylər Onlara misilsiz qətiyyət vermiş, Onların vücudunda batini inqilab və dirçəliş yaratmış və bu dəyişiklik də bəşəriyyəti tərəqqiyə doğru istiqamətləndirmişdir. Peyğəmbərlərin əsas bilik qaynağı olan səmavi vəhy heç bir səhvə uğramayan xüsusi və sirrli bir xəbərləşmə vasitəsi, gizli idrakı bir bilikdir. Tanrı idrakına əsaslanan belə bir bilik və təlimata isə insanlar yalnız etimad göstərməlidirlər. Çünki vəhy idrakı bəşəriyyətin adi idrakı kimi deyildir. Vəhy qeyri-adi bir idrak, sirrli xəbərləşmə sistemi olub yalnız Peyğəmbərlərə məxsusdur ki, bu sirrli sistem vasitəsilə də Onlar Tanrı ilə əlaqə yaratmışlar. Onlar məhz bu sirrli sistem olan vəhy vasitəsilə həqiqətləri insanlara anlatmış, onların ağıl və biliyini zənginləşdirmişlər. Müqəddəs ayədə buyurulduğu kimi:

*«Tanrı heç vaxt kamil olmayan və ağlı öz ümmətinin ağlından az olan Peyğəmbər göndərməyib».*

Deməli, Peyğəmbərlərin göndərilməsinin mühüm səbəblərindən biri də məhz insanların naqis ağlını və biliyini təkmilləşdirmək olub.

Peyğəmbərliyi qəbul etməmək bəşəri dəyərləri, insani fəzilətləri inkar etmək deməkdir. Əslində bəşəriyyət Onların və Onların davamçıları olan övliyaların, müdriklərin, dahilərin, bir sözlə, intelektlərin çiyinləri üzərində əbədiyyətə doğru addımlayır. Artıq bəşəriyyət elə bir mərhələyə yüksəlib ki, Peyğəmbərlik məktəbinin təlimləri insanlara tam və kamil şəkildə çatdırılıb və Peyğəmbərlik məhz Məhəmməd Peyğəmbərlə sona yetib. Peyğəmbərliyin sona çatdığı dövr bəşəriyyətin öz uşaqlıq dövrünü başa vurduğu bir dövrə təsadüf edir. Peyğəmbərliyin sona çatması ilə xülya, mif və xəyallar dövrü bitmiş, onların yerini ağıl, məntiq və elm tutmuş, bəşəriyyət uşaqlıq dövrünü arxada qoyaraq həddi-büluğ mərhələsinə qədəm basmışdır. Artıq bəşəriyyət yaratdığı elmi və dini miraslarını qorumaq, yaşatmaq, yaymaq, tədris etmək və inkişaf etdirmək bacarığı əldə etməmişdir. İnsanlıq gedəcəyi bütün fərdi və ictimai yolları birdəfəlik aşkar etmiş və bu yolla Tanrıya doğru irəliləməkdədir. Çünki artıq Peyğəmbərlərin təlimləri təkcə avam və savadsız insanlar üçün deyil, əqli cəhətdən yetkin, elmli, bilikli insanlar üçün də bir möcüzəyə çevrilmişdir. Dünyanın ən böyük müdrikləri, dahiləri belə, Peyğəmbərlərin təlimini qəbul etmişlər. Çünki Peyğəmbərlər sözün həqiqi anlamında insanlığın zirvəsidirlər.

## Türklərdə Vəhy anlayışı

Türklər tarixən ağla batan hər şeyi gerçəklik kimi qəbul etmişlər. Onlar bütün dinlərdə müqəddəs hesab edilən hər şeyə sayğı ilə yanaşmış, onlara Türk idrakına, Türk zəkasına, Türk dilinə xas məna çalarları bəxş etmiş, onların yaradıcıları olan xalqlardan belə yüksək dəyər vermişlər. Türk təfəkküründə bu müqəddəs anlayışlar daha mükəmməl, daha tutumlu, daha anlayışlı, daha İlahi vəsf edilmişdir. Bu müqəddəs anlayışlardan biri də Vəhydir.

Türk dini dünyagörüşünə görə Tanrının izni olmadan heç bir kimsəyə Vəhy nazil ola bilməz, «heç bir Peyğəmbər bir ayə belə söyləyə bilməz».

Vəhyin hesabına Peyğəmbərlər digər insanlardan fərqli olaraq qeyri-adi təfəkkürə, gücə və qüdrətə malikdirlər. Vəhy vasitəsilə Peyğəmbərlər nübüvvət gözü ilə çox irəli üfüqlərə baxaraq gələcək haqqında müfəssəl məlumatlar vermişlər ki, bu da Onların ən mötəbər möcüzələrindən sayıla bilər. Bu baxımdan Peyğəmbər Tanrı ilə əlaqə saxlayan və bir sıra ilahi üstünlük və xüsusiyyətlərə malik insanlardırlar. Peyğəmbərlər Vəhy vasitəsilə həmçinin insanlara insanlığa layiq olmayan işləri tanıtdırmış, ruhu xəstələnmiş insanları müalicə etmişlər. Yaradılmışlardan yalnız Peyğəmbərlərin ruhları Özlərinə tabedir.

Peyğəmbərlərə nazil olan Vəhylər olmasaydı insanlar kor-koranə həyat tərzi keçirib Cəhənnəmə yuvarlanar, Tanrı, Cənnət və Cəhənnəm, əbədiyyət haqqında təsəvvür belə olmaz, Tanrının xeyirxah insanlara bəxş etdiyi Cənnət sahibsiz bir viranəyə çevrilərdi. Deməli, Vəhy vasitəsilə Peyğəmbərlər həm də insanlara insanlıqlarını dərk etdirmişlər.

Peyğəmbərlərə Tanrı tərəfindən çatdırılan Vəhylər xüsusi şəkildə təfsir edilməməli və edilə də bilməz. Çünki Vəhylər heç bir vaxt insan iradəsilə baş verməmiş və Peyğəmbərlər yalnız Tanrıdan gələn fikirləri söyləmişlər.

Vəhyin lüğəti mənası «gizli səs, gizli danışıq, gizli işarə, pıçıltı, rəmz» və hətta «ilham» deməkdir.

Peyğəmbərlərin təlimatlarının əsasını «Qeyb aləmi» ilə əlaqə yaradan Vəhylər təşkil edir. Vəhylər Tanrının birliyini, Onun qüdrət və əzəmətini, əzəli və əbədi Varlıq olmasını tərənnüm edən, ictimai ədalət və əxlaq prinsiplərini ön plana çəkən müqəddəs bir himndir. Bu himnə görə:

- Tanrıya oxşar heç bir şey yoxdur və Onu heç bir şeyə bənzətmək mümkün deyil. Tanrı Mütləq və ehtiyacsızdır. Hər kəs Ona möhtacdır. Tanrı hər cür tərifə layiqdir. O, hər şeydən xəbərdardır. O, hər şeyə qadirdir. O, hər şeyi biləndir. O, hər yerdədir və heç bir yer Onsuz deyildir. Onun üçün Göylərin üzü Yerin altı ilə eynidir. İnsan hansı tərəfə baxsa, Ona tərəf durmuş olur. Ən gözəl adlar Tanrınındır. Aləmi idarə edən Odur. Aləm bir an belə olsun Onun nəzarətindən çıxa bilməz, əks təqdirdə hər bir şey məhv olub aradan gedər. Hər şeyi əhatə edən Onun elmidir. Tanrı heç bir işi səbəbsiz görməz. O, bütün eyb və nöqsanlardan uzaqdır. Dünyada baş verən bütün təbii hadisələr Onun istək və iradəsindən qaynaqlanır.

Öz zatına arxalanan yeganə Varlıq Tanrıdır. Onun zatı kamildir. O, hər zaman canlıdır. O, məhdudiyyəti və şəriki olmayan mütləq bir Varlıqdır.

Tanrı yaratdıqlarını maddi və mənəvi nemətlərlə təmin edəndir. Hər şey Onun istək-iradəsi ilə vücuda gəlir. O, ilk səbəb və son nəticədir. Onun heç bir tayı-bərabəri yoxdur. Ona xas olan sifət və xüsusiyyətlər sonsuz və dəyişilməzdir. O, nə doğmuş, nə də doğulmuşdur.

Tanrıdan başqa pərəstiş, ibadət və sitayişə layiq olan heç bir varlıq yoxdur. Bütün yaranmışlar Onun ilahi feyzinin təcəllasıdır. O, təkcə insanların deyil, bütün varlıqların Tanrısıdır. O, təkcə qürət və əzəmət aləminin deyil, «Qeyb aləmi» nin də Tanrısıdır. Bütün aləm Onun tərəfindən yaradılmış və Ona doğru hərəkət etməkdədir. «Qeyb aləmi»nin açarları da Onun yanındadır. Gizlini də, aşkarı da bilən Odur. Tanrı rəhmli və mərhəmətlidir. Bütün təsir, iradə və ixtiyarlar Onun hökmündədir. Dünyanın varlığı və reallığı Ondan olan bir gerçəklikdir. Bütün bunlara görə insan bütün varlığı ilə Ona bağlı olmalıdır.

Peyğəmbərlər pak olduqlarından Şeytan Onlara batil fikirləri vəsvəsə ilə təqin edə bilməz. Çünki Onlar Vəhy vasitəsilə insani kamilliyin zirvəsinə yüksəlmiş, ruhi və əqli səviyyənin ən yüksək mərtəbəsinə qalxmış, nübüvvət dərəcəsinə çatmışlar.

Tanrı bütün Peyğəmbərlərə Vəhy göndərmişdir. Müqəddəs ayədə buyurulduğu kimi:

**«Biz** (Tanrı nəzərdə tutulur – A.M.) **Nuha və Ondan sonrakı Peyğəmbərlərə Vəhy göndərdiyimiz kimi, Sənə** (Məhəmməd Peyğəmbərə – A.M.) **də Vəhy göndərdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yəquba və Onun övladlarına, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da Vəhy göndərdik. Biz Davuda «Zəbur» verdik».**

Kainatın sahibi Tanrı **«Öz əmri ilə Vəhyi istədiyi bəndəsinə göndərir ki, O, «Görüş günü» haqqında xəbərdarlıq etsin».**

Tanrı İnsanla yalnız Vəhy ilə danışar. Daha doğrusu, Vəhylər radio-televiziya dalğaları kimi ötürülür, insan isə Onları öz dilində açır, şifrələyir. Deməli, bəzi insanlar belə Tanrının istəyi ilə ilahi aləmi qəlbən fəth edib Vəhy ilə bir çox müəmmaları aça bilərlər.

Tanrı tərəfindən bəxş edilən Vəhy vasitəsilə Peyğəmbərlər həm Özlərinin, həm də bəşəriyyətin ictimai həyatında ilahi zəmanətə malik qanunlara olan ehtiyaclarını təmin etmiş, insanları kamilliyə səsləmişlər.

Bu ilahi Vəhylər Peyğəmbərlərə möcüzə göstərmək, ali ismət və əxlaq sahibi olmaq, günahdan uzaq olmaq, səhv etməmək, insanlara doğru yol göstərmək, onlara rəhbərlik etmək, saf və pak niyyət sahibi olmaq, cəmiyyəti nizama salmaq, zülm, haqsızlıq, istibdad və əsarətə qarşı mübarizə aparmaq, din yaratmaq kimi səlahiyyətlər vermiş, Onları dahi, müdrik və digər yüksək şüura malik insanlardan fərqləndirmişdir. Lakin bu fərq Onları insan olmaqdan çıxarmamış, əksinə, Onları başqaları üçün örnək və kamil insan olmaq mərtəbəsinə yüksəltmişdir. Bu baxımdan Peyğəmbərlər yüksək şüur və zəka sahibi olan dahi və mütəfəkkir şəxslərdən də seçilirlər. Belə ki, Peyğəmbərlər dahi və mütəfəkkir şəxslərdə

olan dərrakə, düşüncə və intellektual ağla sahib olmaqla yanaşı, həm də yalnız Peyğəmbərliyə xas olan «Vəhy» adlı ilahi bir qüvvə ilə də təchiz edilmiş və bu Vəhylər vasitəsilə də varlığın başlanğıcı olan Tanrı ilə rabitə qurmuş, insanlığın ən ali mərhələsinə yüksəlmişlər.

Peyğəmbərlərə nazil olan Vəhylər müdriklərə, dahilərə, şairlərə və hətta övliyalara verilən ilhamdan daha yüksəkdir. Çünki ilham Vəhyin yalnız bir növü olub müəyyən bir fikrin, ixtiranın insan qəlbinə damızdırılması, dəruni, mübhəm bir səslə ona təlqin edilməsidirsə, Vəhy bütün bunlarla yanaşı, həm də Tanrı ilə əlaqədir. İlham isə Tanrı ilə yanaşı, şeytan vəsvəsəsindən, şərdən, cindən və pəridən də gələ bilər. Həmçinin, Peyğəmbərlər həm Tanrını insanlara, həm də insanları insanlara tanıtdığı halda, müdriklər, dahilər yalnız insanları insanlara tanıdırlar.

Tanrı kəlamı, Tanrı əmri olan Vəhylər insana yüksək qiymət vermiş, qadından ismət və iffət, kişidən namus və qeyrət, ər- arvaddan nümunəvi əxlaq tələb etmişdir. Vəhylər övladlardan valideynlərinə hörmət etməyi, həmişə onların qulluğunda durub ehtiram bəsləməyi, valideynlərə övladlarına şəfqətlə yanaşmağı, qohum-əqrabaya kömək etməyi, qohumluq əlaqələrini qoruyub saxlamağı, onları daha da möhkəmləndirməyi əmr edir. Vəhylər yetimi ərsəyə çatdırıb malını qorumağı, yoxsula, miskinə, qəribə, qonağa, dilənçiyə, şikəstə, ümumiyyətlə, ehtiyacı olan hər bir insana təmənnasız yardım göstərməyi insanlara vacib buyurur.

Mələklər tərəfindən Peyğəmbərlərə təlim edilən Tanrı Vəhyləri heç bir zaman unudulmur. Onların hafizəsində həkk olunub qalır və sonra Peyğəmbərlər həmin əmr və hökmləri olduğu kimi Öz ümmətlərinə çatdırır, insanlar arasında təbliğ edirlər.

Mələklərin bu və ya digər ayə və Vəhyləri Peyğəmbərlərə oxudub əzbərlətməsini, mənasını öyrətməsini Peyğəmbərlərdən başqa heç kim görə və eşidə bilməz. Çünki bu ayə və Vəhylər «Qeyb aləmi»ndən olduğu üçün Onlar qeyb sirridirlər.

Vəhylər ruhda ağıldan da gizli olduğu üçün ağıl Onları tam dərk edə bilmir.

Vəhylər Tanrı Kitabı olan **«Lövhi-Məhfuz»**dan Mələklər vasitəsilə Peyğəmbərlərə, Peyğəmbərlər vasitəsilə də insanlara çatdırılan Tanrı qanunlarıdır. Müdriklərin söylədiyi kimi: **«Vəhylər nə astrologiya, nə rəml, nə fal və nə də yuxudur. Vəhylər haqdır ki, daha düzünü Tanrı bilir».**

Bütün ayə və Vəhyləri özündə cəmləşdirən Zəbur, Tövrat, İncil və Quran (bizcə həm də farsların yandırdığı «Avesta» - A.M.) kimi səmavi Kitabları Peyğəmbərlər – Davud, Mussa, İsa Məsih, Məhəmməd (s) (bizcə həm də Azərdüşt – A.M.) Tanrıdan insanlığa bir ərmağan olaraq sunmuşlar.

İnsanlıq durduqca bu müqəddəs Kitablar insanlara yol göstərəcək və bu böyük din Ulularının adı daim hörmətlə yad ediləcəkdir. Ona görə də Peyğəmbərlər və onların davamçıları əbədi hökmdarlardır. Onların XƏZİNƏLƏRİ «qarət» edildikcə daha da zənginləşir.

Peyğəmbərlərin hamısı Tanrı dərgahına yüksəlmişdir. Onlardan yalnız Adəm Peyğəmbər Tanrı dərgahı sayılan Cənnətdən Yer üzünə gəlmiş, daha sonra O da qalan yüz iyirmi üç min doqquz yüz dozsan doqquz Peyğəmbərlə birlikdə Yer üzündən Cənnətə qədəm basmışdır.

Din yaradıb-yaratmamalarından asılı olmayaraq Peyğəmbərlərin hamısı bir məqsədə – Tanrını tanıtmağa xidmət edib. Onlar insanlığın müqəddəratını dəyişdirən böyük davaları ilə, bütün çətinliklərə baxmayaraq, din yaratmağa müvəffəq olmuş və bu dinlər qol-budaq ataraq Yer kürəsini sarmış, böyük dövlət və mədəniyyətlər yaratmışlar. Adəm Peyğəmbərdən Həzrəti Məhəmməd Peyğəmbərə qədər bütün Peyğəmbərlər ilahi dinin daşıyıcıları olmuşlar. Onların hamısı bir ideologiyaya xidmət edib. Bu cəhətdən də Onlar digər dahi və mütəfəkkirlərdən fərqlənirlər. Çünki filosofların hər birinin özünəməxsus ideologiya və məktəbləri olmuşdur.

Peyğəmbərliyin mühüm əlamətlərindən biri də, digər insanlardan fərqli olaraq, möcüzə göstərməkdir. Çünki «möcüzə başqalarının qüdrətindən xaric olan fövqəladə bir işi görmək» deməkdir. Müqəddəs ayədə buyurulduğu kimi:

**«Heç bir Peyğəmbər Tanrının izni olmadan bir möcüzə göstərə bilməz».** Peyğəmbərlər Tanrının izni ilə odu sərinliyə

çevirmək (İbrahim Peyğəmbər), quru çubuğu əcdahaya döndərmək (Musa Peyğəmbər), ölüləri diriltmək (İsa Məsih), «Merac»a qalxıb yenidən Yerə qayıtmaq (Məhəmməd Peyğəmbər) kimi ilahi möcüzələr göstərmişlər. Fəqət bizcə Peyğəmbərlərin ən böyük möcüzələri Onların insanlığa bəxş etdikləri Tanrı kəlamlarının – Vəhylərin, ayələrin toplusu olan müqəddəs Kitablarıdır. Bütünlüklə möcüzə sayılan bu Kitabların hər biri bir Ulu Varlığı təsdiq edən ilahi bir nişanədir.

Peyğəmbərlər Ulu Tanrıya üz tutaraq dualar etmiş və buyurmuşlar:

**- Ey Ulu Tanrı! Sən bizləri izzətləndirdin ki, bizlər də səni izzətləndirək. Sən bizlərə səlahiyyət verdin ki, bizə verdiklərinin hamısını insanlara çatdırıb onlara əbədi həyat bəxş edək. Bu əbədi həyat o deməkdir ki, insanlar Səni – Tək Gerçək Tanrını tanısınlar. İnsanlar içərisindən seçdiyin biz Peyğəmbərlər vasitəsilə Sənin göndərdiyin əmrləri yerinə yetirsinlər. Biz Sənin icra etmək üçün tapşırdığın bütün əmrləri yerinə yetirdik.**

**Ey Ulu Tanrı! Dünyada bizə inanan insanlara Sənin Varlığını tanıtdırdıq. İndi iman gətirənlər bilirlər ki, bizlərə verdiyin hər şey Səndəndir. Sənin bizləri seçdiyini iman gətirənlər həqiqətən anladılar. Biz Sənə qovuşduqdan sonra da Sənin bizlərə verdiyin Kitablar insanlarla bərəbər yaşayacaq. Ağlı, dərrakəsi olan hər bir insan Onlardan özü üçün pay götürəcək.**

**Ey Ulu Tanrı! Bizim Səndən ən böyük diləyimiz budur ki, Sən insanları Şeytandan, şərdən qoru. Bizim Sənə qovuşduğumuz kimi onları da bizə qovuşdur. Bizlərə verdiyin izzətdən onlara da pay ver ki, onlar da Səni bizim sevdiyimiz kimi sevsinlər.**

**Ey Ulu Tanrı! Biz arzu edərdik ki, bütün iman gətirənlər bizimlə birlikdə Sənin dərgahında olsunlar ki, bizlərə verdiyin izzəti görsünlər.**

**Amin.**

**Türklərdə İman anlayışı**

**«Bir əzm əgər İman dolu bir qəlbə girərsə,**
**İnsan da o İmandakı son sirrə erərsə,**
**Ən azğın ölümlər Ona zəncir vuramazlar…**
**Vulkan kimi coşğun axıyor, durduramazlar!».**

Türk dini dünyagörüşünə görə:

**- İman Dinin yarısıdır.**

**- İman Tanrını qəbul və təsdiqdir.**

Bəşər övladı İman vasitəsilə anlayıb ki:

- Kainat Tanrının «Ol!» nidası ilə yaranıb.

**- *Adəm Peyğəmbər İman vasitəsi ilə yenidən Cənnətə qayıdıb.***

**- *Adəmin övladı Habil İman vasitəsi ilə Tanrıya qardaşı Qabildən daha yaxşı qurban gətirdiyi üçün öldürülməsinə baxmayaraq hələ də insanlarla «danışır».***

**- *Nuh Peyğəmbər İman vasitəsi ilə salehliyin varisi olub.***

**- *Xızır Peyğəmbər İman vasitəsi ilə ölümsüzlüyə qovuşub.***

**- *İbrahim Peyğəmbər İman vasitəsi ilə odda yanmadı və oğlu İsmayılı Tanrıya qurban olaraq kəsməyə qərar verdi.***

**- *Yaqub Peyğəmbər İman vasitəsi ilə oğlu Yusifə qovuşdu.***

**- *Yusif bir qul ikən İman vasitəsi ilə Peyğəmbərliyə yüksəldi və Misirin hökmdarı oldu.***

**- *Musa Peyğəmbər İman vasitəsi ilə allahlıq iddiasında olan Fironu məğlub etdi.***

**- *İsa Məsih İman vasitəsi ilə çarmıxa etinasızlıq göstərib Tanrı dərgahına yüksəldi, Onun yanında qərar tutdu.***

**- *Məhəmməd Peyğəmbər İman vasitəsi ilə Meraca qalxıb endi, Tanrının son və müqəddəs Rəsulu oldu.***

**- *Övliyalar, möminlər, xeyirxahlar İman vasitəsi ilə fənafillaha yüksəlmiş, yüksəlir və yüksələcəklər.***

İnsanlar sahib olduğu və inandığı bu müqəddəs insanların yolu ilə İmanla addımladıqca onlar da özlərinəTanrı dərgahında yer bulub əbədiyyətə qovuşacaqlar. Əks təqdirdə, Tanrını, Yer üzünə Onun əmrlərini gətirənləri rədd edənlər,

imansız yaşayanlar cəzadan qurtula bilməyəcək və əbədi olaraq Cəhənnəm əzabına düçar olacaqlar. Müqəddəs ayədə buyurulur ki:

«Əgər siz şükr etsəniz və İman gətirsəniz sizə əzab vermək Tanrının nəyinə gərəkdir».

İman həyatın qayəsi, həyatın həyatıdır.

İman insanın həm maddi və həm də daha çox mənəvi tərəqqisini və səadətini təmin edir. Hər an insana əbədi səadəti qazandırdığı üçün İman sahibi özü üçün Kainat qədər bir səltənət təmin edir. Atalar demişkən: «Bir insanın sultan olması min adamın vali olmasından daha şərəflidir». Tanrı buyurmuşdur: «İman gətirib əməlisaleh olan kişi və qadını gözəl bir həyatla yaşadacaq və onlara etdikləri işlərdən də yaxşı əvəz verəcəyik».

«İman», «etibar» və ya «möhkəm əminlik» deməkdir.

İman Tanrı yanında ən sağlam bilgidir. Çünki İman ilk öncə şərə, zülmə, zülmkara qarşı çıxmaq və Tanrıya səmimi qəlbdən inanmaq deməkdir.

İman Tanrıdan başqa bütün məbudları inkar etmək deməkdir. İmanın şüarı «Tanrıdan başqa ilah yoxdur» ayəsidir.

İman qəlbən Tanrıya inam, Onun əmrlərini yerinə yetirmək, Ona pərəstiş etmək və şəriət qaydalarına əməl etmək deməkdir.

İman ürəkdən Tanrını tanıyıb Ona etiqad etmək, dildə Onu etiraf etmək və bədəninin bütün əzası ilə onu yerinə yetirməkdir. Obrazlı desək «İman qəlbdə təsdiq, dildə iqrardır».

İman elə bir nurdur ki, o yalnız Tanrının qayğısı nəticəsində qəlbə daxil olur.

İman elə bir elmdir ki, o yalnız əməllə yanaşı olduqda səmərə verir. Çünki İman əməllə inkişaf edir və bununla da onlar bir-birinə qarşılıqlı təsir buraxırlar. İman əmələ səbəb olur, əməl də onu gücləndirir. İman olmazsa, əməlin dəyəri olmaz. İnsanın əməlləri İmanın qol-budağıdır. Deməli, İman saleh əməllərin mənşəyi, qaynağıdır. Müdriklərin söylədiyi kimi: «İman odur ki, qəlb Ona inansın, əməl Onu təsdiq etsin».

İnsanın şərafət və nəcibliyi, varlığı, qəlbi, ağlı, düşüncəsi, əqidəsi, xəyal və əməlləri ilə ona özündən də yaxın olan Tanrıya tapınması ilə bağlıdır. Çünki Tanrının mübarək vücudu bütün Kainatı, o cümlədən də bütün mövcudatı əhatə edir. Belə bir Varlığa qovuşmaq isə İnsanın ən böyük arzusu, ən kamil səadəti və ən yüksək məqsədidir. Bütün varlıqlar, xüsusilə, İnsan həmişə Tanrının bəxş etdiyi nemətlərdən bəhrələnir və bütün bunların hamısı Tanrının əzəmətinin bəhrəsidir. Bü yüksək maddi və mənəvi bəhrə hər an insanın İman nurunun artmasına səbəb olur. Deməli, insan Tanrının əzəmətini nə qədər çox xatırlayıb dərk etsə, onun İmanı da bir o qədər çoxalar. Deməli, insanda qəlbən Tanrıya İman yaranmayınca onda kamillik zühur edə bilməz. Çünki insan daima Tanrıya möhtacdır. Ona görə də İnsan öz qəlbində Tanrı nurunun saçmasından ötrü bütün əqli və elmi gücünü sərf etməli, var-gücü ilə buna çalışmalıdır ki, əbədi səadət tapsın. Çünki yalnız qəlbi nur saçan insan həqiqətləri olduğu kimi görə bilər. Ona görə də insan qəlbində İmanın yaranmasından ötrü öz daxili aləmini həmin nuru qəbul etməyə hazırlamalıdır. Bunun üçün o, ilk növbədə nəfsani istəklərini günü-gündən azaltmalı, qəlbində Tanrıya olan İmanını artırmalıdır. Müqəddəs ayədə buyurulduğu kimi:

«Nəfsini günahlardan təmizləyən şəxslər nicat tapacaqlar». Çünki nəfsani istəkləri tərk etmək İmanın ləzzətini dərk etməyə səbəb olur.

Hər bir insanda İmanın olması zəruri bir haldır. Çünki İman əslində insanın fitrətində mövcuddur. Onu inkişaf etdirmək isə insanın özündən asılıdır. Ona görə də insan müxtəlif vəsvəsə və şübhələrdən uzaq olmaq üçün Tanrıya qəlbi ilə, bütün varlığı ilə İman gətirməlidir. Müqəddəs ayədə buyurulduğu kimi:

«İman gətirib İmanlarını zülmə qarışdırmayanlar **əmin-amanlıqdadırlar**. Haqq yola yönəlmişlər də onlardır… Tanrını tanımağın kamilliyi Onu təsdiq etməkdir».

Tanrını təsdiq etmək isə Onun Varlığını öz qəlbində etiraf etmək deməkdir. Çünki insanın bütün qüvvət, qüdrət, ağıl, idrak və hər şeyinin mənşəyi olan həyatı da Tanrıdandır. Ağlın,

idrakın qəbul etdiyi hər şeyə qəlb də inansa, İmanın əlamətləri aşkar olar. Lakin təəssüflər olsun ki, ağlın qəti surətdə qəbul etdiyi bir çox məsələləri, o cümlədən də ölüm və dünyanın faniliyini ürək qəbul edə bilmir. Belə ki, hər bir ağıllı adam bütün canlı varlıqların, o cümlədən də insanın öləcəyini və sonda parçalanıb müxtəlif maddələrə çevriləcəyini dərk edir. Heç bir şeyin bu dünyada əbədi qalmayacağını insanın təcrübi ağlı da sübut edir. Bütün bunlara baxmayaraq ağlın sübut etdiyi bir çox bu kimi məsələləri ürək qəbul edib inana bilmir. Çünki insanların çoxunun qəlbi hicablı, bəsirət gözü qapalı olduğuna görə Haqqı, həqiqəti də görə bilmir və hətta ölümə də inanmırlar. Çünki müqəddəs ayədə buyurulduğu kimi:

«Tanrı onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir».

Lakin: «Kim Tanrıya İman gətirsə, Tanrı onun ürəyini düz yola yönəldər… O nə mükafatının azalacağından, nə də haqsızlığa məruz qalacağından qorxar»,

Çünki: «İman gətirib Tanrıya təvəkkül edənlərin…, böyük günahlardan və pozğunluqlardan uzaq olanların…, qəzəblənəndə bağışlaya bilənlərin…, öz Rəbbinin haqq dəvətinə cavab verənlərin…, öz aralarındakı işləri məsləhətlə həll edənlərin…, özünə qarşı pislik edəni bağışlayıb onunla barışanların mükafatı Tanrıdandır».

Çünki Tanrı İman gətirənlərin himayəçisidir. İman gətirənlərin Tanrıya məhəbbətləri daha qüvvətlidir.

İnsanın ömrünün sonuna kimi İmanını qoruması və İmanla bu dünyadan köçməsi səadətin meyarıdır. Cənnətə daxil olmaq İmanın girovundandır. İmanın ən yüksək mərhələsi ilahi məhəbbətdən doğur.

İman ruhi gözəllikdir. O, insanı horizontal istiqamətdə ucaldır.

İman insanın batinində baş verən dəyişikliklərdir. Həyatda elə bir insan yoxdur, olmayıb və olmayacaq ki, o, hər hansı bir məqsədə çatmaq və mənəvi rahatlıq tapmaq üçün iman və etiqada ehtiyac duymasın. Əslində mükəmməl İnsan hər hansı bir müqəddəs Varlığa inanmadan yaşaya bilməz. O, yeganə olan Tanrıya ibadət etməsə də özü üçün həqiqət hesab

etdiyi bir müqəddəs Varlığa pərəstiş edəcəkdir! Çünki insan ağlı kəsdiyi ilk gündən ömrünün sonunadək bu hiss ilə yaşayır, maddi və mənəvi həyatını onunla nizamlayır.

İman insanda Yaradana və yaradılanlara qarşı müsbət emosiya yaradır və bu da onu səadətə və xoşbəxtliyə doğru aparır. İmanlı insan yaşadığı cəmiyyətin tərəqqisinə çalışır, onun adət-ənənəsinə riayət edir, həmin cəmiyyətdə hakim olan ədalətli qanunlara tabe olur, ictimai fəaliyyətdə həm özünün, həm də başqalarının inkişafı naminə əlindən gələni əsirgəmir.

İnkişaf və tərəqqi baxımından İmanın insana göstərdiyi təsir Onun insan qəlbinə bəxş etdiyi nuranilikdir. İmanlı insan yaşadığı həyatı gün kimi aydın görür və həyatda olan bütün varlıqların eyiblərdən uzaq, gözəl və təravətli olmasını arzulayır.

İmanın insana inkişaf və tərəqqi baxımından göstərdiyi digər bir müsbət təsir mənəvi rahatlıqdır. Bəllidir ki, hər bir insan müstəqil həyata başladığı ilk gündən xoşbəxtlik və səadətə nail olmaq üçün həyatla mübarizədədir. İnsan gələcəkdə nələrin baş verəcəyindən xəbərsiz olduğu üçün daim iztirab və nigarançılıq keçirir. Bu iztirab və nigarançılığı mənəvi rahatlığa çevirməyə qadir yeganə qüvvə insan qəlbində söylənən İman nurudur. İnsan qəlbində söylənən bu İman nuru onu mənəvi sarsıntılardan birdəfəlik xilas edir. Deməli, insanın ruhi sarsıntılarını aradan qaldıran və onu səadətə qovuşduran yeganə qüvvə vücudunda olan İman qüvvəsidir. Bu baxımdan İman insana həm də ümid bəxş edir.

İman insanı məqsədə çatdıran, onu müəyyən bir istiqamətə yönəldən, ona ilham verən, onu mənəvi kamala çatdıran, ona qırılmaz və daimi qüvvət verən, insanı özü ilə uyğunlaşdıran, ona ruhi əmin-amanlıq bəxş edən, onu daxili iztirab və sarsıntıladan  azad edən bir amildir.

Şeytanın insanları özünə qul etmək üçün icad etdiyi bir çox üsulları insanlar yalnız İman vasitəsilə dəf edirlər. Deməli, İman Şeytandan da güclüdür. Belə ki. həyatda mövcud bütün maddi varlıqlar insanlıq üzərinə hücuma keçərək onu qorxudur, yoldan çıxarmağa çalışır. İman əhli bu Şeytani hücumlara sinə gərərək bir an da olsun sarsılmırlar. Onlar

Tanrının bu ilahi imtahanı qarşısında İmana söykənərək Şeytanla mücadiləyə girişib İmanla əbədi səadətə doğru mətanətlə addımlayır, bəşəriyyəti mənəvi dəyərlərlə silahlandırıb Haqqa doğru istiqamətləndirirlər.

İman mənəvi dəyər olduğundan O, insanda mənəvi zövq yaradır. Bu mənəvi zövq maddi ləzzətlərdən güclü və uzun ömürlüdür. Bəllidir ki, həyat nə qədər şirin və gözəldirsə, bir o qədər də acı və kədərlidir. İnsan həyatda apardığı mübarizədə qarşılaşdığı çətinliklərin bir çoxunu aradan qaldırmağa nail olsa da, bir çox fəlakət və bədbəxtlikləri xoşbəxtliklə əvəz etsə də dünyada baş verən bəzi hadisələri əvvəlcədən bilmək və onun qarşısını almaq iqtidarında deyil.

Belə ki hər bir insan illər ötdükcə istər-istəməz yaşayır, həyat çırağı öləziyir, cavanlıqda sahib olduğu güc və istedaddan məhrum olur və bu da onun dərdlərinin üstünə yeni bir dərd gətirir. İnsanın bu nigarançılığını yenə də İman aradan qaldıra bilər. İnsan həyatındakı bu boşluğu İmanla doldurduqda qocalığını belə unudar. Müdriklər söyləyiblər ki:

«İman sahibləri üçün qocalıq cavanlıq dövründən daha şirin, daha cazibəlidir».

Çünki etiqadı olmayan insanlardan fərqli olaraq İman sahibləri ölümü belə yoxluq hesab etmir, onu əməl dünyasından əbədi və ədalətli dünyaya səfər adlandırırlar. Onlar müqəddəs əməllərindən feyz alaraq Cənnətdə şəhid əcdadlarının görüşünə səy göstərirlər. Onlar könüllər üzərində müqəddəs bir nur müəssisəsi quraraq onlara inananları işıqlı bir yolu təqib etməyə, səadətə qovuşdurmağa çalışırlar. Çünki onlara görə: «İman əbədi həyatın açarıdır». «İman mənəvi bir Cənnət çəyirdəyidir». O çəyirdəyi inamla göyərdib boya-başa çatdırmaq isə əbədi səadətdir.

İman cəsarətin mənbəyi, qəlbin rahatlığıdır.

Yer üzərində İman sahibləri olmasaydı, bəlalar sel kimi insanları yuyub aparar, şimşək kimi insanları yandırıb kül edərdi. İman olmayan yerdə ağlasığmaz əcaib hadisələr baş verər.

# II FƏSİL
## Türk mənəviyyatı

### Türklərdə Nəfs anlayışı

Tarix qədər qədim bir millət olan Türklərin Dünyaya, Həyata, İnsana və onların hər birinin özəlliklərinə xüsusi baxışlar sistemi vardır. Dünyanın, Həyatın və İnsanın bütün özəlliklərinə Türk ağlı, Türk idrakı, Türk zəkası ilə yanaşan Türklər İnsanı Tanrı tərəfindən yaradılmışların əşrəfi hesab etmiş, onu Tanrının Yerdəki təmsilçisi saymışdır. Ümumiyyətlə, insan Tanrı tərəfindən Təbiətlə əbədi mübarizəyə təhkim edilmişdir.

Həyatda bütün yeniliklər də məhz bu mübarizədən doğur. İnsan Təbiətdə olmayanları yaradır. İnsanda olan bu Tanrı tərəfindən bəxş edilmiş yaradıcılıq meyli Ona sonsuzluğun yollarını göstərir və Onu Yaradanla aralarındakı məsafəni daraldaraq nəhayət birliyə qovuşdurur. İnsan Tanrıya doğru irəlilədikcə irəliləyir, müdrikləşir, kamilləşir. Həyatdakı bütün insani kəşflər, dəyərlər də bu irəliləyişdən, Tanrıya qovuşma eşqindən doğur. Daha dəqiq ifadə etsək, İnsan Tanrıya doğru irəlilədikcə müdrikləşir, kamilləşir, insaniləşir.

Tanrı İnsanı iradə və ixtiyar sahibi kimi xəlq etmiş, Onu iki yol ayırıcında qoymuşdur. Bu yollardan biri Nəfsə dayanan şər, digəri isə xeyirdir. Bunlardan hər hansı birinə üstünlük verməyi Tanrı İnsanın öz öhdəsinə buraxmışdır. Bu seçim də İnsanın müqəddəratını həll edir. İnsan məhz bu seçimə görə məsuliyyət daşıyır. Deməli, hər bir İnsanın taleyi onlardan hər hansı birinin bu mübarizədə qalib gəlməsindən, birinin digərinə qələbə çalmasından asılıdır. İnsan istəsə, ucalardan uca, həm də alçaqlardan alçaq olar. İnsanın fitrətindəki xeyir Onu Tanrı dərgahına yüksəldər, zatındakı Nəfsə dayanan şər isə Onu heyvandan da aşağı səviyyəyə endirər. Çünki xeyir ilham və yəqindən hasil olduğü üçün müsbət, şər isə vəsvəsə, şəhvət və

qəzəb qüvvələrinin ifratından hasil olduğu üçün mənfi yüklə yüklənib.

Xeyrin topladığı İnsan Nəfsində xeyirxahlıq, təvazökarlıq, dostluq, səxavət, inam, iman, etiqad, həqiqət, iradə, cəsarət, mərifət, qənaət, insaf, vicdan, ədalət, məhəbbət, ümid, fərəh, vəfa, gözəllik, sədaqət və s. bu kimi xeyirxah əməllər, şərin toplandığı Nəfsdə isə bunların əksi olan ədavət, xəyanət, əsarət, kin-küdurət, xiffət, qeybət, var-dövlətə və pula hərislik, şöhrətpərəstlik, rəzillik, xəsislik, hiyləgərlik, rüsvayçılıq, şəhvətpərəstlik, saxtakarlıq, israfçılıq, peşmançılıq, qorxaqlıq, qısqanclıq, inamsızlıq, imansızlıq, vəfasızlıq, lovğalıq, ikiüzlülük, təkəbbürlülük, tənbəllik, səbrsizlik, naşükürlük, inkarçılıq, çirkinlik, şübhə, şayə, intiqam, qisas, tükənməz arzu, küfr və s. bu kimi şər əməllər hakimdir. Deməli, İnsanın bütün savab və günahları Onun Nəfsindən doğur. Bu anlamda bütün İnsanlarda iki «Mən» olduğu kimi iki də Nəfs mövcuddur:

1. Şərə əsaslanan heyvani Nəfs;
2. Xeyrə əsaslanan insani Nəfs.

İnsan həyatı əslində heyvani Nəfsdən təmizlənmə anıdır. Çox təəssüflər olsun ki, bütün Kainata hökm etməyə, heyrət doğuran əqli kəşf və ixtiralara qadir bu iki ayaqlı, iki əlli, iki gözlü, ikiqulaqlı, ağla, idraka, zəkaya və nitqə malik olan bu qüdrətli, iradəli, cəzarətli Varlıq, yəni İnsan, bütün mübarizələrdən qalib çıxmasına baxmayaraq Öz nəfsi qarşısında həmişə məğlubiyyətə uğramışdır. İnsanların əksəriyyəti «Əbədiyyət aləmi»nə yollanarkən öz Nəfsləri ilə yüklərinə əlavə yük yükləmiş, yükləyir və yükləyəcəklər.

İnsanın heyvani Nəfsini, Şeytan, insani Nəfsini isə Tanrı idarə edir. Heyvani Nəfsə uyan Şeytana uyur. Ona aldanan Şeytana aldanır. Ona qalib gələn isə Şeytana qalib gəlir.

Heyvani Nəfs Şeytan atına minib İnsanı dağa-daşa çırpıb sonda onu məhv edir. Ona görə də Türk dünyagörüşünə görə:

**Nəfs elə bir ağacdır ki, bütün barı zəhərdir. Çünki Onun tumları Cəhənnəmdən gətirilib.**

**Nəfs harada hakimdirsə orada haqsızlıq hökm sürər.**

Nəfs həqiqi eşqi belə məhv edər. Nəfsə dayanan hər məhəbbət bir xəyanət, hər gülüş bir hiylə, hər səadət çox sönük bir şölədir.

Nəfs İnsanın ən qəddar düşmənidir. İnsan Nəfsin istədiyini verib Onu bəsləsə insanlıqdan çıxar.

Nəfs insan ruhunun qaranlıq zindanıdır.

Nəfs din, iman oğrusudur. Ona görə də ilan dərisindən necə soyulursa, İnsan da Nəfsindən eləcə soyulmalıdır.

Nəfs durğun suya bənzər. Bayırdan baxanda təmiz görünər, amma bir az çalxalandımı, dibindəki gizli mikroblar üzə çıxar.

Nəfs İnsan həyatının qənimidir. Onun pası ömür gövhərini çeynəyər. Ona görə də bədənini düz istəyən İnsan Nəfsinin boynunu qırmalıdır. Əgər Nəfs ölsə, bədənin əyriliyi düzələr. Deməli, ən şücaətli İnsan öz Nəfsinə qələbə çalandır. Öz Nəfsini öldürə bilən İnsan, insansevər və Tanrısevər olar. İnsansevər və Tanrısevər dahilər söyləyiblər ki:

**«Mən aza qailəm, çoxda dözüm yox,**
**Nəfsimin gözünə batırmışam ox».**

İnsanın uğursuz Nəfsinə Şeytan hakim olar.

Nəfs cismani ləzzət üçün adət şəklini alarsa, İnsan onun aludəçisinə çevrilər, İnsan məqsədinə çatmaq üçün müxtəlif alçaq sifətləri özünə rəva görər, məsləksiz bir adama çevrilər. Məsləksiz insandan isə hər cür çirkinlik gözləmək olar. Belə məsləksiz, əqidəsiz insanlara heç kim inanmaz. Deməli, İnsan tinətində ən pis şey heyvani Nəfsdir. Çünki heyvani Nəfs Haqq nurunun İnsan qəlbinə daxil olmasına yol vermir. Belə uğursuz Nəfs hər hansı bir işə qarışarsa, ağlasığmaz pisliklər İnsana bir peşə olar və nəticədə İnsan təmkinini, vüqarını itirər, İnsanı etibarı olmayan müvəqqəti bir həvəsə –eyş-işrətə, şəhvətə sürükləyər.

Doğrudur, şəhvət İnsanın zatındadır. Şəhvət insanın daxilində özündən asılı olmayan bir hiss, bir istəkdir. İnsanın bir çox fikir və hərəkətləri, nifrət və məhəbbəti dolayı yolla da olsa şəhvətlə bağlıdır. Hətta bəzi psixoloqlar İnsanın bütün daxili aləmini onun şəhvani meylləri ilə ölçürlər. Həqiqətən də şəhvət İnsanda saysız-hesabsız arzular və şiddətli istəklər

doğurur. İnsanı maddi fəaliyyətə bağlayıb onu həzz fəaliyyətinə sövq etdirir və İnsanda idarə olunmayan ehtiraslı istəklər yaradır. Əgər İnsan öz şəhvətinin həddini gözləməsə, əxlaqsızlığa düçar olar və bununla da öz insanlığını itirib, şəhvətin qulu olar və heyvanat səviyyəsinə enər.

İnsanın şəhvət həvəsinin çoxluğu onun gücünü tükədər və bəzən də tamamilə məhv edər. Belə insanlarda ağıl gücə, güc isə şəhvətə xidmət edər. İnsan Nəfsani istək olan şəhvəti öz başına buraxsa, cilovu onun ixtiyarına versə, şəhvət Onu heyvani mərtəbəyə endirər, onun şəhvani hisslərini cuşa gətirərək bəzi «xəstələrə» xas olan nalayiq hərəkətlərin artmasına səbəb olar və anbaan, günbəgün İnsanı alçaldar, onu rəzalət çirkabının ən dərin yerinə salar və bu, İnsanın ən dəhşətli sonu olar, İnsan heyvaniləşər.

Şəhvət İnsanı eyş-işrət, modabazlıq, qadın və ya kişi düşkünlüyü kimi işlərə sövq etdirər, onu mütləq naqisliyə-rəzalətə sürükləyər, sonda İnsanı məhv edər. Müdriklərin söylədiyi kimi:

**“Hədsiz olsa əgər işrətə rəğbət,**
**İnsanı məhv edər axırda şəhvət”.**

Halbuki, qəzəb kimi şəhvət hissi də heyvanlarda daha kamildir. Belə ki, it yeməkdə, digər yırtıcılar hücum və parçalamaqda, donuz isə şəhvətdə İnsandan daha qadir, daha kamildirlər. Belə olan təqdirdə İnsan vicdanı necə icazə verə bilər ki, bütün ömrü boyu donuzla yarışasan və sonda donuza məğlub olasan.

Əslində bütün insanlarda üç şəhvət hissi mövcuddur:

**1.heyvani şəhvət; 2. yırtıcı və ya vəhşi şəhvət; 3. insani şəhvət.**

İxtiyar İnsanın öz əlindədir.

İstəyir heyvan səviyyəsinə ensin, onlarla bir cərgədə olsun, istəyir yırtıcılara qoşulub onlarla cur olsun. İnsan öz adına layiq olmaq istəyirsə, insani şəhvətindən istifadə edərək nəslini artırsın. Əsl hikmət və kəramət də insani şəhvətdədir.

Deyilənlərdən belə bir nəticə hasil olur ki, İnsan zatının zəruri qüvvəsi olan şəhvətdən düzgün istifadə olunsa, İnsan özünün təbii istəklərinə cavab verər, nəslini artırar və bununla

da yoluxucu xəstəliklərin bir çoxunun yayılmasının qarşısını alar, ailə münasibətləri qorunub saxlanılar, cəmiyyət düzəni pozulmaz və bununla da İnsanın əbədiləşməsinə xidmət etmiş olar.

Heyvani Nəfsin əsası olan heyvani şəhvət insanları zinaya sürükləyər. Zina isə İnsanda abırsızlıq, həyasızlıq, ədəbsizlik və əxlaqsızlıq yaradır. Belə xislətli insanlar isə hər cür əclaflığı özlərinə rəva bilərlər. Tanrı buyurmuşdur:

"Zinəkarlığa yaxın düşməyin. Axı bu çirkin bir əməl və pis yoldur"(İsra, 32).

Müqəddəs ayədə buyurulur ki:

"…Tanrı pozğun adamları düz yola aparmaz" (Münafiqun, 6).

Zina haqqa inanan İnsanın yolu üstündə dayanan yolkəsəndir. Zinanın mənbəyi qadın üçün kişi, kişi üçün qadındır. Zinaya meylli kişi və qadınlar heç vaxt azad ola bilməzlər. Onlar əbədi olaraq şəhvətlərin əsiridirlər. Belələri öz canlarının rahatlığı üçün bütün insnani dəyərlərdən özlərini məhrum kimsələrdirlər.

Çox təəssüflər olsun ki, tarix boyu zina qadına şamil edilmiş və böyük müdriklər, dahilər belə qadını **"İblisin silahı, Şeytanın toru", "yırtıcı, heyvan", "qəhrəmanları diri-diri torpağa gömən", "gözləri baxan yerə könülləri axan", "min hiylə quran", "xəmiri acıdan yoğrulan",** "oğurluq suyunu gizlincə götürüb bic övlad dünyaya gətirən", " qorunmazsa qoxuyan", "meyvəsi zəhərə çevrilən", "ömründə yalnız sevəndə və öləndə gözəl görünən ", "səbirsiz olmaqla bərabər, həm də hər şeyə tez maraq göstərən", "vəfasız", "məkrli", "içi çölü kimi olmayan", "sevgisi əziyyət, qəzəbi xəyanət olan", "şöhrətpərəst və emosional", "kişini həmişə övlad üçün vasitə bilən", "məhəbbətini əbədi olaraq gizli saxlaya bilən, ancaq nifrətini bir an da gizlədə bilməyən", "qəlbi dayaz", "israfçı və pulun qədrini bilməyən", "ən böyük arzusu daim cavan qalmaq olan", "kişi qəlbini duyan, amma onu dərk etməyən" və s. kimi dəyərləndirmişlər. Halbuki zina kişiyə də aiddir.

Deyilənlər onu göstərir ki, heyvani Nəfsə dayanan şəhvət fani, namus, əxlaq isə əbədidir. Qadına şəhvət mənbəyi kimi

baxan kişi, kişiyə şəhvət gözü ilə baxan qadın əxlaqi dəyərləri və deməli, insanlıq ləyaqətini itirmiş, günaha mübtəla olmuş kimsələrdirlər. Onların yeri Cəhənnəmdir.

Deməli, sonda Cəhənnəmə vasil olan əxlaqsız adamın günahı ən böyük günahdır. Çünki beləlləri öz şəxsi bədəninə qarşı xəyanət edirlər. Öz şəxsi bədənlərinə qarşı xəyanət edən insanlar isə bütün xəyanətləri etməyə qadirdirlər.

Ailədə və həmçinin cəmiyyətdə əxlaqsızlıq hökm sürdükdə o ailə və cəmiyyətin əxlaqı pozğunlaşır. Qadınların və kişilərin pozğunluğu isə arzuedilməz nəslin həyata gəlməsi ilə nəticələnir. Qadınların fəaliyyət müstəqilliyi, xüsusilə, kişilərlə ünsiyyət azadlığı zinakarlığa, arzuedilməz əhalinin həyata gəlməsi təhlükəsinə səbəb olur. Həmçinin bu işin əsas səbəbkarı məsuliyyətsiz kişilər cəmiyyətdə zina törədirlər ki, bunun da nəticəsində arzuedilməz uşaqlar bəşəriyyəti müharibə və epidemiya təhlükəsi altında qoyurlar. Deməli, cəmiyyətdə arzuedilməz insanların artmaması üçün mütləq şəkildə zinanı törədən bütün əməllərin kökü kəsilməlidir. Zinaya uğramış məsuliyyətsiz insanların iqtidara gəlişi isə cəmiyyətdə daha böyük fəlakətlər, fəsadlar törədər və cəmiyyət ənənələri pozular, hərcmərcliyə rəvac verilər və nəticədə insanlar həyatın ali məqsədini unudarlar. Belə cəmiyyətlər gec-tez məğlubiyyətə düçar olar.

Heyvani Nəfsə uyan İnsan özünü bu dünyada cəngavər kimi göstərən təlxəyə bənzəyir. Belə insanlar heç bir xeyri olmayan oyunlar çıxarır, özlərini aldadaraq bu faniliyi hətta bayram kimi qeyd edirlər. Əslində bu, o insanların ən böyük bədbəxtliyi, ən böyük faciələridir. Çünki belə insanlar anlamırlar ki, hətta İnsanın ən ağıllı fikirləri belə çox vaxt hadisələrin təbii axarı ilə düz gəlmir. Deməli, hissiyata qapılıb heyvani Nəfsə tabe olmaq insanın ağıl və idrakına nöqsan gətirir və onun düzgün qərar çıxarmasına belə mane olur. Bu anlamda heyvani Nəfs İnsanın ən böyük düşmənidir. Çünki hər hansı bir düşmənə yaxşılıq etsən o səninlə hətta dost da ola bilər, lakin heyvani Nəfsə yaxşılıq etdikcə onun düşmənçiliyi daha da artar. Bu anlamda Nəfs və həvəs ayrılmaz yoldaş, bir qarında bəslənmiş ekiz qardaşdırlar.

Heyvani Nəfs İnsanı mümkün olan hər vasitə ilə çaşdırmağa və aldatmağa çalışar. Hətta Nəfs mütəxəssisləri, təbibləri belə bələləri üçün əlac tapa bilmirlər. Çünki Nəfs İnsanı günahdan küfrə, küfrdən də özünə vurğunluğa sürükləyir və nəticədə bütün günahlar adiləşir, ilahi qanunlar və hətta Tanrı belə bu cür insanların gözündə adiləşir, kiçilir. Nəfsin qəlbdəki hiylələri İnsanı elə bir dərəcəyə gətirib çıxarır ki, İnsan hətta öz Rəbbinə belə minnət etməyə başlayır. Deməli, **Nəfs İnsanla Tanrı arasında ən böyük maniədir.**

Heyvani Nəfs şəhvətlə yanaşı İnsanda digər narahat hisslər də yaradır. Adətən narahat hiss və duyğular İnsanın psixoloci durumunu pozur və nəticədə İnsan tarazlığını itirir. İnsanın bu narahat hiss və duyğuları elə güclü, elə çəkici, elə coşqundur ki, hətta hiss və duyğularına nəzarət etməyə çalışan bəsirətli insanların belə ağlını çaşdırır, onu zorla dartıb öz arxasınca aparır.

İnsan heyvani Nəfsə uyaraq öz hisslərinin əsiri olduqda ona bağlanmağa başlayır ki, bu bağlılıqdan da **Ehtiras** doğur. Ehtiras isə İnsan ruhunu alçaldır, fəziləti rəzalət, səadəti zillət edir. Belə insanlar ağa qara, qaraya ağ deyir, şəxsi mənfəətindən başqa heç bir şey düşünmür, bağışlanmaz günahlar edirlər. Günah işlədən hər bir şəxs öz günahının köləsi olur.

Həyatda hər bir şəxs öz Ehtirası ilə hərəkət edir. Sonra bu Ehtiras boylu qalıb günahı doğurur. Çünki Ehtiras İnsanı qəzəbə sürükləyir. Qəzəbli başda isə ağıl olmaz. Qəzəb yanılma və aldanışa, yanılma və aldanış yaddaşın itməsinə, yaddaşın itməsi dərrakənin pozulmasına, dərrakənin pozulması isə İnsanı həyat burulğanına sövq edir. Deməli, İnsan qəzəbləndikdə onun bütün bədəni murdarlanır.

Qəlbi kin, nifrət, qəzəb püskürüb üzdə gülən rəhbərlər daha qorxunc olurlar. Onların vəhşiliyinə vəhşi heyvanlar belə qibtə edirlər. Belə rəhbərlər vəhşiyə belə rəhmət oxudarlar. Qəzəb, kin və hiddət belə rəhbərləri yanlış mühakimələrə sövq etdirir. Onların mərhəməti də sünidir. Dahilər demişkən:

**“Qəzəb var ki, doyurar ac qarını**
**Mərhəmət var ki, zəhərləyər yarını”.**

Belə ləyaqətsiz, idrakı sönük başçılar sonda milləti də şəxsiyyətlərinə qurban verərlər. Ona görə də müdriklər söyləyiblər ki:

**"İdrakı sönük başçıların qəfləti ancaq**
**Etmiş, edəcək milləti həp əldə oyuncaq".**

Belə başçılar elə hesab edirlər ki, bəşəriyyət yalnız «qüvvət və altına tabedir» və insanlar mərhəmət və məhəbbətdən daha çox dəhşət, zülm və qüvvətə tapınırlar. Belə əxlaqı sönük başçılar daima özlərinə ismət donu geydirirlər. Onlar unudurlar ki, güclü gücsüzdən heç vaxt intiqam almaz. Çünki belə intiqam vəhşətlərin ən alçağıdır. Belə intiqam ən böyük çirkinlikdir. Çirkinlik isə İnsanda elə bir əqli nöqsandır ki, o daima sahibinə nifrət qazandırar. Belələri quduzlaşdıqlarından heç bir təlim-tərbiyə ilə onları əhilləşdirmək mümkün deyil. Aqillərin dediyi kimi:

**"Tərbiyə versən də "vəhşi heyvan"a**
**Xisləti dəyişib dönməz insana".**

**Qəzəb** həm də heyvani Nəfsin şəhvət və intiqam hissindən doğan hərəkətdir. Bu hərəkət şiddətləndikcə hiss alovlanır, qan coşur, beyin qızışır, ağıl başdan çıxır, şüur fəaliyyətini zəiflədir və nəticədə İnsanın bədəni, içi od-alov, boğanaqlı tüstü ilə dolu olan, ağzından çıxan uğultu, qurultu, yanğın, his və qurumdan başqa heç bir şey görünməyən köhülə oxşayır. Bu halda odu söndürüb, Qəzəbi yatırtmaq son dərəcə çətin olur. Çünki o anda Qəzəbi söndürmək üçün nə işlədilsə alovun daha da şiddətlənməsinə səbəb olar. Bu anda Qəzəb bir növ dəlilikdir. O, həmişə sahibini peşman edər. Əgər Qəzəb sahibi sonradan peşman olmazsa, deməli, o, həqiqətən əsl dəlidir.

**Qəzəb** mötədilliyin ifrata doğru pozulması nəticəsində əmələ gələn ədalətsizlikdir, ədəbsizlikdir. Qəzəbli halda ədalətli və ədəbli olmaq mümkün deyil. Ədəbsiz və ədalətsiz ağıllı isə silahsız igidə bənzər. Müdriklər buyurublar ki:

"İgid və güclü adam o adamdır ki, Qəzəbli olanda Qəzəbini boğa bilsin".

Qəzəb insanda hiddət, iddialılıq, dava-dalaş, höcət, qisas, mübahisə, münaqişə, hərislik, həsəd və paxıllıq yaradar.

Hiddət, iddialılıq, dava-dalaş, höcət, qisas, mübahisə və münaqişə heç vaxt insanı onun özünə qarşı yönəltmir. Bunlar ac bəbir kimi heç vaxt Qəzəblinin özünü yemir, qulağını sallayıb, quyruğunu bulaya-bulaya ov həsrəti ilə ətrafını gözdən keçirir.

Hərislik, paxıllıq və həsəd isə belə deyildir. Bunlar həm də Qəzəblinin özünü məhv edir. Çünki hərislik, həsəd və paxıllıq dəmir pası kimi bir şeydir ki, yığılır, yığılır və sonda İnsanın özünü yeyirlər. Hərislik, həsəd və paxıllıq elə bir ruhi xəstəlikdir ki, İnsanın ağlını başından çıxarar, onun gözləri önünə pərdə çəkər ki, İnsan nə iş gördüyünü bilməsin. Həyatda hər dərdin bir dərmanı olduğu halda həsədin, paxıllığın və ən başlıcası, Qəzəbin dərmanı yalnız ölümdür.

Çünki heç bir nəsihət, məsləhət onlara təsir edə bilmir.

**Qəzəb hətta imanı belə çürüdür.**

**Nəfsi** özbaşına buraxdıqda ardıcıl olaraq İnsanı şərə sürükləyir, onu əxlaqsız, namussuz, qeyrətsiz, vicdansız, acgöz, tamahkar, oğru, xəyanətkar və yaramaz bir varlığa çevirər. Belə insanlar ən müqəddəs nemət olan Vətəni belə tamahlarına qurban verərlər. Ən qorxulusu isə belə insanların hakim mövqeyə çıxmalarıdır. Belələri bəzən elə bir həddə gəlib çatarlar ki, hətta millətin yarıdan çoxunun məhv edilməsinə, qalan hissəsinə isə hökmranlıq etməyə hazır olarlar. Belələri insanlara təsəlli vermək üçün pisə yaxşı adı qoyar, hər əcaib işi öz xeyirlərinə əsaslandırmağa çalışarlar.

Heyvani Nəfs İnsanda insanlığa yaraşmayan keyfiyyətlər yaradaraq sahibinə də zərər yetirər, sonda onu məqsədinə çatmağa qoymaz. Çünki pis iş görən gücdən tez düşər, rütbə axtaran Nəfsinin qulu olar, xəsis maddi çətinliyin qorxusundan ağır günlər keçirər, lovğa məzhəkə aləti olar, təkəbbürlü izzət axtarmaqla özünü zəlil edər, qəzəbli özünə əzab verər, qəddar isə cinayət yapar.

İnsan psixikasında dərin iz buraxan heyvani Nəfs quru ot arasına düşmüş oda, simlərdə gəzən elektrikə bənzər. Toxunduğunu məhv edib külə döndərər.

Heyvani Nəfsin min başı, min bir rəngi var. O, hər bir insanda başqa-başqa formada zühur edir. İnsan ömrü boyu

Nəfsin qulu kimi Onun arxasınca anbaan, günbəgün, aybaay, ilbəil sərgərdan dolanaraq özünü möhnətə, zillətə salaraq sonda **Günahlarla** yüklənərək axirət aləminə yollanır. Orda isə onu Cəhənnəm əzabı gözləyir. Deməli, heyvani Nəfs azadlıq və Cənnətdən əbədi məhrumluq, əbədi əsarətə məhkumluq, ürəyin təlaşı, hər an artan təşviş, tinətdə yaranan qəddarlıq, şübhə, təlaş və qəflətdir. Ehtirasa dayanan belə hisslər parlaq bir dühanı belə bürüsə, o heç bir xeyir verə bilməz. Ona görə də İnsan üçün heyvani Nəfsi öldürmək ölümdən də çətindir. Müdriklər söyləyiblər ki:

**«Ölüm kiçik, Nəfs isə böyük cihaddır».**

Heyvani Nəfsin istəklərinə itaət etmək İnsanı heyvaniləşdirir. Çünki heyvani Nəfsə pərəstiş etməklə İnsan idrakı, İnsan zəkası, İnsan kamalı bir araya sığa bilməz. İnsan öz heyvani Nəfsinin istəklərinin qarşısını almadan **mərifətin** ali dərəcəsinə yüksələ bilməz. Belə ki, İnsan öz heyvani Nəfsinin şəhvətinə itaət etməklə özünün insanlıq nurunu söndürür.

Heyvani Nəfs İnsanın qəlb aynasının üzərinə çəkilmiş pərdədir ki, İnsanın həyatın mənasını dərk etməsinə, Tanrını duymasına mane olur. Belə Nəfsani istəklərin ardınca gedən İnsan üçün Tanrının varlığını isbat edən ən aşkar dəlillər belə gizli qalar. Çünki yalnız özünü istəmək, yalnız özünü düşünməklə müqəddəs Varlığı sevmək bir yerdə cəm ola bilməz. Heyvani Nəfsinin qulu olan şəxsə Nəfsi Tanrıya iman gətirməyə imkan verməz. Çünki imanın məkanı qəlbdir. Özü ilə qəlbi arasında hicab olan şəxs isə Tanrını anlaya bilməz.

İnsan heyvani Nəfsinin və ehtiraslarının parıltısından istifadə etmək üçün onların hamısını coşdurmağa çalışsa **Şeytanilaşər** və bir daha özünə qayıda bilməz.

Ağlı **Nəfsinə** qələbə çalan İnsan Mələkdən üstün, Nəfsi ağlına qələbə çalan insan isə heyvandan da aşağıdır. Deməli, İnsanın taleyi öz əlindədir. O, öz aqibətini özü müəyyən edir. Bu aqibət isə onun daxilindəki ağılla Nəfsin mübarizəsindən və bu mübarizədə onlardan hər hansı birinin qələbə çalmasından asılıdır. Heyvani Nəfsinə qapılmayan, onu cilovlamağı bacaran, Onun ağası olan İnsanın biliyi bəy, ağlı xan, özü isə Xaqan olar.

Heyvani Nəfsin kökü şəhvətdə, var-dövlət hərisliyində və Tamahkarlıqdadır. Bunlara aludə olan hər bir şəxs insanlıq yolundan uzaqlaşıb şərə, Şeytana xidmət edir və bununla özü də bilmədən həyatını əzabla başa vurur. Belə insanlardan həyəcan heç vaxt əskik olmaz. Belə Tamahkar insanların ən pis xüsusiyyəti inadkarlıq və sırtıqlıqdır.

Böyük Türk müdrikləri söyləmişlər ki:

Tamah əbədi köləlikdir.

Tamah şər işlərə xidmət deməkdir.

Tamah insanı ya yandırar, ya da çiy saxlayar.

Tamah yoxsuldan da sələm umar.

Tamah insan üçün həyatda ən qorxulu xislətdir. O, insanları çox pis əməllərə sövq etdirə bilər.

Tamah insana imkan vermir ki, o, vacib şeylər haqqında düşünə bilsin.

Tamah ağlı da kəməndə salar.

Tamahın boynunu yalnız Tamah vurar.

Tamahkara dünyanı da versən doymaz.

Tamahkar insan daim özünü alçaldar.

Tamahkar insan sağlığa belə hər an həsrət qalar.

Tamahkar insan heyvani Nəfsinin əsiridir. Ona görə də o, həyatın qədrini heç vaxt bilməz. Çünki Tamahkar öz Nəfsinin quludur.

Tamahkar olmaq şərəfsiz adamlara gərəkli olmaq deməkdir.

Özgəsinin malına Tamah salan, onun zəhmətini yeyən insanın özü də özgələşər. Özgəsinin malına Tamah gözü ilə baxmaq belə insanın ən alçaq sifətlərindən sayılır. Belələri unudurlar ki:

**«Tamahla, həsədlə yaşasa insan,**
**Çox pay istəyənə ruzi olar kəm».**

Tamahkar, acgöz insanın nəsibi toz-torpaq süpürmək olar.

Tamahkarın gözü kor olar.

Tamahkarın gözünü torpaq doydurar.

Həyatda insan üçün bütün bəlaların, əziyyət və məşəqqətlərin mənbəyi Tamah, bütün cəfaların səbəbi Hərislikdir.

Dünya malına Hərislik bədbəxtlik və pislik əlamətidir. Bu keyfiyyətlər bir-biri ilə əlaqədar olub insanda xudbinlik, qəlbiqaralıq, nadanlıq, ədəbsizlik, qəzəb, xəsislik, həsəd, paxıllıq, qeybət, təkəbbür, yalan, riya, qısqanclıq, qorxu, ehtiras, biganəlik, şöhrətpərəstlik, cəhalət, hiddət, rəzillik, şəhvət, xəyanət, düşmənçilik, qibtə, yaltaqlıq, saxtakarlıq, şübhə, mənəm-mənəmlik, hiyləgərlik, ikiüzlülük və bu kimi şər əməllər yaradır. Bütün bunlar şər əməllər olduğu üçün onları həyata keçirən və hətta onlar haqqında düşünənlər belə Tanrının qəzəbinə düçar olurlar. Çünki belə insanlar xəlvətdə Şeytanla dostluq edənlərdirlər. Belə insanlar haqqında aqillər söyləyiblər ki:

**«Aşkarda İblisi söyməyin, çünki xəlvətdə siz Onun dostusunuz».**

Tamahdan doğan Həsəd insan rəzalətlərindən biridir. Əslində Həsəd cəhalətlə acgözlüyün birləşməsindən yaranan Paxıllıqdır.

Həsəd insanın imanını məhv edir. Həsəd aparan insanın dərdi çox, ömrü az olar. Həsəd aparan Paxıl insanın arzusu hüdudsuz olduğundan o heç vaxt yerinə yetməz, nəticədə qəm və kədərdən başqa heç bir fayda verməz. Ona görə də Həsəd və Paxıllıq insanda baş verən mürəkkəb xəstəliklər sinfinə aiddir. Həsəd və Paxıllıq şər işlərin ən murdarıdır. Çünki insan başqalarına, hətta rəqibinə belə şər arzulayırsa, deməli, o, şərlə dostluq edir. Şərlə dostluq edənə isə şər adam deyərlər. Ən şər Adam isə dostuna Paxıllıq edən, ona Həsəd aparandır. Belə adam isə daha murdar, daha çirkin adam sayılır.

Paxıl adam  ən şər adam olduğu üçün o, həmişə qəmli olar, başqasının xoş gününü görəndə kədərlənər, qəzəblənər və hətta qəzəbindən partlamaq dərəcəsinə varar.

Paxıl adama düşmən lazım deyil, onun paxıllığı elə öz düşmənidir. Paxıl adamı bu xəstəlik və əzabdan yalnız ölüm qurtara bilər.

Paxıl adam öz xeyrinə olan şeylərlə də kifayətlənməz.

Paxıllıq bütün pislikləri özündə cəmləşdirən ruhi xəstəlikdir.

Bəzən Qibtə ilə Həsəd və Paxıllığı eyniləşdirirlər ki, bu eyniləşdirmə yanlışdır. Çünki Həsəd və Paxıllıqdan fərqli olaraq Qibtə başqasına zərər verməmək şərti ilə onda olan elm, kamal, istedad və ya xoşa gələn bir şeyə malik olmaq arzusudur.

Həsəd və Paxıllıqda isə bunların başqalarında olmaması bir məqsəd olaraq qarşıya qoyulur.

Qibtənin tariflənən və məzəmmətlənən iki növü vardır. Təriflənən Qibtə fəzilət və səadətlərə edilən Qibtəyə deyilir və müsbət hesab edilir. Məzəmmətlənən Qibtə isə şəhvət və ləzzətlə edilən Qibtəyə deyilir və daha çox Hərisliyə oxşayır.

Hərislik isə Tamahkarlığın bir növü olub insanda daha çox Möhtəkirlik, Rüşvətxorluq və Yaltaqlıq kimi Çirkin əməllər yaradır.

Hərislik acgözlükdür. Acgözlük isə insan vücudunda ən çirkin şeylərdən biridir. Çünki Hərislik insanı Yalana təhrik edir. Yalan isə bütün günahların açarıdır. Bütün günahlar Yalandan başlanır. Müqəddəs ayədə buyurulur ki:

**«Ölüm olsun Yalançılara! Onlar cəhalət girdabına düşmüş bixəbərdilər… Onlar Cəhənnəm oduna mübtəla ediləcəklər»** (Zariyat, 10, 11, 13).

Yalan insan ürəyinin Şeytanıdır.

Yalan, iftira, böhtan, qarayaxma, xəbərçilik, sırtıqlıq və yaltaqlıqdır.

Yalan var-dövlət əldə etmək və ümumiyyətlə hər hansı bir şeyə hərislik əlamətidir.

Yalan riyakarlıqdır, ikiüzlülükdür, xudpəsəndlikdir, özünü düşünməkdir.

Yalançı da yaltaq kimi möhtac olduqda başqasına itaət və ibadət etməyə çalışar, başqası ona möhtac olduqda isə min bir bəhanə gətirər.

Yalançının ağıl güzgüsünü qara pas basar. Yalan danışanların doğrular qarşısında heç bir etibarı olmaz.

Yalanın səbəbi özündə olmayan istedadların varlığına yanlış inam, məqsədi isə hər hansı bir mənsəbə çatmaq həvəsidir.

Yalanın köməkçiləri haqsızlıq, ədəbazlıq, qorxaqlıq və yalandan təşəkkül tapmış lovğalıqdır.

Yalançının şahidi özüdür.

Müqəddəs ayədə buyurulur ki: **«...Tanrı Yalançı və Kafiri düz yola aparmaz»** (Zumər, 3).

Yalan danışan, haqsızlıq qarşısında susan adam dinsiz, imansız Şeytandır. Doğrunu söyləməyən, Yalan danışan hər bir şəxsin insanlıq adına heç bir payı yoxdur. Onların büiün ibadətləri batildir. Müqəddəs ayədə buyurulur ki: **«...Ancaq haqsızlar bir-birliərinə Yalan vəd verərlər»** (Fatir, 40).

Tarixdə bəzən bir çox müdriklər fayda verən Yalanı zərər yetirən doğrudan, həqiqətdən üstün hesab etmişlər. Biz bu fikri qəbul etmir və Yalanı heç bir doğrudan, hətta ölümlə nəticələnəcək doğrudan belə üstün hesab etmirik. Doğru doğrudur. Haqq qorunmalıdır!

Yalan Riya və ikiüzlülükdür. Riya və ikiüzlülük isə insan fəzilətini kasad eylər. Riya pak insanın yolunda bir tələdir.

Riyakar, ikiüzlü adam hər cür alçağlığı özünə rəva görər. Çünki belə adamlar yalnız özlərini düşünürlər. Müdriklər söyləyiblər ki:

**«Alçalmaq yoluyla kim tapsa çörək,**
**Özünü alçaltmış o adam demək».**

Heyvani Nəfs sonda insanı Zalıma çevirər. İnsan üçün ən böyük günah Zülm etmək, Zülmkara kömək etmək, ona təzim etmək, onu tərifləmək, onun hakim mövqeyə çıxmasına yardım göstərmək, onun etdiyi haqsızlıqlara biganə qalmaqdır.

Zülm bütün rəzalətlərin məcmusudur. İnsanlara əziyyət vermək, onları təhqir etmək, döymək, söymək, öldürmək, onların mallarını zorla almaq, qarət etmək, qəsb etmək, onlara böhtan atmaq və s. bu kimi əməllər Zülm adlanır. Zülm, zor və təzyiq insanın müstəqil mühakimə yürütmək sərbəstliyinə mane olur.

Zülmlərin ən dəhşətlisi yardımçısı olmayana edilən Zülmdir. Unudulmamalıdır ki, özündən gücsüzlərə rəhm etməyən, özündən güclülərin Zülmünə rast gələr.

Zülm bir şəxsin və ya qrupun başqa fərd və ya qrupun hüququna təcavüz etməsi ilə bitmir. Zülm həm də bir şəxsin və xalqın öz ali ruhuna xilaf çıxması ilə də təzahür edir. Zülm hətta bir xalqın tənəzzül və məhvində də əsas amil kimi çıxış edir.

Zülm əslində bütün qeyri-əxlaqi işləri əhatə edir. Ona görə də Zülmün bütün növləri günahdır. Din ulularının söylədiyi kimi:

**«Zülm qiyamət gününün ən pis azuqəsidir».**

Zülm edən zalım adlanır. Zalıma kömək etmək, onun Zülmünə şərik olmaq deməkdir. Bütün bunlar isə Zülmkarı daha da qüdrətli və sırtıq edir, cəmiyyətdə Zülmün və deməli, haqsızlıqların da çoxalmasına səbəb olur. Müdriklərin söylədiyi kimi:

**«Hökmdarı Zalım olarsa, xadimləri, məmurları can alar».**

Zalım və müstəbid başçılar həmişə nizam-intizam yaratmaq və əmin-amanlığı qorumaq bəhanəsi ilə ən ali lütf hesab edilən və insanlığın cövhəri sayılan azadlığı boğmuş, ədaləti isə ayaq altında tapdalamışlar. Müstəbidlər həmişə bəşəri əxlaqın inkişafı yolunda ən böyük əngəl olmuşlar. Çünki onlar cəmiyyətdə mənəviyyata olan tələbat və meyli daxili aləmə tapınma kimi qiymətləndirir və pisləyirlər. Bunun da nəticəsində insan və cəmiyyət tərəddüd girdabında boğulur. Həyatda tərəddüd keçirən fərd və cəmiyyət getdikcə özündən uzaqlaşır, şəxsiyyət və mənəviyyatını itirərək özü ilə yadlaşır, başqa birisini özünün yerinə özü kimi qəbul edir, öz işlərini görmək əvəzinə başqası üçün iş görür.

Unutmaq olmaz ki, Cəmiyyətin, xalqın, millətin də fərd kimi ruhu və şəxsiyyəti vardır. Onlar da fərd kimi tərəddüd keçirir, aşınmaya məruz qalır, öz mahiyyət və simalarını, özlərinə olan iman və ehtiram hisslərini itirərək birdəfəlik süquta uğrayırlar. Özünə olan inamı, Tanrıya olan imanı, əslinə-kökünə olan ehtiramını itirən fərd, millət və cəmiyyət isə süqut etməyə məhkumdur. Ona görə də Zülmün və Zalımın

törətdiyi bütün ədalətsizliklərə qarşı millətin bütün fərdləri bir-birləri ilə ittifaqda olmalıdırlar. Dahilər söyləyiblər ki:

**«İttifaq bağlasa qarışqalar da**
**Dərisin deşərlər qızmış şirin də».**

Unudulmamalıdır ki, insan Zülmə qarşı haqqı, ədaləti qorumaq və bu yolda çarpışmaqla istəyinə nail ola bilər. Böyük şairin dediyi kimi:

*«Zülmün topu var, gülləsi var, qalası varsa,*
*Haqqın da bükülməz qolu, dönməz üzü vardır.*

*Göz yumma günəşdən, nə qədər nuru qararsa,*
*Sönməz əbədi, hər gecənin gündüzü vardır.*
*Millət yoludur, haqq yoludur tutduğumuz yol.*
*Ey Haqq! Yaşa, ey sevgili Millət, yaşa, var ol!»*

İnsanlara zülm edən Zalımlar həmişə lənətlə yad edilirlər. Çünki Zülmkarın üzərində Tanrının, mələklərin və insanların lənət damğası var. Onlar əbədi lənət içində qalacaq, heç vaxt əzabları yüngülləşdirilməyəcəkdir. Onlar heç vaxt muradlarına yetməyəcək, uğura uğramayacaqlar. Çünki Zülm Tanrının haram buyurduğu ən böyük günahlardandır. Müqəddəs ayədə buyrulduğu kimi: **«…Tanrı Zalım adamlara bir yol göstərməz»** (Tövbə, 109).

**«…Tanrı Zalımlar dəstəsini haqq yola istiqamətləndirməz»** (İmran, 86).

**«…Tanrı Zülm edənləri sevməz»** (İmran, 57).

Zülm ilk öncə dünyada az idi. Sonra gələn hər Zülmkar Onu bir az daha artırdı, nəhayət indiki həddə gəlib çatdı. Müdriklər buyurmuşlar ki:

***«Zalım oldun, Zülm əkərsən yenə kəndi tarlana,***
***Zalımın Zülm və Şərindən tarlada üsyan bitər».***

İnsanın haqlı ikən məğlub olması Zalımlıqla qalib olmasından daha şərəflidir. Daha doğrusu, Zülm ilə qələbə qazanmaqdansa, haqq yolunda məğlub olmaq daha yaxşıdır. Çünki sonda:

**«Zülm ilən abad olan**
**Ədl ilən bərbad olur».**

**Müdriklər söyləyiblər ki:**

**«Zülm üçün qılınc çalan insan qan tökən şir kimi balasız qalar».**

Cəhalət pərdəsi haqqı görməyə əngəl törətdiyi kimi Zülm örtüyü də xeyirli işlər görməyə mane olur.

Zülmkara, haqsıza dəstək verənin özü də Zalıma çevrilər. Zalım adamla ünsiyyətdə olmaq, onunla dostluq etmək Zülm etməyə bərabərdir. Elm və təcrübə təsdiq edir ki, insan ünsiyyətdə olduğu adamlardan müəyyən təsirləri qəbul edir. Zalımla dostluq etmək, onunla oturub-durmaq Şeytana itaət etmək deməkdir. Müdriklər söyləyiblər ki:

**«Zalım və ədalətsiz adamlarla oturub-durmayın. Çünki onlar qınından çıxmış qılınc kimidirlər. Zahiri körkəmi yaxşı, təsiri isə pisdir. Pis adamlarla dost olmaq insanı yaxşı adamlara qarşı bədbin edər».**

Həyatda ən böyük Zülm haqsız və yersiz cəzadır. Zülmkar haqsız olduğundan son anda haqqın qurbanı olur:

«İç, iç nə qədər istər isən qanımı Zalım,
Bir gün görərəm qanını səhbalar içində».

Öz heyvani Nəfslərinin istəklərinə əsir olan yüksək vəzifə sahibləri, hökumət məmurları cəmiyyəti daha çox qarşıqlığa, pozğunluğa sürkləyirlər. Ulu Peyğəmbər (s) buyurmuşdur ki:

**«Ümmətimin iki dəstəsi pozğun olsa, camaat da pozğun olacaq. Yox əgər saleh olsa, camaat da saleh və düz yolda olacaqlar: alimlər və ölkə rəhbərləri. Çünki alimin düz yoldan çıxması bütün aləmi korlayar. İnsanlar öz rəhbərlərinin dinindəndirlər. Camaatın düz yola gəlməsi onların rəhbərlərinin düz yola gəlməsinə bağlıdır. Tanrı dərgahında insanların ən pisi özü pis olub camaatı da pis yola çəkən və gözəl adət-ənənələri məhv edib, yerinə pis adətlər gətirən dövlət rəhbərləridir».**

Həyatında yalnız Tanrıdan qorxan Ulu Peyğəmbər (s) belə bu günü görürmüş kimi uzaqgörənliklə bildirmişdir ki:

**«Ümmətimin üç işindən qorxuram: paxıllıq etmələrindən; Nəfsani istəklərinə itaət etmələrindən və nalayiq rəhbərlərə» itaət etmələrindən».**

Ey insanoğlu! Çalış ki, heyvani Nəfsin səni cənginə alıb öz peşəsi ilə öz rənginə boyamasın. Unutma ki, bu dünyada

gördüyün bütün pis və yaxşı işlər bir-birinə uyuşub, bir-birinin rəngini alırlar.

Heyvani və ya Şeytani Nəfs Şeytanın insan qəlbinə fısıldadığı vəsvəsələrdir. İnsan Şeytanın vəsvəsə və hiylələrinə qarşı durmaq üçün Tanrının bütün zirehlərini geyinməlidir. Çünki Şeytanın hiylələrinə, bu qaranlıq dünyanın qəddar rəhbərlərinə, cəmiyyətdə mövcud pis əməllərə qarşı durmaq, onlara qarşı mübarizə aparmaq üçün insan belinə Həqiqət qurşağı taxmalı, sinəsinə salehlik zirehi geyməli, sol əlinə İman qalxanı, sağ əlinə Ruh qılıncı almalı, başına Xilas dəbilqəsi taxmalı, ayağına Sülh başmağı geyməli, dilinə Hikmət sözü götürməli, ürəyinə Məhəbbət duyğusu yükləməli, ağlına Kamillik zinəti vurmalıdır. Əks təqdirdə insanoğlu Şeytanın hər yolun ağzında qurduğu tələyə düşəcək.

Unudulmamalıdır ki, Şeytani Nəfs maddi cəsəd geyə bilsəydi, bu Şər qüvvə insanın eyni ola bilərdi. Və həmçinin əgər bu insan surətindəki insi Şeytan cəsədini çıxara bilsəydi, insan Cinə bənzər, Şeytan ola bilərdi. Bunu nəzərə alan bəzi psixoloqlar hətta belə bir qərara gəliblər ki:

**«İnsan öldükdən sonra ondakı Şər qüvvə Şeytana çevrilir».** Və insandan qopan bu Şər qüvvələr daha amansız, daha zülmkar olur, daha böyük fəlakətlər törədirlər.

İnsanın ağlı, idrakı, şüuru, iradəsi hiss və duyğuları Vicdan mexanizmini meydana gətirir. Şəhvani arzu, istək, kin, nifrət, öfkə, inad və s. kimi insana məxsus duyğular da heyvani Nəfs mexanizmini təşkil edir. Bu iki mexanizma adətən bir-birinin əleyhinə işləyir. Vicdan mexanizminin qələbəsi nəticəsində Nəfs mexanizması da müsbətə doğru yönəlir və insanın ucalmasına, kamilləşməsinə xidmət edir. Başqa bir deyimlə, Vicdan vasitəsilə Nəfs pisliklərdən qurtulub saf, keyfiyyətli mərtəbələrə sıçrayaraq insana yararlı hala gəlir.

İnsan həyatda öz Nəfsinə nəzarət edə bilmədən ləyaqətli şəxsiyyət ola bilməz. Yalnız ağlı, idrakı Nəfsinə qalib gələn insan əsl insandır. Nəfsini cilovlayıb onu tam nəzarət altında saxlayan, şüurunu özündə cəmləşdirə bilən, həyatda aramsız arzular axınından narahat olmayan, öz şeytani istəklərini boğa

bilən, Nəfsin əsarətindən qurtulan, Onu özünə tabe edə bilən insan kamil insandır.

İnsan bütün həyatı boyu tam kamilliyə, azadlığa nail ola bilməsə də əsarəti, nadanlığı da qəbul etməməlidir. Çünki kamillik və azadlıq uğrunda mübarizə insanın heyvandan İnsana doğru gedən yoludur. Bu yoldan imtina **insanlıqdan** imtina etmək deməkdir. Öz heyvani Nəfsini ittiham edən insan öz qüsurunu görür, eybini etiraf edir və bununla da Şeytanın şərindən qurtulur. İnsan öz Nəfsinə o dərəcədə hakim olmalıdır ki, hətta ona edilən pisliklərin müqabilində də o pislik etməsin. Çünki pisliyə pisliklə cavab vermək əslində özünü pis insan etmək deməkdir. Edilən pisliyin cavabı ya pislik edəni bu yoldan döndərmək, ya o pisliyə yaxşılıqla cavab vermək, ya da ümumiyyətlə heç cavab verməməkdir. Ən yaxşısı isə ataların söylədiyi kimi:

**«Yaxşılığa yaxşılıq hər kişinin (insanın – A.M.) işidir. Yamanlığa yaxşılıq ər kişinin (kamil insanın –A.M.) işidir».**

Müqəddəs ayələrdə buyurulur ki:

**«...Pislik edəni bağışlayıb onunla barışanların mükafatı Tanrıdadır» (Şura, 40).**

**«...Kim səbr edib qisası bağışlayarsa, bu xeyirxahlıq əzmində olmaq deməkdir» (Şura, 43).**

Tanrı qarşısında yalnız Nəfsini təmizləyən nicat tapacaqlar. Müdriklər söyləyiblər ki, **«Nəfsini qoruyub haqqı tapan insan arzu toxumunu ümid tarlasına əkib bəhrəsini görər».**

İnsan Dünyanın övladıdır. Övladın valideyni sevməsi qəbahət sayılmaz. Fəqət unudulmamalıdır ki, Dünyanın iki sükanı vardır. Bunlardan biri Xeyrin, digəri isə şərin, İblisin əlindədir. İnsan çalışmalıdır ki, İblisin əlindən bu sükanı alıb həyatını özü idarə etsin.

Başdan-ayağa əzab-əziyyət, zülm və məhrumiyyətlə dolu olan bu Dünya məhdud və ötəri ləzzətləri ilə insanı özünə daha çox bağlayır. Çünki insan təbiətən şadlığa, şənliyə, şəhvətə meyllidir. Lakin unutmaq olmaz ki, Tanrı həyatda hər şeyi iki əks qütblü yaratdığı kimi şadlıq və qüssəni də dünya əhlinin qarşısına qoyub və buyurub ki: **«Hamı bu ikisindən də bəhrələnsin və heç kəs hər ikisini görməkdən məhrum olmasın».**

Həyatda yalnız şadlığa, şənliyə, şəhvətə sərf olunan ömür lüzumsuzdur və belə bir alçaq işə aludəçilik cəhalətdir, heyvani Nəfsə ibadətdir. Daha doğrusu, əslində həyat, yaşamaq üçün əzab çəkmək üçün yaşamaqdır. Dünyanın şərbəti zəhər, sevgisi ağır bir yükdür. Müdriklər söyləyiblər ki: «Dünya bir cəmdək, onu istəyənin adı isə itdir».Ona görə də ağıllı insan belə bir «murdar» şeyə Nəfs salıb, Nəfsini özünə yük etməz. Cahillərdən fərqli olaraq ağıllı insanlar insani Nəfsi heyvani Nəfslərindən üstün tutduqlarından bu Dünyaya olan şəhvani məhəbbətlərini məhdudlaşdırmaqla onu Tanrıya məhəbbətlə əvəzləmiş, özlərini, əbədiyyət aləminə hazırlamışlar. Çünki bu Dünya ariflər üçün Tanrının sınaq meydanı, cahillər üçün yol kəsən bir səddir.

Həyatda o insan xoşbəxtdir ki, Dünyanı dərk etməklə Onu əldə edə, lakin Ona bağlanmaya; Dünyanı çətin əldə edib, Onu asan əldən verə. Çünki ariflər üçün:

*Dünya özünü, sözünü anlayan qurtuluş evidir.*

*Dünya insanların həm sevinc, həm də bəla diyarıdır.*

*Dünya Tanrı Vəhyinin endiyi yerdir.*

*Dünya Tanrı dostlarının səcdə yeridir.*

*Dünya sözünü gerçək danışana gerçəklik yurdudur.*

*Dünya ondan öyüd götürənə öyüd məskənidir.*

*Dünya ondan ruzi istəyənə zənginlik diyarıdır.*

*Dünya Tanrının insanları sınağa çəkdiyi yerdir.*

*Dünya əbədi yurda keçiddir.*

*Dünya gecə və gündüzü ilə insanların keçmiş işlərini itirən və gələcəyə yol göstərən əməkçidir.*

*Dünya iki gözlü bir tərəzidir ki, burda* ***ədaləti*** *yalnız Tanrı çəkə bilir.*

*Dünya Tanrı tərəfindən sonradan yaradılmış dəyişən, hərəkətdə olan, möhkəm və sarsılmaz səbəb və nəticə qanunlarına əsaslanan quruluşa malik canlı orqanizmdir. O, diri və canlı bir varlıq olduğu üçün də şüurlu Varlıq tərəfindən idarə olunur. Dünyada xeyir və şər, mənfi və müsbət, nur və zülmət, hərəkət və ətalət, təkamül və durğunluq daimi mübarizədədir.*

«Tanrı dərgahı» da adlandırılan «Qeyb dünyası»nın kiçicik bir parçası olan bu Dünya Tanrıya qayıtmaq üçün aşağı

enmə və tənəzzül dövrünü keçirib Tanrıya doğru hərəkət etmək və Tanrıya qovuşmaq yoludur. Bu Dünya ilə birgə insan da «Qeyb aləmi»ndən – «Tanrı dərgahı»ndan yaşadığı aləmə, oradan da «Axirət dünyası»na uzun bir səfərdədir. Böyük müdriklərin söylədiyi kimi: **«Dünya duracaq yer deyil, ey can səfər eylə».**

«Qeyb aləmi»ndə vücuda gələn, yaşadığı aləmdə böyüyüb boya-başa çatan və **əməlləri** ilə yüklənən insan nəhayətdə «Axirət dünyası»nda Tanrı qarşısında hesabat verəcək. Deməli, bu Dünya insanla əlaqəsi baxımından həm də **əməl** Dünyasıdır. Burada da «Axirət dünyası»nda olduğu kimi mükafat, yardım və cəza vardır. Bunlar arasındakı fərq yalnız bu Dünyanın müvəqqəti və fani, «Axirət dünyası»nın isə əbədi olmasıdır. Deməli, əslində bu Dünya «Axirət dünyası»na hazırlıq anı, daha yüksək və daimi məqsədə çatmaq üçün bir vəsilədir. Bu əbədi səadətə çatmaq isə insanın xeyirxah əməllərindən asılıdır. İnsan özü xeyirxah əməlləri ilə öz dəyərini Mələklərdən də üstün edə bilər. Demək insan bu Dünyada iki yol ayrıcındadır – Cənnətə və Cəhənnəmə gedən yol ayrıcında. Bunlardan hər hansı birini seçmək insanın öz əlindədir.

İnsanın heyvani Nəfsinə əsaslanan, Tanrının və insanlığın xilafına olan hər bir iş Şeytan işi, hər bir yol Şeytan yoludur. Bu yola düşən insan zillət və zərərə düçar olar və onun ümid çırağını bədbəxtlik qarət edər.

İnsanın xeyirxah əməllərinə əsaslanan insani Nəfsi isə onu səadətə qovuşdurar. İnsani Nəfs fəzilət və mərifət yüksəkliklərini fəth edib insanı kamala çatdırar, onu mövcudatın ən ali dərəcəsinə yüksəldər. Övliyalar buyurmuşlar ki:

**«Öz Nəfsinizlə cihad edin, necə ki, düşməninizlə cihad edirsiniz».**

Nəfsini özünə tabe edən insanlar, Şeytana muzdurluq etməzlər. Onların aydın, pak, təmiz, saf ürəkləri Şeytan əməllərinin sipəridir. Belə insanların gözü toxluq donu geydiyindən ona Şeytan oxu bata bilməz. Müqəddəs ayədə buyurulmuşdur ki:

**«Nəfsini pak edən hər kəs artıq uğura qovuşmuşdur (Şəms, 9)».**

İnsani Nəfsin arzusu, istəyi insan həyatının təməli, mənasıdır. Bu zaman insanın gözü, qulağı, ağlı, ruhu və qəlbi bütünlüklə onun insani arzu və istəyinin həyata keçməsinə xidmət edir.

Nəfsini tanıyan, onu cilovlamağı bacaran insan öz-özünün dostudur. Həyatda ən böyük hünər Nəfsi cilovlamağı bacarmaqdır.

Nəfs cihadı insan qəlbinin təlim-tərbiyəsidir. Bu cihadda məqsəd əxlaqı yüksəltmək və insanı kamala çatdıraraq kamil insan halına gətirməkdir.

İnsanın üsyanı Nəfsinə, itaəti isə Tanrıya olmalıdır.

İnsani Nəfs heyvani Nəfsi udanda insan ülviləşir, əksinə olduqda isə şeytaniləşir.

Nəfs və ehtiras zəncirlərini qırmaq hər kəsin işi deyil. Gözəl əndamın, şux gözlərin, yalan dadlı sözlərin, gülər yaltaq üzlərin toruna düşməmək heç də asan deyil. Ona görə də:

- Ey mənim sıyıq Nəfsim! Olmaya bu fani Dünyaya – bu bəzək-düzəkli, cilvəli Gəlinə aldanasan! Ona aldansan Cəhənnəmdə yanarsan. Unutma ki, Dünya hiyləgər bir cadugərdir. Ona aldanan Şeytana aldanır. Ona görə də, Şeytan atına minib Dünyanı dörd dolanma. Hər gördüyünə sıyılma. Hər eşitdiyini həqiqət sanma. Unutma ki:

**«Göz, qulaq, görmək, eşitmək aləti**
**Çox zaman aldatmış insaniyyəti».**

- Ey mənim zalım Nəfsim! Zülm edib qan tökməkdən çəkin. Özünü böhtana, qarayaxaya yönəltmə. Günah etməkdən sıyrıl. Unutma ki, bu əcəl meydanına girməyən kimsə olmaz. Qəbr içində başın daşdan-daşa dəyəndə heç nə Sənə kömək etməz.

- Ey uğursuz Nəfsim! Olmaya çaşıb Dünyanın çirkli işlərinə əl uzadasan, balına, şəkərinə barmaq batırasan. Unutma ki, Dünyanın ən böyük xəzinəsinin «ölüm» adlı zəhərli ilanı vardır.

- Ey imansız Nəfsim! Şeytan kimi boynuna lənət boyunduruğu keçirmə. Şeytan sözünə uyma. Şeytana uysan

sonda qəbrin od ilə dolar. «Məhşər günü»nə qədər əzabda qalarsan, qarışqaya, ilana çayana, əqrəbə yem olarsan. Haqq tərəzinin şər gözü xeyir gözünü basar. «Qıl körpüsü»ndən keçə bilməyib Cəhənnəmə düşər və Orada əbədi yanarsan!

- Ey uğurlu Nəfsim! Unutma ki, insani Nəfsə qarşı çıxan ya xəstədir, ya da çılğın. Ona görə də, ağlın, idrakın, zəkanın, ilahi Ruhun **iman** çırağını əlinə al ki, əbədi həyat bulağından su içib, saf ürəklə Haqqa doğru irəliləyəsən.

- Ey Mələk kimi pak Nəfsim! Təkəbbürdən, həsəddən, paxıllıqdan nifaq salmaqdan, qeybət etməkdən, zülmdən, ədavətdən, tamahdan, kin bəsləməkdən, ikiüzlülükdən, riyakarlıqdan, xudpərəstlikdən, bir sözlə, Şeytani Nəfsdən məni qoru!

***Amin!***

## Türklərdə Ruh anlayışı

**Təbiət, Kainat maddi, Tanrı isə bütünlüklə Ruhdan ibarətdir.**

**İnsan isə həm maddi, həm də Ruhi varlıqdır.**

Maddi varlıq kimi insan Mütləq Varlıq tərəfindən yaradılmış müəyyən ölçüyə, müəyyən kütləyə malikdir. İnsanda bu maddi varlıq Bədən adlanır.

Bədən müxtəlif kimyəvi maddələrdən ibarətdir. Təbiətdə hər an müxtəlif kimyəvi maddələrdən külli miqdarda canlı varlıqlar əmələ gəlir, inkişaf edir və məhv olur. Deməli, doğulan və ya əmələ gələn bir şey mütləq öləcək və ya başqa bir şeyə çevriləcək. Bu saysız-hesabsız ölüm və ya çevrilmələr anında bütün canlı varlıqlar dəfələrlə çaşırlar. Bu canlı məxluqlar yalnız insan Bədəni aldıqda Ruha yiyələnir. Deməli, insan bütün canlı varlıqlardan fərqli olaraq iki hissədən – Bədən və Ruhdan ibarət yaradılmışdır. Müqəddəs ayələrdə də buyurulduğu kimi:

Tanrı insanı «qurumuş palçıqdan – gildən» yaratmış (Hicr, 26), sonra ona «şəkil verərək Öz Ruhundan ona üfürüb

nəfəs vermiş» (Səcdə, 8), «sonra onun özündən həmtayını – Həvvanı yaratmış» (Zümər, 6) və «onun nəslini bir qətrə zəif su damlasından» (Səcdə, 8), «qarışıq bir nüftədən» (İnsan, 2), «tələsiklik maddəsindən» (Ənbiya, 37) törətmiş, ona eşitmək, görmək və düşünmək qabiliyyəti vermiş, haqq yolunu göstərmişdir.

Deməli, Bədən bütün canlılarda mövcud olduğu halda Ruh yalnız insanda mövcuddur. İnsanda mövcud bu iki əks və bir –biri ilə vəhdətdə olan varlıqlar bir-biri ilə daim mübarizədədirlər.

Bədəndən fərqli olaraq Ruh heç vaxt doğulmur və ölmür. Ruhu heç bir silahla məhv etmək, Onu odla yandırmaq, su ilə islatmaq, küləklə qurutmaq olmaz.

Bədəndən fərqli olaraq Ruh görünməz, dərk olunmaz, başqa bir şeyə çevrilməz.

Bədən gözəlliyindən fərqli olaraq Ruhi gözəlliyi gözlə görmək olmaz.

Bədəndən fərqli olaraq Ruh tabe olmağa dözməz.

Bədəndən fərqli olaraq Ruh nə doğulur, nə də ölür. Doğulan hər bir şey mütləq ölməlidir. Ona görə də, Ruhun nə keçmişi, nə indisi, nə də gələcəyi var. O, əzəlidir, əbədidir, daim mövcuddur.

Bədəndən çıxan Ruhu heç bir maddi üsulla həmin Bədənə qaytarmaq olmaz.

Bütün maddi Dünyanı Ruhi dünyanın əksi və ya daha dəqiq desək, kölgəsi hesab edən, bütün Kainatı belə Ruhlar Dünyası kimi qəbul edən Türklərin dini inanclarının təməlini Ruhun əbədiliyi təşkil edir.

***Ruh Bədən xatirinə yox, Bədən Ruh xatirinə yaşayır. Çünki Ruh Bədəndən daha dəyərlidir.***

***Ruh harmoniya və harmoniyanın daşıyıcısıdır.***

***Ruh Bədənin mahiyyətidir. Ruhsuz Bədən mövcud ola bilməz. Ruh maddi Bədəni tərk edən kimi Bədən çürüməyə başlayır.***

İnsanın məzmunu əslində onun azad Ruhudur. Ona görə də, azad Ruhdan kənarda həqiqi din və Tanrı axtarmaq mənasızdır. İnsanın Tanrıda, Tanrınınsa insanda yaşadığı

ondan bilinir ki, Tanrı insana Ruhundan pay vermişdir ki, bu Ruhla da insan Tanrının ona olan məhəbbətini dərk edib Tanrıya iman gətirmişdir.

Tanrı insana qorxaqlıq Ruhu deyil, qüdrət, məhəbbət və nəfsə hakim olmaq Ruhu vermişdir.

Ruhun dili intuisiya, gücü isə əxlaqdır. Ruhun dilini bilən, əxlaqından güc alan insan dünyanın və insanlığın gələcəyini görə bilər. Çünki Ruh Mütləq Varlıqdan- Tanrıdan insana bəxş edilən əbədi Candır.

Ruh insanın özündən və hətta Mələkdən də üstün varlıqdır. Ruh elə bir qüdrətli varlıqdır ki, hətta Tanrının dərin düşüncələrini belə araşdırmağa qadirdir.

Ruh elə bir ali varlıqdır ki, O, birinə hikmət, digərinə bilik, başqa birinə iman və inam, bir başqasına şəfa, birinə möcüzələr yaratmaq qabiliyyəti, başqasına müdriklik, kamillik və Peyğəmbərlik və s. və i. bəxş edir.

Tanrı Özü belə bir Ruhdur. Ona görə də, Tanrıya pərəstiş edənlərin Ruhən pərəstiş etmələri gərəkdir.

İnsanın azadlığı öz Ruhundan doğur. Bu anlamda azadlıq Ruhun mahiyyətidir. Ruhun Bədəndən ayrılması Onun azadlığa qovuşması deməkdir. Bu halda Ruh, özünə mahiyyət forması verir və «Mən» olur. Ruh yalnız «Mən» olanda gerçəkləşir.

Ruh insan qayəsinin əsası, onun düşünən beyni, döyünən ürəyi, görən gözü, danışan dili, Canı, Qanı, həyat iksiridir.

Ona görə də müdriklər buyurublar ki:

***«Bilən Ruhdur, ağıl isə vasitə»***

***«Görən Ruhdur, göz vasitə».***

***«Danışan Ruhdur, dil vasitə».***

***«Sevən Ruhdur, qəlb vasitə».***

Ruh gözün görmədiyini görür, qulağın eşitmədiyini eşidir, ağlın ermədiyini anlayır. Əslində, bütün qavrayışlar Ruhun estetik xüsusiyyətinə aiddir. Ruh hər şeyi qavramaq xüsusiyyətinə malikdir.

Ruh yalnız arzuladığı şeyi görür və eşidir. Ruh öz Bədənini belə kənardan görür, lakin, ondan ayrıldığını dərk etmir.

Ruh fiziki iztirablardan daha çoz mənəvi və əxlaqi narahatlıq və həyəcan keçirir. Bu anlamda Ruh yad adamdan daha çox yaxınların və dostların insana etdiyi diqqətsizlikdən təsirlənir. Ruhun vicdanı və əxlaqi təmizliyi Onu bütün iztirablardan azad edir. Maddi kədər insanı ölümə sürüklədiyi, qaranlıq könülə öksüzlük yaydığı halda, Ruhi kədər insanı ülviləşdirir, gözəlləşdirir, xilasa aparan tövbəni hasil edir.

Ruh insanın özüdür. Bütün insanların Ruhu özünə oxşayır. Ona görə də, sayı bilinməyən Ruhlar əbədi səadət diyarına gedə bilmirlər. Çünki belə Ruhlar Tanrı ilə ünsiyyət qaydasından məhrumdurlar. Ali Ruhlar isə Yer üzərində dövrə vurub nurlu üfüqlərdə qeybə çəkilərək Tanrı ilə ünsiyyətə girir və sonda Ona qovuşurlar. Bir qayda olaraq xeyirxah Ruhlar insanları xeyirxahlığa, pis Ruhlar isə mənəviyyatsızlığa, əxlaqsızlığa və bu kimi pis əməllərə səsləyir. Ruhlar yalnız şərdən qaçıb xeyirxahlıq yolu tutmaqla saflaşırlar.

Hər bir Ruhun özünə xas cəhətləri var. Bu da hər bir Ruhun birinin digərindən fərqli olmasından irəli gəlir. Ruhlar güclərinə, ağıllarına, biliklərinə, mənəvi və əxlaqi keyfiyyətlərinə görə bir-birlərindən fərqlənirlər.

Ruhlar paklaşana qədər təkamül mərhələsi keçirirlər. Həyat Tanrının sınaq meydanı olduğundan Ruhlar paklanana, mütləq kamillik zirvəsinə çatana qədər bu iş davam edəcək. Ruhun bu paklaşma, kamilləşmə mərhələsi bütün dünya dinlərində və ayrı-ayrı filosofların düşüncəsində başqa-başqa anlamlardadır. Hind və digər dini dünyagörüşlərdən fərqli olaraq Türk dini dünyagörüşündə insana bəxş edilən Tanrı Ruhu yalnız insanda təcəssüm edə bilər. İnsan Ruhunun insandan başqa heç bir canlı varlıqda təcəssüm etməsi mümkün deyil. İnsan Ruhu yalnız insan Bədənində kamilləşə bilər. Ruhun kamilliyi insanın göstərdiyi və göstərəcəyi səylərdən asılıdır. Bu baxımdan ilkin mərhələdən insan Bədəninə daxil olan Şeytani Ruh Tanrı Ruhu ilə insanı iki «Mən»ə çevirmiş və insan ona sonradan daxil olmuş Şeytani Ruhu Bədənindən təmizləməyə qədər uzun sürəli bir mücadilə etməyə məhkum edilmişdir.

İnsan əslində Ruh aləmi ilə çevrələnmişdir. İnsan daima Ruhlarla əlaqədədir. Ona görə də, ölən insan unudularsa, onun məzarı yaxınları tərəfindən ziyarət edilməzsə, o insanın Ruhu darıxır və lüzumsuz yerə dünyanı dolaşır və hətta insanlara böyük xətalar yetirər. Çünki Ruh adətən həyatda yaşayan yaxınlarının yanına gəlir, hətta bir çox sirləri onlara bildirir. Unudulmamalıdır ki, həyatda ölən valideynlərin Ruhu həmişə övladlarının qayğısına qalır. Şəhidlərin Ruhu insanları düşmənə qarşı mübarizəyə səsləyir, onlara düşmənin niyyətlərindən xəbərlər verir. Ulular, müdriklərin Ruhu insanlara gərəkli olan sirləri açıb bəyan edir. Peyğəmbərlərin, övliyaların Ruhu insanlara Tanrı sirlərindən lazım olanların onlara bəyan edir.

Ruhların insanla əlaqəsi gerçək təzahürlərdəndir. Bu əlaqə insandan asılı olmayaraq baş verir.

Ruh keçmişi də, gələcəyi də görmə qabiliyyətinə, keçmişlə də, gələcəklə də əlaqə yaratmaq gücünə malikdir. Qədim Türk təfəkkürünə görə, insan öz ata-babalarının, hətta dost və düşmənlərinin də Ruhları ilə əlaqəyə girib o dünyadan və gələcəkdən məlumatlar ala bilər. İnsan hətta onların Ruhundan özü haqqında, gələcəyi haqqında da məlumat ala bilər.

***Ruhlar yalnız ciddi suallara cavab verirlər.***

***Ruh yalnız Ruhla insanlarla əlaqəyə girir.***

***Ruh ünsiyyətdə olanda Özünü daha rahat hiss edir.***

***Ruh üçün ideya əsasdır, forma yox.***

***Ruhu ifadə etməkdə insan dili zəifdir. Ruhun ifadə etdiyini dillə açıqlamaq tam mümkün deyil. Ruhlar bütün dillərdə əlaqə saxlaya bilir.***

İnsan Ruhu insan zəkasının Günəşidir.

İnsan Kainatı dərk etdikcə Ruhu məşq edir. Ruhu bütün gücü ilə hərəkətə gəlir və sonda daha da zənginləşərək yüksək keyfiyyət əldə edir və Tanrıya doğru pərvazlanmağa cəsarət edir.

*Azadlıq Zərurətin – Tanrının dərk edilməsidir. Tanrı isə yalnız Onun insana bəxş etdiyi Ruhla dərk edilə bilər. Ruhsuz insan yox deməkdir. İnsan özü elə Ruh deməkdir. İnsanın insaniliyi onun Ruhundadır. İnsanın özü özünü dərk etməsi Ruhu*

*və qarşılıqlı olaraq Tanrının varlığını qəbul etməyi deməkdir. Bu anlamda elm insanın insani mahiyyətini, yəni Ruhu öyrəndikcə Tanrıya daha da yaxınlaşır, Ruhun hər bir fəaliyyəti Onun Özünüdərkə yaxınlaşması deməkdir. Ruh, bilən həqiqətdir.*

**Tanrı Dünyanı yaratmamışdan öncə Ruhları yaradıb. Bədən örtüyünə malik olan məxluqlar içərisində Tanrı yalnız insan Bədəninə Ruh daxil edib. Bu anlamda Bədən-bu maddi varlıq insan Ruhunun geyimidir. Obrazlı deyilsə, Bədən Ruh evi, Can odasıdır. Can Bədəndə təcəssüm olunan Ruhdur.**

İnsanı Tanrı yaradır, ona özündən Pay verir, maddi aləm bəsləyir, ölümsə onu ilkin formasına – Ruha və maddəyə ayırvr. Maddə hissəsi başqa maddələrə çevrilir, Ruhu isə ilkin başlanğıcı olan Tanrıya – Nurlar Nuruna qovuşur.

Əgər insan günahsız yaşaya bilsəydi ölən kimi onun Ruhu Tanrının yanına gedib əbədiyyətə qovuşardı. Təəssüf ki, günahsız insan olmadığından insan Ruhu bəzən min illər boyu insanlar arasında gözə görünmədən dolaşmaqla təmizlənir. Lakin unutmaq olmaz ki, bu təmizlənmə qəddar, zalım, riyakar, əxlaqsız, cani və bu kimi insanlara nəsib olmur. Belə insanların Ruhu hətta axirət dünyasında da cinayət törədir və həm özlərini, həm də başqalarını yenidən əziyyətə salırlar.

Tanrı hər şeyi bildiyindən hansı Ruhu hansı Bədəndə yerləşdirməyi Özü əvvəlcədən müəyyən edir. Bədən nə qədər yaşayırsa, Ruh Bədənlə əlaqədə olur. Həqiqi ölüm baş verdikdə, insanın Bədən üzvləri tam tənəzzülə uğradıqda Ruhun Bədənlə əlaqəsi kəsilir. Ayrılma tam olduğundan Ruh bir daha o Bədənə qayıtmır.

Fəlsəfi dünyagörüşdə Ruh psixi fəaliyyətin yüksək forması olan ideya, şüur, təfəkkür və zəka anlayışlarının eyni kimi işlədilir, qeyri-maddi başlangıc bildirən fəlsəfi anlayış kimi araşdırılır.

Fəlsəfənin əsas məsələsi sayılan Ruh və Materiyanın ilkinliyi fəlsəfəni üç qütbə ayırmışdır: 1. İdealist fəlsəfə; 2. Materialist fəlsəfə; 3. Realist fəlsəfə.

Fəlsəfə dərin düşüncə, hər insanın Materiya və Tanrı haqqında bilmədiyi bilikləri əldə etmə elmidir.

İdealizm Kainatı və canlıları əhatə edən, insanları insan olduğu üçün sevən, onları dili, rəngi, mədəniyyəti, sosial, iqtisadi vəziyyəti, cinsiyyəti, nəcabəti və ya keçmişi üzündən ittiham etməyən, tək Tanrı inamını müdafiə edən, ədalətli bir dünya qurmaq istəyən əngin bir inanc sistemidir.

İdealist fəlsəfə Ruhu Materiyanın yaradıcısı və nizamsız Materiyanı formalaşdıran xalis ideal qüvvə kimi anlamış və anlatmağa çalışmışdır. Hətta bu fəlsəfi cərəyanın bir çox nümayəndələri Ruhu Tanrı ilə eyniləşdirmiş, Onu maddi aləmin Yaradıcı Varlığı hesab etmişlər. İdealizm mövqeyindən çıxış edən bəzi filosoflar isə fərdi şüurun hər hansı bir ünsürünü belə Ruhun mahiyyəti kimi qələmə vermişlər. İdealist fəlsəfədə Tanrı dərkolunmaz bir Ruhdur.

Bu baxımdan idealist fəlsəfə tamamilə Ruh üzərində qurulduğundan o, dinlərdən də seçilir. İdealist fəlsəfədə insan Ruhu kiçik, Tanrı isə sonsuzdur. İdealist fəlsəfədə hətta Tanrı yaradıcı güc deyil. O (Tanrı – A.M.), təsəvvür belə edilə bilməz. Halbuki təkallahlı dinlərdə Tanrının insana xas olan yüzlərlə sifəti göstərilir. Təkcə İslam dinində Tanrının doxsan doqquz sifəti insan idrakı səviyyəsində göstərilir. Halbuki Ruhun heç bir sifəti yoxdur.

İdealizm həyatın hər sahəsində insana prinsiplər verən, hər mövzuda çıxış yolları tövsiyyə edən, insanlar arasında mənəvi dəyərləri anlayan, maddi həyatın faniliyini düşündürən ümumbəşəri dəyərlər sistemidir.

Materializm Tanrı, Ruh, Metafizika kimi həqiqətləri rədd etmiş, Materiyanın yeganə varlıq olduğunu iddia etmişdir. Materialistlər hətta insanın sahib olduğu təfəkkür, fikir, ağıl, bilik kimi xüsusiyyətlərini də maddənin təzahürü olduğunu ifadə etmiş, müstəqil mənəviyyatın mövcud olmadığını iddia etmiş, Şüurun Materiyadan sonra yarandığını bildirmiş, bir sözlə, hər şeyin Maddədən əmələ gəldiyini əsaslandırmağa çalışmışlar. Bəli, ancaq çalışmışlar, lakin buna nail ola bilməmişlər və nail ola da bilməzlər. Çünki bu heç mümkün də deyil. Ona görə ki, insanın Ruhu, ağlı, şüurü, zəkası, hissi, duyğusu, sevgisi, əxlaqı və s. bu kimi dəyərləri maddi deyil, məhz mənəvi dəyərlərdir.

Materialist fəlsəfə Ruhu Materiyanın xassəsi kimi anlamış və anlatmağa çalışmışdır. Materialistlər Ruhu Materiyanın yüksək məhsulu saymış, Ruhu fərdi və ictimai Şüur hesab edərək Onun maddi amillərdən törədiyini irəli sürmüşlər.

Sadalanan bu cərəyanlardan müxtəlif dünyagörüşlər formalaşıb. Belə ki, Tanrının Varlığını inkar edənlərə Ateist, Varlığı ağıl yolu ilə dərk edənlərə Deist, Tanrı ilə Kainatı eyniləşdirənlərə Panteist, Tanrının Varlığını insan ağlının fövqündə hesab edənlərə Aqnostik, Tanrı Varlığını, Onun əzəlilik, əbədilik və s. bu kimi xüsusiyyətlərini qəbul edənlərə Teist deyilir.

Deməli, fəlsəfi cərəyan olan Ateistlər Tanrının Varlığını inkar edənlərdir. Tarixdə məşhur Epikür, Lukert, Demokrit, Sopenaner, Komt, Feyrbax, Marks, Nitsşe, Freyd, Sartr, Ayer və b. ateistdirlər. Bunlardan Epikür, Lukert, Demokrit klassik materialist, Komt pozitivist, Feyrbax antropoloci, Marks sosial – siyasi, Freyd psixoanalitik, Nitşe və Sartr ekzistensialist ateistlərdir.

Pozitivistlər Tanrının Varlığı və ya yoxluğu ilə əlaqədar olan mübahisə və mövzulardan uzaq durmuş, Varlıq haqqında müsbət və ya mənfi bir hökm verməyi mənasız hesab etmiş, fiziki aləmin xaricinə aid mübahisələrə girişməyi boş şey adlandırmış elmi biliyin yeganə mənbəyi hesab etmişlər.

Pozitivizmdən yalnız fəlsəfədə deyil, elm, sənət, ədəbiyyat və hüquqda da müəyyən bir düşüncə formasını ifadə etmək üçün istifadə olunmuşdur. Pozitivistlər elmdə təcrübəyə əsaslanmış, təcrübə yolu ilə əldə olunması mümkün olmayan fikir və mülahizələri xəyal məhsulu hesab etmiş, bəşəriyyətin tarixini də teoloci, metafizik və pozitivist olaraq üç dövrə ayırmış, təkamül yolu ilə insan şüurunun da üç mərhələdən keçdiyini və tədricən yetişdiyini bildirmişlər. Bir sözlə, Pozitivistlər bəşəriyyətin inkişafını tarixi təkamül prosesi ilə əlaqələndirmiş, bununla da yeni bir insanlıq dini yaratmağa cəhd etmişlər. Ateizm sonradan ideoloci düşüncələrin təsiri ilə fəlsəfədən ayrılaraq siyasətə xidmət etmişdir.

Deistlər Tanrını Kainatın fövqündə var olan, lakin Onun Dünya və həyata müdaxilə etmədiyini qəbul edir, həmçinin Vəhy və Peyğəmbərləri qəbul etmirlər.

Panteistlər Tanrının Varlığını inkar etməmiş, sadəcə Onun mahiyyətini fərqli bir şəkildə izah etmiş, Tanrı ilə Kainatı eyniləşdirib Yaradan və yaradılan – Tanrı ilə Kainat anlayışı arasında əlaqəni inkar edərək Tanrının Kainatdan ayrı bir Varlıq olduğunu qəbul etməmişlər.

Aqnostiklər Tanrı haqqında danışmaq və ya hökm verməyi insan ağlının fövqündə olduğu üçün qeyri məqbul hesab edir, Tanrı inancına qarşı bitərəf mövqe tuturlar. Onlar Tanrının ağılla dərki ilə Ona qəlbən inanmağın fərqli şey olduğunu söyləmişlər. Onlar gündəlik danışıqda Tanrı haqqında bir söz söyləməyə də qarşı çıxmış, Tanrıya inanmaqla Onun haqqında danışmağı ayrı-ayrı şeylər hesab etmişlər. Yəni insan Tanrıya inana bilər, lakin Onu dərk etməyə bilər.

Teistlər isə Tanrı varlığını qəbul edərək Onun Kainatı yaratdığına, Kitablarına-Tövrat, Zəbur, İncil, Qurana, Mələklərinə – Cəbrayil, Əzrail, Mikail, İsrafilə və s., Peyğəmbərlərinə – Adəm, Nuh, İbrahim, Davud, Mussa, Süleyman, İsa, Məhəmməd və s. inanırlar.

Lakin eyni Tanrıya inanmaqlarına baxmayaraq yəhudi, xristian və müsəlman dini mənsubları bir – birinin Tanrı təsəvvürlərini qəbul etmirlər. Belə ki, yəhudilər Tanrının onları seçkin yaratdığını və bilavasitə öz Tanrıları olduğunu deyərək Tanrını özəlləşdirir, xristianlar Tanrını Ata, Oğul və Müqəddəs Ruh deyə üçə ayırır, insanın öldükdən sonra dirilərək yenidən bu dünyaya qayıtmağını və anadangəlmə günahkar olduğunu qəbul edir, müsəlmanlar isə bütün bunları rədd edərək Tanrının bütün insanları bərabər yaratdığını, rəngi, dili və mədəniyyətinə baxmadan bütün insanlığı əhatə etdiyini, Tanrının fövqəlbəşər olduğunu, həzrəti İsanın insanlaşmış Tanrı yox, insan və Peyğəmbər olduğunu irəli sürürlər.

Bu və bu kimi fərqlər nəzərə alınmazsa, bu müqəddəs dinlərə görə Tanrı hər şeyi yoxdan var etməyə qadir Yaradan, yaratdığı Kainatı və onun içindəki məxluqatı lazım bildiyi şəklə salan, onları nizamlayan, birgəyaşayış qaydalarını

müəyyənləşdirən və bu qanunlara görə məxluqatın mövcudluğunu davam etdirməsinə imkan yaradan Əzəli, Əbədi və hər şeyə Qadir bir Varlıqdır. Bütün bunlara inanan və Teizm fəlsəfəsini özünə həyat tərzi seçən insana İdealist və ya Mömin deyilir. Bütün bunların əksini qəbul edən, Tanrını və qarşılıqlı olaraq Onun Varlığını təsdiq edən dinlərə qarşı çıxan və Materialist fəlsəfəni əsas götürənlərə isə Materialist və ya Ateist, kafir, müşriq, zındıq və Allahsız deyilir.

Başqa bir fəlsəfi cərəyan olan Rasionalistlər isə Tanrını rədd yox, ağılla isbat etməyə çalışmışlar. Bunların ən ünlü nümayəndələri Dekart, Spinoza və Leybnixtdir.

Hər hansı bir «izm»ə tabe olmaq ağlın inkişafını itirmək deməkdir. İnsan ağlı heç bir «izm» çərçivəsinə sığa bilməz. İnsanın Tanrı tərəfindən bəxş edilmiş bu çırağını söndürərək qaranlıqda yürüməsi nadanlıq, cahillikdir. Çünki Tanrı insana Ruhu düşünmək, doğru yolu tapmaq üçün bəxş etmişdir.

Elm zaman və məkan daxilində mövcud olan və hadisələrin quruluş və mahiyyətini, onların yaranma və baş vermə şəkillərini tədqiq edən bir fəaliyyət növüdür.

Din isə Tanrı inancı, ibadət, əxlaq və davranış, prinsiplərini müəyyənləşdirən, onları öyrənən və öyrədən sistemli bir dünyagörüşdür. Deməli, elm və din insanın sahib olduğu ən əhəmiyyətli müqəddəs dəyərlərdəndir. Bunların hər ikisi insan üçün çörək və su qədər vacibdir. Çünki elm hadisələrin və dünyanın qaranlıq sirrlərini aydınlaşdırır. Elmi işlərdən və kəşflərdən ən çox sevinən isə dindir. Çünki bütün kəşflər insanı bir az daha Tanrıya yaxınlaşdırır. Bu anlamda əsl dinin dünya ilə bağlı ağla və elmə uyğun olmayan heç bir prinsipi yoxdur. Deməli, əsl elm dəlillər vasitəsilə şüurlu olaraq Tanrı inancını qəbul etmək deməkdir.

Elmi dünyagörüşdə Ruh insanın daxili aləmini - psixikasını ifadə edən anlayış kimi dərk edilmişdir. Elmi dünyagörüşün bəzi tərəfdarları hətta Ruhu canlı cism hesab etmiş və Onun qidalanan – bitki Ruhu, hiss edən və ya duyan – heyvan Ruhu və dərk edən – insan Ruhu kimi üç növünü göstərmişlər. Onların bəziləri Ruhla Bədənin qarşılıqlı münasibətlərini psixo – fiziki problem çərçivəsində həll etməyə

çalışmış, bəziləri Ruhun duymaq və arzulamaq xassələrini qeyd etmiş, bəziləri isə duyğu və ideyaları Ruhi hadisə hesab edərək öyrənməyə çalışmışlar.

Eksperimental psixoloqlar isə daha da irəli gedərək Ruhu psixika anlayışı ilə əvəz etmiş və Ruhu bu baxımdan tədqiq etməyə çalışmışlar.

Dini dünyagörüşə və idealist psixologiyaya görə isə Ruh Materiya və Bədəndən asılı olmayaraq müstəqil şəkildə mövcuddur. Onu yalnız daxili müşahidə ilə dərk etmək mümkündür.

Ruhla məşğul olan bəzi mütəxəssislərə görə yeddi təbəqədən ibarət olan Ruh «ultrabənövşəyi və infraqırmızı şüalardan» təşkil olunduğu üçün gözə görünmür. Onların fikrincə: Ruh nəyə toxunarsa, onu da gözəgörünməz edir. Lakin bizə görə Ruh haqqında elm insanlara anlaşıla bilməz. Çünki bu elm Yerdə yox, Tanrı dərgahındadır və Tanrı da bu elmdən insanlara və hətta öz Elçiləri olan Peyğəmbərlərə belə çox az şey açıqlamışdır. Təbiidir ki, bunun da əsas səbəbi odur ki, Tanrı insanlara mərhəmət göstərdiyi üçün Ruha aid bilikləri geniş açıqlamayıb. Çünki bu sahə ilə məşğul olmaq istəyən bir çox mütəxəssislərdə psixi pozğunluqlar yaranıb. Ona görə ki, Ruh insan ürəyindən keçənləri də bilir. Qarşılaşdığın və ünsiyyətdə olduğun insanların bütün düşüncələrini bilmək isə təbii ki, insanı dəlilik həddinə çatdırır.

Ruh haqqında bu günə qədər deyilənlərin hamısı şəxsi rəydən, şəxsi dərkdən başqa bir şey deyil. Bu Əbədi Varlığın həqiqət güzgüsünə insan öndən yox, arxadan baxa bildiyi üçün Onun haqqında yalnız fərziyələr söyləyə bilərlər. İnsanın Onu çağırmağa qüdrəti, cəsarəti çatsa da, Onu anlamağa idrakı yetməz. Müqəddəs ayədə buyurulduğu kimi:

Tanrı Peyğəmbərə buyurmuşdur: «Onlar Səndən Ruh haqqında soruşarlar. De (ki): Ruh Rəbbim bilən işdir. Sizə isə bu barədə (Ruh haqqında – A.M.) ancaq azacıq bilik verilmişdir» (İsra, 85).

İnsan Tanrı kimi Ruhun da varlığını yalnız qəbul etməlidir. Ruhun varlığını qəbul etmək üçün insanın ölüm anını

görmək kifayətdir ki, Onun Bədəndən asılı olmadığını anlayasan.

Bütün insanlar əsl Ruhu deyil, yalnız özlərinin dərk edə biləcəyi Ruha az-çox yaxın ola bilərlər. İnsanın bütün iradəsi Ruhun əlindədir. Ruh Bədənin əmiridir. Ruh Özü isə Tanrının əmrindədir.======++++++

**Bəzi mütəfəkirlərə görə Ruh iki hissədən ibarətdir. Onlardan biri zəkaya, digəri isə zəkaya sahib deyil. Ruhun zəkalı hissəsi ağıla, zəkasız hissəsi isə hissə, duyğuya əsaslanır. Bu baxımdan Ruh iki qatlıdır: 1) düşünən Ruh; 2) duyan Ruh.**

Ruhun ağıla əsaslanan hissəsi, yəni düşünən Ruh, duyğuya əsaslanan zəkasız hissəsindən, yəni duyan Ruhdan sonra yaranır. Deməli, Ruhun zəkalı hissəsi həyatda, daha doğrusu, praktikada qazanılır. Zəka və ağıl isə insanlığın can atdığı son məqsəddir.

Ruhun alt qatı olan duyan Ruh isə daha çox iradi hərəkətlərlə bağlıdır. Bu baxımdan düşünən Ruhdan asılı olmasına baxmayaraq əxlaq daha çox duyan Ruhdan qaynaqlanır. Deməli, insan əxlaqı daha çox Ruhun duyan qatına aid keyfiyyətdir.

Beləliklə, düşünən Ruhun əsası hikmət, fəlsəfədirsə, duyan Ruhun əsası əxlaqdır. Əxlaq insan iradəsi ilə bağlı olduğundan onu **«əxlaqi Mən»** də adlandırmaq olar.

İnsanın aliliyi onun Ruhunun hər iki hissəsinin fəzilətli olması ilə ölçülür. Deməli, fəzilət insanlıq ölçüsüdür. İnsanın fəzilət Ruhundakı fəaliyyət **xoşbəxtlik** adlanır. Çünki bu xoşbəxtlik insan zəkasına əsaslanır. Xoşbəxtlik bu anlamda fəzilətlərlərdən yoğrulmuş, zəkaya əsaslanan Ruhun fəaliyyətinin nəticəsidir. Bu baxımdan özünü ağlın, zəkanın fəaliyyətində təsdiq edən və ağıla, zəkaya əsaslanan insan daha yaxşı biçimlənmiş və mövcud bütün canlılardan Tanrıya daha yaxın, daha əziz olmuşdur. Çünki Tanrıya doğma olan şey ağıldır, zəkadır. Ağılı, zəkanı sevən və onu daha çox dəyərləndirən insanlar **kamil insanlardır.** Kamil insanlar Tanrıya yaxın olduqları üçün də xoşbəxtdirlər.

İnsan xoşbəxtliyinin açarı özünü dərkdir, özünü anlamaqdır. Əgər insanlıq bütün texniki tərəqqiyə, elm və

kəşflərə sərf etdiyi qədər ağıl, zəka və əməyi «özünüdərk»ə sərf etsəydi xoşbəxtliyinə daha çox nail olardı. İnsan yalnız öz mənliyi qarşısında əyildikdə Ruhu səadət tapar.

Ruhi gerçəkləşmə mərhələsinə nail olan, xoşbəxtliyin və bədbəxtliyin həmlələrinə eyni cür dözən hər bir insan **azad insandır.**

Saxta nüfuzdan, illuziyadan, saxta ünsiyyətdən azad olan, əbədiliyi dərk edən, maddi ehtiraslardan əl çəkən, xoşbəxtlik və bədbəxtlik əksiliyindən qurtulan, çaşmayan insan, Haqqa qovuşan, kamil və ya qürursuz varlıq hesab edilir. Qüsur və qüsursuzluqdan yüksəkdə duran, Tanrını Ruhi təfəkkürlə dərk edən insan Tanrı dərgahına yüksələr, əbədiyyətə qovuşar və bir daha maddi aləmə qayıtmaz.

Tanrı dərgahına yüksəlmək isə zəkanın, ağlın ehtiras üzərindəki ən böyük qələbəsidir.

Müdriklər göstərirlər ki: «İnsan Ruhu bu Aləmə (*buna Mülk Aləmi də deyilir* – **A.M.**) gəlmədən öncə Ruhlar Aləmində (*buna Qeyb Aləimi və ya Mələklər Aləmi də deyilir* – **A.M.**), ondan öncə də Ama Aləmində (*buna Lahut Aləmi də deyilir* – **A.M.**) idi. Lahut Aləmində Tanrının sifətləri ilə insan Ruhu arasında bir ilişgi mövcud idi».

Mülk Aləmi şəhadət aləmidir ki, buraya bütün Kainat daxildir.

Ruhlar Aləmi ilə Mülk Aləmi arasında **Misal** və **Xəyal** Aləmləri yerləşir. Misal Aləmində Ruh əhli bütün Ruhları görürlər. Xəyal Aləmi isə insanın xəyal etmə qüvvətidir.

Mülk Aləmi Ərş və yeddi Göydən ibarətdir. Buna **Ülvi Aləm** də deyilir. Mülk Aləmi atmosfer və üç ana qarışıqdan ibarət olub **Oluşum** və **Pozulum** Aləmi də adlanır.

İnsana Haqq Təala inayət edib Ülvi Aləmdə onun Ruhuna Bədən bəxş edərək vücudunu Ruh və Cismlə tərtib edib iki Aləmdən (*Ruh və Mülk Aləmi* – **A.M.**) ən mükəmməl bir varlıq yaratdı. Bu Mülk Aləmində kamal əxz edən Ruhlar yenidən Ruhlar Aləminə qayıdır, kamal qazanmayanlar isə heyvanlar kimi Mülk Aləmində qalib kamilləşənə qədər əzab çəkirlər.

*Ruh üçün qaranlıq və işıq məfhumu yoxdur.*

*Ali Ruh üçün Vətən Tanrıdır.*
*Ali Ruhun gözəllik qavrayışı bütövdür.*
*İntellektual həyat belə öz təcəssümünü Ruhda tapır.*

Ruh ölüm anını da hiss edir. Bəzən hətta onu aydın şəkildə dərk edir. Ona görə də, bəzi insanlar hətta öz ölümlərini tam dəqiqliyi və təfərrüatlarınadək görə bilirlər. Ruh Bədənin dəfnində belə iştirak edir.

Ruh azad və bədəndən asılı olmadığından O, insanın arzu və istəklərindən asılı deyil. Çünki Ruh insanın həyatından daha çox Öz maraqlarının təmin olunması ilə məşğul olmağı xoşlayır. Bu hal daha çox Ruhi cəhətdən inkişaf etmiş insanlara aiddir. Başqaları isə öz ehtiraslarının quluna çevrilərək tamamilə fəaliyyətsiz qalır və Ruhi mövcudluqlarını tamamilə başqa cür nəzərə çapdırırlar.

Fikri, sözləri diktə edən də Ruhdur. Ali Ruhun diktə etdiklərinin hamısı olduğu kimi qələmə alınsaydı, indi insanlığın yaşam tərzi tamam başqa cür, daha ali olardı. Təəssüvlər olsun ki, Ruhun diktə etdiklərini yaddaş belə bəşəriyyətə çatdıra bilməyib və nəticədə bəşəriyyət bugünki məzlum duruma düşüb. İnsan azadlığını çörəyə qurban verərək Tanrıdan uzaqlaşıb, İblisə xidmətkar olub.

Ruhun yaddaşa yazdıqlarını belə yaddaş tam qavraya bilmədiyindən bəşər sivilizasiyası Ruhdan geri qalıb.

İnsanda insani olan yalnız Ruhdur. Bu anlamda insan elə Ruh deməkdir. Ruh yoxdursa, deməli, insan da yoxdur.

Ruh insanın və bütövlükdə insanlığın sükanıdır. Ruh insanı və qarşılıqlı olaraq cəmiyyəti idarə edir. İnsanın nəbzi, ürək döyüntüsü belə Ruhun başlıca məzmunudur. İnsan cəmiyyətinin bütün iqtisadi, siyasi, hüquqi, dini və elmi həyatı Ruhdan asılıdır.

Təfəkkür, ağıl və zəka Ruhun ifadə formasıdır. Ruh təfəkkürün, ağlın idrak fəaliyyəti, mühakimələrin, əqli nəticələrin, anlayışların yaranma prosesidir.

Bədən insanın təbii Ruhunun, bütün Kainat isə Tanrının təbii Ruhunun reallığıdır. Ruh insanın, mütləq Ruh isə Kainatın bir hissəsidir. Kainat və insan bədəni Ruhun xidmətçisidir. Ruhsuz bədən ölü olduğu kimi Kainat da

Tanrının kölgəsidir. Tanrı bir anlığa çəkilmək istərsə kölgə – Kainat yox olar. Ruh və Bədən vəhdətdə olduğu kimi, Kainat da Tanrı ilə Vəhdətdədir. Ruh və Bədən qarşılıqlı harmoniyada olduğu kimi, Tanrı ilə Kainat da harmoniyadadır. Deməli, Ruh Tanrının Özü deyil, Onun reallığıdır. Ruh insana Tanrının Özündən bir pay olduğu üçün Ruhdan danışmaq əslində Tanrıdan danışmaq deməkdir. Bu anlamda Tanrı insan surətində deyil, insan Tanrıya bənzər şəkildə yaradılmışdır.

Ruh və Bədənin ünsiyyəti dərk olunmaz bir sirdir. Kainatda elə bir qüvvə yoxdur ki, Ruha müqavimət göstərə bilsin. Çünki Tanrının Özü də insanın Ruhundadır. Ruhun Bədənə hakimliyi Tanrının Kainata hakimliyi kimidir.

Ruh Tanrının və insanın elə bir silahıdır ki, Tanrı və insan Özlərinin ilahi fikirlərini Onunla yerinə yetirir.

Ruh idraklı məxluqun mahiyyətidir.

Ruh bədənsiz ağıldır. Ruhun vəzifəsi maddi aləmdən daha çox Özünü dərk etməkdir. Başqa sözlə, insan Ruhunun vəzifəsi Təbiətin sadə həyatının həbsindən qurtulub dünyanı Öz təfəkkürünə tabe etmək, Öz yaradıcı gücünü nümayiş etdirməkdən ibarətdir. Çünki dünyanın ən ümumi həyatı, bütün təbii və kosmik güclər Ruhun hökmranlığı altındadır. Yer həyatı insan Ruhunun, O və bütün Kainat isə Tanrının hökmranlığı altındadır.

Ruh insanı daima müşahidə altında saxlayır və insandan asılı olmayaraq ona təsir göstərir. Unudulmamalıdır ki, aradan getdiyi iddia olunan haqq, ədalət, vicdan, əxlaq, namus hələ də insanlığın Ruh dünyasında yaşayır. Bu anlamda Ruh mənəvi bir aləmə bənzər. Hansı bir hiss oraya girsə ümidə, hansı bir fikir oraya daxil olsa imana çevrilər, hansı bir iradə oradan keçsə məfkurə halını alar. İnsan Ruhunda elə bir coşqunluq, elə bir daşğınlıq vardır ki, O, istənilən vaxtda yeni bir əxlaq, yeni bir hüquq, yeni bir sənət, yeni bir düşüncə vücuda gətirər, çünki insan Ruhu hər şeyə qadirdir.

İnsanın insanlığını, yəni öz şəxsiyyət və öz «Mən»ini dərk etməsi yalnız Ruhun təsiri altında mümkün ola bilər. Fərdlərin mədəni, siyasi, iqtisadi və ideoloci əlaqələri, bir-birinə qarşılıqlı təsir etmələri də yalnız Ruh vasitəsilə baş verir. Bu anlamda

insan psixologiyası olmasaydı o, heç sosial varlıq da olmazdı. Fərdi «Mən» olmadan ictimai «Mən» də mövcud ola bilməz. Bu anlamda Ruh insan şəxsiyyətinin mahiyyətini təşkil edir. Ruhi təkamülün başlangıc mərhələsi insanın özünü öyrənib tanıması, son mərhələsi isə Tanrını tanımasıdır. Övliyalar buyurmuşlar: *«Kim özünü tanısa, Tanrısını tanıyar».*

Deməli, insan Ruhunun həqiqi kamilliyi Tanrını tanımasıdır. İnsan Ruhu kamilləşdikcə onun ilahi mərifəti də artır. İnsanın özü ilə Tanrı arasındakı bu ilahi mərifət elə Ruhun varlığı deməkdir. Bu anlamda insanın Tanrıya yaxınlaşması üçün əsas rolu onun Ruhu oynayır. Tanrı insanlara istəklərini vəhy vasitəsilə Ruhla çatdırır. İnsansa onları öz ağlı ilə dərk edir. Ruh bütün inkişafı boyu yalnız «Mən» olmağa can atır ki, bu da yalnız insanın ölüm anında baş verir. Deməli, ölüm Ruhun ən ali mərhələsi, «Mən» olma mərtəbəsidir. Fərdi Ruhun «Mən» olma mərtəbəsidir. Fərdi Ruhun «Mən» səviyyəsinə yüksəlmə Onun ən ali mərtəbəsidir.

Ruh enerci kimi kosmik mənbədən, Mələklər aləmindən olduğundan O, biosferdə qalmır. O, Yer materialı olmadığından Onu Yer saxlaya bilmir və O, gəldiyi yerə Mələklər aləminə qayıdır.

Ruh insana əbədilik bəxş edən cövhərdir.

Ruh insan vücudu çərçivəsində həqiqi reallıqdır.

İnsan yalnız Ruha dayanan ağlı, idrakı, zəkası, nitqi ilə Mələkdən üstündür.

Ruh azadlıq sevir. Ona görə də, Ruhu ram etmək mümkün deyil.

Həqiqəti bilən Ruhlardır. İnsan Ruhunun təkamülü şəriət, təriqət və mərifət mərhələlərindən keçərək Həqiqətə – Tanrıya qovuşur.

Ruh insani dəyərləri təkmilləşdirən ən mühüm vasitədir. Azadlıq belə insan Ruhunun kamala çatması üçün müəyyən bir vəsilədir.

İnsan Ruhu yalnız Tanrıya məddahlıq edə bilər. Ağıl, zəka, qəlb sahibi öz həmcinsinə məddahlıq edib, Ruhu korlamaz, şəxsiyyətini alçaltmaz. Əslində Ruhunu alçaldıb məddahlıq edən insan yarım heyvandır. Eyş-işrət naminə

həyatını sərf edən insan Ruhunu həbsə salar. Ruhun aliləşməsi həyatın çətinliklərinə dözməklə əldə edilər. Tanrının əmanəti olan Ruhu puç edən insan zalım və cahildir.

Ruh hər şeyi, hətta Tanrını belə araşdırmağa qadirdir. İnsan düşüncələrini, Tanrının varlığını Ruhdan başqa heç nə anlaya bilməz.

Ruhun qidası elmdir, bilikdir. Ağıl Ruhun qardaşıdır.

Ruh bir anda bütün Cahanı dolaşmağa qadirdir. Sürətdə baxış da Ruh qədər sürətli deyil. Ruh fikir sürəti ilə hərəkət edir. Fikrin özü də Ruhun xüsusiyyətidir.

Ruhun önünü heç nə ilə kəsmək olmaz. O, hər şeyi – torpağı, daşı, dəmiri, havanı, odu, suyu yarıb keçməyə qadirdir.

Ruh üçün məkan və zamanın heç bir önəmi yoxdur. Çünki zaman və məkan hərəkətin anları olduğundan Ruh onlardan yüksəkdə dayanır.

Ruh oyanıb aliləşdikcə Təbiətdən ayılmağa can atır. Bu anda Ruh bütünlüklə xülyaya bürünərək öz fərdi dünyasını öncədən hiss edərək şüur və idrak səviyyəsinə qədər inkişaf edir. Bu anlamda uzun ömür Ruh üçün əslində bir əzabdır. Çünki Ruh Ruh aləmindən olduğundan O, əsil vətəninə meyl və rəğbət bəsləyir. Deməli, ölümün əsas vəzifəsi həm də Ruhu maddi aləmin məkan və zaman  zəhmətindən qurtarıb, əbədi qalacağı yerdə rahat yaşamasını təmin etməkdir.

Ruha inam insanı qorxu hissindən azad edir, insanı şeytani əməllərdən qoruyur və insan Şeytan üzərində qələbəsini Ruha inamla təmin edir. Ruhu inkar etmək, Ona şübhə ilə yanaşmaq obıvatellikdir.

Ruh Tanrı iradəsinin ifadəsidir. İnsanlar Tanrıya çox müraciətlər ediblər. Tanrı isə yalnız Ruhlarla danışır. Ruh insanla Tanrı arasında bir əlaqəçidir. Ruhun imkanları sonsuzdur.

İnsan bütün sirləri yalnız Ruhun gücüilə aça bilər. Ruhun təlqin etdiyi nur insanı haraya aparsa, oraya da gedəcək, nəyi söylərsə, onu da edəcək. Ona görə də, gələcək nur, şəfəq, keçmiş isə zülmətdir.

İnsanlar Ruhun sədasını eşidib, onu sözə çevirirlər. Ruh istəməsə, təkmilləşə bilməz. Deməli, İnsan Ruhu parlaq bir ayna kimidir.

Ruh toxunulmazdır.

Ruh təzahürlər mənbəyidir.

Ruh fikri əməyin əzabkeşidir.

Ruh əbədi ideyanın daşıyıcısıdır.

İnsanın özünü dərki Ruhun ən böyük təntənəsidir.

İnsanda ilahi olan yalnız Ruhdur.

Ruhu elm və fəlsəfədən daha çox din anlaya bilir. Dində Ruh Ruh üçündür. Çünki elm və fəlsəfədən fərqli olaraq dində Ruh öz Özünü anlayan, tam dərk edən gerçək ideyadır. Bu gerçəklik Ruhu Mütləq Ruh səviyyəsinə yüksəldir.

Ruh insanın özünü qoruma duyğusudur.

Ruh əslində insanın «Mən»idir.

Ruh Təbiəti belə Özünə assimilyasiya edərək onu da ideallaşdırır.

Ruh Öz inkişafının tam dərkinə yüksəldikdə Öz məqsədinə ulaşır. Ruh Özünün tam azadlığına Mütləq Varlığa qovuşanda çatır. Başlangıcın sonla bu birləşməsi Ruhun ali halıdır.

İnsan Ruhu düşünən, duyan, yaradan Ruh olduğundan, O, Təbiətdən və bütün canlı varlıqlardan fərqlənir. Təbiətə məxsus hər şey Ruhdan arxadadır. Ruhsa Təbiətin məzmununu bütünlüklə əhatə edir.

Ruh azaddır, heç nədən asılı deyil. Tanrı Ruhu azad etdiyindən azadlıq da Ruhu həqiqət edir. Çünki Ruh əbədidir, əzəlidir.

**Ruhun** görmə aracı vicdandır.

**Ruhun** ən mükəmməl ifadə forması isə nitqdir.

Bəzi dinlər hətta murdar **Ruhun** da mövcud olduğunu söyləmiş və göstərmişlər ki, guya: «**Murdar Ruh** adamdan çıxdıqdan sonra quraq yerlərdən keçir, rahatlıq axtarır və tapmadıqda deyir ki:» Çıxdığım evə dönüm». Və döndükdə çıxdığı evi süpürülmüş və döşənmiş görür. Geri qayıdaraq özündən daha pis olan yeddi **Ruhu** yanına alır və oraya girib

yaşayırlar. Və o adamın son halı ilkindən daha pis olur» (İncil, Luka; 24 – 26).

Bəzi müdriklər söyləyiblər ki: «Çox maraqlıdır. İnsanlar maqnitin dəmiri özünə tərəf necə cəzb etdiyinə təəccübləndikləri halda bəs niyə İnsan **Ruhunun** bu ağırlıqda olan Bədəni idarə etdiyinə təəccüblənmirlər. Bir halda ki, İnsan öləndən sonra onun Bədənini bir neçə nəfər çox böyük zəhmətlə qəbr evinə apara bilir. Amma İnsanın **Ruhu** ömrü boyu onun Bədənini çox asanlıqla o tərəf, bu tərəfə aparıb gətirə bilir».

Əslində **Ruhşünaslıq** bir Peyğəmbərlik, Peyğəmbərlik də bir **Ruhşünaslıqdır.**

Baxmayaraq ki, Tanrı İblisi Onun sözündən çıxdığı üçün, təkəbbürlülük göstərib Adəmə səcdə etmədiyi üçün Cənnətdən – Öz dərgahından qovub, lakin Tanrının inkar **Ruhlar** içərisində ən az nifrət etdiyi varlıq Şeytandır. Çünki Tanrı Şeytanı İnsana yol yoldaşı etmişdir ki, Şeytan İnsanı ehtizaza gətirib Onu narahat etməklə İnsanı yaradıcı işə sövq etdirsin. Ona görə də müdriklər buyurublar:

- Ey təzadlar **Ruhu!** Bir yaxşı düşün! Unutma ki, **Sənin** məhv etmək istədiyini İnsan müdrik ağlı ilə müvəqqəti də olsa qoruya bilər. Çünki İnsanın gücü fəaliyyətində, həyatı **Ruhundadır.**

Bədəndə **Ruhun** yeri bəlli deyil. Lakin bəziləri **Onun** göbəyə yaxın yerdə, bəziləri beyində, bəziləri isə ürəkdə olduğunu güman edirlər.

**Ruhi** enerci maddi enercidən ayrı və müstəqildir. Ona görə də **Ruhi** enerci sayılan mənəvi qüvvələr bir sıra hərəkatlar üçün təkan verici rolu oynayır. Mənəvi qüvvələr cəmiyyətin maddi qüvvələrini də öz təsiri altına alaraq onları öz məqsədinə uyğun şəkildə idarə edir. Bu baxımdan **Ruhi** qüvvələr fəlsəfi realizmin əsas prinsiplərindən sayılır. Tarix göstərir ki, İnsan özünün inkişaf dövründə çox vaxt maddi ehtiyaclarını mənəvi ehtiyaclarına qurban verir. Çünki əslində mənəvi həzzlər, ləzzətlər maddi həzzlərdən daha güclü, daha cazibəlidir. İnsanın təhsili və əxlaqı yüksəldikcə onun mənəvi həyatı maddi həyatını öz təsiri altına alır. Bu iş cəmiyyətlər üçün də xarakterikdir. Yəni ibtidai və bədəvi cəmiyyətlərdən fərqli

olaraq sivil cəmiyyətlərdə mənəvi dəyərlər maddi dəyərlərdən üstün sayılır. Deməli, İnsan **Ruhu** sağlam olmazsa, **O**, çox şeylərin öhdəsindən gələ bilməz, əksinə sağlam **Ruh** hər şeyin öhdəsindən gələ bilər. Çünki həyatda sübut olunub ki, İnsan nə qədər maddi ləzzətlərdən çəkinərsə, bir o qədər də **Ruhu** qüvvətlənər və əksinə, İnsan nə qədər maddi ləzzətlərə aludəsi olarsa, **Ruhu** da bir o qədər düşgünləşər, **Ruhunun** sirli qüvvəsi gizli qalar, özünü göstərməyə imkan tapa bilməz**,** **Ruhu** güclü olan İnsanları anlamadığından onları dəli hesab edər.

Bəzi insanlarda **telepati** deyilən qeyri – adi bir duyğu vardır. **Telepati** uzaqdan hiss etmə, fikir, düşüncə alış-verişi mənasına gəlir. Bu duyğu aralarında yaxın sevgi olanlarda daha güclüdür. Sevənlərdən birinin şiddətli sıxıntı, ağır xəstəlik və ölüm anını digəri görmədən duyur, hiss edir və qeyri-adi həyəcan kecirir. Bu hal savaşda ölən və ya başına ağır bir fəlakət gələn oğulların anaları tərəfindən duyulmasında daha çox özünü biruzə verir. Bu anda ana ani sıxıntı keçirir, bağırıb çığırır. Deməli, **telepatinin** maddi Bədənlə heç bir əlaqəsi olmadığından o da **Ruh** ilə bağlıdır. Çünki Ruh həyat mexanizminin bir idarəçisidir. Bütün sinirlər, qan dövranı, göz, qulaq və digər Bədən üzvləri **Ruhun** icra vasitələridirlər. Deməli, əslində görən göz deyil, **Ruhdur**. Göz isə sadəcə **Ruh** üçün bir pəncərədir. Ölən bir kimsənin gözləri görə bilməz, Qanı dövr edə bilməz, qulağı eşidə bilməz. Çünki **Ruh** çıxan Bədənin bütün üzvləri öz funksiyalarını itirirlər. Ona görə də gözlə görünə bilən hər şey müvəqqəti, görünməyən isə əbədidir. İnsanda gözlə görünməyən yeganə şey **Ruh** olduğundan əbədi olan da yalnız **Ruhdur**. Çünki İnsana Tanrı tərəfindən təminat olaraq verilən yeganə şey **Ruhdur**. Məşhur bir ayədə buyurulur ki:

«Bədəni öldürüb, Canı (oxu: **Ruhu** – A.M.) öldürə bilməyənlərdən qorxmayın. Ancaq… Cəhənnəmdə həm Bədəni, həm **Canı** həlak etməyə qüdrəti olandan qorxun» (İncil, Mata, X, 28).

**Ruhun** gözdən fərqli görmə qabiliyyəti vardır. Göz maddi olduğundan onun görmə qabiliyyəti məhdud bir dairəni əhatə

edir. **Ruh** isə maddi olmadığından **Onun** görmə qabiliyyətində məhdudluq yoxdur.

Hadisələri baş verməmişdən öncə hiss etmə və xəbər vermə duyğusuna öncəgörmə və ya öncəsezmə deyilir. Bu hiss və duyğunun İnsanın iç dünyasının əsrarəngiz dərinliklərindən gəlişi İnsan **Ruhunun** gözəllik və aliliyini bir daha təsdiq edir. Bütün bunlar sübut edir ki, **Ruh** Bədənin enercisidir. **Ruh** İnsanın özüdür. **O**, ölümsüz olduğu üçün əbədiyaşardır.

İnsanlar **Ruh** vasitəsilə Haqqa itaət edərək **Ruhlarını** riyasız məhəbbət üçün təmizləyib bir-birini var qüvvə ilə, sidq ürəkdən sevməlidirlər.

**Ruh** sərbəst olarkən daha çox mühakimə yürüdür. **Ruhun** sərbəst, maddi örtükdən azad forması ağıldır.

**Ruhlar** bizim anladığımız zamandan və məkandan kənarda yaşayırlar. Hər bir fərdin Vətəni olduğu kimi **Ruhun** da Vətəni Bədəndir. Tanrının Vətəni isə bütün Kainatdır**. Ruh** Bədəni necə idarə edirsə, Tanrı da Kainatı elə idarə edir. **Ruh** Bədəni tərk etdikdə Bədən yox olduğu kimi Tanrı da bir anlığa çəkilsə bütün Kainat yox olar. Əslində Kainat Tanrının kölgəsidir.

Bəzi dini dünyagörüşə görə **Ruh** bir aləmdən başqa bir aləmə keçdikdə yenidən maddi örtüyə bürünür. Bu dini dünyagörüşə görə **Ruhlar** bir neçə aləmdə yaşayırlar, lakin İnsanlar daha çox Yer kürəsinə bağlı olduğundan maddi Bədəni tərk etdikdən sonra da Yer kürəsində yaşamağa üstünlük verirlər. Bu dini dünyagörüşə görə hətta «Heyvan **Ruhu** İnsan bədəninə və əksinə, İnsan **Ruhu** heyvan bədəninə keçə bilər». Biz belə hesab edirik ki, Tanrı Özündən pay olan **Ruhu** yalnız İnsana verdiyindən heyvan **Ruhu** deyilən bir anlayış yoxdur və deməli, heyvan **Ruhu** İnsan Bədəninə və əksinə İnsan **Ruhu** da heyvan bədəninə keçə bilməz.

Bəzi **Ruh** araşdırıcıları belə qənaətdədirlər ki, fərdi **Ruhun** ümumi **Ruha** çevrilməsi tərbiyə adlanır. Onlara görə fərdi **Ruh** İnsanın təbii qabiliyyətini, temperament və xarakterini müəyyən edir. Bu anlamda **Ruhun** konkrent başa düşülən varlığını onlar şüur, təfəkkür və ağıl hesab edirlər. Fəqət **Ruh** şüur, təfəkkür və ağılla deyil, hiss və duyğularla Tanrıya ulaşır.

Bu anlamda ölənlərin **Ruhuna** saygı təbiətdən müəyyən qədər yüksəyəqalxma nişanəsidir.

«Bir **Ruhun** başqa bir **Ruh** üzərindəki təsiri Magiya adlanır» deyənlər həm də göstərirlər ki: «Sehir iblisanə **Ruhun** bilavasitə təsiri ilə gerçəkləşir». Ecazkar gücə malik Sehrbaz əslində Şeytana tabedir. Əslində bütün canlılardan ən ecazkar maqik gücə malik olanı İnsandır. Ona görə də heç bir heyvan, hətta canavar belə İnsan baxışlarına tap gətirə bilmir. Görünür, insanda həm Tanrı, həm də Şeytan payı olduğundan O, daha ecazkar gücə malikdir. Bütün bunlara baxmayaraq İnsan **Ruhu Öz** oyanış və inkişafında daha çox Məhəbbətə borcludur. Bununla bərabər, **Ruhun** oyanış və inkişafı həm də **Ruhun** təmsilçiləri olan hiss, duyğu, seyr, təsəvvür və təfəkkürlə də bağlıdır. Təfəkkürün üsulları olan düşüncə, fikir və ağıl isə yalnız İnsan oyaq olanda fəaliyyət göstərir.

Bəzi mütəxəssislər belə bir fikir irəli sürüblər ki, guya «**Ruh** Bədəni tərk etdikdən sonra öncədən məskunlaşdığı **Ruhlar** aləminə qayıdır və yenidən müəyyən vaxt keçdikdən sonra qayıdaraq başqa bir Bədəndə təcəssüm edir və bu iş **Ruhun** kamilləşmə dövrünə qədər davam edir. Bu da onu göstərir ki, hər bir İnsan əvvəllər bir neçə dəfə mövcud olub və həmin **Ruh** kamilləşənə qədər yenə bir neçə dəfə də mövcud ola bilər. Bütün bunlar isə İslam dini dünyagörüşünə ziddir.

**Ruh** İnsan şüurunun öyrənməyə layiq ilk predmetidir. Mütəxəssislər **Ruhu** subyektiv – Subyektiv **Ruh**, obyektiv – Obyektiv **Ruh** və mütləq – Mütləq **Ruh** olmaqla üçə ayırmışlar ki, bizcə bu məntiqi yanlışlıqdır. Çünki **Ruh** parçalanmazdır. O, idrak prosesi ilə sonda Mütləq **Ruh** olan Tanrıya qovuşur.

**Ruh** şüur, bilik səviyyəsində həqiqi **Ruh** deyil, düzgün məlumatlı **Ruhdur**. Bu anlamda məlumat həqiqətin başlanğıc forması, eyni zamanda **Ruhun** həqiqətə, Haqqa doğru hərəkətinin birinci pilləsidir. Bu pillədə **Ruhun** məqsədi **Özünün** bu olayını **Öz** mahiyyəti ilə eyniləşdirmək, **Özünün** məlumatlılığını həqiqətə, Haqqa yüksəltməkdir. Bu anlamda **Ruh** imanlı və inamlı İnsan düşüncələri ilə həmrəy olur. Ona görə də **Ruha** qarşı küfr etmək Tanrıya qarşı çıxmaq deməkdir. **O** da Tanrı kimi əbədidir, hər yerdə mövcuddur. **O**, həqiqətdir.

Müqəddəs ayələrdə **Ruh**, İşıq, Həyat Çörəyi, Canlı Su, Nurlar Nuru və s. kimi təsvir olunur. Ona görə də hətta **Ruh** haqqında olan səthi bilik və **Onunla** məhrəm olan münasibətlər belə İnsana **Ruhi** qüvvə, sevinc və ümid bəxş edir. Çünki **Ruh** İnsanı islah etmək, başa salmaq, ilhamlandırmaq qabiliyyətinə malikdir.

**Ruh Öz** gücünə inandığından lüzumsuz və sərsəm suallara cavab vermir. **O**, ciddi məsələlərlə məşğul olduğundan lüzumsuz və sərsəm sualları sükutla qarşılayır.

Kainatda məlum Planetlər arasında naməlum Planetlər olduğu kimi Tanrı ilə İnsan arasındakı məsafədə də **Ruhlar** yerləşir.

Mütləq **Ruh** Tanrının Özü, İnsan **Ruhu** isə Ondan bir paydır. Mütləq **Ruh** Özünü dərk edən, sonsuz, əzəli və əbədi **Ruhdur**. Mütləq **Ruh** gerçəkliklə anlayışın və ya **Ruhun** imkanının mütləq vəhdətidir.

**Ruhu** subyektiv, obyektiv və Mütləq olaraq üçə ayıran bir çox idealist filosoflara görə: « **Ruh** əzəldən **Ruh** olsa da uşaq **Ruhu** hələ **Özünün Ruh** olduğunu bilmir. Başlanğıcda **Ruh Özü** barəsində anlayışa malik deyil. Bu subyektiv **Ruhdur.** . **Özünün Ruh** olduğunu bilməyə gəlib çıxması, **Onun** reallığını oluşdurması, **Özünü** varlıq səviyyəsinə qaldırması, **Özünü** anlaması isə obyektiv **Ruhdur**. Obyektiv **Ruh** artıq uşaq deyil, şəxsiyyətdir. **O**, **Öz** azadlığının **Özünəməxsus** reallığına malikdir. **O**, artıq subyektivlik biçimindən çıxmışdır. Lakin yenə də **Ruh** bu obyektiv mərhələsini keçib yeni mərhələyə yüksəlməlidir. Çünki subyektiv və obyektiv **Ruh** əslində müvəqqəti sonlu **Ruhu** əhatə edir. Halbuki **Ruh** sonsuz ideyadır. Deməli, subyektiv və obyektiv **Ruh** Mütləq **Ruhun** mərhələləri olub yalnız **Özünü** azad etmə funksiyasını yerinə yetirir. Bu prosesdən sonra **Ruh** sonsuzluğa – **Öz** ilkin başlanğıcına yönəlir və Mütləq **Ruh** olan Tanrıya qovuşaraq əbədilik qazanır. Bu, Mütləq **Ruhdur**».

**Ruh** haqqında söylənilən bu fikir və mülahizələr əsasən xristian dini dünyagörüşünü əks etdirir. Halbuki bəşər tarixinin yaratdığı bütün mənəvi və maddi mədəniyyəti tam, mükəmməl öyrənmədən filosofluq etmək və ən başlıcası, öz fikir və

düşüncələrini doqma kimi qəbul etdirməyə çalışmaq sadəcə boş söz oyunundan başqa bir şey deyildir. Avropa fəlsəfi sisteminin yaradıcıları qədim Yunan və Avropa mənəvi və maddi mədəniyyətini mənimsəmiş birtərəfli dahilərdirlər. Onların bütün fəlsəfi baxışları kimi **Ruh** haqqındakı düşüncələri də birtərəfli oduğundan belə məntiqə sığmayan fikirlər irəli sürmüşlər. Müdriklər söyləyiblər ki: «Naməlum yolu yalnız həqiqi Yolçular müəyyən edə bilərlər». «**Özünə** yer tapmayan fikir və düşüncələri yalnız həssas İnsanların **Ruhu** dərk etmə qabiliyyətinə malikdir».

«**Ruh** Tanrının nurundan bir Nurdur».

«**Ruh** İlahi həyatdan bir həyatdır».

«**Ruh** əbədidir. O, ölməz, əzab çəkməz, imtahana çəkilməz».

**Ruh** əzəli ola bilməz, çünki İlk İlkdən yəni, **Ruh** Tanrıdan qopa bilməz. Yaradılan Yaradanla bitişə bilməz.

**Ruh** Tanrı əmrindən bir əmrdir. **Onlarla** Tanrı arasında bir səbəb, nisbət yoxdur. **Onlar** yalnız Tanrının ixtiyarında, itaətində, əmrindədirlər. Ona görə də **Ruhun** göylərə yüksəlmək və yer altına enmək qüdrəti vardır. **Ruhun** hətta ölülərlə, Şeytan, cin və pərilərlə əlaqə qurmaq qabiliyyəti var.

İlkin başlanğıcda İnsan **Ruhu** – Tanrının Adəmə bəxş etdiyi **Ruh** tamamilə ülvi və nurani olduğundan Tanrıya aşina idi. İblisin İnsan qəlbinə girməsi ilə İnsan kimi onun **Ruhu** da ikiləşdi. Bunu nəzərə alan övliyalar buyurublar ki:

- Ey tərtəmiz **Ruh**! Dünyada cism ilə olmaqdan xoşlanırsanmı? Və ey qarışıqsız **Nur**, görən gözdə xoşmusan? Ey ərşdə uçan **Quş**, bu tuzağa **Sən** necə düşdün? Qan, İrin, bəlğəm və safradan xoşmusan? Əgər bu ürək **Sənin** yerin deyilsə, onda buna niyə Könül deyilir? Bu ürəkdə, bu Qara yerdə xoşmusan? O gül baxçasını (Cənnət, Tanrı evi nəzərdə tutulur – A.M.) buraxıb da bu küllüyə (Yer kürəsi, Dünya nəzərdə tutulur – A.M.) necə düşdün? İndi küllükdə eşələnməkdə xoşmusan? O dost məclisindən, o Vətəndən uzaqmısan? Qəlbinlə o məna məclisində xoşmusan? Adətlərlə uğraşıb qəm çəkirsənmi? **Səninlə** minlərlə könül məst oldu, sevgiylə doldu. Aşiqlərinlə dadlı əyləncələrdə xoşmusan? Aləm

**Səninlədir**, **Sən** hansı aləmdəsən? **Sən**, **Səndə** eşqin ən gözəlini seyr etməklə xoşmusan? Ey nəfsi pak, **Səni Səndən** soruşuram, Könül gərdəyində eşq ilə yalnız olmaqdan xoşlanırsanmı?

- Ey **Ruhum**! Dünyanın vədlərindən bir şey gözləmə. Çünki onun işığı bir şüşə kimi tez qırılır, səadəti bir su kimi axıb gedir. Ona görə də bu mənasız ehtiyaclardan əl çək, onları arxanca sürükləməkdən vaz keç. Yalnız Ondan qopduğun və məni yaradan Tanrını sev!

**Ruhun** hər şeyə qadir olduğunu dərk edən İnsan öz xüsusi üsulları vasitəsilə əldə etdiyi ekstaz halı ilə **Ruhunu** göylərə yüksəltmək və ya Yer altına endirmək və oralarda gəzib dolanmaq üçün **Ruhunu** Bədənindən ayıra bilən bir eşq ustasıdır. Belə İnsan, **Ruhunu** öz hökmü altına alaraq ölülərlə, Şeytan, cin və pərilərlə əlaqə yaratmaq gücünə malikdir.

Ruh Tanrıdan bir pay olduğu üçün insan Ruhunu Tanrıdan başqa kimsəyə etibar etməz. Tanrı Ruha xitabən buyurmuşdur ki: **«Səni insana Özümdən müvəqqəti bir pay olaraq bəxş etmişəm. Səni insanın qəlbində yerləşdirmişəm. İndii isə Mən Özümlə Sənin arandakı pərdəni götürür və Səni yenidən Özümə qaytarıram».**

Dini təfəkkürə görə, fəzilət sahibi olan insan Ruhu ilk öncə Mələklər aləmində, İlahi fəzada idi. Tanrı Adəmi yaratdıqdan sonra Yer aləminə göndərərkən Onun bədəninə Ruhu daxil etdi. Yerdə Ruh ilə ehtirasın izdivacından Şəhvət yarandı. Ruh Şəhvətin varlığı ilə xoşhal olub hiss ilə birlikdə Bədən deyilən maddi varlıqda qərar tutdu. Daha sonra Ruh Məhəbbət gəmisi ilə Bədən dəryasında hərəkətə başlayıb yenidən Tanrıya qovuşmağa can atır.

Ruh yalnız bütün bədən yzvləri hərəkətdən dayandıqda tam sərbəst olur. Bu anlamda demək olar ki, Bədən nə qədər zəifləyərsə, Ruh bir o qədər azad olur. Bədən hərəkətdən düşən kimi Ruh Öz əsarət zəncirini qırıb azadlığa çıxır. Deməli, Ruh inkişaf etdikcə maddilikdən təmizlənir.

Ruh insandan bir mərtəbə yüksəkdə dayanır. Çünki Ruh insandan fərqli olaraq Öz üzərinə götürdüyü vəzifənin məsuliyyətini anlayır. Əgər anlamasa, bu Onu uzunmüddətli

mərhumiyyətlərə düçar edər. Bu anlamda Ruhun gələcəyə inamsızlığı Onun üçün nəzərdə tutulan cəza növüdür.

İnsan Ruh Aləmi, Onların bir-biri ilə əlaqəsindən xəbərsizdir. Əgər insan Ruhi aləmin səsini eşidərsə, həlak olar. Bu səsi dinləməyə insanın taqəti çatmaz. İnsanın ağlı və yaşayışı Ruhi aləmə uyğun olmadığı üçün Tanrı bu səsi insana eşitdirmir. Buna baxmayaraq Ruhlar aləmi heç vaxt insanın üzünə bağlı deyil. Çünki Ruhlar bir-biri ilə söhbət edir. İnsan başı üstündə uçuşan Ruhlardan daim imdad diləyir. Çünki Ruh, haqqında söhbət getməyən mövzular barədə belə məlumat verir.

Ruhlar ayaq üstündə dura bilməsələr də, Onlar bir-biri ilə sevişə bilirlər. Bir-birinə simpatiya ilə yanaşan, bir-birini sevən Ruhlar hətta bir- birlərinin fikirlərini oxuyub asanlıqla bir-biri ilə ünsiyyət yarada bilirlər. Bir-biri ilə ünsiyyətdə Ruhlar Ruhi dildə danışaraq bir-birləri ilə nitqsiz münasibətə girir və fikri ötürmə yolu ilə bir-birlərini anlayırlar. Hətta xeyirxah Ruhlar ləyaqətsiz şəkkaklar arasında Öz daxili aləmlərinə qapılıb qalır və yalnız Onlara simpatiya göstərən adamlar olduqda ünsiyyət yaradırlar. Deməli, Ruha xeyirxahlıq ilhamı gəldikdə kamilləşir. Bu anlamda insan Ruhi həyat imkanlarında, əməl tufanlarında gah zühur edir, gah da qeyb olur. Adətən insanın tanıdığı adamın Ruhu ilə öz Ruhu asanlıqla bir-biri ilə əlaqə qura bilir. Bu anlamda ölən yaxınların Ruhunun yad edilməsi Ruhu sevindirir. Ölən insanın Ruhu onların cənazəsi, yaxud qəbirləri üzərində dua oxumağa gələnlərin çağırışlarına hay verib gəlir. Ruhları cəlb edən Onların yad edilmələri olduğundan mərasimin yerinin və təntənəsinin Onlara dəxli yoxdur. Əsas olan yad etmənin ürəkdən olması, sevgiyə əsaslanmasıdır. Ruh üçün Onun Bədəninin harada dəfn olunmasının, qəbrinin necə zinətləndirilməsinin əhəmiyyəti yoxdur. Daha doğrusu, Ruh üçün bir qarış torpağın o biri qarış torpaqdan heç bir fərqi və maddi zinətin heç bir dəyəri yoxdur. Əsas olan Ruhun Onu sevənlərlə bir olmasıdır. Ruh həmişə vəsiyyətə əməl edilməsinə nəzarət edir. Çünki bunu Ruha Yaradanın özü təlqin edir.

Ölmüş insanın Ruhu heç vaxt həmin Bədənə qayıda bilməz. Çünki öldükdən sonra çürüyən, yanan və ya yanddırılan, vəhşi hevanlar, quşlar tərəfindən parçalanıb yeyilən, zərrə - zərrə cəsədi parçalanıb dağılan və bununla da olmayan bir cəsədə Ruhun qayıdıb yerləşməsi mümkün deyil. Deməli, quruyan ağac kimi ölən insan da dünyada bir daha canlanmaz. Cəsədə həyat verib onu qoruyan Can və ya Ruh, qədim Türklərin dediyi kimi, «Tin»dir. Can çıxınca cəsəd çürüyüb torpaq olur. Deməli, insana insanlığı bəxş edən Ruhdur. Ruh isə ölmür. O, Bədənə gizli qalan dünyaya yollanır. Ona görə də, insan öləndə «Can öldü» deyil, «Can verdi», «Canını tapşırdı» və ya ən doğrusu, «Ruhunu tapşırdı» deyirlər. Çünki Ruh Tanrının Nurudur. Tanrı da Ruhun bir daha bu dünyaya – maddi Bədənə dönməyəcəyini bəyan etmişdir.

Ruhun Bədəndən ayrıldıqdan sonra ta qiyamətə qədər olan halı «qəbir halı» adlanır. Bədəndən ayrılan Ruhun çəkdiyi əzaba **«qəbir əzabı»** deyilir. Çünki insanın Ruh həyatı ölümü ilə başlayır. Deməli, insanın **«Qəbr həyatı»** əslində onun Ruh həyatıdır. Qəbrə qoyulub qoyulmamasından asılı olmayaraq Bədəndən ayrılan Ruhun həyatı istər əzab, istərsə də rahat olsun «Qəbr həyatı», daha doğrusu «Ölümdən sonrakı həyat» adlanır. Deməli, qəbr əzabı vardır və bu əzab Bədənə deyil, Ruha çəkdirilir. Əslində bu dünyada da əzab və rahatlıq həm Bədənə, həm də Ruha verilir. Lakin bunları hiss edən Bədən deyil, Ruhdur. Tanrı yaxşı insanların Ruhunu qəbr ərzabından qorusun. Amin.

İnsan təzadlı varlıq olduğu üçün daima Ruhunda doğulan ən nəcib, ən ali hisslərə belə yad duyğular yağı kəsilir. İnsana həyat bəxş edən ən gözəl hisslər belə gündəlik qayğılar içində donub qalır, insanın arzu və istəkləri əbədiyyət göylərində iz salıb, xəyalları mətin bir uçuşla qanad çalsa da səadəti zaman burulğanında puça çıxır, onun yerini qayğı, kədər tutur, insanda dərin ağrılar törədir, qayğıları min dona girib onun dincliyini pozur, sevincini alır. Ruhun da fəal təbiətini arzu, istək ifadə edir. Fəqət insan Ruhunun inkişafı arzu və istəklə və hətta insanın özünüdərk mərhələsində də tükənmir. Ruh

insanın özü-özünü dərk, hüquqi, əxlaqi, mənəvi, dini və elmi səviyyəyədək inkişafını müəyyən edir. Azadlıq belə insan Ruhunun bir prinsipi, bir mərhələsidir. Dövlət belə insan Ruhunun özü üçün yaratdığı bir mini dünyadır. Hətta özü-özünü anlayan həqiqət, özü-özünü dərk edən zəka belə Ruhun yalnız ilkin pillələri olub Mütləq Varlığın dərkinə xidmət edir. Dahilər, müdriklər, qəhrəmanlar belə yaşadıqları dövrlərdə öz xalqlarının və özlərinin Ruhunun aləti, xalqlar isə onların istəklərinin gerçəkləşməsi alətidir. Təbiətin varlığı belə Mütləq Ruhun istəyidir. Deməli, Ruh yaradıcıdır, ilkindir.

Ruhun zühuru insan rahatlığını həmişə pozmuş, pozur və pozacaq. Ona görə də, insan sanki əbədi rahatsızlığa düçar edilib. Bu rahatsızlıq da əbədi yaşayışı təmin edir. Əks təqdirdə Ruhun yoxluğu bəşəriyyəti məhvə sürükləyərdi. Bədənin ehtiyacları ödənmədikdə xəstələndiyi kimi Ruhun da ehtiyacları ödənmədikdə narahat olur, əzab çəkir.

İnsanın mənəvi dəyərlərini bilmədən Ruhu anlamaq mümkün deyil. Maddi olan Bədən nə ağlaya, nə gülə, nə sevə və nə də həyəcanlana bilər. Deməli, ağlayan da, gülən də, sevən də, həyəcanlanan da Bədən deyil, Ruhdur. Bu anlamda Ruhun Bədəndən fərqli aşağıdakı xüsusiyyətləri vardır:

1. İnsanı ana bətnində qımıldadan və onu hərəkətə gətirən Bədən deyil, Ruhdur.
2. İnsanın bütün mənəvi və insanlıq dəyərləri – dərk etmə, tanıma, sevmə, nifrət etmə və s. Bədənə deyil, Ruha bağlıdır.
3. Bədən məyyən bir formaya, ölçüyə və çəkiyə malik olduğu halda, Ruh heç bir formaya, ölçüyə və çəkiyə malik deyil.
4. Bədən həyatda qazanılır. Ruh isə Tanrıdan insana bir paydır.
5. Ruh Bədəndən deyil, Bədən Ruhdan asılıdır.
6. Bədən müvəqqəti, Ruh əbədidir.
7. Bədən Ruh deyil, Ruh Bədəni idarə edir.

İnsan Ruhi baxımdan elə bir mərhələyə yüksələ bilər ki, o, öz iradəsi və istəyi ilə şiddətli küləklər, yağışlar, tufanlar və s.

yarada bilər. Belə insanlar tarixdə həmişə mövcud olublar. Onlar öz ruhlarını gücləndirməklə və maddi həzzlərdən özlərini məhrum etməklə Ruhlarında sirli bir qüvvə yaradır və bir sıra əsrarəngiz işlər görürlər ki, hər bir insanı heyrətə salırlar. Bütün bunlar sübut edir ki, insan nə qədər maddi ləzzətlərdən çəkinərsə, bir o qədər də Ruhu qüvvətlənər və əksinə, insan maddi ləzzətlərə nə qədər aludəçi olarsa, Ruhu da bir o qədər düşgünləşər, Ruhunun sirli qüvvəsi gizli qalar, özünü göstərməyə imkan tapa bilməz, Ruhu da güclü olan insanları anlamadığından onları səy hesab edər.

Ruhunu ali səviyyəyə yüksəldən insan İsa Məsih kimi ehtiras və heyvani nəfsini cismani təbiəti ilə birlikdə çarmıxa çəkib əbədiyyətə imanla doğru irəliləyər. Bu anlamda İsa Məsih Ruhun təcəllası, simvoludur. Ona görə də, İslam aləmində İsa Məsihə **Ruhullah** da deyilir. Xristian inancına görə də, İsa Məsih Ruhdan yarandığından əbədiyaşardır.

Ruhunu ali səviyyəyə yüksəldən insanlar Ruha görə yaşadıqları üçün Ruha görə də hərəkət edirlər. Belə insanlara Tanrı Onu dərk etmək üçün hikmət və vəhy Ruhu bəxş edir. Bu hikmət və vəhy Ruhu ilə də onlar insanları Ruhlarını pak saxlamağa, təvazörkarlığa, həlimliyə, səbrlə davranmağa, məhəbbətə, Ruhən və əqlən kamilləşməyə, yalandan, riyadan, hər cür kindən, qəzəbdən, hiddətdən uzaqlaşmağa, ağızdan heç bir çürük söz çıxarmamağa, onları dinləyənlər üçün əqli və Ruhu inkişaf etdirən sözlər söyləməyə, sədaqətə, mərhəmətə, lütfkarlığa dəvət edərək Tanrıya ümid və imanla inam bəsləməyə çağırırlar.

Ruh insanlara diktə edir ki, Ona ürəkdən, ağılla, şövq ilə yanaşsınlar. Çünki Ruha ürəkdən yanaşanlara Ruh da Öz köməyini əsirgəmir. Ruha inam bəşəriyyəti bütün bəlalardan qurtarmaqla, insanları məhəbbət, mərhəmət, ədalət, sədaqət və həqiqət ətrafında birləşdirməyə qadirdir. Bu, azad, yeni dünyanın başlanğıcı olacaq. Bəşər bu dünyaya çürüyən Bədənə bütün ağlını, zəkasını sərf etməkdən azad olduqdan sonra qovuşacaq.

Ruh insanlara diktə edir ki:

- Tanrı hər şeyin ilkin səbəbi olan Ali Varlıqdır.

- Əvvəli və sonu olmayan, əlçatmaz, ün yetməz, ağıl erməz hər şey sonsuzdur.

- İnsan dili idrak çərçivəsindən yüksəkdə duran şeylər haqqında müfəssəl məlumat vermək gücünə malik deyil. O cümlədən də Tanrı və Ruh haqqında.

- Səbəbsiz nəticə olmadığından Tanrı varlığını qəbul etmək aksiomadır. Kainatın mövcudluğu səbəbin nəticəsidir. İnsan ağlı belə ilkin səbəbdir.

- Tanrıya inanmaq üçün Onun yaratdıqlarına nəzər yetirmək kifayətdir.

- Kainat özü də daxil olmaqla həyatda təsadüf deyilən şey yoxdur. Çünki təsadüf idraki fəaliyyət yarada bilməz.

- İnamsızlığı yalnız şübhə və təkəbbürlülük doğurur ki, bu da Şeytani xislətdir. Təkəbbürlü insan özündən yüksəkdə heç nə görmür.

- Tanrını yalnız ali Ruhlar dərk etməyə qadirdir. İnsan Ruhu materiya zülmətindən qurtulub kamillik zirvəsinə yüksəldikdə Tanrıya yaxınlaşacaq, Tanrını dərk edəcək.

- Forma və məzmun bir-birinin eynidir. Əsl məzmun öz-özlüyündə formaya malikdir, əsl forma isə özünün məzmunudur. Məzmunla forma imkanla gerçəkliyin vəhdəti kimi təzahür edir.

Mövcud olan hər şey ziddiyyət üzündən məhv olduğu halda, Ruhun iztirab və xoşbəxtlik və deməli, ziddiyyət içində yaşam gücü vardır. Bu anlamda Ruh ziddiyyətlərdən ibarət əbədi varlıqdır. Ruhun bu ziddiyyətə dözümü Onun əbədiliyi, hər şey üzərindəki hökmranlığıdır.

Ruhun ümumiliyi həm də Onun xüsusiliyidir. Ruhun bütövlüyü Onun ziddiyyətliliyindədir. Xeyir və Şər – Ruhun bu böyük ikiləşməsi əslində Onun bütövləşmə amilidir. Xeyir kimi Şər də özünü öz təkcəliyinin zərbəsi altında qoyan Ruhdan başqa bir şey deyil. Deməli, ayrılıqda Xeyirxah və əksinə Şər Ruh yoxdur. Ruh Özü Xeyir və Şərdən ibarətdir. Onun özünün Özü ilə belə ziddiyyəti Onun tamlığı, Onun azadlığıdır.

Ruh insanın keçmişini xatırladaraq onu gələcək günahlara batmaqdan qoruyur.

Ruh xəstəliklərə belə dərman bulmağa qadirdir.

Ruh Bədənin bütün üzvlərindən xəbərdardır, onlara hər hansı bir işi görmək üçün əmrlər verir. Ruh başdan tutmuş ayağa qədər insanın bütün Bədənini əhatə edir. Ruh Bədənə rəhbərlik edərək onun bütün işlərinin tədbirini tökür, onun bütün müdafiə və müalicə işlərini yerinə yetirir.

Hər şey Ruhun içərisində gizlənib. Onların hamısını üzə çıxarmaq demək olar ki, mümkün deyil.

Ruhu tam anlamaq Tanrını tam anlamağa bərəbərdir ki, bu da insan ağlına, insan idrakına sığmaz.

Ruh həyatla ölümün daima bir-birini əvəz edən naxışdır.

Ruh sehirli kələfi ilə zaman adlı dəzgahda insan üçün Tanrı libası toxuyur.

Ruhun fitri qabiliyyətlərindən biri də Onun eyni zamanda bir neçə işi yerinə yetirməsidir.

Müqəddəs ayədə buyurulur ki:

**«Öz Ruhunu tanıyan Tanrısını da tanıyar».**

Ölmək və yaşamaq şərti şeylərdir. Ruh isə haqq ilə birgə diri və əbədidir. Haqq ilə yaşamaq mütləq həyatdır.

Tanrı Kainatı idarə etdiyi kimi insanın Ruhu da onun cisminə hakim olub ona nəzarət etməklə onu idarə edir.

Ruhların özünəməxsus aləmləri var. Bu aləm həqiqətlər aləmidir. Maddi aləm Ruhlar aləminin mahiyyətinə xələl gətirə bilməz. Maddi örtüklə müvəqqəti örtülən Ruhlar maddi aləm yox olduqda öz əvvəlki sərbəstliyinə qayıdırlar.

İnsan müəyyən inkişaf mərhələsinə yalnız Ruhun köməyi ilə çatır. İnsan bədənində Ruhun mövcudluğu Onu başqa canlılardan mənəvi və əxlaqi cəhətdən fərqləndirir.

Ruh hər şeyin sonunu görəndir.

Ruhu dərk etdirən Ruhdur. İnsan öz Ruhu vasitəsilə Ruhları anlayır.

İnsan yalnız pak Ruhu vasitəsilə Mələkləşə bilər. Bu pak Ruh əslində kamil Ruhdur.

İnsan təbiəti Ruhdan, Ruhun azadlığından və bununla da insanın şəxsiyyətləşməsindən ibarətdir.

İnsanın ruhu onu bəşər sivilizasiyasının mənəvi sərvəti ilə qovuşdurar.

İnsan öz istedadını Ruh vasitəsilə inkişaf etdirir.

İnsan ağlını, idrakını, zəkasını ruhu ilə zənginləşdirə bilər.

İnsan Ruhu ilə həyatın mənasını dərk edə bilər.

İnsan pak Ruhu ilə insan kimi yaşaya və insan kimi dünyasını dəyişə bilər.

İnsanın inkişafı Ruhun Öz azadlığını dərkindən keçir. Ağırlıq Kainatın mahiyyəti olduğu kimi azadlıq da Ruhun mahiyyətidir.

Ruh cəhd edir, açıqlayır, tədqiq edir, bilir.

Ruh hətta Tanrının bir çox xasiyyətlərini, düşüncələrini belə araşdırmağa qadirdir.

İnsan düşüncələrini də Ruhundan başqa heç kim bilə bilməz.

Ruh insan həyatının hərəkətvericisidir. İnsan əslində Ruhun gücü ilə yaşayır.

Ruh nurdur, işıqdır. Onu söndürmək özü – özünü öldürmək deməkdir.

Pak Ruhlar bütün ehtiraslardan azad Ruhlardır.

Ruha yalan söylənməz. Çünki O, kədərlənə bilər. Ruhu kədərləndirmək isə ən böyük günahdır. Ruha qarşı küfr etmək Tanrıya qarşı çıxmaq deməkdir.

## Türklərdə Ölüm anlayışı

**«Ölüm var ki, həyat qədər dəyərli,**
**Həyat var ki, Ölümdən də zəhərli».**

Həyatın əksi Ölüm olsa da, Ölüm özü əbədi həyatdır. Bütün qəhrəmanlıq tarixində Ölümü əbədi həyat qəbul edən Türk milləti bəşərin şərəf tarixinə öz damğasını vurmuşdur. Türklərə görə:

**Ölüm həyatın əbədi qardaşıdır.**

**Ölüm axirət evinin qapısıdır.**

Ölüm Tanrı tərəfindən insana bəxş edilmiş dirilik kimi bir nemətdir. Belə bir nemətdən ikrah etmək isə ədəbsizlikdir.

Ölüm insan üçün kamala yetmək anıdır. Ona görə də, Ölümdən qorxmaq yox, Onu bir Tanrı neməti kimi qəbul etmək lazımdır.

Ölüm təhvil almaqdır. Yəni insan Ölüm ayağında bütün şəxsiyyət və varlığını Tanrının göndərdiyi məmurlara təhvil verir.

Ölüm bir aləmdən başqa bir aləmə, bir həyatdan başqa bir həyata keçiddir. Bu keçiddə insanın bütün bədən üzvləri başqa aləmə köçürülmür və elə bu dünyada tədricən əriyib məhv olur. Bu aləmdən başqa aləmə keçən yalnız insanın Ruhudur. Öldükdən sonra təhvil alınan Ruh materiyanın fövqünə çıxaraq Ruh sinfinin inkişaf mərhələsi olan bir dövrə – əbədiyyətə qədəm qoyur.

Ölüm həyatın böyük qapısı, görüşün, əbədiliyin başlanğıcıdır.

Həyatda həm maddi, həm də mənəvi varlıqdan ibarət olan insan Ölümdən sonra tamamilə mənəvi varlığa çevrilir.

Ölüm Ruhla Bədənin bir – birindən ayrılması, Ruhun Bədənlə əlaqəsinin qırılmasıdır. Obrazlı deyilsə, Ölüm Ruhun özünə qayıdışıdır.

Ruhun Bədənlə olan birliyində Ruh iradə, ağıl və şüur vasitəsilə Bədəni idarə edir. Deməli, insan şəxsiyyəti Bədənlə yox, Ruhlardır. Ruha dayanan şəxsiyyət isə Ölümlə aradan getmir, insan əzaları ilə birgə çürümür. İnsan şəxsiyyəti Ruhla bağlı olduğundan O, Ölümdən sonra da yaşayır. Ya əbədi səadətə, ya da əbədi əzaba düçar olur. Ali Ruhlu müdrik, kamil insan əbədiyyətə, səadətə, dini dillə deyilsə, Cənnətə, aşağı Ruhlu cahil, nadan insan isə əzaba, Cəhənnəmə qovuşur.

İnsan, Ruhunun əbədiliyini dərk etdikdə Ölüm qorxusunu yox edir, ulularla əlaqə yaradır. Deməli, Ölümün nə olduğunu dərk etdikdə insan ondan qorxmur. Lakin Ölümü dərk etmək hamıya nəsib olmur. Bu yalnız və yalnız müdrik, kamil, dahi insanlara xas keyfiyyətdir.

Ölümdən qorxmayanları yalançı adlandıran və hətta bu qorxunu mahiyyətcə yaxşı qorxu kimi təqdim edən, Onu «hiss edən varlıqların ulu qanunu» adlandıranlara cavab olaraq Türk müdrikləri bildirmişlər ki:

**«Ölümdən qorxmağa dəyməz. Çünki insan Onunla (Ölümlə – A.M.) heç vaxt rastlaşmır. Rastlaşmadığın bir şeydən də qorxmağa dəyməz».**

Daha doğrusu, müdriklərin dediyi kimi:

**«Biz yaşayanda Ölüm, ölüm olanda isə biz yoxuq».**

İnsanın əsl xisləti ölümlə üzbəüz qalanda meydana çıxır. Ölümlə bağlı müdriklər söyləyiblər ki:

**«Ölüm hər ağlına gələndə ah – vay edib inləmə.**
**Bu halınla sən Tanrını incitmiş olarsan.**
**Əcəl qapını döydüyü zaman ətrafındakıları təlaşa salma.**
**Çünki O, gəldiyi an sən gedəcəksən».**

İnsan fani olan dünyaya bağlılığı qəlbindən çıxara bilsə, özünü ölüm qorxusundan xilas etmiş olar.

Ölümü dərk edən insan fani şeyə könül verməz, dünya səadəti deyilən nəsnəyə qapılmaz.

Ölüm haqdır, Ondan qaçmaq olmaz. Unudulmamalıdır ki, doğulan hər şey Ölür, yüksələn hər şey enir, yürüyən hər şey durur, Verən hər şeyi alır.

İnsan özünü həmişə Ölümə hazırlamalıdır. Kim Ölümü təbii qəbul edirsə, o, köləlikdən xilas olur. Əslində Ölümü dərk, azadlığı dərkdir. Azadlıqsa Tanrı Ruhu olan yerdədir. Can bəsləyənlər, bir qaşıq qanından ötrü şərəfsizliyə razı olanlar, canını Cananı üçün yox, Cananı Canı üçün sevənlər Tanrıya deyil, özlərinə xidmət edirlər. Belə insanlar kamilliyə yüksələ, qəhrəman ola bilməzlər. Çünki:

**«Qəhrəmanlıq nə yalnız bir yüksəliş deməkdir,**
**Nə də ulduzlar kimi parlayıb sönməməkdir.**
**Bunun üçün Ölümə bir atılış gərəkdir.**

**Atıldıqdan sonra da bir daha dönməməkdir».**

Unudulmamalıdır ki, Ölüm insanın mövcudluq formasının dəyişməsi, ömürdən sonrakı dincliyidir. Ölümdən sonra insanı «rəhmət» və «lənətə» əsaslanan iki yol gözləyir. Bu yollardan biri Cənnətə, digəri isə Cəhənnəmə gedir.

Ölümə çarə yoxdur. İnsanoğlu yaranışdan bu günə qədər Ölümün dərdinə dərman arayır, amma bula bilmir. Olmayan bir şeyi aramaqsa sərsəmlik, sərgərdanlıqdır.

Ölümün qapısı nə bilik, nə də ki, ağılla alına bilməz. Böyük Türk müdriklərinin buyurduğu kimi:

**«Ölüm bir bəladır çarə edilməz,**
**Onun çarəsini tapmayıb heç kəs».**

Və ya:

**«Ən mahir, ən ustad təbib heç zaman**
**Tapa bilməyəcək Ölümə dərman».**

Ölüm bir şərbətdir ki, onu uşaq da cavan da, qoca da, qadın da, kişi də içir. Atalar söyləmişkən:

«Ölüm «mən – mən» - deyənlərə «sən – sən» deyər.

Bütün nəfəs alanlar Ölümə məhkumdur. İnsanın başı üzərində daim Ölüm qanadlarının sədası gəzir. İnsan başqasının ölümünü görməsinə baxmayaraq, çox qəribədir ki, öz Ölümünə inanmır. Ölüm doğulanda İnsan ölür.

Ölümü görən dirilər bundan ibrət almalıdırlar. Çünki Ölüm nemət sahibinin nemətidir.

Ölüm də cismani və mənəvi olmaqla ikiyə ayrılır. Cismani ölüm təbii, təbii olduğu üçün də mütləqdir. Mənəvi Ölümü isə insanoğlunun özü qazanır və diriykən Ölü sayılır.

Ölüm iradi və təbii olmaqla da ikiyə ayrılır. İradi Ölüm şəhvani hissləri öldürmək və onun hücumundan müdafiə olunmaq, təbii Ölüm isə Ruhun bədəndən çıxmasıdır.

Təbii Ölümdən qorxan öz mahiyyətindən qorxan insandır. Çünki insan nitqli öləndir. Deməli, Ölüm əslində həyatın bir cüzi hissəsidir, mahiyyət isə külldən ibarətdir. Özünün yox olmasını, həyatın bitməsi hesab edən, yəni cüzini küll sayan bir insan əslində nadandır. Nadan isə məhz nadan olduğundan Ölümün daha əziyyətli olacağından qorxuya düşür.

Lakin o anlamır ki, ağrını yalnız diri, canlı hiss edə bilər, bu da yalnız Ruhun təsiri nəticəsində əmələ gələr. Ruha malik olmayan cismdə ağrı hissi ola bilməz. Çünki ağrı hissini yaradan Ruhdur. Deməli, Ölüm bədənin hiss və duyğulardan məhrum olduğu ağrı hiss etməyən bir halıdır. Çünki bu zaman ağrı hiss edən şey, yəni Ruh bədəndən çıxmış olur.

Bəzi dahilər belə Ölümü materiəlistcəsinə anladıqlarından belə fikirlər irəli sürmüşlər ki, guya:

***«Dünyada insan üçün Ölümdən güclü heç nə yoxdur».***

***«Ölüm vahiməsi ən ümumi və ən ağır qorxudur».***

***«Ölüm ucsuz – bucaqsız bir dəniz, dibsiz bir quyudur».***

***«İnsan Ölümünü düşünsə, həyatın dadı gedər».***

***«Ən uzaq, ən ağır fəraq Ölüm fərağıdır. Sağ ikən fərağa qarşı bir vüsal ümidi var, Ölüm isə, şübhəsiz, vüsaldan, ümiddən çox uzaqdır».***

***«Ölüm insan üçün arzuedilməz bir yuxu, xoşagəlməz bir rahatlıqdır» və sair, və ilaxir.***

Halbuki Türk düşüncəsinə görə, Ölümdən o insan qorxur ki, onlar Ölümün nə olduğunu bilmir və ya Ruhun haraya qayıdacağından xəbərləri yoxdur. Əslində Ölüm Ruhun Bədəndən istifadə etməməsidir.

İnsan orqanizması öz-özlüyündə sərhədli bir möcüzə olsa da, ecazkar və sərhədsiz bir möcüzədir. Əslində sərhədli bir orqanizma sərhədsiz Ruhu əbədi daşıma gücünə malik deyil. Ona görə də, bu iki varlıq gec-tez bir-birindən ayrılmalıdır. Bu ayrılma da məhz Ölüm adlanır. Deməli, Ölüm, əzab-əziyyətlə xoşbəxtlik arasında bir körpü, Bədəni Ruhdan ayıran bir andır.

Bütün canlılar yalnız Ölüm anında ürpəşdiyi halda insan hər zaman bu duyğu ilə baş-başadır. Həyatında öz cənazəsini təsəvvür edən yeganə canlı varlıq insandır. Ölüm duyğusu əslində insana həyatı və ən başlıcası özünü dərk etdirir.

Şərəfli Ölüm insanı Tanrıya qovuşduran müqəddəs hadisədir. Haqq yolunda qəhrəmancasına Ölmək şərəf, adi ölümsə utanclı ölümdür. Sayı bilinməyən ölümlərdən yalnız haqq yolunda qəhrəmancasına ölənlər, insanlıq üçün çalışan müdrik, dahi insanlar anılır. Deməli, ən ali Ölüm haqq yolunda şəhidlikdir. Şəhidliksə Tanrı qismətidir.

İnsan yaradılmışların bir hissəsidir. Hər yaradılan şey də gec–tez məhvə məhkumdur. Deməli, məhv olmaq istəyən əslində yaradılmasını istəməyəndir ki, bu da onun özündən asılı deyil. Əgər əbədi yaşamaq mümkün olsaydı, indiyə qədər bütün doğulanlar sağ qalsaydı, bu nəinki Yer kürəsinə, heç Kainata da sığmazdı. Deməli, Yaradanın kamil hikməti, bitkin ədaləti nəyi, necə lazım bilibsə, o da olacaq. İnsan bu biçimdə, bu tərkibdə elə bir varlıqdır ki, onun arzusunun harada qurtaracağını təsəvvür etmək belə mümkün deyil. Ona görə də, Ölümdə materialistlərin təsəvvür etdikləri qədər də məzəmmət yeri yoxdur. Əsl məzəmmət ediləsi şey cəhalət nəticəsində yaranan Ölüm qorxusudur.

Ölümün zəruriliyini bilib əbədi həyat arzu etməyən, lakin ömrün həddən artıq uzun sürməsinə xüsusi həvəs göstərən insanlar da danlanmağa layiqdirlər. Çünki qocalıqda insanın fitri hərarəti azalır, əsas lazımi üzvləri taqətdən düşür, hərəkəti süstləşir, həzm cihazı pozulur, diş tökülür, qulaq ağır eşidir, göz zəif görür, sevinc itir, əzab, əziyyət, ağrı çoxalır, insan başqalarına daha çox möhtac olur, hətta düşüncə qabiliyyətini itirir və sonda ətrafına ağır bir yükə çevrilir. Bütün bunları nəzərə alan müdriklər qocalığı «Ölümün qonşusu» sayaraq söyləmişlər ki:

**«Əcəl yetişəndə tapıb bəhanə,**
**insana min əzab verər zəmanə.**
**Rüzgardan o qədər inciyər insan,**
**Özü Ölümünü istər Tanrıdan».**

İnsan ömrü bir təqvim kimidir. Hər an ondan bir yarpaq ayrılır və bu yarpaq sükunətin əlinə tapşırılır. Nəhayət onun sonuncu yarpağı ilahi bir Qüdrətin əli ilə qoparıldığı an ömür təqvimi sona çatır. Ona görə də, insan belə bir sərvətə biganə yanaşmamalı, bu nəfis matahı, qiymətli gövhəri ucuz qiymətə satmamalıdır. Məşhur bir hədisdə buyurulduğu kimi:

**«Ölməmişdən öncə həyatının qiymətini anla».**

İnsan nə qədər qaçsa da, Əcəldən qurtula bilməz. Əslində Əcəl insanın qarovulçusudur. Müqəddəs ayələrdə buyurulur ki:

**«Tanrı Əcəli catmış kəsə heç vaxt möhlət verməz» (Münafiqun, 11). Hər bir kəs Ölümü dadacaqdır» (Ali İmran, 185).**

**«Heç bir millət öz Əcəlini nə qabaqlaya, nə də yubada bilər» (Hicr, 5).**

**«Tanrının izni olmayınca heç kəsə Ölüm yoxdur. Ölüm vaxtı müəyyən edilmiş bir yazıdır» (Ali İmran, 145).**

Əcəl kimsəyə macal verməz:

**«Geri dönməz bu şərafətli zaman,**
**Qıyaraq bir gün Əcəl verməz aman».**

İnsanın çəkdiyi hər nəfəs belə onun Ölümə doğru atdığı bir addımdır:

**«Bir nəfəsdir bu sürəksizcə həyat,**
**Bir nəfəs!.. Getdimi? Gəlməz».**

Ölüm ən böyük vüsal, Tanrıya çıxan yol, əbədi həyatdır.

Ölüm Tanrı hüzuruna getmək, din ululari ilə görüşmək, Tanrı dostlarına qovuşmaq, dəyərli insanlarla tapışmaqdır. Tanrı buyurmuşdur:

**«De ki, sizə təhkim olunmuş Ölüm Mələyi canımızı alacaq, sonra isə siz Rəbbinizə qaytarılacaqsınız» (Səcdə, 11).**

**«… Həqiqətən də O (Tanrı – A.M.) Ölülərə həyat verəcəkdir» (Rum, 50).**

**«Bu dünya həyatı əyləncə və oyundan başqa bir şey deyildir. Axirət evi isə əsl həyatdır». (Ənkəbut, 64).**

**«Axirəti dünya həyatına satanların nə əzabı yüngülləşər, nə də onlara kömək olunar» (Bəqərə, 86).**

Ölüm, vaxtı Tanrı tərəfindən müəyyən edilmiş yazıdır.

Ölüm insanların ən ümumi cəhətidir.

Ölüm insanın doğuşu qədər qədimdir.

Ölüm ən böyük nəsihətçi, ən bacarıqlı vaizdir. Məşhur bir hədisdə buyurulur ki:

**«Nəsihət istərsənsə, Ölüm yetər».** Çünki Ölümü düşünən haqsızlıqlardan çəkinər, axirətinə ciddi hazırlıq görərək savablar qazanar.

Tanrıdan başqa hər varlığın üzərində bir Ölüm damğası var.

Fəqət: **«Heç kəs harada Öləcəyini bilmir» (Loğman, 34).**

Sonu ancaq Ölülər görür. Həyatda yalnız Ölülər səhv etmir.

Ölüm insanın qarşısında böyük bir hakimdir.

İnsanların və digər canlıların artımı şahmat xanalarında aparılan artım kimi əvvəlkinə nisbətən iki dəfə artsa, onun miqdarını saymaq və onu bir yerə yazmaq belə mümkün olmaz. Deyilənlərdən bəlli olur ki, bu dünyada əbədi yaşamağı arzu etməklə Ölümdən yaxa qurtarmaq, xüsusilə, tamahkarlıq nəticəsində bu arzuya çatacağını təsəvvür etmək xam xəyaldan başqa heç bir şey deyil və yalnız cahil, nadan, əbləh adamlar belə boş fikrə düşə bilərlər. Ağıllı, zəkalı insanlar belə axmaq fikirləri yaxına buraxmaz, heç ürəklərindən də keçirməzlər.

Ölüyə paxıllıq edən az, onun dilindən yalan söz deyən isə çox olar.

Əslində həzatda nə sevinəcək, nə də kədərlənəcək heç bir şey yoxdur. Çünki Ölüm insan varlığındakı həyat eşqini zərrə-zərrə azaldır.

Ölüm təkcə insanın özünün deyil, bütün tanıdıqları və bildiklərinin də yaddaşdan silinməsi deməkdir.

Əgər Ölüm qorxusunun səbəbini məhv etmək mümkün olsaydı, o zaman bu duyğunun özü də məhv olardı, o daha gərək olmaz, öz-özünü gərəksiz hesab edərdi. Kaş insan elə bir insanlıq səviyyəsinə yüksəlsin ki, Ölümdən qorxmasın. Bu yüksəliş insanlığın kamilliyi, müdrikliyi, dahiliyidir. Təəssüflər olsun ki, sağlam düşüncə sahibləri belə Ölüm qorxusundan doğan xəyalın öhtəsindən gələ bilmir. Qorxaq insana Tanrı da kömək etməz.

İnsan həyatı altı dünyadan ibarətdir. Birincisi Ruhlar aləmindəki dünyadır ki, onu heç cürə xatırlaya bilməz. İkincisi ata və daha sonra ana bətnindəki dünyadır ki, bunu da xatırlaya bilməz. Üçüncüsü üzərində yaşadığı dünyadır ki, onu görür və xatırlayır. Dördüncüsü röyalar aləmindəki dünyadır ki, onu görməz, amma xatırlayar. Beşincisi qəbir aləmindəki dünyadır ki, onu gedəndən sonra görəcək. Altıncısı axirət dünyasıdır ki, maddə ilə Ruhun birləşdiyi sonsuz bir aləmdir ki, insan bunu da ölümdən öncə nə görür, nə də anlayır. Bu

anlamda insanın gördüyü və xatırladığı dünya Tanrının sınaq meydanı, axirət isə toplanma və əbədiyyət meydanıdır.

Hətta bir cocuq doğularkən çəkilən ağrıların yanında Ölüm ağrısı boş və mənasız bir şeydir.

Aclıq ağ Ölüm, əziyyətlərə qatlanmaq qara Ölüm, nəfsə uymaq qırmızı Ölüm, kasıblıq yaşıl Ölüm, şərəfli Ölüm isə mavi Ölümdür.

Ölüm ömür sayını kökdən salır.

İnsan dünyadan köçəndə qisməti bir ağ kəfən, bir ovuc torpaq olur.

Kabuslardan heç də əskik olmayan ehtiraslı İnsanlar Ölüm qorxusundan cansız heykəllər kimi quruyub qalar, dünyadan öz xoşları ilə ayrılmaq istəməzlər. Beləlri unudurlar ki, ölümdən hələ indiyədək qurtulan olmayıb. Bunu hamı bilsə də Ona itaət edən çox azdır.

Ölüm yalnız qəhrəmanların qəhrəmanlığıdır. Şərəfli Ölüm təhlükə ilə qürurun birləşdiyi yerdədəir.

## Türklərdə Əxlaq anlayışı

Türklərin at və dəmir üzərində qurulan mədəniyyəti tarixə bəllidir. At belində, qılınc əlində bəşəri mədəniyyət yaradan bir millətin özünə məxsus bir düşüncə sistemi, bir Əxlaq anlayışı olmuşdur. Bu elmi şəkildə belə izah oluna bilər:

At Türklərə insan Ruhunu oxşayan iki bəşəri imkan qazandırmışdır. Belə ki, at belində insan özünü başqalarından daha üstün hiss etdiyindən onda bir üstünlük duyğusu – Bəylik qüruru yaranır. Həmçinin atın sürəti insanda böyük ərazilərə hökm etmək arzusu yaradır. Bu istəkləri – Qüruru və hökm etməyi həyata keçirmək üçün isə gərəkli bir vasitə lazım idi ki, bu vasitə də Dəmir, Qılınc idi.

Hökm etmək istəyi əslində bir instinkt olub bütün insanlarda vardır və şüuraltı bir güc kimi daim özünü göstərir. Bu hökm etmə içgüdü (instinkti) – nün eyni zamanda başqalarını istismar etmək vasitəsi olduğunu dünya tarixi sübut

etməkdədir. Bəzi millətləri bu istismar yoluna sürükləyən xüsusiyyət onlarda Bəylik qürurunun olmamasıdır. Bəylik qüruru sadəcə öyünmə vasitəsi olan bəsit bir psixologiya deyildir. Bəylik qürurunun əsil özəlliyi qarşılıq gözləmədən edilən yaxşılıqlardır. Bu isə ilk öncə hökm altına alınmış insanları sevməyi tələb edir. İnsana sevgidən doğan bu istək Türklərin Bəylik qüruruna bir ədalət, hürriyət və bərabərlik gətirmişdir. Tarixi Türk dövlətlərində qorunan bu Bəylik, törə prinsipləri ona daha müəzzəm bir məna qazandırmışdır. Türklərin tarixən müxtəlif millətləri bir çatı altında uzun müddət başarılı idarə edə bilmələrinin qaynağını məhz onların bu Bəylik qürurunda axtarmaq lazımdır. Bu anlamda Türklər insan psixologiyasını ən yaxşı anlayan, ən yaxşı duyan, ən yaxşı bilən bir millət kimi bütün millətləri kölgədə buraxmış, bəşəriyyətə bir Əxlaq nümunəsi olmuşlar.

Hökm etmə duyğusu üstəgəl insan sevgisi üstəgəl ədalət prinsipi Türkləri Əxlaq mücəssiməsinə çevirmişdir. Bütün bunları həyat düsturuna çevirən insana Türklər «Alp» demişlər. İnsana xas bütün mənəvi dəyərləri özündə cəmləşdirən Türkləri məntiq, nəzəriyyə və fəlsəfi teoriyalardan daha çox real həyata dayanan Əxlaq və Dövlət fəlsəfəsi ilgiləndirmişdir. Bu düşüncə tərzi haqq və ədalət anlayışı işığında Türklərdə cahan hakimiyyəti fikri doğurmuş və Türklər Gündoğandan Günbatana qədər insanları öz himayələri altına almağa səy göstərmiş və tarixin müəyyən dövrlərində buna qismən də olsa nail olmuşlar.

Dünyanın sayılan millətlərindən hər biri mədəniyyətin müəyyən bir sahəsində uğur qazanmışlar. Beləki qədim Çinlilər, Misirlilər, qədim Yunanlar estetikada, qədim Romalılar hüquqda, qədim sami xalqlar – Yəhudilər və Ərəblər dində, Anqlo – sakslar iqtisadiyyatda, Fransızlar ədəbiyyatda, Almanlar musiqi və fəlsəfədə, Türklər də Əxlaq və Dövlətçilikdə birincilik qazanmışlar.

Türk tarixi başdan başa Dövlətçilik və Əxlaqi fəzilətlər sərgisidir.

Türklərin məğlub etdikləri millətlərin milli və dini adət – ənənələrinə hörmət və sayğı ilə yanaşmaları, onlara dini və

ictimai muxtariyyətlər vermələri məhz Türklərin Bəylik qürurundan doğan məziyyətlərindən irəli gəlir.

Fəqət Türklərin bu alicənablığına qarşı məğlub millətlər zaman – zaman Türklərə arxadan zərbələr vurmuş, onlara düşmən münasibət bəsləmişlər. Türk alicənablığı, Türk Bəyliyi ilə məğlub millətlərin məkrləri hər iki tərəfin Əxlaqi düşüncə və davranışlarını göstərən ən mühüm amillərdir.

Türklərdə şəxsi Əxlaq cinsi Əxlaqı, şəxsi və cinsi Əxlaq məslək Əxlaqını, şəxsi, cinsi, ailə və məsləki Əxlaq Vətən Əxlaqını və bütün bunlar da Türklərin Bəylik qüruru ilə yanaşı millətlər və xalqlararası Əxlaqı formalaşdırmışdır.

Şəxsi Əxlaqın əsasını fərdin mənəvi keyfiyyətləri təşkil edir. Şəxsi Əxlaqa «Mədəni Əxlaq» da deyilir.

Cinsi Əxlaqın əsasını Qadın Kişi münasibətləri təşkil edir. Burada Qadının namus və isməti, Kişinin qürur və dəyanəti əsasdır.

Ailə Əxlaqının əsasını Ər və Arvad münasibətləri ilə yanaşı Valideyn və Övlad münasibətləri təşkil edir. Ailə dövlətin kiçik tipidir. Ailə bir nüvədir. Bu nüvəni qorumaq bütün cəmiyyəti dağıntıdan xilas edər. Çünki Ailə bütün bir cəmiyyəti həm qura, həm də dağıda bilər. Tarixən heç bir millət və xalq Türklər qədər Qadına sayğı göstərməmişlər. Xaqanın hökümətdə ortağı olan xatuna Türkan yəni Mələikə deyilirdi.

Məslək Əxlaqı hər bir fərdin və ya qrupun öz ixtisas və peşəsinə münasibəti ilə ölçülür. İxtisas və peşəyə Əxlaqi münasibət cəmiyyət düzənini tənzimləyən başlıca amildir. Hər bir fərd və qrup öz ixtisas və peşəsini dərindən mənimsəsə, ona kamil yiyələnsə, ona ləyaqətlə yanaşsa, xalq və cəmiyyət inkişaf edər, kimsədən asılı olmaz. Deməli, hər bir millətin azadlıq və müstəqilliyi ilk öncə onun Məslək Əxlaqından asılıdır.

Bütün şəxsi, cinsi, ailə və məslək Əxlaqı nəhayət, Vətən və Millət Əxlaqını yaradır. Vətən və Millət üçün bütün var-dövlətini, canını vəda etmədən Vətən və Millət Əxlaqına yiyələnmək olmaz. Çünki əslində millət göy Tanrının yer üzündəki kölgəsidir. Vətənə, Millətə sayğı Tanrıya sayğıdır. Vətəni, Milləti sevmək Tanrını sevməkdir. Vətəni, Milləti qorumaq Ruhu qorumaqdır. Çünki:

Vətən əcdadımızın mədfənidir.
Vətən övladımızın məskənidir.
Vətəni sevməyən, insan olmaz.
Olsa, o şəxsdə vicdan olmaz.
Və: Bayraqları bayraq yapan üstündəki qandır.
Torpaq, uğrunda ölən varsa, Vətəndir.

Vətən və Millət Əxlaqı bütün Əxlaqlardan – şəxsi, cinsi, ailə və məslək Əxlaqından, «ümmət məfkurəsindən, mədəniyyət və millətlərarası birlik məfkurəsindən daha yüksəkdir». Xüsusilə, Türklər kimi siyasi düşmənləri çox olan bir MİllƏt üçün Vətən və Millət Əxlaqı əsasdır. Çünki Vətən və Millət Əxlaqımız güclü olmazsa, nə istiqlalımızı, nə hürriyətimizi, nə Vətənimizi və Millllətimizi qoruya bilərik və nə də Vətənimiz və Millətimizin bütünlüyünə nail ola bilərik.

Əxlaq bir fərdin xarakterini və ya bir toplumun alışqanlıqlarını anladır. Bunları incələyən bilgiyə də Əxlaq elmi deyilir.

Əxlaq insanın yaxşı və pis deyə adlandırdığı hərəkət və fəaliyyətlərini, bu hərəkət və fəaliyyətlərin təməlini araşdıran bir elm sahəsidir. Yaxşı və pis ölçülərinə cavab verən bütün dəyərlər Əxlaq dəyərləri kimi qəbul edilir.

Əxlaq insanın danışığında, bir şeyi müdafiə və rədd etməsində, bir şeyi sevməsi və ya sevməməsində, bir insana sayğı göstərib göstərməməsindəki təməli araşdırır, incələyir.

Hərəkət və fəaliyyət insanın insan olmasının bir xüsusiyyətidir. İnsanın hərəkət və fəaliyyəti saysız - hesabsızdır.

İlahi dinlər Əxlaqın yüksək dəyərlərini bütün insanlara, həmçinin o dinə mənsub insanlara aşılayır.

Əxlaq insan varlığının ən ali dəyəridir.

Əxlaq qaydaları daha çox insan yaşayışını, insanlararası əlaqələri maraqlandıran istəklərdir. Əxlaqi dəyərlər və dəyərsizliklər, əxlaqı dəyərləndirmə ölçüləri, biz insanların öz içimizdən doğub inkişaf edir.

İndiyə qədər hər bir din, hər bir ideologiya bir dünyagörüş, bir Əxlaq anlayışı gətirmişdir. Bu xüsusilə, Atəşpərəstlik, Buddizm, Göy Tanrı, Yəhudilik, Xristianlıq və

İslam kimi böyük dinlərə mənsub millətlərin yaşayışında açıq-aydın görünür.

Deməli, Əxlaqın təməl qaydaları insanlığın din və hüquqi həyatı ilə sıx surətdə bağlıdır. Bütün dinlər, hüqüq qanunları kimi, bütün Əxlaqi dəyərlər də insanların nələri etməsi gərəkdiyini və nələri etməyə izni olmadığı kimi inanclara dayanır. Bütün bunlar isə insanların birgə yaşayışını gerçəkləşdirir.

Əxlaqi və dini dəyərləri gəlişməmiş bir insan nə qədər yetkin bir insan olursa olsun, o, insani bütünlüyünü itirmiş sayılır. Əxlaqi və dini dəyərlər təbii olaraq bir-biri ilə birləşərək uyumlu bir şəkildə əbədi yaşama hüququ qazanmışlar.

Əxlaqı olmayan bir Millət gec-tez məhvə məhkumdur.

Əxlaq və hər bir millətin özünəməxsus namus və ismət duyğusu toplumdan topluma dəyişir. Bütün bunlara baxmayaraq Əxlaq təbii və dəyişməz bir insani dəyərdir. Millət və xalqların bir-biri ilə əlaqələrinin az olması və ya heç olmaması belə doğruluq, ədəblilik, sözdə və əməldə dürüstlük, sədaqət və s. bu kimi Əxlaqi dəyərlər dəyişməzdir. Bu anlamda milli Əxlaqın bu dəyişməyən növləri yüksək dəyərlər qaynağıdır.

Silahı ilə olduğu kimi Əxlaqı ilə də nümunə göstərən Türk Milləti bu anlamda bir Türk xarakteri vücuda gətirmişdir. Türk Millətinin bu tarixi uğurunu özünə qaytarmaq, Türk Millətinin böyük millət olduğunu bütün dünyaya yenidən tanıtmaq üçün müasir elmi-texniki tərəqqiyə yiyələnməklə bərabər, həm də Türk Əxlaqına yenidən sarılmaq, ondan qüvvət almaq gərəkdir. Əslində Əxlaq geniş anlamda insan davranışlarının bütünü olub insana nəyi etməyin yaxşı, nəyi etməyin pis olduğunu öyrətməklə, iradə ilə davranışın vəhdətinin dəyərini təmin edir.

Əxlaq ilk öncə fəzilətlə bağlıdır. Fəzilətin isə ədalət, savad, həqiqət və qəhrəmanlıq kimi növləri vardır.

Hər bir millətin özünəməxsus bir Əxlaq anlayışı vardır. Bu anlayış o millətlərin tarixindən süzülüb gələn, milli birlik və bərabərliyi daima güclü tutan bir dəyər toplusudur. Bu baxımdan da Əxlaq ictimai Vicdanla iç – içədir.

Türk Millətinin Əxlaqı ümumbəşəri olmaqla həm də Türkə xas Milli Əxlaqdır. Bu anlamda milli Əxlaqın qaynağı ilk öncə aid olduğu millətdir. Milli Əxlaq millətin sosial düzəni, mövcudluğu, indiki və gələcəkdəki rifahı, səadəti, güvənliyi, müdafiəsi, mədəni inkişafı və yüksəlməsi üçün insanlardan qeyrət tələb edən və lazım gəldikdə canını belə sevə-sevə qurban verməyi istəyən Əxlaqdır.

Doğru olmaq, çox çalışmaq, ətrafındakı insanları saymaq və sevmək, ölkəni və Milləti hər şeydən üstün tutmaq, yüksəlmək, varlığını Millətin varlığına qurban verməyə hazır olmaq milli Əxlaqın əsasıdır. Yalnız bu şüur və anlayışla Vətəni, Milləti, onun müstəqilliyini və milli əgəmənləyini qorumaq olar. Müqəddəs ayədə buyurulur ki:

«Bir millət özündəki gözəl cəhət və Əxlaqı dəyişdirib pozmadıqca, Tanrı heç vaxt onun vəziyyətini dəyişdirib pozmaz».

İnsanın yaxşı və ya pis bir niyyətlə həyata keçirmək istədiyi hər bir davranış Əxlaqi bir keyfiyyət daşıyır. Deməli, Əxlaqi davranışın bir niyyətə dayanması gərəkdir. Hər bir davranışın Əxlaqi olması üçün bəlli bir əsasa bağlı olaraq gerçəkləşməsi şərtdir.

Millətlərin bir-birilərinin xoşbəxtliklərini istəməsinə və bir-birilərinə yaxşılıq etməsinə Millətlərarası Əxlaq deyilir.

Hər bir millətin Yer üzündə gerçəkləşdirdiyi tarixi və mədəni bir missiyası vardır. Türk Millətinin tarixi missiyası Əxlaqın ən yüksək fəzilətlərini ortaya çıxarmaq, bu yolda ən böyük fədakarlıq və qəhrəmanlıq göstərməyin mümkün olduğunu isbat etməkdir.

Əxlaqi davranışın mühüm keyfiyyətlərindən biri də hər bir fərdin Əxlaq qarşısındakı sorumluluğudur. Yəni hər bir şəxs Əxlaqın insani bir fəzilət olduğunu anlamalı, bu yükü yüklənməlidir. Hər bir şəxs etdiyi pis əmələ haqq qazandırmamalı, özünü haqlı çıxarmağa çalışmamalıdır.

Əxlaq həm də ictimai bir dəyər olduğundan hər bir insan yaşadığı toplumun davranışlarını da bilmək və ona əməl etmək məcburiyyətindədir. Ona görə də hər bir insan həm özü, həm də yaşadığı cəmiyyət qarşısında cavabdehdir. Dövlət və hökümət

başçıları millətin hüququnu qorumaqda, kişi və qadın ailəsi qarşısında, məmurlar məsləkləri qarşısında, bütün insanlar öz işləri qarşısında cavbdehdilər.

Milli dövlətə, onun ədalətli qanunlarına, vətəndaşlıq hüququ qazanmış Milli və dini adət – ənənələrə sayğı ilə yanaşmaq da Əxlaqi dəyərlərin əsasıdır.

Əxlaqi təmizlik insanın qəlbində mənəmmənəmlik, yalançılıq, ikiüzlülük, həsəd, paxıllıq, qısqanclıq, kin, başqalarını bəyənməmək və alçaltmaq, səbirsizlik, qəddarlıq kimi pisliklərə yer verməməsi və sözü ilə əməlinin bir-birinə uyğun olması deməkdir.

Bütün maddi və mənəvi təmizliklər Əxlaqi təmizlikdir. İnsanın insana, heyvanlara və hətta hər bir əşya və hadisəyə münasibət də onun Əxlaqi dəyərlərindəndir.

İnsanın təmiz Əxlaqlı olması hər şeydən əvvəl onun özünün xoşbəxtliyi üçündür. Həmçinin təmiz Əxlaqlı İnsanlar öz işlərini və vəzifələrini layiqincə yerinə yetirən, başqalarına yardımçı olan, yalan söyləməyən, güclükləri çözmək, insanlar arası əlaqələri sağlam şəkildə yürütmək kimi yüksək dəyərləri həyata keçirən, fədakar, vəfalı, cəmiyyətə ən yararlı insanlardır. Yaxşılıq yaxşılığı çağırar. Atalar demişkən: «Yaxşılıq yerdə qalmaz».

Cəmiyyətin dağılıb yox olmalarının, başqalarına kölə olub mənliklərini itirmələrinin başlıca səbəbi məhz pisliklər olmuşdur.

Yaxşılığı, fəziləti, ədaləti, elmi, həqiqəti, məhəbbəti, ağlı, idrakı, iradəni, cəsarəti özü üçün həyat tərzi seçən insanlar bütövlüklə Əxlaq qəhrəmanlarıdırlar. Yüz illər boyunca xalqımızın içərisindən yetişmiş ərənlər, müdriklər, dahilər, dövlət başçıları, hökümət məmurları, tarixi şəxsiyyətlərimiz və adsız qəhrəmanlarımız, milli ruhdan qaynaqlanan bu ruhun təmsilçiləri milli ruhumuzu, milli Əxlaqımızı qoruyub inkişaf etdirmiş, günümüzədək gətirib çıxarmışlar. Bu gün Türk adı daşıyan hər bir fərd, hər bir xalq bu ali Türk Əxlaqına sahib çıxmalı, ona müəlliflik etməlidirlər.

Əxlaqa zidd olan ən mühüm amillərdən biri də rüşvət və korrupsiyadır. Rüşvət birlikdə yaşamağın uyumunu və

sağlamlığını pozan, onu cızığından çıxaran bir azğınlıqdır. Bu azğınlıq bütövlükdə cəmiyyəti içindən dağıdır. Rüşvət bütün yaxşılıqları içindən gəmirir və pisliklərin inkişafına yol açır. Rüşvət insanın sorumlu olduğu vəzifəsini layiqincə yerinə yetirməsinə mane olur, Rüşvət haram olduğundan rüşvətxorun aqibəti olmaz. Rüşvət Cəhənnəmin açarıdır. İnsanın Ədalət duyğusunu yox edir. Rüşvətə alışmış, insan sevgisini itirmiş, ədalət duyğusuna yabançılaşmış insanlar yavaş-yavaş bütün Əxlaqi dəyərlərə düşmən kəsilir, eqoist və rəzil bir insana çevrilərək bütün cəmiyyəti şikəst edirlər.

Qazanmadan xərcləmək müflisliyə aparar.

İsraf da bir Əxlaqsızlıqdır. Alınları tərləmədən, zəhmət çəkmədən əldə etdikləri qazancları lazımsız yerə bol-bol xərcləyən eqoist və əzab-əziyyəti bahasına öz rahatlıqlarını satın alan insanlardırlar. Onlar ətrafındakılara da pis Əxlaqı təlqin etməklə toplumun uyumlu yaşamasını, maddi və mənəvi cəhətdən alt-üst edir, yüksək insani dəyərləri, inancları aşındırır, cəmiyyətin ümumi düzənini pozurlar. Bu cür pisliklər insanlar arasında anlaşılmazlıqlar yaradır, cəmiyyətdə qütbləşmə yaradır, mübarizəni şiddətləndirir, toplumun varlığı təhlükə altına düşür.

Ən böyük israf başqasının haqqını öz mənfəətinə sərf etməkdir.

Zamanını, vücudunu və qabiliyyətini israf edən insan xəstəliklərə düçar olar, malını, mülkünü israfa xərcləyən insan sonda başqalarına möhtac olar ki, bu da bir çox Əxlaqsızlıqlara yol açar. Müqəddəs ayələrdə buyurulur ki:

«İsrafçılıq etməyin, çünki Tanrı israfçıları sevməz» (Ənam, 141).

«İsrafçılar Şeytanla qardaş olublar» (İsra, 27).

Məşhur hədislərdə buyurulur ki:

«Su çirki yuyub apardığı kimi gözəl Əxlaq da xətanı aradan aparar».

«Sirkə balı korladığı kimi pis Əxlaq da əməli korlayar».

Əxlaqi dəyər olan ləyaqət pis vərdişlərdən çəkinmək deyil, onlara qarşı arzu duymamaqdır. Əxlaqlı ürəkdən keçəni əxlaqsız qulaq heç vaxt eşitməz.

Həyası gedən şəxsin qəlbi ölər.

Başqalarına zəhmət və əziyyət verməmək, bütün çətinliklərə qatlanıb başqasının qarşısında əyilməmək ən gözəl Əxlaqdır.

Tarix göstərir ki, İnsan yaranandan bu günə qədər alışdığı pis – şeytani əməllər düşünən və inanan insanın mənəvi aləmini, Əxlaqi dəyərlərini hələ də tamamilə yox edə bilməyib və edə də bilməyəcək. Nə qədər ki, insan düşünür, araşdırır, inanır insan mənəviyyatı sarsılmayacaq. İnsanoğlu ağlını, idrakını və zəkasını bir antena kimi Yer üzünə sancaraq Tanrıdan gələn bilgiləri almaqda və onları öz dillərinə çevirərək insanlar arasında yaymaqdadırlar. Unutmaq olmaz ki, İnsan özünün, Dünyanın və bütün yaradılmışların Tanrı tərəfindən təyin edilmiş gözətçisidir. O, yol verə bilməz ki, özü və bununla da bütün Yer kürəsi və varlıqlar məhv olsun. O, yol verə bilməz ki, bütünlüklə insanlıq heyvaniləşsin və ya maddi bir varlığa çevrilsin.

İnsan ilk öncə mənəvi varlıqdır.

Mənəviyyatın əsası isə Əxlaqdır. Deməli, insan Əxlaqi varlıqdır. Əxlaq cəmiyyətdə qəbul edilmiş olan xeyrə və şərə, şərəfə və vicdana, borca və ədalətə, ləyaqət, haqq və həqiqətə aid baxışları ifadə edən davranış qaydaları, prinsipləri və normaları sistemidir.

İnsanın Əxlaqı gözəl deyilsə, o heç vaxt xeyirxah ola bilməz.

İnsanlığı qurtaracaq dəmir silah deyil, maddi tərəqqiyə, həqiqi mədəniyyətə və haqqa əsaslanan mənəvi silah olan Əxlaq olacaq. Bu mənəvi silahı Şeytana rüşvət verib bu dünyanı və əbədiyyəti qazana bilməyənlərdən fərqli olaraq Əxlaq sahibləri Şeytanın əlindən bu silahı alıb onun və onun ardınca gedənlərin başına çırpdıqda insanlıq qurtulacaq.

Əxlaqa dayanan Vicdan insanın öz hərəkətlərinə və əməllərinə görə özünün qarşısında məsuliyyətini başa düşməsidir.

Vicdan Əxlaq vəzifələrini özü üçün müstəqil tərzdə ifadə etməyi, öz hərəkət və davranışlarına qiymət verməyi, özünə nəzarəti həyata keçirməyi bacarmaq qabiliyyətidir.

Vicdan insan qəlbinin ali hakimidir.

Vicdan öz sahibinin özünə yönəlmiş qəzəbidir. Vicdanı pak olmayan bədbəxt olar.

Vicdan insanın yüksək Əxlaqi davranışını təmin etməkdə qüdrətli qüvvədir.

İnsan həm nəfsi, həm də Vicdani varlıqdır.

Bu isə eyni həqiqəti başqa-başqa ifa etməkdir. Belə ki, insanın ürəyi, ruhu, sirri, irsiyyəti, idrakı, şüuru, iradəsi, hiss və duyğuları Vicdan, şəhvani arzu, istək, kin, nifrət, öfkə, inad kimi insana məxsus duyğular da nəfs mexanizmasını təşkil edirlər. Bu iki duyğu adətən bir-birinin əleyhinə işləyir. Vicdan mexanizmasının qələbəsi nəticəsində nəfs də müsbətə doğru yönəlir və insanın yüksəlməsinə xidmət edir. Başqa bir deyimlə, Vicdan vasitəsilə nəfs pisliklərdən qurtulub saf, keyfiyyətli mərtəbələrə sıçrayaraq insana yararlı hala gəlir.

Vicdan ruhun görmə aracıdır.

Əxlaqın əsas amillərindən biri də məhz haqq, həqiqət, doğruluqdur. Haqq, həqiqət müxtəlif fikir və mülahizələrin toqquşmasından yaranır. Həyatda heç bir yeganə və son haqq, həqiqət yoxdur. Dünyada saysız-hesabsız həqiqətlər vardır ki, insanlar öz ağıl və düşüncəsi dairəsində bu həqiqətlərdən yararlanmalıdırlar. İntelektual insanlar istənilən problemləri azad şəkildə tədqiq edib yaya bilərlərsə, həqiqət istənilən halda özünə yol tapar və bütövlükdə cəmiyyət inkişaf edərək xoşbəxtliyə qovuşar. Çünki haqqı, həqiqəti qəbul və elan etmək insan adı daşıyan hər kəsin borcudur. Müdriklər buyurublar ki:

«Həqiqət axtarana lazımdır möhkəm dəlil.<br>
Haqqı rədd, ya qəbulla anlamaq mümkün deyil».

«Haqqın üzü xoş kəlamda görünər».

Haqq yolunda çarpışan insan qönçədə olan gülə bənzər. Ya insanlığa xeyir verər, ya bu yolda can verər. İnsana ən xeyirli şey ağla dayanan hünər, ən lazımlı şey həqiqətdir.

İnsan bilmədiyi bir fikri söyləməməli, bacarmadığı bir işi görməməli, aradığı bir şey ona məlum olmayınca onu qəbul etməməli, yəqinlik hasil etdiyi məsələlərdə tələsməli, mətləbi yalnız o zaman qəbul etməlidir ki, bütün şəkk və şübhələr tamamilə aradan getmiş olsun. Yəni həqiqətə nail olmaq

istəyən hər bir insan təssüb və inadkarlığı kənara qoyub mötəbər sənəd və dəlillərə əsaslanmalıdır.

İnsan həqiqət sevən varlıq olduğundan dünyaya gəldiyi ilk gündən həqiqət axtarışındadır.

İnsan pak olmadan haqq yoluna girə bilməz. Müdriklər demişkən:

«Hər bir şey doğrudur, sən doğru isən, doğruluq tapılmaz sən əyri isən».

Haqq yolçuları, həqiqət tərəftarları Şərqdə, Qərbdə, Şimalda, Cənubda, Həyatda, Axirətdə olmalarından asılı olmayaraq daim bir-birləri ilə ruhi əlaqədədirlər.

Haqq və həqiqət inhisar altına alınmaz.

Haqsızdan haqq istəmək haqqa qarşı hörmətsizlikdir. Başqa sözlə, haqsızlığı haqq zənn edən insanlara qarşı haqq davası etmək bir növü haqsızlıqdır.

Haqq aldatmaz. Haqq aldanmaz. Çünki o, hiylədən, məkrdən, yalandan uzaqdır.

Doğruluq insanın ən böyük sərvətidir.

Doğruluq insanı yorğunluqdan qurtarar.

«Doğruya zaval yoxdur». Min yalan bir doğruya dəyməz.

Doğruluq ən böyük siyasətdir.

Doğru olanı yapmanın zamanı və məkanını gözləməyə dəyməz.

Həqiqət insanların meyarı ilə deyil, insanlar həqiqətin meyarı ilə tanınar.

Həqiqət axtarışından kənarda keçirilən vaxt itirilmiş vaxtdır.

Əsl həqiqəti yalnız Tanrı bilir. İnsan ruhu isə ola bilsin ki, Ona yalnız öldükdən sonra sahib olsun.

İnsanın inam və ümidlərinin mənbəyi həqiqətdir.

Xəyal maraqlı olsa da, həqiqət ondan da maraqlıdır.

İnsan hava, su kimi həqiqətə də möhtacdır.

Bəzi insanlar həqiqət əvəzinə öz duyğu və istəklərini həqiqət qəbul edib bəşərə sırımaqda, bəşər də haqqdan sapıb bu duyğu və istəklərin ardınca sürünməməkdir. İnsanlıq artıq həqiqi Haqqın deyil, özünün min illər boyunca formalaşdırdığı haqqın arxasınca axsaq qatır kimi bir addım geri, iki addım

irəli enişli-yoxuşlu yollarla irəliləməkdir. Amma yaxşı olardı ki, bir addım irəli, iki addım geri düz xətt boyunca geriyə qayıdıb öz ilkin başlanğıcına çata və həqiqi Haqqa doğru irəliləyə. Bu əslində bir istəkdir. Qatar artıq yollanıb və yol birxətlidir. Ümid «Qiyamət»ə qalıb.

Tanrı insana yuxuda da haqqa məhəbbət hissi oyadır.

Bədənin çılpaqlığı qəbahətdirsə, həqiqətin ən yaxşı cəhəti çılpaqlığındadır.

Haqq qədim olduğu üçün keçmiş, batil yeni olduğu üçün gələcəkdir. Batil, gizli gələcəyə getməkdənsə, keçmiş haqqa dönmək İnsan üçün daha xeyirli, daha şərəflidir. Müqəddəs ayədə buyurulur ki:

«Günahkarlar istəməsə də Tanrı Öz kəlamları ilə haqqı bərqərar edər» (Yunus, 82).

Tanrı buyurmuşdur ki: «Biz batili haqq ilə vururuq, O da onu (batili – A.M.) dağıdıb məhv edir» (Əndiya, 18).

«Tanrı düz yola gedənlərin düzlüyünü daha da artırar» (Məryəm, 76).

«Haqqı gətirən və Onu təsdiq edənlər Tanrıdan qorxanlardır» (Zümər, 33).

Haqqı sevən, Onu hər yerdə və hər zaman müdafiə edən insan ən kəskin qərarlı insandır.

Haqqdan uzaqlaşan insana yaxşı da pis görünər. Belə insan azğınlıq sərxoşluğuna tutular.

Həqiqət ululuq sirlərinin açılması, fəhm edilən şeylərin məlum tərzdə zühuru, Tanrı dərgahından göndərilən bir işıqdir ki, Onunla hər şey layiq olduğu yerdə oturdulur.

Həqiqətə qarşı vuruşan sonda məğlub olar.

Həqiqət, haqq, doğruluq özü bir meyardır.

Əgər həqiqəti demək, doğru danışmaq təqsirsiz bir insanın ölümünə səbəb olsa belə, yenə də doğrunu söyləmək lazımdır, çünki, haqq, həqiqət, doğruluq özü elə mütləq dəyərdir.

İnsanı bütün isti-soyuqdan, oddan-alovdan qoruyan «doğruluq» adlı geyimdir. İnsan doğru olsa, qüssədən-qəmdən uzaq olar. Müdriklər demişkən:

«O yerdə ki doğruluq qaldırmış göyə bayraq

Tanrı kömək əlini orda uzadar ancaq».

Dünyada haqqı qoruyan, doğruluq edən kimsə öz doğru işlərindən heç vaxt ziyan görməz.

Doğru söz dürr olsa da haqq acı göründüyü kimi o da acı görünər. Fəqət insan ona dözməlidir. İnsanın ən böyük bəzəyi təmizlikdir, düzlükdür.

İnsan haqqın, həqiqətin köməyinə gələrsə, haqq, həqiqqət də onun köməyinə gələr.

Həqiqətə inanan ilahi hikmətə, ədalətə inanır.

Həqiqət nuru daima parıldar, heç vaxt sönməz.

İnsanların çoxu üçün əsil həqiqət ölüm zamanı bəlli olur ki, bunun da artıq xeyri olmur. Hətta bəzi insanlar müqəddəs ayədə buyurulduğu kimi: «Əgər onlar geri qaytarılsaydılar, yenə də qadağan olunan şeylərə – küfrə və günaha əl atardılar. Onlar, şübhəsiz ki, yalançıdırlar».

Haqq üçün hər şeydən keçməyə dəyər. Müdriklər buyurublar ki:

«Haqqın yanında olmağa çalışın, haqqı arayıb axtararkən haqsız vəziyyətə düşməyin».

«Haqlısansa, başqalarının söylədiklərinə əhəmiyyət vermə».

Atalar söyləmişlər ki:

«Haqq daşı ağır olar».

«Haqq söz axar suları saxlar».

«Haqlı haqdan keçməz».

Həqiqət nə qədər acı olsa da Onu gizlətməyə dəyməz.

Müdriklər buyurublar ki:

«Həqiqəti eşidib qəbul edən insan bu həqiqəti söyləyən qədər dəyərlidir».

«Yalnız o şeyi həqiqət hesab etmək lazımdır ki, O, tamamilə aydın təsəvvür olunur».

«Vaxt qiymətlidir, həqiqət ondan da qiymətlidir».

«Həqiqətin qarşısını heç bir duman kəsə bilməz».

«Səhvə yol vermək ehtimalı bizi qorxudub həqiqət axtarışından çəkindirməməlidir».

Həqiqəti tapmaq istəyən axtarmalı, Onunla bütünləşmək istəyən öyrənməli, Ona sahib olmaq istəyən Ona inanmalıdır.

Həqiqətlər aydın və dərin olur. Aydın həqiqətə qarşı duran yalan, dərin həqiqətə qarşı olarsa, ondan da dərin olan başqa bir həqiqətdir.

Həqiqətin yolu çətin, məşəqqətli olduğundan bu yolu çox az adam qət edir. Fəqət bu yolu qət edənlərin qarşısında qeyri-adi mənzərələr açılır.

İnsan həqiqətə oxşayanı deyil, həqiqətin özünü dərk etməlidir.

İnsan ölümlə nəticələnən həqiqət qarşısında belə susmamalıdır.

İnsan insanı islah edən həqiqəti sevməli, onu mədh edən həqiqəti rədd etməlidir. Deməli, yalnız insanı islah edən həqiqət gözəldir və yalnız belə bir həqiqət sevilməyə layiqdir.

Həqiqəti həmişə bilmək və hər yerdə, həmişə söyləmək lazımdır. Baxmayaraq ki, Onun alovu onu söyləyəni yandırar.

İnsanın həyatda etibar etdiyi ən dəyərli şey həqiqətdir.

Həqiqət atəşini heç kim söndürə bilməz.

Həqiqət kimsəyə zorla qəbul etdirilməməlidir. Çünki zorla qəbul etdirilən həqiqətin dəyəri olmaz.

İnsan bədəninin hər bir üzvünün öz vəzifəsi var. Həqiqəti söyləməksə dilin vəzifəsidir.

Həqiqət ağıl, düşüncə və duyğu ilə tapılır.

Həqiqəti tapan Onun qulluğunda durmağı özünə borc bilməlidir.

Yeni həqiqət üçün ən təhlükəli düşmən köhnə yanlışlardır.

Səhv üzdə, həqiqət isə dərində olduğundan səhvi tapmaq həqiqəti tapmaqdan qat-qat asandır. Deməli, həqiqəti tapmaq hər adamın hünəri deyil.

İnsan həqiqətə qarşı heç bir gücü olmasa da, həqiqət uğrunda gücü var. Fəqət həqiqət çox ağır olduğundan Onu hər adam qaldıra bilməz.

Əslində insanın həyat eşqi elə həqiqət eşqi deməkdir.

Öz haqqını tələb edən insan başqalarının da haqqına hörmətlə yanaşmalıdır.

Həqiqətin ən yaxın dostu zaman, ən qəddar düşməni cəhalətdir.

Həqiqətin varlığı azadlıq, yoxluğu köləlikdir.

Həqiqəti inkar edənin özü ziyan çəkər.
İnsan üçün ən böyük fəzilət həqiqət axtarışıdır.
Həqiqətin heç bir əlavə bəzəyə ehtiyacı yoxdur.
Həqiqət əvvəl – axır aşkara çıxır.
Həqiqətə yalnız ağıl sayəsində çatmaq olar.
Həqiqət deyir: «Məni soyundurun, libaslara bürüməyin, mən öz çılpaqlığımdan zərrəcə utanmıram».
Həyatda ən böyük möcüzə də elə həqiqətdir.
Həqiqət axar bulağa bənzər.
Həqiqət gördüklərimizdən və eşitdiklərimizdən daha maraqlıdır.
İnsan həqiqəti sevdiyi insandan da çox sevməlidir. Çünki həqiqət vicdanın qələbəsidir.
Həqiqət çox güclü oldüğü üçün sonda Özünü qəbul etdirə bilir. Çünki Onda tükənməz qüvvə var.
İnsan istəsə də, istəməsə də sonda həqiqəti qəbul etmək məcburiyyətindədir.
Həqiqət yalnız ağılla deyil, qəlblə də duyulur.
Köləlikdən azad olmaq istəyən həqiqəti həmişə özü ilə gəzdirməlidir.
Al qumaşa bürünən yalandan çılpaq həqiqət yaxşıdır. Baxmayaraq ki, həqiqət insana zərər də gətirə bilər.
Hər yanlışlığın belə kökündə bir həqiqət yatır.
Həqiqəti qəbul etmək çətin olsa da ondan qaçmaq nadanlıqdır.
Yoldan sapmağın min, həqiqətin isə bir yolu vardır.
Əslində həqiqət çox sadə olsa da Ona doğru çox ağır maneələrdən keçib getmək lazım gəlir. Həqiqət gecikməyi sevmir.
Həqiqət hamı üçün açıq olsa da insanlıq hələ də Onu tam aça bilməyib.
Həqiqət ən müdrik siyasətdir.
Həqiqət həqiqəti söyləyənə xeyir gətirməsə belə Onu söyləməlidir.
Həqiqətin heç bir köməyə ehtiyacı yoxdur. O, Özünü müdafiə etməyi bacarır.
Hər zamanın öz müdrik övladı həqiqətdir.

Həqiqətə dayanan insan heç nədən qorxmaz.
Həqiqət olmayan yerdə şər at çapar, pislik hökm sürər. Həqiqət qorunanda Şeytan utanar.
İnsan inandığı həqiqəti hər zaman və hər yerdə müdafiə etməlidir.
Arzuların gerçəkləşməsi üçün insan xəyalların deyil, həqiqətin arxasınca getməlidir.
Həqiqətə əsaslanmayan heç bir şeyin faydası yoxdur.
Həqiqət ən böyük Əxlaqdır.
Əxlaq hər şeyi əvəz edə bilər. Əxlaqın yerini isə heç nə verə bilməz.
Əxlaqlı insanda hiylə olmaz.
Əxlaqdan kənarda insan yoxdur.
Əxlaq mədəniyyətin məhək daşıdır.
Bütün insani dəyərlərin təməli Əxlaqdır.
Əxlaq hər yerdə gözəllik libasında meydana çıxır.
Əxlaqdan məhrum insan hər şeydən məhrumdur.
Əxlaq ürəyin ağlıdır.
Əxlaqın başlıca məziyyətləri xoş rəftar, səbr və insaniyyətdir.
Əxlaq bir mənəvi dəyər kimi insanlar arasında mövcud olan və bu münasibətlərdən irəli gələn vəzifələr haqqında elmdir.
Əxlaqı gündəlik sınaqlar gücləndirir.
Əxlaq libasını soyunan çılpaq qalar.
Əxlaq həqiqətlərin çiçək açmasıdır.
Əxlaq həm insanın, həm də tarixin ruhudur.
İnsanı ən çox düşündürən daxilindəki Əxlaq olmalıdır.
Əxlaq insana xoşbəxt olmağı deyil, xoşbəxtliyə necə nail olmağı öyrədir.
Əxlaq təkcə xeyirxah əməllər deyil, həm də xeyirxah niyyətlər fəlsəfəsidir.
Əxlaq düşüncəni itiləşdirir.
Əxlaq insanlar arasında xoş münasibətləri bərpa edir.
Əxlaq mədəniyyəti elm və sənətdən daha çox yüksəkliyə qaldırır.

Həqiqi Əxlaqın nədən ibarət olduğu aydın olsa, o zaman başqa şeylər də aydanlaşacaq.

Ən böyük səadət gözəl Əxlaqdır.

Həqiqi Əxlaq yüksək nəcabəti göstərir.

Elm belə Əxlaqa əsaslanmalıdır, əks halda o, insanlıq üçün böyük təhlükəyə çevrilə bilər.

Bir çox xalqlar belə Əxlaqi dəyərləri itirdiklərinə görə tarix səhnəsindən silinmişlər.

Tənbəllik hər cür Əxlaqa ziddir.

Əxlaqsızlıq ən böyük zəiflikdir.

Hər bir xalqın formalaşmış Əxlaqını dəyişmək, onu məhv etmək deməkdir.

Ən ali Əxlaq əxlaqsızlıq üçün də müəyyən azadlıq tələb edir.

Əxlaqının pozulduğunu hiss edən insan Onun müalicəsi ilə özü məşğul olmalıdır.

Gözəl Əxlaq həmişəyaşardır.

İnsanın fiziki boyu onun başından yerə qədər olan məsafə ilə, Əxlaqi boyu isə başından göyə qədər olan məsafə ilə olçülür.

Əxlaq və qəbahət tərəzinin iki müxtəlif gözündə yerləşir. Bunlardan biri qalxarsa, digəri enər.

Əxlaqsız nəcabət qaşsız üzüyə bənzəyir.

Əxlaqda ən qısa yol düzlükdür.

İnsanın Əxlaqı onun niyyət və əməlləri ilə ölçülür.

Əxlaqın pozulması mədəniyyətlərin dağılmasına zəmin yaradır.

Əxlaq tarixdən insanlığa qalan ən ali mirasdır.

Əxlaq ən sərfəli sərmayə, ən yaxşı sərvətdir.

Əxlaq bütün qanunlardan alidir.

Əxlaqını itirmiş bir xalq məhv olmağa məhkumdur. Bir çox imperiyalar belə Əxlaqi dəyərlərə məhəl qoymadığından dağıldı.

Pis Əxlaq ağır yaraya bənzəyir, sağalsa da izi qalar.

Nə qədər ki, yaşadığın cəmiyyətdə hamı Əxlaqlı deyil, heç kəs özünü tam Əxlaqlı saya bilməz.

Əxlaq insanı çətin məqamlarda sınayır.

İnsanı səadətə aparan yol onun öz Əxlaqından keçir.

Həqiqət böhtandan daha qorxunc silahdır.

Ən ali həqiqət ən sadə həqiqətdir.

İnsan uşaq ikən həqiqətə daha yaxın olur, çünki o, olduğu kimi görünür.

Həqiqəti sevən yanlışlıqlara da dözümlə yanaşar.

Həqiqəti üzə çıxarmaq üçün həm müsbət, həm də mənfi rəy və münasibətlər nəzərə alınmalıdır.

Həqiqəti sevməyən güclü ola bilər, fəqət heç vaxt böyük şəxsiyyət ola bilməz.

İnsanların əksəriyyətinin həqiqəti öyrənməyə səbri çatmır.

İnsanın düşüncəsi və fikri belə həqiqət qədər hüdudsuz deyil.

Atalar söyləyiblər ki:

«Acı həqiqət şirin yalandan yaxşıdır».

«Gözəl danışmaq hələ həqiqəti söyləmək deyil».

«Yalan bir ayağı üstə durar, həqiqət iki».

«Həqiqət nazilər, amma qırılmaz».

«Düz dayanan əyri kölgəsindən qorxmaz».

«Həqiqəti deyənin yanında qaçağan atı olmalıdır».

«Yarımçıq həqiqət yalandan da pisdir».

«Həqiqətin də gül kimi tikanı var».

«Həqiqəti hamı təriflərsə də hamı demir».

«Həqiqət suda batmaz, odda yanmaz».

Əxlaqdan danışmaq asan, Ona əməl etməksə çətindir.

Əxlaq ağılla üst – üstə düşür.

İnsanlar bərabər doğulmuşlar. Onları bir - birindən yalnız Əxlaqları fərqləndirir.

«Qazan qarası gedər, Namus qarası yox».

Əxlaqın min bir şahidi var.

Əxlaqın ən gözəli bağışlamaqdır. Lakin bu bağışlamaqdan zülm doğmamalıdır. Əsil cinayətkarı bağışlamaq, onu cəzadan xilas etmək yeni cinayətin başlanğıcını qoymaqdır ki, bu bağışlamanın öz elə cinayət deməkdir. Belə cinayətkarın bağışlanmasına vasitəçilik etmək də ümumun asayişini pozmaq deməkdir.

İNSAN Əxlaqi ölçülərdən, yaxud Öz insani mühitindən uzaqlaşanda mütləq onun cəzasını çəkir.

Pis mühitdə olan İNSANIN yaşadığı mühitlə uyğunlaşıb ona boyun əyməsi ONU ƏXLAQDAN, hikmət və gözəllikdən məhrum edər. Halbuki İNSANIN ƏXLAQI dəyərlərə, hikmət və gözəlliyə olan meyli cəmiyyətdə mövcud olan boşluğun doldurulmasında mühüm rol oynayır.

İnsanın Əxlaqi dəyərlərindən biri də onun qonaqpərvərliyidir.

Bütün bu deyilənlər onu göstərir ki, ƏXLAQ, olan şeylər deyil, olmalı şeylərə, İnsanın əldə etməli və ya əldə etməsi yaxşı olan xislətlər toplusuna aiddir.

## Türklərdə Eşq, Məhəbbət, Sevgi anlayışı

**«Eşqdir məhvəri uca göylərin,**
**Eşqsiz, ey dünya, nədir dəyərin?!»**

İnsana Tanrı tərəfindən bəxş edilən ülvü dəyərlərdən biri və birincisi də Eşq, Məhəbbət, Sevgidir.

İnsanoğlu yarandığı gündən «Qiyamət günü»nə, «Axirət aləmi»nə, Tanrıya doğru intəhasız bir yol getməkdədir. Bu yolda onu uçurum və vadilər, eniş və yoxuşlar, əngəllik və labirintlərlə yanaşı, həm də insana xas olan xeyirxahlıq, ehtiras və cəhalət müşayiət edir.

İnsanoğlu itirə – itirə, qazana – qazana öz günah və xeyirxah əməlləri ilə yüklənərək Tanrı dərgahına doğru yol gedir. Bu əbədiyyət yolunun son dayanacağı olan Tanrıya yalnız Məhəbbətlə, Eşq ilə, Sevgi ilə qovuşulur. Daha doğrusu, Tanrıya yalnız sevənlər şovuşur – Varlıqla yoxluğun danılmaz və uçulmaz körpüsü olan Məhəbbətlə.

Tanrı öz düşünən və danışan bəndəsini elə yaratmışdır ki, o digər canlılardan fərqli olaraq həm də sevə, sevilə bilir. Deməli, insanoğlu digər canlılardan təkcə təfəkkürü, ağlı və nitqi ilə deyil, habelə sevgisi ilə də fərqlənir.

İnsanlarda Məhəbbət təbii və iradi olmaqla iki formada təzahür edir.

Təbii məhəbbət Tanrıya olan Məhəbbət olub əbədidir və heç bir növü yoxdur.

Əslində Tanrı Özü elə Məhəbbətdir. Deməli, Məhəbbətdə yaşayan Tanrıda, Tanrı da Məhəbbətdə yaşayandadır. Məhəbbət yalnız bu yolla kamilləşir. İnsanın Tanrıda, Tanrının isə insanda yaşadığı ondan bilinir ki, Tanrı insana Öz Ruhundan pay vermişdir ki, bu Ruhla da insan Tanrının Ona olan Məhəbbətini dərk edib Ona iman gətirsin.

İnsan zidd təbiətlərdən = xeyir və şərdən təşəkkül tapdığı və hər təbiətin meyli müxtəlif təbiətin ziddinə olduğundan heç bir ləzzətə başqa həzzlərdə olan çinkinliklərdən təmizlənmiş şəkildə təsadüf etmək mümkün deyildir. İnsanda «ilahi gövhər» bəsit olduğundan və bu gövhər yerdə qalan keyfiyyətlərin heç birinə oxşamadığından onun ləzzəti də başqa ləzzətlərə oxşamaz. Bu «İlahi gövhər»ə xas olan ləzzətin yaratdığı Məhəbbət son dərəcə güclü olduğundan ona «İlahi Məhəbbət» deyilir.

İnsanın təbiətində olan bu «gövhər» maddi çirkablardan, şəhvətdən təmizləndikdən sonra onda «ilahi nur» əməli gəlir və bu nur insanda heç bir həzz ilə müqayisə edilə bilməyəcək yeni bir ləzzət yaradır. Bu növ Məhəbbətin fəzilətlərindən biri budur ki, oraya heç bir nöqsan yol tapa bilməz, heç bir böhtan ayaq basa bilməz, ona hes bir kədər, qəm hökm edə bilməz, ondan heç bir şər həzz ala bilməz. Deyilənlər onu göstərir ki, ilahi Məhəbbət təmənnasız Məhəbbətdir.

Məhəbbət həm insana, həm də Mələklərə xas fəzilətdir. Lakin insani fəzilətləri Mələklərə xas olan fəzilətlərlə eyniləşdirmək olmaz. Çünki insanlardan fərqli olaraq Mələklər bir – biri ilə sazişə girmir, əmanət qoymur, ticarət etmirlər ki, ədalətə möhtac olsunlar; bir şeydən qorxmurlar ki, şücaəti tərifləsinlər; bir şey xərcləmirlər ki, var – dövlət eşqinə düşsünlər və ya səxavət göstərmirlər; şəhvətləri yoxdur ki, namus, ismət və iffət qədri bilsinlər; tərkiblərində insana xas olan dörd ünsür yoxdur ki, yeməyə meyl etsinlər. Deməli, insanlardan fərqli olan bu pak, müqəddəs varlıqların insani

fəzilətlərə ehtiyacı yoxdur. Ona görə də insanlardan fərqli olaraq Mələklər Tanrıya tam, xalis Məhəbbətlə, sədaqətlə xidmət edən məxluqlardır, yalnız İblisdən başqa. İzzət və calal sahibi Tanrı isə Mələklərdən də yüksəkdir. Onu ağla gələ bilən, təsəvürü mümkün olan bütün müsbət şeylərə bənzətməkdənsə heç bir şeyə oxşatmamaq daha ləyaqətli olar. Deməli, Ulu Tanrını yalnız sevmək və bununla da Onunla əhd – peyman bağlamaq insanın ən ali Məhəbbətidir. Çünki sevənlər əhd – peymansız yaşaya bilməzlər. Kamil, müdrik insanların əcaib və qəribə şeylərdən zövq almamalarının səbəbi də budur. «Türklər Tanrını sevərləridi, İslamı qəbul etdikdən sonra Allaha qorxu yarandı».

Sevməyən Tanrını dərk edə bilməz.

İnsan sevir, çünki Tanrı Özü ilk olaraq sevmişdir. Tanrı o insanları sevir ki, onlar həm də bir – birlərini sevsinlər. Əgər biz insanlar bir – birimizi seviriksə, deməli, Tanrı bizdə yaşayır və Tanrının Məhəbbəti bizdə cəmləşir. Kim desə ki, mən Tanrını sevirəm, amma öz həmcinsinə nifrət edir, o insan yalançıdır. Zira gördüyü həmcinsini sevməyən, görmədiyi Tanrını sevə bilməz. Deməli, Tanrını sevən öz həmcinsini də sevməlidir.

İnsan öz həmcinsini sevdiyini Tanrını sevib, Onun əmrlərinə əməl edərkən bilir. Sevməyən insan Tanrını dərk edə bilməz. Zira Tanrını sevmək Onun əmrlərinə əməl etmək deməkdir. Bu baxımdan insanlar bir – birlərini coşqun Məhəbbətlə sevməlidirlər. Çünki Məhəbbət bir çox günahın üstünü örtər. Günahkar insan da onu sevəni sevər. Müqəddəs Kitablarda buyurulur ki:

«Düşmənlərinizi də sevin. Sizə lənət oxuyanlara da xeyir – dua verin. Sizə nifrət eləyənlərə də yaxşılıq edin. Sizə əziyyət verib, təqib edənlər üçün də dua edin ki, siz göylərdə olan Tanrının sevimliləri olasınız. Beləliklə, Tanrı kamil olduğu kimi, siz də kamil olun».

Tanrı insana təkcə qorxu Ruhu deyil, həm də qüdrət, Məhəbbət və nəfsə hakim Ruhu vermişdir. Məhəbbətdə qorxu yoxdur, əksinə kamil Məhəbbət qorxunu qovar. Çünki qorxuda kin var, nifrət var, əzab var. Qorxan insan

Məhəbbətdə kamil ola bilməz. Deməli, Məhəbbət insanın kamlliyə çatmaq əzmi, idrak cəhdidir.

İdrak və mərifətini dərk edən insanları Tanrı daha çox sevər. Çünki ən kamil idrak və mərifət sahibi elə böyük Yaradanın Özüdür. Müdriklər demişkən:

«Bənzərlər bir – birini daha çox sevərlər».

İdrak, mərifət və Məhəbbət elə bir ilahi vergidir ki, onları Tanrı yalnız öz bəndələri içərisindən seçdiyi insanlara bəxş edir. Daha sonra Tanrı seçdiyi insanları həyatda imtahana çəkir, onları əzab – əziyyətə düçar edir. Böyük müdriklərin söylədiyi kimi:

«Tanrı mənə nə qədər əzab verirsə, deməli, məndən nə isə bir şey hazırlamaq istəyir».

Tanrı imtahanından şərəflə çıxan insanlar əsl səadət sahibi olur, hikmət mərtəbəsinə yüksəlirlər. Onlar ali düşüncələrini əməlləri ilə təsdiq edirlər. Çünki onların məsləhət verəni və tədbir tökəni Ulu Yaradanın Özüdür. Eşq və Məhəbbətlə dolu olan Tanrı insanın xarakterinə də bu xüsusiyyətləri daxil edir.

Tanrı bütün varlıqları Məhəbbətlə tənzim edir. Ona görə də insanlığın kamilliyə doğru son məqsədi ilkin səbəbi və onun vasitəsilə İşıqlar İşığını, Nur əl – Ənvarı, yəni Tanrını dərkdir. İnsanlığın bu kamillik mərhələsi maddi deyil, tamamilə mənəvi və daha doğrusu, Ruhani mərhələ adlanır. Bu mərhələdə insan bu cismani tələblərindən yaxa qurtararaq Ruhani fəzilətlərdən bəhrələnərək bədənin qaranlığından xilas olur, öz Yaradanına qovuşmaqla Ondan bilik və elm kəsb edərək mükəmməl bir varlığa – kamil insana çevrilir.

İnsanı mənəvi və fiziki gözəlliyə ulaşdıran, onun daxili zənginliyi və həyati gücünün qüvvətliyini artıran yenə də Məhəbbətdir. Məhəbbətə aid bu iki keyfiyyəti özündə cəmləşdirən insan həm mənəvi kamil, həm də fiziki sağlam şəxsdir. Daha doğrusu, Tanrıdan özünə pay almış gözəl varlıqdır.

Tanrı bəzən insanı sınağa çəkir. İnsan sevdiyi insanlardan müxtəlif pisliklər görür. Bu pisliklər insanın sevdiyi adama qarşı hisslərinə, davranmasına təsir edərsə, Tanrı üçün bu

gerçək sevgi deyildir. Bu ancaq təmənnalı sevgidir. Belə sevgi mənəvi deyil, cismani sevgidir.

Mənəvi sevgi yalnız inamla mümkündür. Mənəvi sevgi gərçək sevgidir. Gərçək sevgi insanın yüksəliş dövründə deyil, eniş dövründə bəlli olur. Gərçək sevginin təzahürü gözlərində ilahi bir nur şəklində parlayan, hal – əhvalını həssaslıqla anlayan aydın üzlü, təsəlli sözlü insanda olur. Belə insanların könlündə sevgi dəryası vardır.

İnsan iş görən, həyatdan zövq alan və Tanrıya doğru addımlayan yegənə bir varlıqdır. Bu üç məfhumun hər hansı birindən məhrum olan varlıq insan sayıla bilməz. Çünki insan olmaq ali varlığı tanımaq, Ona ibadət etmək, Onu sevmək deməkdir.

*Həyat və ölüm insanın ən böyük sevgi və qorxu duyğusudur. Sevgi qorxuya üstün gələrsə həyat, qorxu sevgiyə üstün gələrsə ölüm qələbə çalar.*

İnsan həyatda yalnız iki şey qarşısında aciz və gücsüz olub: Məhəbbət və ölüm. Bu iki şeyə qalib gəlmək, onları öz istədiyi kimi ram etmək hələlik heç kəsə nəsib olmayıb. Bunu elm də təsdiq edib. Ona görə də ölüm kimi Məhəbbətlə oynamaq, Onunla zarafat etmək olmaz. Çünki Məhəbbət həyat, yaşamaq və yarartmaq təcrübəsidir.

Əslində Sevgini duymaq, Onu yaşamaq özü bir dahilikdir. O, Sevgini ki, insanı məcaz körpüsündən keçirib ilahi Eşqə ulaşdırsın.

İnsan müdrikləşəndə onda üç şey yaşayır: İman, Ümid və Məhəbbət. Lakin Məhəbbət bunların hamısından üstündür. Hətta əgər insan Mələk dili ilə danışmağa qadirdisə, Məhəbbətə malik deyilsə, deməli o, zınqıldayan qazandır. Həmçinin əgər insan bütün sirləri bilirsə, Peyğəmbərlik dərəcəsinə yüksəlib dağları yerindən tərpədərək tam imana maliksə, amma Məhəbbəti yoxsa, o insan yenə də kamil insan deyil.

Məhəbbət aclıq və susuzluq kimi daim doyurulmaq istəyən ilahi bir duyğudur. Ana qucağındakı körpə də, səksən, yüz yaşlı qoca da Sevgiyə möhtacdır. Hər yaşın sevmək və sevilmək ehtiyacı müxtəlif olur. Deməli, Sevgi, Məhəbbət

insanın əvvəldən sonadək davam edən ən böyük ehtiyacıdır. Elə bir Sevgi ki, içində heç bir pis niyyət, mənfəət duyğusu olmasın, insanı Cənnətiəlaya götürsün.

*Eşq, Məhəbbət əslində heç bir nizama sığmayan bir dindir.*

*Sufi anlamında sevgili, məşuq əslində Tanrının Özüdür.*

*Hər hikmətin açarı Tanrı sevgisidir.*

*Sevgi Tanrı qanununun icrasıdır.*

*«Məhəbbət dediyin Təbiətdədir*
*Təbiət özü də Məhəbbətdədir».*

İnsanda iman, inam, ədalət, mərhəmət kimi MƏHƏBBƏT də ilahi keyfiyyətdir. Çünki imanın da, inamın da, ədalət və mərhəmətin də qaynağı məhz Məhəbbətdir.

Türk dünyagörüşünə görə:

Məhəbbət kamil birliyin bağıdır.

Məhəbbət həyatın mənası, ülvü duyğuların ən ülvüsüdür.

Məhəbbət sevincdir, sülhdür, lütfkarlıqdır, sədaqətlilikdir, həlimlilikdir, yaxşılıqdır, özünə hakim olmaqdır.

Məhəbbət insanın əməl qönçəsidir. Məhəbbət ən böyük səadətdir.

Məhəbbət insanlara Tanrı payı, Tanrı əmanətidir. Ona görə də Məhəbbət təmənnalı olmamalıdır. Çünki təmənnalı Məhəbbət uzun sürməz. Məhəbbəti müvəqqəti hesab etmək cəhalətə dəlalətdir, çünki Məhəbbətin həqiqəti əbədidir. Təmənnalı Məhəbbəti ilahi Məhəbbətlə eyniləşdirmək Tanrıya şərik qoşmaq, səadətə, imana, inama xəyanət etmək deməkdir.

Ruhla bədəni bir-birinə bağlayan da, onları bir-birindən ayıran da Məhəbbətdir –Əbədi, əzəli böyük Məhəbbət.

Məhəbbət azadlıq, azadlıq da Məhəbbətdir.

Məhəbbət insanın özünüdərk açarıdır. Çünki o, mərifət və idrakla bağlıdır.

Məhəbbət fəzilət, şərafət və kamillik istəyidir. Kimdə bu istək çoxdursa, onda fəzilətə, şərafətə, kamala çatmaq həvəsi güclü, məqsədə yetmək yolları asandır. İnsanlar arasında Məhəbbət pozulduqda insanı fəzilətlərin ən kamili olan ədalət nizam-intizamı saxlamaq ehtiyacından doğur. Deməli, əgər insanlar arasında Məhəbbət pozulmasaydı ədalətə, ədalətsizliyə, insafa, insafsızlığa da ehtiyac yaranmazdı. Ədalət

«insaf», İnsaf isə «nisf» sözündən törəyən «yarıya bölmə» deməkdirsə, Məhəbbət «birləşmə, bütövləşmə» deməkdir. Deməli, Məhəbbət ədalətdən də üstündür. Çünki Məhəbbət həm də bütün varlıqların yaşamasının, inkişafının, kamilliyinin səbəbidir. Hər bir varlığın kamal və şərafəti də ona nəsib olmuş birlikdə, vəhdətdə, Məhəbbətdədir. Məhəbbət insan ömrünün əbədi açıq süfrəsidir. İnsan Məhəbbət qidası ilə boy atır, kamilləşir. Çünki Məhəbbət müdriklərin söylədiyi kimi: «Səviyyəli və zəngin insanların qidasıdır».

Məhəbbət bütün insanlığın psixoloci və şərikli ehtiyacıdır. Övladın bu ehtiyacını ata-ana ödəyə bilər. Çünki uşaq dünyaya gəldiyi gündən müəyyən bir yaş dövrünə qədər ata-ananın himayəsinə möhtacdır. Səmimi bir Məhəbbətlə sevilən uşaq böyüdükdən sonra başqalarını da sevəcək. Sevgisiz uşaq isə başqalarını sevə bilməz. Bu bir həqiqətdir ki, uşağın tərbiyəsində bütün ağırlıq Ananın üzərinə düşür. Deməli, Sevgiyə olan ilk ehtiyacı da Analar ödəməlidirlər. Çünki əgər Analar bu ülvü vəzifələrinin öhdəsindən lazımi səviyyədə gəlsələr, bir – birini sevən insanlardan ibarət bir cəmiyyət formalaşar və bu davamlı xarakter alar. Bu anlamda qadınlar Ana olub övlad dünyaya gətirdikləri gündən etibarən həm özü, həm də cəmiyyət üçün cavabdeh olduqlarını anlamalıdırlar. Bu Sevgini Ana övdadına süd verərkən, onu boya-başa çatdırarkən aşılamalıdır. Çünki uşağın ilk Sevgi ehtiyacı Anasının ona olan qayğısı, oxşaması və sevgisi ilə ödənir.

Həyatda hər şeyin bir təzahürü olduğu kimi insan qəlbindəki Sevginin də bir təzahürü vardır. Bu təzahür bütün insanlarda eyni vaxtda olmur. Yeddi yaşdan ömrün sonunadək bütün yaşlarda Məhəbbət təzahür edə bilər. Hər dövrün məsud, xoşbəxt insanı odur ki, o, məhrumiyyətlər içində yaşasa da ürəyindəki böyük Sevgini yaşada bilsin. Bu anlamda Ürək Tanrı evidir. Tanrı üçün ən şərəfli məkan sədaqətli insan Qəlbidir. Kim Tanrını görmək, duymaq istəyirsə, pak Ruhunda, təmiz qəlbində arasın. Çünki yalnız Ürəyi, Ruhu pak insanlar Haqqı duya bilər, Onu sevə bilərlər. Bunu nəzərə alan müdriklər buyurmuşlar ki:

«Məhəbbətlə çırpınan bir çoban Qəlbi kin və ədavət püskürən sultan qafasından daha şərəflidir».

Ürək insanın daxili dünyasını əks etdirən parlaq güzgüdür. İnsanın bütün hiss və duyğuları Ürəyə tabe olduqlarından Onun əmrindən çıxa bilməzlər. Hər Ürəkdə, hər Könüldə, hər Qəlbdə bir duyğu mənfi də ola bilər, müsbət də. Qaranlıq içində olan Qəlbdən günah, işıqlı qəlbdən isə Məhəbbət doğular. Əgər insan Ürəyi heyvani nəfsin kin, küdurət pasından təmizlənərsə, O, Tanrı Nurunu əks etdirərək bütün şeylərin həqiqətini üzə çıxaran və Haqqı göstərən güzgüyə çevrilər, şənlik məclisinin çiçəklənən bağçası olar. Deməli, insan əsas gövhəri gözlə deyil, Ürəklə duyur. Müdriklər demişkən:

«Kamil insan Qəlbi ilə baxar, cahilsə gözü ilə».

Doğrudur, insan bədəninin çırağı gözdür. Əgər göz sağlam olsa, insanın bütün bədəni işıqlı olar. Yox əgər göz namərd olsa, insanın bütün bədəni qaranlıq olar. Aqillər söyləyiblər:

«Müqəssir günah edən deyil, bu qaranlığı yaradanlardır».

Əslində Ürəyin də güzgüsü gözdür. Fəqət unutmaq olmaz ki, maddi göz yalnız maddi varlıqları görməyə qadirdir. Mənəvi varlıqlar isə maddi gözlə deyil, insan Qəlbindəki bəsirət gözü ilə görürlür. Qəlbin gözü olan bəsirət insan üçün əşya və hadisələrin batini həqiqətlərini görüb dərk etməsidir! Əgər insan Qəlbinin bəsirət gözü heyvani nəfsin şəhvətlərinə uyarsa, insan insanlığını əldən verər, o, həmişə həsəd və paxıllıq içində yanar və bu bədbəxtlik həmişə onu narahat edib sonu olmayan nakamlıqlarla qarşılaşdırar. Nəticədə insan nəhayətsiz dünya istəklərinə çata bilmədiyindən sevgisi tükənər və sonda şəhvətin qulu olar. İnsanın Sevgisi tükənəndə isə onun özü də tükənər, insan insanlıqdan çıxıb başqa bir şeyə çevrilər.

İnsan mənəvi dəyərlər olan Məhəbbəti, haqqı, həqiqəti, gözəllikləri hiss, duyğu və maddi gözlə deyil, Qəlbinin gözü olan bəsirətlə görə bilər. Bəsirət gözü ilə insan mənəvi Aləmi seyr edir, maddi olmayan şeyləri görür. Belə insanlar elə bir zirvəyə yüksəlirlər ki, o məqamda onlar Tanrıdan başqa heç bir varlığa meyl etmirlər. Onlar Tanrını zahiri gözlə deyil,

Qəlblərindəki bəsirət gözü ilə görürlər. Müqəddəs Kitabda buyurulur ki:

«Nə bəxtiyardır Ürəyi təmiz olanlar, çünki onlar Tanrını görəcəklər».

Ürək, Qəlb ilahi ilhamlar ocağıdır. Tanrıya və insanlara olan təmiz Məhəbbət və sədaqət, Tanrıya olan bəndəlik, insanlara bəxş edilən xeyir də ilahi ilham və təbdən bəhrələnər. Çünki varlıqların zahirlərindən batinlərinə gedərək onlara hakim olan qanunları kəşf edən və onları ağlın mühakiməsinə verən, batini araşdıran qüvvə Ürəkdir. Bu anlamda Ürək ən dərin dərk vasitəsidir. Müqəddəs ayədə buyurulur ki:

«Ürəklər Tanrını zikr etməklə rahatlıq tapar» (Rəd, 28).

Könülləri fəth etmək insan üçün ən ülvü keyfiyyətdir.

Göz, qulaq kimi Ürək də insanın xəbərçilərindəndir. Lakin onlardan fərqli olaraq Ürək, Məhəbbət, həqiqət və ədalət xəbərçisidir. Gözdən, qulaqdan və hətta dildən fərqli olaraq Ürək yalan demək, aldatmaq qabiliyyətinə malik deyil.

İnsanın Ürəyi onun sirr sandığıdır. Bəzi insanlarda bu sandıq tez açılır və onun bütün sirləri ətrafa bəlli olur. Bəzilərində isə gec açılır, bəzilərində isə heç ümumiyyətlə açılmır. Belələri bir çox sirləri, hətta Məhəbbətlərini də özləri ilə bərabər ömrləri boyu Ürəklərində saxlayıb əbədiyyətə aparırlar. Belələri dostdan, düşməndən gizlətdiyi sirləri hətta sevdiklərinə də demirlər. Əslində insan sirri saxlamağı bacarmalıdır. Çünki sirri saxlamağın faydası çoxdur. Belə ki, əgər sən düşündüyün kimi olsa, tam qələbə çalarsan, səhv etsən zərər və ziyandan salamat qalarsan. Müdriklər söyləyiblər ki:

«Həyatda qanmayana yaxşılıq etməkdən, nadana, cahilə nəsihət verməkdən böyük səhv yoxdur».

Lakin Ürəyi həddən artıq təmiz və həssas olan insandan hətta ən məxfi sirri də gizlətmək mümkün deyil. Sirrin üzə çıxmasında insan ağlının məntiqə əsaslanması da mühüm şərtdir. Çünki istər dünyanın və istərsə də insanların işləri bir-biri ilə əlaqədardır. İnsan bəzilərini bilməklə o birilərini də məntiqin gücü ilə müəyyən edə bilər. Bu anlamda pak və həssas Ürək həm ağlın, həm də məntiqin işini bir anda görmüş olur. Müdriklər söyləyiblər ki, insan üçün: «Əxlaqdan gözəl xasiyyət,

gözü toxluqdan zəngin sərvət, həssas və təmiz Qəlblilikdən yüksək elm yoxdur».

İnsan Ürəyi heç bir sədd, heç bir hüdud tanımır. Pak Ürək bütün qanunlardan yüksəkdə dayanır. Çünki hər bir Ürəyin öz xüsusi qanunu vardır. Daha obrazlı deyilsə «Ürək zəkanın bilmədiyi qanunlara malikdir».

İnsan Ürəyi elə sehrli bir məkandır ki, oraya Sevənlərdən və Tanrıdan başqa heç kim yol tapa bilməz. Çünki Tanrı və Sevən insan – Aşiq, insanın surətindən, hərəkət və ya əməllərindən daha çox onun Qəlbinə, niyyətinə qiymət verir. Müqəddəs ayədə buyurulur ki: «Tanrı insanla onun Qəlbi arasına girər» (Ənfal, 24).

İnsan Ürəyi əziyyət və məşəqqət məkanı, qəm və möhnət məskənidir. Obrazlı deyilsə: «Qəm, kədər Ürəyin barıdır». Ona görə də, insan əzalarının ən ağırı Ürəkdir. Onun üzərinə qonan qəm, kədər, sevinc, şadlıq, Sevgi, Məhəbbət yükü həddindən artıq çox olduğu üçün Onu daşımaq də çox çətindir. İnsan qəmli Ürəyindən asılan bu qaya boyda daşı həyatı boyu daşımağa məhkumdur. Bütün bunları nəzərə alan övliyalar buyurmuşlar ki: «Bədən yorulduğu kimi təngə gəlmiş Qəlblər də yorulur. Onlar üçün təzə hikmətlər və biliklər axtarıb tapın» (İmam Əli (ə)). Həyatda ən böyük bəlalara da insan Ürəyi tab gətirir. İnsan Ürəyini yalnız əcəl susdura bilər.

İnsan Ürəyi bir bəy, Bədən quludur. Bəy hara getsə, qul da, Onun dalınca düşər. Atalar demişkən: «Könül sevən göyçək olar». «İnsan Könlünü Könül oxşayana verər».

İnsan Könlü coşarsa və ya bir sevdaya tutularsa, arzusuna, diləyinə çatmadan sakit olmaz. İnsan Ürəyi xəyallarla doludur. Bütün dahillik, kamillik və həqiqətlər də bu xəyaldan doğur. Müdriklər demişkən:

«Hər qaranlıqda çırpınır bir nur,
Hər həqiqətdə bir xəyal uyuyur».

İnsanı yaşadan da elə xəyaldır. Bir Könül az-çox yaşayarsa, yenə də xəyal içində yaşaya bilər. Çünki: «Xəyal içində bəşər daima səadət arar».

İnsan üçün vaxt, zaman ən gözəl məsləhətçi olsa da insanın xəyal bihuşluğu onun əbədiyyətə doğru üzən gəmisini

hərəkətə gətirərək kədərini saxlayır, onun özünü və hətta zamanı belə dondurur.

Sevən insanın Ürəyi Behişt kimidir.

Gözəlliyi yalnız saf, təmiz Ürək görə bilər. Çünki Təbiətdəki və İnsandakı bütün gözəlliklər Tanrı nurunun əksidir.

Gözəllik haradadırsa, Məhəbbət də oradadır. Çünki Gözəllik Tanrının yandırdığı əbədi şamdır.

İnsan üçün ən böyük, ən ülvi Gözəllik insan idrakına sığmayan Tanrı gözəlliyidir.

Gözəllik əbədi Məhəbbətin sevdalı bir cilvəsi, anlaşılmaz bir Xilqətin parlayıb sönən şöləsidir.

Gözəllik elə bir İlahi nemətdir ki, hər diləyi minlərlə zəngini diz çökdürər.

Gözəllik elə bir mülayim dənizdir ki, dalğaları atəşlidir.

Gözəllik sülhə can atan elə bir acizdir ki, qovğası heç vaxt əskik olmaz.

Gözəllik elə bir ovçudur ki, hər ahunun gözlərindən eşq umar.

Gözəllik elə bir məşuqdur ki, ondan ürfan sahibləri belə feyz alarlar.

Gözəllik Tanrının bəxş etdiyi ən böyük vergi olan Ruh qədər alidir. Çünki Gözəllik də Ruh kimi Tanrının Özündən paydır. Tanrı Özü Gözəllər Gözəli olduğu üçün Gözəlliyi sevər. Ona görə də müdriklər buyurmuşlar ki:

«Gözəlliyi təhqir edən Tanrını da təhqir edər».

Bütün Gözəlliklər Tanrı borcudur. Müdriklərin dediyi kimi:

«Kimdə bir Gözəllik varsa, bilsin ki, o borcdur».

Gözəllik sədaqətdir.

Gözəllik inamdır.

Gözəllik müdriklikdir.

Gözəllik ali düşüncədir.

Gözəllik elə bir tacdır ki, hər adama qismət olmaz.

Gözəllik ali duyğuların cəmidir.

Gözəllik daxili və xarici olmaqla ikiyə ayrılır. Daxili Gözəllik insanın daxilindən gəldiyi üçün mənəvi, xarici gözəllik

isə irsi olduğu üçün nəsildən nəslə zahiri Gözəllikdir. İnsan mənəvi Gözəlliyə olan meylini israfçılığa yol vermədən inkişaf etdirməlidir. Bəzi insanlar nəcabəti anlamadıqlarına görə güldükləri kimi, Gəzəllik görəndə də ağız büzürlər. Beləlləri unudurlar ki, nəcabət və Gözəllik elə bir Tanrı vergisidir ki, o yalnız özünü tanıyan, xeyirxah, müdrik, kamil və qəhrəman insanlara nəsib olur. Onun nur çeşməsindən insan qəlbinə bir şəfəq dalğası axır, şövqü ürəkləri yandırıb yaxır, insanın bütün iradəsini, həyatını və varlığını əlindən alır.

Gözəllik insanı müdrikləşdirər, kamilləşdirər.

Gözəlliyin qədrini bilən Məhəbbət, Onu qorumağı bacaran ağıldır. Ona görə də ağılla qorunan Gözəllik nə qədər çox olarsa, Məhəbbət də bir o qədər artıq olar. Çünki insan qəlbinə yeniliklər, yaxşılıqlar, doğruluqlar, Gözəlliklər bəxş edən də məhz Sevgidir, Məhəbbətdir.

Gözəllik insanı həm həqiqətə bağlayan duyğuda, həm də həqiqətin özündədir.

Gözəllik insanı əsir edən bir kəmənd, onu tora salan bir bənddir.

Gözəllik insan həyatına məna bəxş edən mənəvi dəyərdir. Ağıllı insan həyatda hər şeyi Gözəl görmək istəyir. Bu onun əxlaqi dəyər hesab edilən gözəlliyə olan meylidir.

Gözəllik Gözəllik yaradar. Gözəlliyi yapmaq istəyən insanın özü Gözəlləşər. Və əksinə, insan Gözəl olan hər bir şeyə inkar gözü ilə baxsa, çinkin görünər, lakin Sevgi ilə çirkinə baxsa, gözünə misilsiz Gözəl kimi görünər. Atalar demişkən:

«Könül sevən göyçək olar».

Gözəl baxan Gözəl görər, Gözəl görən Gözəl düşünər, Gözəl düşünən isə həyatından zövq alar. Deməli, mənəvi Gözəllik insanın əməlindədir.

Ən mükəmməl hüsn Gözəlliyi gənclikdir.

«Gözəllik ondur, doqquzu dondur» demiş atalar. Fəqət unutmaq olmaz ki, bayağı süs, bəzək incə duyğunu təhqir edər. Ən böyük Gözəllik mənəvi Gözəllikdir.

Gözlə görünən zahiri Gözəlliyin ən alisi hüsn Gözəlliyidir ki, bunun da canlı heykəli Qadındır. İnsan hisslərini, duyğularını riqqətə gətirən məhz Qadın Gözəlliyidir.

Qadın gözəlliynin əsasında işvə, qəmzə və naz dayanır. Hal əhlləri buyumuşlar ki:

«Gözəl Qadın xəstə qəlbin dərmanı, bağlı qapının açarıdır».

Fəqət unutmaq olmaz ki, bəzi gözəl Qadınların bir başı, min dili olduğundan onlara bel bağlamaq olmaz. Belə gözəl Qadınlar insanı haqdan ayırar, onu bəlalara düçar edər, fəlakətlərə salarlar. Çünki müdriklər demişkən:

«Qadın həm bir Mələk, həm də bir Şeytandır».

«Qadın gah bir çiçək, gah da bir kəpənəkdir».

Qadın gözəlliyinə şəhvətlə yanaşan kişi sonda ağlına belə xələl gətirər. Əslində gözəl Qadın harada olsa, orda şər min addım qabağa düşər. Övliyalar söyləyiblər ki:

«Nəfsinə sahib olmayan insan üçün hüsn Gözəlliyi günaha dəvətdir».

Adətən belə bir fikir söylənilir ki, «Zahiri Gözəl olanın batini də Gözəl olur». Lakin bir çox hallarda bu əksinə olur. Yəni zahiri Gözəl olanın batini çox çirkli olur. Ona görə də əslində Gözəl göz üçün, Gözəllik isə könül üçündür. Gözələ baxmamaq Gözəlliyə qarşı kor olmaq deməkdir. «Gözəlsiz bir gülşən zindana bənzər».

Qadının namusu, həyası Gözəlliyindən daha dəyərlidir. Həya Qadının ismət pərdəsi, nurdan işlənmiş ipək tülüdür. Həya ilə Gözəllik adətən həyat yollarında qoşa, əl-ələ gedə bilmirlər. Çünki Onlar bir-birinə dərin nifrət bəsləyirlər. Namusla Gözəllik, Həya ilə Gözəllik təsadüfən rastlaşanda da hərəsi üzünü ayrı-ayrı səmtə çevirib gedirlər. Çünki Həya məyus, Gözəllik isə təkəbbürlü, Özündər razıdır. Bunları hətta qocalıq da barışdıra bilməsə, bu hal ölümün Onları öz qaranlıq qoynuna alana qədər davam edər. Ona görə də Gözəlliyi ilə qürrələnənlərə Həya söyləyir ki:

- Siz, ey şəhvət düşkünü pozğun varlıqlar! Ey azar, xəstəlik yayan həris və şorgöz aludəçilər!

Siz, ey özgə əməyinin bəhrəsini sovuran, nemətləri məhv edən şorgöz qarınqulular!

Siz, ey əldən-ələ satılan, birindən digərinə artıq qalan köhnə, dəyərsiz mallar!

Unutmayın ki, siz bir yerə yığılanda elə bilirəm ki, göy zəmiyə darışmış acgöz çəyirtkələrsiniz. Sizlər hərb törəmələri, satqın, şərəfsiz quzğunlarsınız!

Adətən Gözəl Qadınlar xoşbəxt olmur, səadətlə birləşə bilmirlər. Çünki xoşbəxtliyin, səadətin bağları həyat ilə çözülürsə, Gözəllik onlara Tanrı vergisidir. Atalar söyləyiblər ki:

«Gözəl görünər, çirkin bürünər».

«Gözələ göz dəyər».

Qadın tarix boyu cəmiyyətin ikinci və hətta bəzən üçüncü dərəcəli üzvü sayıldığından hətta böyük sənətkarlar belə Qadın hiyləsindən, Qadın məkrindən, Qadın ismət və namusundan danışmış və bütün mənfilikləri Onlara şamil etmişlər. Belə ki, onlara görə:

- Qadın İblisin silahı, Şeytanın toru, Şər üstündə Şər, od üstündə oddur.

- Qadın əyri sümükdən – Adəmin qabırğasından yarandığı üçün Onu düzəltmək istəyəndə sınır.

- Qadın ən yırtıcı və ən cəsarətli heyvandır.

«Qadın min hiylə qurar, qısa zaman içində
Hər nə könlü istəsə, çatar bir an içində».

- Qadın bəladır. O, ömründə yalnız iki dəfə gözəl görünür: Sevəndə və öləndə.

- Qadın səbirsiz olmaqla bərabər, həm də hər şeyə tez maraq göstərir.

- Qadın zəhmətlə bar verən ağaca bənzər. Zəhməti azalanda meyvəsi zəhərə çevrilər.

- Qadın həddən artıq şöhrətpərəst və emosionaldır.

- Qadın çox zəif məxluqdur.

- Qadın təpədən – dırnağa müəmmadır.

- Qadın kişinin məişət fikrinin ustasıdır.

- Qadın üçün kişi həmişə vasitədir. Məqsəd övladdır.

- Qadın öz məhəbbətini əbədi olaraq da gizli saxlaya bilər, ancaq nifrətini bir an da gizlədə bilməz.

- Qadın qəlbi çox dayazdır.

- Qadın kişi qəlbinin gücünü duyur, amma onu dərk etmir.

- Qadın qəlbi vəfasız olar.

«Sən Onun yolunda keçsən də candan,
O, səni atıb da tutar cavandan».

- Qadın üçün bir milyon eşq kəlamı, səmimi məhəbbətdənsə, var – dövlət və ən başlıcası bir gənclik gözəlliyi daha çəkicidir.

- Qadın sabitqədəm olmadığından O, hər an dəyişə bilər.

- Qadın daima diqqət edəcəyi mövzularda öz fikrini və hətta hisslərini məşğul edən bir nöqtə arayar.

- Qadın həssaslığı üzündən daha vəsvəsəli, daha fantaziyalı, daha lovğadır.

«Üzü dilbər, sözü dilbər pək çox,
Özü dilbər, gözəl az, bəlkə də yox.
Eşsiz olsun da camalın nə çıxar,
Mənəvi hüsnünü bir yoxla, nə var?!»

- Dünyada qana batmayan çox az xəncər, bəzək – düzəyə, var-dövlətə aludə olub yoldan çıxmayan çox az Qadın var.

- Həyatda minlərlə adlı – sanlı qəhrəmanı Qadınlar diri-diri torpağa gömmüşlər.

- Qadında təbiətən vəfa yoxdur. Gözləri baxan yerə könülləri axar.

- Qadın bölünməz olduğundan Onu məhv etmək şərikli saxlamaqdan daha yaxşıdır.

- Qadının sevgisi əziyyət, qəzəbi xəyanətdir.

- Qadının içi çölü kimi olmaz. Onu üzə çıxarmaq olmaz. Çünki Onu görən göz Qadının könlünü ovlar. Göz görməsə, könül arzu etməz.

- Qadının şərəfi sevgidədir. Yoxsa Qadın nə bilir şərəf nədir.

- Qadının ən böyük arzusu daim cavan qalmaqdır.

- Qadınlar israfçıdırlar və pulun qədrini bilmirlər.

- Hələ bir Qadın yoxdur ki, O, Öz səadətindən bərk yapışıb kənara boylanmasın. Öz məsud ülviyyətindən enməsin. «Günəşə» sahibkən, «buz» üçün yanmasın.

- Ən şirin Qadının da xəmiri acıdan yoğrulub.

- Sevən Qadın heç bir qurbandan çəkinmir, çünki Onun üçün sevgidən başqa hər şey dəyərini itirir.

İlk sevginin dərəcəsindən asılı olmayaraq, sevdiyi insanla ailə qurduqdan sonra hansı Qadın olursa olsun O, axırda hökmən ərinə nifrət edir. Bu keyfiyyət əslində Qadının xislətindədir.

Bəzi Qadınlar hətta kişilərin təkcə həyatını deyil, xəyallarını, arzularını, ümidlərini də alt – üst edirlər.

Qadın təbiət etibarilə sənətlə qohumdur. Belə ki, bütün günü Öz əndamı və çöhrəsilə oynayan Qadın ismətini, abrını, həyasını unudub ehtiras əsiri olur və Özünü oynaşına sərf edərək ailə, övlad qayğısı çəkməz.

Şəhvət düşkünü Qadınlar – bu dişi canavarlar Öz heyvani şəhvətləri xatirinə Öz balalarını da parçalayarlar.

Elə Qadınlar da vardır ki, Onlar elə ustalıqla iş görərlər ki, uydurmaları belə həqiqətdən seçilməz. Onlar çox vaxt ərlərini aldatdığı halda, oynaşlarını aldatmazlar. Belə qadınlar çox pis «ana», lakin çox mehriban məşuqə olurlar. Onlar adətən ailə üzvləri, əri və övladları ilə süni şəkildə çox mehriban davranar, şübhə yaratmamaq üçün hər cür dona girər, oynaşı ilə keçirəcəyi ana Özü üçün tam təminat yaradarlar. Belə Qadınlardan adətən həyat özü intiqam alır. Onlar Tanrı qəzəbinə düçar olurlar. «Su çanağı suda sınar».

Ey ehtiras! Ey şəhvət! Görəsən nə vaxtsa Sizin taxt – tacınızda Gözəlliklə Həya, qüdrətlə kamal, ağılla hiss birləşəcəkmi?!

Bəzi Qadınların sevdikləri kişilər tərəfindən əhəmiyyətsiz yanaşmaları Onlar üçün ölümdən də betərdir.

Zahirən çox füsunkar, mehriban görünən bir çox Qadınlar əslində ilan xislətli olurlar. Onların görünüşü riyadan başqa bir şey deyil.

Yelbeyin Qadınlar təsadüfün oyuncağı olan sevinci, kədəri, qəmi, bədbəxtliyi təmkinlə qarşılaya bilmirlər. Belə Qadınlar daima bir – birlərinin ziddinə gedir, yalnız fərəhli vaxtlarında bir ahəngdə gülür, əylənir, qəmli, kədərli vaxtlarında isə birgə fəryad edirlər.

Kişiyə bütün narahatlıqlar Qadından gəlir. Kişiyə üzüntü verməyən yeganə Qadın ANAdır.

«Qadın! Ey möhtərəm ənisi – bəşər!

Sənsiz öksüz qalardı cinsi – bəşər».

Qadın Tanrının əmanətidir. Əmanətə xəyanət olmaz. Tanrı əmanətinə isə heç olmaz. Çünki Tanrı əmanətinə xəyanət etmək bəşəriyyəti məhvə sürükləmək deməkdir.

Öz həyat və yaşayışlarına əsaslanaraq Qadın haqqında mənfi fikirlər yürüdən böyük yazıçı, şair və mütəfəkkirlər unutmuşlar ki, ümumilikdə Qadın həm onların özlərinin, həm də övladlarının və həm də bütövlükdə bəşərin Anasıdır.

Deməli, Qadın hər şeydən öncə Anadır. Onun ən böyük ləyaqəti elə Ana olmasıdır. Analıq Qadını müqəddəs mövqeyə çıxarmış, onun İlahi Varlıq olduğunu təsdiq etmişdir. Övliyaların söylədikləri kimi:

«Ana haqqı Tanrı haqqıdır».

«Ananın üzü qiblə, ətəyi dua yeridir».

«Cənnət Anaların ayaqları altındadır».

Ananın üzü Günəş, sinəsi nemət, qucağı yuva, səsi sudur.

Ana, Vətəndir.

Ana, Dildir.

Ananın nuru Tanrıdan, bərəkəti torpaqdandır.

Həyatda Analıq şərəfini uca tutan, təbiət etibarilə alicənab, daxili təmiz, zahiri gözəl, vəfalı, ismətli, namuslu, bütün hərəkətlərinə fikir verən, ailəsinin hər yerdə qeyrətini çəkib namusunu qoruyan, yaxşı və pis günlərdə sədaqətli və fədakar olan, üzü gülər, dili şirin Qadın alqışa layiqdir. Belə Qadınlar çiçək təbiətli, çiçək yaranışlı, çiçək ətirlidirlər. Onlarla elə rəftar edilməlidir ki, Onlar bu ətirlərini qoruyub saxlasın, yaşamağın ləzzətini duysunlar. Belə Qadınların önündə baş əymək, Onlara can fəda etməyə dəyər.

Analar sonsuz boşluqlarda, tənhalıqlarda belə hökmranlıq edən İlahələrdir.

«Qadın gülərsə mühitimiz güləcək,
Sürüklənən bəşəriyyət Qadınla yüksələcək».

Analar nə məkan bilərlər, nə də ki, zaman. Onların olduğu o məhrəm yerlər çox dərinliklərdədir. Analığa gedən yol bakirə, saf və təmizdir. O yol nə tapdanan, nə də tapdanacaq əlçatmaz bir zirvədir ki, hər Qadın o zirvəni fəth edə bilməz. O ada layiq olmaq, o zirvəni fəth etmək əbədiyyəti qazanmaq

deməkdir. Heyhat! Həvva nənəmizdən bu günə qədər gəlib-keçənlərin içərisində görəsən neçə Ana var?!

Anaların göz yaşları hətta Cənnətin qapılarını belə açmağa qadirdir. Dərdlərin ən ağırı Anasızlıqdır. Tanrı heç kimi Anasız etməsin. Amin.

Deməli, bu dünyanın ən yaxşı neməti, ən ləziz matahı pak və ismətli Qadındır. İsmət əslində günah, xəta və səhvlərdən uzaq olmaq deməkdir. Ona görə də ismətli Qadıq heç vaxt nəfsinə və şəhvani istəklərə tabe olmaz, zina etməz, xəta və səhvə yol verməz. Bütün bunlardan uzaq olmaq isə ən ali, ən ülvü Qadınlıq dəyərlərindəndir. İsmətini, namusunu itirən Qadın hər şeyini itirər. Deməli, Qadının ən ülvü sifəti incə ruh, həya, ismət və namusudur. Bu anlamda Qadının ən böyük gözəlliyi ismətində, namusunda, həyat yolldaşına sədaqətində, övladlarına sevgisində, insanlara sayğısında, ən ali sərvəti Onun şərəfini qoruyan əxlaqında, cihadı həyat yoldaşı ilə yaxşı davranışındadır.

Əslində Qadın kişilər üçün həyat, həyat isə Qadındır. Qadınsız həyat gülsüz, çiçəksiz bahara, bülbülsüz çəmənzara bənzər. Şən, gözəl bir Qadının xoş baxışı sisli, dumanlı qışı da yaz kimi göstərər. Müdriklər demişkən: «Gözəl Qadınların incə təbəssümü dəhşətlərindən daha güclüdür». Həyatda kişi üçün Qadından, Qadın üçün kişidən yaxın olan ikinci bir varlıq yoxdur. Hətta Qadınla kişi bir-birinə qarşı düşmən kəsilsə belə, onlar bir yerdə yaşamağa məhkumdurlar – Bədənlə Ruh kimi.

Qadınla kişinin bir-birlərinə qarşılıqlı sədaqətindən həyatda böyük səadət yoxdur. Ona görə də müdriklər buyurublar ki:

«Qadın istərsə, tikanlar da gül açar,
Qızacaq olsa, ölüm fitnə saçar».

Qadına göstərilən sevgi və inam kişi üçün alicənablıq nişanəsidir.

Qadına nə qədər sevgi, məhəbbət, sədaqət göstərilsə, kişinin fəziləti bir o qədər artmış olar. Kişi Qadına yalnız məkr və xəyanətdən başqa hər şeyi güzəşdə getməyi, Onun bir çox səhvlərini bağışlamağı bacarmalıdır. Qadına şəhvət mənbəyi

kimi baxan kişi, kişiyə şəhvət gözü ilə baxan Qadın əxlaqi dəyərləri və deməli, insanlıq ləyaqətini itirmiş kimsələrdir.

Ana olan Qadını şəhvət hissi ilə ələ almağa çalışan kişi əyyaşdır. Belə kişilərin əlindən dünyada hər cür alçaqlıq gələr.

Çox ərdə olmuş Qadınla çox arvad almış şorgöz kişidə tərifə layiq heç bir şey olmaz. Az arvadlılıq ikinci dövlətlilikdir. Bir nəcib Qadınla ailə qurub yaşamaq min nanəcib qadınla əlaqədə olmaqdan daha şərəflidir. Müqəddəs ayələrdə buyurulur ki:

«Tanrı şəhvət düşkünü Qadınlarla, şəhvət düşkünü kişiləri sevməz».

Qadın kişiyə, kişi də Qadına fitrədən meylli olduğundan bir – birinə yad olan Qadın və kişinin uzun müddət təklikdə bir yerdə olması əxlaqa ziddir və sonda zina ilə nəticələnir.

Kişi ilə Qadının bir – birini ruhən tanıması çox çətin, bəlkə də mümkün deyil. Ruhi baxımdan bir – birini təmin edə bilməyən kişi və Qadının cinsi baxımdan da bir – birinə bağlanması qeyri – mümkün olduğundan onların ailə qurması məqsədə uyğun deyil. Çünki onlar arasındakı bağlar çox nazik olduğundan bu bağlar hər an qırıla bilər və ailə dağılar. Ona görə də, bütün insanlara hər zaman namus duyğusu aşılanmalıdır ki, ailə telləri bir – birinə möhkəm bağlansın, Qadın və kişi ruhən və mənən zənginləşsin ki, cəmiyyət zina bəlasından qurtulsun. Unudulmamalıdır ki, Tanrı cəmiyyət düzənini pozan, insanlığa yaraşmayan hər şeyi yasaqlamışdır.

Adətən bir – birini saxtakarcasına aldadan və hətta heç bir qovğaya yol vermədən yaşayan kişi və Qadın gec-tez bir – birindən ayrılır, ailəni dağıtmağa məcbur olurlar.

Kişilər ağla, mühakiməyə daha çox üstünlük verdiyi halda, Qadın adətən hissi, duyğusu, həyəcanı ilə yaşayır. Fikir və mülahizələr Qadının beyninə deyil, qəlbinə işlər və bu yolla Ona təsir edər. Ona görə də Qadının beyninə yox, ürəyinə, qəlbinə yol tapmaq, könlünü vəth etmək lazımdır.

Tərəfsiz olmamaq, bir şeyin təsiri altında olmaqdan xoşlanmaq, mühakimə yürütməkdən daha çox duyğu ilə hərəkət etmək, rəqabətin bütün əməli və əxlaqi qaydalarına riayət etmək Qadının mühüm keyfiyyətlərindəndir.

Qadın ona layiq olmayan işdə çalışarsa, qadınlıq hissini və bütövlükdə zərifliyini itirər, ailə və uşaqlarına olan təbii ehtiyaclarından məhrum olar. Yaşama baxımından bir kişi, vücud və ruh baxımından isə bir Qadın olan belə insanlar Qadınlıq hisslərini tədricən itirərək nə kişi, nə də Qadın ola bilirlər. Bu da sonda ailənin dağılmasına gətirib çıxarır. Və nəticədə bu ümumi xarakter aldıqda insanlıq üçün ən dəyərli nemət olan ailə səadəti məhv olub tarixin arxivinə atılar, bütövlükdə cəmiyyət dağılar. Heç bir səbəb olmadan ailəni dağıtmaq, nahaq yerə Qadını boşamaq insafsızlıqdır. Bu insafsızlıq göydəki mələkləri belə sarsıdar.

Bütün bu söylənilən və söylənilməyən bir-birinə zidd fikir və mülahizələr göstərir ki, hər bir mütəfəkkir Qadına öz həyat tərzi və təfəkkür prizmasından yanaşmış və hər biri Onu birtərəfli dəyərləndirmişdir. Bütün bunlar əslində onların fərdləri ümumiləşdirmələrindən irəli gəlmişdir. Yəni, əslində bütün Qadınlar «iblisin silahı, Şeytanın toru», «yırtıcı heyvan», «qəhrəmanları diri – diri torpağa gömən», «gözləri baxan yerə könülləri axan», «min hiylə quran», «xəmiri acıdan yoğrulan», «oğurluq suyunu gizlincə götürən», «qorumazsa qoxuyan», «meyvəsi zəhərə çevrilən», «nifrətini gizlədə bilməyən», «vəfasız», «səbirsiz», «məkrli» və s. olmadığı kimi hər övlad dünyaya gətirən Qadın da Ana deyil. Və həmçinin bunlardan da kəsərlilərini kişilər haqqında söyləmək olar. Təkcə bunu deməklə kifayətlənirik ki, Qadının cinsi ayrılığından başqa bütüq qüsurlarının mənbəyi və səbəkarı məhz kişilərdir.

Qeyd edildiyi kimi insanlarda Məhəbbət təbii və iradi olmaqla iki növdür. Təbii Məhəbbət Tanrıya olan Məhəbbətdir ki, əbədi olub heç bir növü yoxdur. İradi Məhəbbət isə insanların bir – birinə olan Məhəbbətidir ki, beş növü vardır.

1. Tez gəlib tez gedən Məhəbbət;
2. Gec dəlib tez gedən Məhəbbət;
3. Tez gəlib gec gedən Məhəbbət;
4. Gec gəlib gec gedən Məhəbbət;
5. Tez və ya gec gəlməsindən asılı olmayaraq əbədiyyətə qovuşan Məhəbbət.

Tez gəlib tez gedən Məhəbbətin səbəbi ləzzət olduğndan bədənin vəziyyətindən asılı olaraq tez – tez dəyişir. Səbəbin dəyişməsi nəticəyə də təsir edir.

Gec gəlib tez gedən Məhəbbətin səbəbi mənfəət olduğundan çətin gəlib asan əldən çıxar.

Tez gəlib gec gedən Məhəbbətin səbəbi xeyir olduğundan onun mahiyyətində həqiqi vəhdəd xüsusiyyəti var. Ona görə də onu asanlıqla qırmaq olmaz.

Gec gəlib gec gedən Məhəbbət isə mənfəət və xeyirə əsaslandığından onun sabitliyi uzun müddət davam edir. Elə ki, mənfəət və xeyir tükəndi, sədaqət qırılır, Məhəbbət itir.

Tez və ya gec gəlməsindən asılı olmayaraq əbədi yaşar Məhəbbət isə heç bir ləzzət, mənfəət və xeyir aramır. Bu Məhəbbətdə heç bir heyvani hiss rol oynamır. Çünki bu Məhəbbətdə acılar da sevilir, şirinlər də. Bu Məhəbbətdə heç bir təmənna güdülmür. Belə Məhəbbət səbirlidir, xeyirxahdır. O, paxıllıq etməz, lovğalanmaz, qürrələnməz, kobud davranmaz, hirslənməz, öz mənfəətini axtarmaz, Ona edilən pisliklərin əvəzini çıxmaz, hesabını tutmaz.

Belə Məhəbbət haqsızlığa sevinməz. Hər şeyə qatlaşar. Həqiqətə şadlanar. Hər şeyə inanar. Hər şeyə ümid bəsləyər. Hər şeyə tab gətirər. Heç vaxt tükənməz.

Belə Məhəbbət insan üçün ədalətdən də, elmdən də ali keyfiyyətdir. Hakimiyyət, alimlik bitsə də, ədalət, bilik tükənsə də Məhəbbət əsla tükənməz. Hökm etmək, bilik və elm insanı lovğalandırar, Məhəbbət isə onu ruhən inkişaf etdirər. Sevgisiz ədalət ola bilməz. Əgər nə vaxtsa geniş anlamda ədalət mövcud olacaqsa, o yalnız Məhəbbətlə mümkün olacaq.

Ağıl belə insana məhz Məhəbbətlə gəlir. Məhəbbətlə hərəkətə gəlməyən ağıl instiktiv ağıldır. Belə ağıl zəhərli, dağıdıcı, parçalıyıcı, yandırıcı ağıldır. Sevgiyə dayanmayan ağıl sonda zəhəri öz içinə dağıdar, özünü belə məhv edər. İnsanlığa yaşamaq xatirinə ağıl yox, həyat eşqiylə hərəkətə gələn ağıl gərəkdir. Ağıl, elm, sənət, əxlaq belə Məhəbbətin qurmaq, yaratmaq, yaşatmaq üçün əldə etdiyi yollardır. Məhəbbətdən ötrü olmayan əxlaq qaranlıqdan yanadır. Qaynağını insan Sevgisindən almayan heç bir sənət əsəri yoxdur. Çünki dünyada

insandan böyük gerçək yoxdur. Məhəbbəti olmayanın dini də, inancı da yoxdur.

«Ölüm qapımızı döydüyü zaman
Bir Sevgininz olsun dünyada qalan».

Tanrı o insanları sevir ki, onlar bir-birilərini sevirlər. Əgər biz insanlar bir-birimizi Seviriksə, demək Tanrı bizdə yaşayır.

İnsanın arzuladığı dünya belə məhz insan Sevgisiylə bərqərar ola bilər. Çünki insanın həyatda ən çox söykənəcəyi şey Məhəbbətdir. Həyatda hər bir gözəllik məhz insanı sevməklə başlar. Çünki insanı Sevmək zənginləşmək, insanda ərimək deməkdir. Müdriklər demişkən: «Sevgisi olan insan özünü neylər».

İnsan Sevdiyini tərbiyə etməli, Sevməyi öyrətməlidir. Necə ki, Tanrı sevdiyi və insanlardan seçdiyi Peyğəmbərləri tərbiyə etmişdir. Sevgini öyrətmək üçün ilk öncə insan özü Sevməlidir. Məşhur hədislərdə buyurulduğu kimi: «Tanrı buyurmuşdur: Mənim razılığım ilə bir-birini Sevənlər üçün Peyğəmbərlərin belə qibtə edəcəkləri nurdan minbərlər vardır». Məşhur bir hədisdə buyrulur ki:

«Sevdiyiniz insanlara sevginizi söyləyin. Bu aranızdakı Sevgini daha da artırar». «Sevməkdə olduğu kimi, Sevgini söyləməkdə də savab vardır».

Məhəbbət insanda bir neçə şəkildə meydana çıxır:

Birinci meyldir ki, bütün Təbiətdə baş verir.

İkincisi, meylin yüksək dərəcəsi olan ünsiyyətdir ki, cinsiyyətə əsaslandığından həm insanlara və həm də heyvanlara məxsusdur.

Üçüncüsü həvəsdir ki, ağla əsaslandığından ehtiyacları ödəməyə xidmət etdiyindən bütün canlılara məxsusdur.

Dördüncüsü sövqdür ki, yalnız insanlara məxsusdur. Sövq məqsədə çatmaq üçün verilmiş elə bir nemətdir ki, insan öz istəyinə onsuz çata bilməz. Çünki sövqün elə bir qüvvəsi vardır ki, təkmilləşdiyi halda bütün maneələri aradan qaldırar, hər kəsi öz qüvvəsi daxilində olan məqama çatdırar. Elm və hünər qazanmaq, hətta günah və pis işlər görmək də sövqə bağlıdır. Ona görə də sövq təbin istəyi və mənfəət arzusundan doğduğu

üçün insan onu ağlın vasitəsilə fəsadlı niyyətlərdən çəkindirib ədəb, əxlaq, elm və gözəl işlər görməyə yönəldə bilər.

Beşincisi sevgidir ki, ünsiyyətin ən yüksək mərtəbəsi olub, ürəyin sevməsindən, cinsindən, əxlaq və adətin uyğunluğundan əmələ gəlir.

Deməli, uyğunluq olmasa Sevgi, Məhəbbət də ola bilməz. Bu əlaqə də həm insanlara və həm də heyvanlara aiddir. Bu əlaqə Heyvan və insan nəslinin davamlı olmasına xidmət edir.

Altıncı Məhəbbətin ən yüksək dərəcəsi olan Eşqdir. Türk müdriklərinə görə:

Eşq duyğuların tacıdır.

Eşq həqiqət yolunun yol yoldaşıdır.

Eşq vəhdət, bir bədəndə iki candır.

«Canı kim Cananı üçün sevsə, Cananı sevər,
Canı üçün kim ki, Cananın sevər, canın sevər».

Eşq həyat çeşməsi, dirilik suyudur.

Eşq insanın yolgöstərənidir.

Eşq məlamət mülkünün Sultanıdır.

Eşq insanın ən kamil zövqüdür. Eşq zövqünü Eşq zövqü olanlar bilər.

Eşq bədənin bəlası, Ruhun qidasıdır.

Eşq hər murada rəhbər, hər kamala məzhər, hər nəşəyə məsdərdir.

Eşq Kainat xəzinəsinin ən dəyərli gövhəridir.

Eşq ürəyin aynasıdır.

Eşq insan kamalının ən yüksək mərtəbəsidir.

Eşq insan Ruhunun şüuru, insan gözünün zəhrası, insanın səadət bağı, həyat qaynağı, hüzünlü həyatı, damarda qanı, daimi məkanı, canı, cananı, ərkanı, iqrarı, imanı, insanlığın nicatıdır.

Eşq insanı tale ilə barışdırar, Ruhu ilə qovuşdurar, canı cana sarışdırar, yoxu vara qarışdırar.

Eşq əbədi həyəcan və gündəlik qayğıdır.

Eşq instinkdən idraka qədər çox uzun bir yol qət etməli olur. Bu yol vəfadan başlayıb əhddə bitdiyi üçün hətta səbr belə bu Eşqə tab gətirə bilmir, ağıl belə Eşqi görəndə qaçır.

Eşq ilahi zənginlikdir.

Eşq insanın İlahi Varlıq içində əriməsi, Ona qovuşmaq həsrətidir. İnsanın Ruhu belə Eşq gəmisi ilə Bədən dəryasından hərəkətə başlayıb Tanrıya qovuşmağa can atır.

Eşq sədaqət əhlinin həmdəmidir.

Eşq camını nuş edən insan əbədiyyət qazanar. Çünki Eşq Tanrı simasının aynası, Tanrını axtaranların məqsədə çatmaları üçün yol göstərənidir.

Eşq həsrət, hicran, möhnət, bəla, dərd, kədər, qüssə, qəm olduğundan Eşqi kamala çatdıran da onlardır. Eşqə düşən insan dünyanı qəm, kədər girdabında görər.

Eşq əhlinin nəzəri can, niyyəti qəm, həyatı sitəmdir.

Eşq hicran dərdinin şərikidir.

Eşq əhlinin qanunu ahufəğandır.

Eşq insanı fəzilət əhli, kamal əhli eyləyər. Ona görə də, Eşq əhlinə zamanın necə dövr etməsinin fərqi yoxdur. Həyatın qəmi bir illətidir. Bir illətin əsl təbibi Eşqdir.

Sevən insanları Eşq odu qürurla alışdırar, onları səfalı nurla bürüyər, Tanrının inayətini duydurar, onları göylərə qaldırıb səadətlərinə qovuşdurar.

İnsan təbiətinin başlıca mənəvi tələbatı da məhz Eşqdir. Eşqsiz heç bir şey var ola bilməz.

Eşq birdən-birə çarpan ildırıma bənzər. O, elə bir alovdur ki, bir dəfə insan qəlbini sardımı, ölüncəyə qədər sızladıb durar. Eşq alovundan qurtulmağın yeganə çarəsi o alova baş vurmaqdır. Eşq sevdası çıxılmaz bir yoldur.

İnsan qəlbinə ilham verən yeganə amil Eşqdir. Eşq insanın bilgi qaynağı, ilham mənbəyidir. Eşq insanı gözəlləşdirir, ülviləşdirir.

İnsan həzz və zövqlərinin ən alisi Eşqdir. Həqiqi Eşq sadəliyi və gözəlliyi sevir. Sadəlik və gözəlliksə düzgün mühakimə və harmoniya ilə bağlıdır. Deməli, həqiqi Məhəbbətə azğınlıq, eşqbazlıq, pozğunluq və şəhvətlə bağlı şeyləri calamaq olmaz.

Eşq elə bir şeydir ki, ürəyə düşən kimi sevdiyindən başqa hər şey adiləşir. Bu zaman insan Eşqin səsindən özgə bir səs eşitməz, sevgilisindən başqa kimsəni görməz.

Eşq elə bir dəryadır  ki, Ona baş vuran boğular. Eşq meydanında hər adam at çapa bilməz.

Eşq elə qəribə bir meydir ki, kim içsə huşyar olar.

Eşq yükü dünya qədərdir, kim çəksə taqətdən düşər. Bu yükü sonadək çəkən az insan olar. Müdriklərin dediyi kimi:

«Eşq salmış aləmə həyəcanları

Eşq zəncirə vurub şir aslanları».

Eşq elə bir oddur ki, özündən başqa hər şeyi yandırar. Eşq ifrata vardıqda imkan taparsa əlini Əzrailin belə qanına boyayar.

Eşq ürəkdə möhkəmləndikdə insanın bütün düşüncəsini, hiss və duyğularını özünə qul edir, ağıl belə tədbir görməyə, macal tapmır. Eşq bir təsadüf nəticəsində ürəyi işğal edir. Bu anda insanın nə təsəvvür etməyə macalı, nə düşünməyə ağlı, nə də hiddətlənməyə imkanı olur.

Eşq insanın ağlını, səbrini, nəfsini tükəndirərək axirət səfərində yükünü yüngülləşdirir. Bu anlamda Eşqin qaynağı və əbədi feyzi olan Qadın «dirilik suyuna» bənzəyir.

Varlığın  və ya onun səbəbi olan Eşqin də yeri ancaq ürəkdir. Ürəkdə Məhəbbətin nuru gözdəki işıq kimidir. Candakı Eşqin davası Bədəndəki Ruh kimidir. Eşqin canına haqqın nəşəsini bəxş edən də, Kainat məclisini tərtib edən də Tanrıdır. Ona görə də, Tanrı bəyəndiyi insanlara Eşq odundan bir hərarət bəxş edir ki, bu insanlar da yaşadıqları cəmiyyətdə digərlərindən seçilir, əbədilik qazanırlar. Deməli, Eşq həm də əbədilik mənbəyi, daha doğrusu əbədiyyətdir. Ona görə də, kamil Eşq sahibi fəraq və vüsalın fərqinə varmaz.

Eşq möhnət və bəla gecəsinin şamıdır. Eşqin sonu ahdır, fəqandır. Buna baxmayaraq minlərlə insan bu ahdan, bu fəqandan zövq almış, onun qurbanı olmuş, olur və olacaq da. Eşqin qədrini yalnız Eşqə düşənlər bilər. Müdriklərin dediyi kimi:

«Eşq öylə bir şeydir ki, giriftar olmayan bilməz».

Eşq əhlinin sirrini Eşq əhli bilər.

Eşqi kamil olan  kimsə başqa kamal istəməz.

Dünyadakı nizam-intizam da Eşqdəndir. Eşq olmasa, Kainatın belə nizam-intizamı pozular. Dünyanı yalnız gözəllik

və Məhəbbət xilas edəcək. Bütün bəşəriyyəti də xilas edəcək bir qüvvə varsa, o da Məhəbbətdir.

Məhəbbətsiz bütün xilqət mənasız bir şeydir.

Yaradılışdan məqsəd də şübhəsiz ki, məhəbbətdir. Məhəbbətin nəfəsi belə dünya xaosunu nizama salır. Əslində Məhəbbət zəkanın və Təbiətin universal qanunudur. Eşq bütün dünya nəğməsinin sədasıdır. İctimai həyatı belə idarə edən ən mühüm amil yenə də Məhəbbətdir. Məhəbbətin bütün cəhətləri nuranidir. Sevən insan heç bir iş görməsə belə dahidir. Çünki insan məhz Sevgisi ilə özünü kəşf edir. Özünü tanıyan, özünü kəşf edən insan elə dahidir.

İnsanı insan edən Sevgidir, Məhəbbətdir.

İdeal insan Sevən insandır. İnsan mövcudluğunun əsasında məhz onun Sevgisi dayanır. Çünki Sevgi həyatın mənbəyidir.

Sevgi əbədi mübarizə deməkdir.

Sevgi özünü zənginləşdirmək deməkdir.

Sevgi daim təzələnmək, təmizlənmək deməkdir. Bulanlıq sular da Sevgi ilə durular.

Sevgi azadlıqdır. Sevən insan dünyanın ən azad varlığıdır. Çünki Eşq insanı dünyanın bütün qayğılarından azad edir.

Sevgi həyatın mənası, ömrün çırağıdır. Həyatda sevib sevilməyən bəxtiyar olmaz.

Sevgi sevincdir, kədərdir, qəmdir. O, kədəri və sevinci, ölümü və həyatı, bir sözlə, bütün fəsadları, ziddiyətləri özündə birləşdirir.

Sevgi ölümsüzlükdür.

Sevgi duyğulara hakim olmaqdır.

Sevgi risqdir.

Sevgidən könüllü imtina etmək özünü özündə qətlə yetirmək deməkdir. Sevgini özündə öldürmək mənəvi cəlladlıqdır. Sevməməklə öyünmək öz ölümünü alqışlamaq deməkdir. Sevgisizliyə çağırış mənəviyatsızlığa çağırışdır. «Sevgidən məhrum olan insanlığa bigənədir». Ürəklə ağıl xətləri məhz Sevgi nöqtəsində kəsişir.

Sevgi qəlbdə idrakın vəhdətindən pərvəriş tapır.

Sevgi yalnız idrakın, zəkanın olduğu yerdə mövcuddur. Əslində zəka universal Sevgidən başqa bir şey deyildir.

Bütün insanların ürəyində Sevgi üçün zəmin, Sevmək üçün imkan mövcuddur. Lakin heç də bütün hallarda imkan gərçəkliyə çevrilmir: kimisi Məcnun, kimisi də Doncuan olur.

İnsan qəlbi Sevgi ilə doludur. O, bir çox insanda üzə çıxa bilmir, çünki onun günaha dayanan ehtirasları buna mane olur. İnsanlar arasında Sevginin olmaması heyvani nəfsin hərisliyindədir. İnsan öz Sevgisi ilə həyatın yeni bir mərhələsinə qədəm qoyur. İnsan yaranmışların ən gözəli, Tanrının ən qüdrətli, ən kamil əsəri olduğundan ona Eşq, Məhəbbət, Sevgi gözü ilə baxılmasa Tanrının o müəzzən əsəri zay olar.

Həyatı Eşq insanı həqiqi Eşqə – Tanrıya doğru olan Eşqə aparar. İnsan vücudunun Eşq dəryasına qərq olması onu Tanrı dərgahına istiqamətləndirər.

«Məndə Məcnundan füzun Aşiqlik istedadı var
Aşiqi – sadiq mənəm, Məcnunun ancaq adı var».

Dünya xeyir və şərdən, insanlıq isə Sevgi və Nifrətdən ibarətdir. Onlar insan həyatının kosmik qüvvəsi, kosmik gücləridirlər. Sevgi və Nifrət insan qəlbinin iki sirli, möcüzəli və təzadlı qütbüdür. Ürəkdən sevən insan ürəkdən nifrət edə bilməz və əksinə, ürəkdən nifrət edən şəxs ürəkdən Sevə bilməz. Eyni vaxtda həm Sevmək və həm də nifrət etmək olmaz.

Heç bir insan iki Sevgi yaşaya bilməz. Həyatı boyu birdən artıq Sevgi (Tanrı sevgisi yox, insani sevgi nəzərdə tutulur – A. M.) yaşayan insan rəzil insandır. Rəzil, əyyaş kişilər üçün ən yaxşı ibadət yeyib – içmək, ən böyük «məhəbbət»sə sürüşkən qadınlarla əylənməkdir. Belə insanlar əslində Sevgisini ehtiraslarına qurban edərək, insanlıqdan imtina edib heyvana çevrilirlər. Belələri unudurlar ki, həqiqi Məhəbbətin bir anı adi həyatın bütünündən qiymətlidir.

Eşq, Məhəbbət insan təbiətinin zərifliyindən doğur. Zəriflikdən doğan hər şey, şübhəsiz ki, zərifdir. Ona görə də bədniyyət və kobud təbiət adam Aşiq ola bilməz. Çünki Eşq, Məhəbbət elə bir xoş «xəstəlik»dir ki, ona yalnız incə ruhlu insanlar tutulurlar.

Həyatda insanları ağır düşüncələrdən xilas edən yeganə əlac Sevgidir, Məhəbbətdir. Çünki Sevgi, Məhəbbət elə bir ülvü duyğudur ki, o insanı hər şeydən ayırıb sevdiyinə bağlayır.

Eşqin, Məhəbbətin göz yaşı belə düşdüyü torpağı müqəddəsləşdirir.

Eşqdə, Məhəbbətdə qürurun yeri yoxdur. O, başdan ayağa məşəqqət, iztirab və əzab olsa da, bal kimi şirindir. Eşq, Məhəbbət elə bir sükut tələb edir ki, hətta qəzəb də Onun qarşısında sussun. Eşq, Məhəbbət azadlıq və vaxt tələb edir ki, gözəl bəhrəsini versin. İnsanın Eşqi dostluğuna da qalib gələr. Çünki dostluq Sevgiyə doğru yüksələr, fəqət Sevgi, məhəbbət heç vaxt dostluq mərtəbəsinə enməz. Sevdiyin varlıqla bir an bir yerdə olmaq bir ömrə bərabərdir.

Əsl Məhəbbət yaxşılıq gördükdə artmayan, pislik gördükdə əskilməyəndir. Çünki Məhəbbət əhli daima bəlaya aşina olur, cəfaya dözür, canını Canana hədiyyə edir. Əslində Aşiqlik elə can vermək kimi bir şeydir.

«Canımı Canan əgər istərsə minnət canıma
Can nədir ki, onu qurban etməyim Cananıma».

Eşq üçün can fəda edən Aşiq daima əbədi bir həyat içində gülər. Çünki Eşq sultanı olan Aşiqlərin məzarı əbədiyyətdir. Onlar Məhəbbət Eşq ilə Haqqa doğru uçar, insanları tərk edib Tanrıya qovuşarlar. Bu anlamda ən böyük möminlik elə Aşiqlikdir. Mənəvi Eşq qoca üçün də, cavan üçün də eynidir.

Eşq, Məhəbbət sirri ən ləzzətli bir tikə olduğundan müqəddəs qəlbə malik olan insanlar belə bu tikəni dadmaqdan heç də geri durmazlar. Riyakar «möminlərin» sirr dağarcığında belə həmişə Qadın Eşqinə aid ehtiyat üçün bir maraq gizlənir.

Aqil insanlar Eşqin adını «bəla» qoyublar. Ancaq bu «bəla» Aşiqlər üçün ən gözəl bəladır. Tanrıdan gələn bu bəla hüdudsuz səadət əldə etmək və İlahiyə yaxınlaşmaq nişanəsidir. Müdriklər demişkən: «Aləmdə bəla çəkməyən olmaz adəm».

Deməli, dərd, qəm, kədər, bəla, Aşiqlər, Ariflər, Müdriklər, dahilər, övliyalar və Peyğəmbərlər üçün «Tanrı sınağı», «Rəhmət gülşəninin gülü», «İzzətli mərtəbəyə yüksəlmə nişanəsi», «Kamillik əlaməti», cahil və nadan insanlar üçünsə dəhşət, heyrət, fəlakət, çarəsizlik və ümidsizlik əlamətləridir.

Həyatda ən çox dərdə, qəmə, bəlaya düçar olanlar Tanrı sınağına çəkilən Peyğəmbərlər, Onların yolunun davamçıları olan övliyalar, Eşq fədailəri olan Aşiqlər, Ariflər, müdrik, dahi və kamil insanlardır. Belə insanların həmdəmi qüssə, dostu qəmdir, kədərdir. Onlar üçün rəhmət gülşəninin gülü dərd, dərd əhlinin yoldaşı isə qəmdir.

Doğrudan da insana bəxş edilmiş dərd, qəm, qüssə, kədər yüksək və izzətli mərtəbəyə yüksəlmə nişanəsi, Aşiqlik, Müdriklik, dahillik, kamillik, övliyalıq və ən nəhayət, Peyğəmbərlik əlamətidir. İnsan Tanrıya daha yaxın bir varlıq olduğundan onun bəlası, qüssəsi, qəmi başqa məxluqatdan artıqdır. Çünki Tanrı bilərəkdən Adəmin xəmirini Mələklərin göz yaşları ilə yoğurub. Deməli, Tanrı tərəfindən insana verilmiş bu dərd, qəm və bəla əslində bir bəxşiş, cəfa isə bir ümiddir. Dərdin, qəmin, bəlanın ən böyüyü onlara sahib olmağın, böyüklüyü ilə ölçülür. Ona görə də bəlanı, dərdi, qəmi, kədəri dəhşət, fəlakət, heyrət və çapəsizlik hesab edib müxtəlif günahlar edən cahil və nadanlardan fərqli olaraq Arif insanlar Şeytanla cəngə girərək Dünyaya xitabən söyləyirlər ki:

- Ey cəfakeş Dünya! Gördüm ki, sənin dərdin, qəmin çoxdur. Fəqət onları layiqincə çəkməyə kimsə yoxdur. Gəldim ki, olam qəmin həmdəmi. Gəl təcrübə eylə məni. Həyatda nə qədər qəm, kədər varsa, hamısını cəm edib xəzinəmə sal! Mənə həm qəm yemək kamalı ver, həm də Məni qəm aləmindən eylə xali. Bir sözlə, Məni qəmin əsiri et ki, əcəl gələndə belə Məndən Can əvəzinə qəmi alsın.

Eşq fədaisi olan Aşiqlər Tanrıya yalvarırlar ki:

- Ya rəbb! Dərd əhlinə inayətini az eyləmə. Yəni ki, Məni çox bəlalara mübtəla eylə. Dünyada nə qədər qəm, kədər qüssə varsa, könlümü onlara giriftar et. Çünki:

«Mən istərəm bəlanı, çün istər bəla məni». Ona görə də «çox bəlalara qıl mübtəla məni». Daha obrazlı deyilsə:

«Ya rəbb! Bəlayı – Eşq ilə qıl aşina məni
Bir dəm bəlayı – eşqdən etmə cüda məni».

Ya Rəbb! Məhəbbət bəlasından təmkinimi qırma ki, mənə tənə edib vəfasız deməsinlər. Əslində qəm, kədər, bəla hədsiz-hüdüdsuz, insan isə zəifdir. Buna baxmayaraq Aşiqlər,

Məhəbbət fədailəri ona doğru qoşmaqdadırlar. Çünki qəm, kədər Aşiqlərə səfa və şəfa verir.

Qəm, kədər Aşiqlər üçün həqiqət yolunun bələdçisidir. Qəm, kədər ağılla əkizdirlər.

Qəm, kədər Aşiqin tək qaldıqda yavəridir.

Dərd, qəm bir güzgüdür ki, insan qəlbi onda əks olunur. Ariflər demişkən:

«Gəl alma qəlbini məndən
Nəsibin qəm olar, Canan».

Qəm artdıqca Aşiqin qəlbi nurlanır. Doğrudur qəm, kədər bədəni əridir, fəqət ağlı itiləşdirir, Ruhu rahatladır. Müdriklər söyləyiblər ki:

«Qəm çəkməyən insan quru bir ağaca bənzər».

«Dərd, qəm möhnət mülkünün sultanı, Məhəbbət bağının zinəti, Ruhun tələbidir».

Aşiqlər əbədi qəmə mübtəladırlar. Onlar qəm bəlalarında açan laləyə bənzərlər. Aşiqin möhnət və bəla gecəsinin şamı Eşqdir.

Ümumiyyətlə, dünyaya gələn hər bir insan qəmlə birgə doğulur. Nə o qəmdən, nə də qəm ondan ayrı düşmür. Fəqət kimisi ondan zövq alıb həyatı dərk edir, kamilləşir, kimisi isə özünü heyvani *nəfsinin əsiri edib dərddən, qəmdən uzaqlaşmağa çalışaraq heyvani həyat tərzi keçirib ömrünü başa vurur, sanki cırcırama həyatı keçirirlər.*

Belə qayğısız, saygısız, xəbərsiz, qafil, nadan, cahil insanlar sərxoşa bənzərlər. Onlar baxarlar, amma görməzlər, eşidərlər, fəqət anlamazlar. Onlar heyvani nəfsin qulu olaraq eyş – işrətdən, nəşədən solar, dadlı şərab «dalğasında» boğularlar. Onlar dərdin, qəmin qədrini bilməz, biganə olduqlarından dərd əhlini anlamazlar. Müdriklər söyləyiblər ki:

«Yaşamaq da xoşdur, ölmək də xoşdur.
Qayəsiz həyatda ölüm də boşdur».

Aşiqlər üçünsə hər cəfa bir Məhəbbət, hər bəla bir səadətdir. Aşiqlər Eşq əhli üçün Məhəbbətdən bir Kəbə yapdırmışlar.

Hər Eşqin sonunda göz yaşları damla-damla sel olub getsə də, Məhəbbətin hər anı ah, fəqan olsa da, minlərlə insan

onun qurbanı olub, olur və olacaq da. Çünki insan düşüncəsi Sevgidən, Məhəbbətdən xaricdə mövcud ola bilməz. Adətən Sevgi, Məhəbbət özünü başqa bir «mən» də tapır. İnsan Tanrıya və hər şeyə varlıqla yoxluğun danılmaz və uçulmaz körpüsü olan Məhəbbətlə qovuşur. İnsan qəlbləri Eşqlə duyar, Eşqlə açar. Eşq Aşiqin yol göstəricisi, həyati pənahıdır. Dövr qədrini dövran, səltənət qədrini sultan, zər qədrini zərgər, Eşq qədrini Aşiq bilər. «Qismət günü» hər insana bir şey nəsib olur, Aşiqin nəsibi isə Eşqdir. Tanrı Aşiqlərin boynuna Eşq donu biçmişdir. Mənzilə çatmaq istəyən Aşiq Eşqi özünə yoldaş etmişdir. Çünki Eşq cəfası çəkmədən səfa sürmək, murada yetmək olmaz. Yalnız canında Eşq bəlası olan Aşiq yara qovuşmağın zövqünü bilir. Eşqi asan sayanlar bu sevdaya düşəndə bilirlər ki, Eşq sevdası nə deməkdir. Başqa sözlə Aşiqin sirrini Aşiq olmayan bilməz.

Eşqi günah bilən insanın özü günahkardır. Dünyada Eşqdən başqa iş çoxdur. Fəqət Aşiqə Eşqdən başqa bütün işlər biganədir. Eşq «xəstəliyinə» tutulan insana fələk də dərman edə bilməz. Həyatda kimsə Eşq dərdinə dərman bulmayıb. Eşq dərdinin dərmanı ölümdür. Ona görə də Aşiqə «Eşq şəhidi» də deyirlər. O canını Canana qurban verir:

«Can ilə bizdən əgər xoşnud ola Cananımız,
Cana minnətdir onun qurbanı olsun canımız».

Sədaqətli Aşiq sevgilisini Can, özünü Bədən bilər:

«Can necə tərk eyləsin, ey Can, səni
Canımızın, Canısan, ey Canımız».

Məkansız Aşiqin məkanı Məşuqdur. Məşuqluq mülkünü səyahət etməyincə Aşiqlik zirvəsinə yüksəlmək olmaz. Bu yol çox keşməkeşli, dərəli-təpəlidir. Bu yolda Möhnət, Şiddət, Heyrət, Bəla və Hicran vardır.

Eşq yolunda canını Sevgilisinə əsirgəməyən əbədiyyətə qovuşar. «Aşiq odur ki, canını Canana fəda etsin». Müdriklər demişkən:

«Canına qıymayan Canan Eşqinə düşmənsin». Əslində də:

«Eşq əhlinə can cismi gərəkməz
Canansız belə Cahan gərəkməz».

Eşq Aşiqin başında Məşuqun xəyalından başqa heç bir xəyal qoymaz. İlk başlanğıcın səbəbi Eşq olduğu kimi qayıdışın səbəbi də Odur. Eşq vasitəsilə öz başlanğıcına qayıtmaq heç də qəribə deyildir. İmkanın Həqiqətə olan nisbəti də bu səbəbdəndir.

Bütün sadə və mürəkkəb varlıqlarda həqiqi rabitə Eşqdir. Məcazi olsa da Eşqin zövqü bir həqiqətdir. Çünki məcaz həqiqətin körpüsü, Eşqin yolgöstəricisidir. Eşq əslində insanlıqdır. O, kimdə yoxdursa heyvanla şərikdir.

Eşq zahiri zərərlərlə nəticələnsə də hər məqama yalnız Onunla gedib çatmaq olar. Çünki mərifət üçün Eşqdən başqa həqiqi yol yoxdur.

«Eşq işgəncə, nəhayətsiz macəra
Aşiq odur əzablara dözməyi də bacara».

Eşq sultanı olan Aşiqlərin məzarı əbədiyyətdir. Onlar insanları tərk edib Tanrıya qovuşurlar.

Eşq atəşinə yananları adi atəş yandıra bilməz. Onlar üçün Eşq atəşi ən böyük səadətdir.

Eşq üçün can fəda edən Aşiq daima əbədi bir həyat içində gülər.

Aşiqlər Məhəbbət əsiri, kəramət sahibi, idrak piridirlər.

Məhəbbət elə bir alovdur ki, bir dəfə insan qəlbini sardımı, ölüncəyə qədər sızladıb durar.

Məhəbbət alovundan qurtulmağın yeganə çarəsi o alova baş vurmaqdır.

Məhəbbət ən böyük səadətdir.

Dünyanı yalnız gözəllik və Məhəbbət xilas edəcək.

Həyatda Sevgidən məhrum olan heç bir varlıq yoxdur.

Qadın ruhunu oxşayacaq bir şey varsa, o da yalnız Məhəbbətdir.

Eşq atəşinə yananları zaman atəşi yandıra bilməz. Çünki Aşiqlər Məhəbbət əsiri, kəramət sahibi, idrak piridirlər.

Həyatda hər kəsin bir Eşqi, bir Tanrısı vardır. Qadın ruhunu oxşayacaq bir şey varsa, o da yalnız Məhəbbətdir. Müdriklər söyləyiblər ki:

«Gözəl sevimlidir, cəllad olsa da,
Sevgi xoşdur, sonu fəryad olsa da».

Dünyada səadət, xoşbəxtlik varsa, o Eşqdir. Dünyada Sevgi çox olsaydı, ölüm azalardı. Həyatda insanın ən dadlı neməti, ən ülvü duyğusu, ən parlaq səadəti Məhəbbətdir. İnsan qəlbi üçün ən saf sevinc Məhəbbətdir. Məhəbbət bir dağ selidir ki, heç bir məcraya sığmaz. Məhəbbətə ən layiq şey elə Məhəbbətin özüdür. Məhəbbət dildə yox, qəlbdə olur. Məhəbbət irsən keçmir. Onu insanın özü yaradır. Vüsala yetməyən Məhəbbət bəhrəsiz çiçək kimidir. Açar, açdığı kimi bar vermədən solar.

İnsan diri olduqca «Eşq kitabı» tamamlanmaz.

Eşq insan qəlbini dələn ən kəskin qılıncdır.

Eşq Aşiqlərin sönüb yanan közüdür.

Sevdiyinə can verməyən Aşiq sayılmaz. Eşq yolunda ölən Aşiqin günahı olmaz.

Aşiq Sevgilisinin cəfalarına dözməsə, Məşuqun bəlalarından zövq almasa, Aşiq sayılmaz. Çünki Aşiq vəfa, Məşuq cəfa mənbəyidir. Məşuq Aşiqin ümidi, ümidgahı, qəmi, qəm dağıdanı, gülü, bülbülü, sünbülü, günəşi, ayı, ulduzu, gözünün işığı, bədənindəki ruhu, xəyalındakı düşüncəsi, bir sözlə hər şeyidir.

Özlərini Eşq, Məhəbbət yolunda fəda edənlərin «Əməl kitabı»nda bircə söz yazılacaq. Aşiq! «Çünki Aşiq Yarı istəyib candan keçir, var-dövlətə uymayıb Cahandan keçir, Yəqinin əlin tutub gümandan keçir».

Aşiqin Eşq odu sönəndə qorxur ki, Cananı da canı ilə bərabər odda yansın. Çünki Məşuq Aşiqin qəlbindədir. Ona görə də Eşq fədailəri söyləyiblər ki: «Dəfn eyləməyin siz məni qəlbimlə bərabər».Bunu nəzərə alan Aşiqlər həmişə arzu ediblər ki, Məşuq Onun qəlbini Eşq oxları ilə doldursun ki, bu oxlar da dəmirdən qalxan olub Məşuqu Aşiqin qəlbində əbədi hifz eləsin. Əslində Aşiqin həyatı Sevdiyinin vüsalındadır. Müdriklər söyləyiblər ki:

«Məhəbbətimlə calansam görən nə alınar?
«Mən»lərin ən böyüyü olaram yəqin».

- Ey əbədi Məhəbbət! Qoy Sənin hərarətinlə könlümdə ağrım artsın, bağrım oxla deşilsin, bədənimi qılınc doğrasın, ildırım məni vurub külümü göyə sovursun, təkcə Ulu Qüdrətin

üzü məndən dönməsin, əbədi Məhəbbətimin ulduzları sönməsin. Çünki:

«Giriftarı – qəmi – Eşq olalı azadeyi – dəhrəm,
Qəmi – Eşqə məni bundan betər, ya Rəbb, giriftar et».

EŞQ, MƏHƏBBƏT, SEVGİ elə bir incə duyğudur ki, ONU heç bir əqli mühakimə anlatmaq gücünə malik deyil. EŞQ, MƏHƏBBƏT, SEVGİ heç bir sözə, misraya, dastana, bəyana sığmaz. Hisslər, duyğular İnsan təbiətindən doğduğundan ağlın özü belə hisslərin, duyğuların dərkinə möhtacdır. Bu anlamda EŞQ, MƏHƏBBƏT, SEVGİ Kitablar Kitabıdır. Müdriklər demişkən:

«Yer üzünün fəlsəfəsi, hikməti,
Çatmır EŞQİ izah etsin qüdrəti».

Kainatı ələ sığışdırmaq mümkün olmadığı kimi EŞQİ də ağla sığışdırmaq olmaz.

MƏHƏBBƏT elə bir şərəfli haldır ki, İnsan Tanrını yalnız ONUN sayəsində müşahidə edə bilər. Müdriklər buyurblar ki:»EŞQƏ könüllə, Ruhla və idrakla qərar ver».

MƏHƏBBƏTİN çox yönləri olduğundan ONUN dərinliyinə varmaq sonda İnsanı çox ağır təhlükələr qarşısında qoyar.

SEVGİSİZ həyata alışmaq o qədər asan olmasa da bir çox İnsan ONU yaşamağa məcburdur.

EŞQ satılmadığından ONU satın almaq olmaz.

Müdriklər söyləyiblər ki: «EŞQ yoluna girənlər sonda Haqqı görürlər».

EŞQ gözlə, baxışla başlar, ürəklə davam edər.

EŞQ atəşini göz yaşı daha da şiddətləndirər.

EŞQ odu öncə Aşiqə, sonra Məşuqa düşər.

Müdriklər söyləyiblər ki:

«MƏHƏBBƏT gözdə deyil, könüldədir».

«SEVGİ oddan bərk yandırar».

«SEVƏNİN gözünü pərdə tutar».

«Cananı SEVƏN canından keçər
Canandan ayrılan candan ayrılar».

«EŞQ yoluna ayaq qoymayan SEVGİ yurdunu görməz».

«EŞQ Aşiqin könül şəhrini qarət edər».

«EŞQ sevdası sonda ağıllını də dəli edər».

İnsanın zəka və istedadının inkişafına səbəb olan MƏHƏBBƏT İnsanda ən qüvvətli və enercili fikirlər yaradır.

EŞQ, MƏHƏBBƏT əslində hər hansı bir şeyə, şəxsə və ya məqsədə fövqəladə SEVGİ bəsləmək və güclü diqqət yetirmək deməkdir. Hər hansı bir şəxsdə belə bir cazibə yaransa, onun bütün Ruhu və hətta cismi qüvvələrini hərəkətə gətirməklə onu həyəcanlandırar, onun sevinci və kədəri ilə münasibətdə olan fikir, düşüncə və zəkasını gücləndirər, onu daha da canlandırar.

EŞQ İnsanın nəfsini cilovlamaqla onu günah işlərdən çəkindirər, onu ismətli edər. İsmət isə İnsanın ən mühüm əxlaqi dəyəridir. Əxlaqı olmayan bir şəxsin və hətta cəmiyyətin heç bir insani və xəlqi səciyyəsi də olmaz.

İnsan zövqünün əsası sayılan EŞQ, MƏHƏBBƏT ürək açan müdrik kəlam, xoş nəğmə, düşündürücü musiqi, şer və sənət əsərləri kimi səma eyvanının kəməndi, uca aləmin nərdivanı, Ruhun qidası, Tanrı dərgahının bir niyazıdır. Bu zövqlərə meyl etmək İnsan idrakını rövnəqləndirir, qafil insanları belə EŞQ nəşəsindən xəbərdar edir. Çünki EŞQ elə bir gizli sirdir ki, ONUN əzası sevda, bəşər vücudunun sədəfində Tanrı əmanəti olan bir gövhərdir. Bu anlamda EŞQİN, MƏHƏBBƏTİN əsası əhdə vəfadır.

MƏHƏBBƏT İnsanda ümid, fərəh və səfa, ədavət, qorxu və qəm isə səfa mənbəyidir.

MƏHƏBBƏT İnsanın ülfət zəncirini belə hərəkətə gətirməyə qadirdir. Ona görə də EŞQ yoluna düşmədən öncə İnsan öz qəlbini nəfsani arzulardan təmizləməlidir.

Övliyalar buyurublar ki: «EŞQ üçün tökülən hər qətrə yaşın belə ürəkdə tufanı vardır».

«EŞQƏ düşən dünya zövqünü unudar, onun qəmini çəkməz».

«MƏHƏBBƏTDƏN dəm vuran cəfadan bezməz».

«EŞQƏ düşənin qanlı göz yaşı çərxin binasını belə uçurar».

«EŞQ ÖZ qəmi ilə bəlalı Aşiqin ağlını başından alar».

Ona görə də övliyalar Ulu Tanrıya xitabən söyləyirlər ki:

«Ey Ulu Tanrı! Hüsn, cəmal əhlinə səfa çəkdirmək qüdrəti vermisənsə, EŞQ əhlinə də dözüm qüdrəti ver».

SEVƏNLƏR məşuqların Onlara meyl etmədiyini bilsəydilər həyatda ÖZLƏRİNİ EŞQ ilə rusvayi – cahan etməzdilər.

Həyatda EŞQİN kitabını açmayanlar onda nə olduğunu bilməzlər.

Həyatda ən böyük xoşbəxtlik EŞQ, MƏHƏBBƏT feyzi ilə məqsədə yetməkdir. Unutmaq olmaz ki, canan təkcə can verməklə razı qalmaz, O, həm də bu yolda ölüm belə istər. Əslində EŞQ üçün ölmək elə özü bir çarədir.

EŞQ hər hansı bir rəylə əldə edilmir.

EŞQ qəlbə fərəhlə yanaşı qəm, kədər də verir. Öz qəlbini həqiqi EŞQƏ verən İnsan nə bəxtiyardır. Müdriklər söyləyiblər ki:

«EŞQ qəmi çəkən solar».

«EŞQ əhlinə ən böyük zülm vəfasızlıqdır».

«EŞQSİZ İnsan quru bir yarpağa bənzər».

Əslində EŞQ İnsanın real yaşanmayan həyatıdır. Həyatda yalnız müqəddəs Ruha qovuşanlar xoşbəxt ola bilər ki, bu da yalnız İlahi MƏHƏBBƏT və imanla yaşayanlara nəsib olur. Çünki İlahi MƏHƏBBƏTLƏ sevən İnsanı Tanrı EŞQ bəlası ilə imtahan edir.

SEVƏN İnsan üçün sevdiyinin ən səmimi baxışı, ən səmimi sözü dünyanın bütün nemətlərindən, hikmətlərindən üstündür.

SEVƏN İnsanlar bir-birinin iradəsi ilə yaşayırlar. ONLARIN nə gecəsi, nə də gündüzü olar. Sinələrindəki EŞQ yaraları hara getsələr ağrıyar, sızlayar. Onların könüllərinin həmdəmi qəm, kədər olar. Bir-birlərindən ayrı olanda gözləri qan-yaş töküb ağlayar, yuxudan oyananda od içində yanarlar. Ona görə də MƏHƏBBƏTİN şirin olması üçün SEVƏNLƏR bir müddət bir-birindən ayrılmalıdırlar. İki MƏHƏBBƏTİN birləşməsində sevdanın hər anı bir səadətdir.

İnsan öz MƏHƏBBƏTİ ilə calansa «MƏN»lərin ən böyüyü olar.

EŞQİN sevdasını yalnız mərifət əhli anlar.

İnsan ağlı belə EŞQİN, MƏHƏBBƏTİN dərkinə möhtacdır. Müdriklər söyləyiblər ki:

«EŞQ olan yerdə hər an ağıl olar əfsanə
Ağıllıya deyərlər onda dəli, divanə».

EŞQ sirri belə gizli tutmağı tələb edir.

EŞQİ mənasız bir həvəs hesab edənlərə cavab olaraq övliyalar bildiriblər ki:

«Onlar EŞQİ bənzədir mənasız bir həvəsə
Qarğa ilə bülbülü salırlar bir qəfəsə».

İnsanlar şəkil və simaca bir-birlərindən fərqli olduqları kimi EŞQ, MƏHƏBBƏT, ağıl, duyğu və əxlaqca da müxtəlifdirlər. Dünyada iki nəfər tapılmaz ki, onların MƏHƏBBƏTİ, ağlı, duyğusu, əxlaqı bir-birinin eyni olsun. Hər kəs eyni bir şeyi müxtəlif şəkildə SEVİR, görür, dərk edir. İnsan yaşadığı bütün həyatında ürəyi ondan ən böyük bir şeyi – EŞQİ, MƏHƏBBƏTİ tələb edir. Halbuki ürək özündə olan şeyi – EŞQİ, MƏHƏBBƏTİ özgəsindən umur.

«Dünyanı yalnız gözəllik və MƏHƏBBƏT xilas edəcək» deyənlər haqlıdırlar.

EŞQƏ düşən İnsan heç yerdə qərar tapmaz. Çünki EŞQ bir bəla, dərdli bir macəradır. İnsan EŞQİ pərvanədən öyrənməlidir. Çünki pərvanə şamı yanar görən kimi özünü oda atır, canını fəda edir.

İnsan ağlı nurlu şamdırsa, EŞQ, MƏHƏBBƏT Günəşdir.

EŞQ ilə canan canı bədəndən ayırar, çünki bədəndən xəbəri olan can canana qovuşa bilməz. İnsanın EŞQ dəryasına qərq olması onu Tanrı dərgahına istiqamətləndirər.

EŞQ nə ağıllıq və nə də divanəlikdir. Övliyalar söyləyib ki:

«Mən yürürüm yana – yana
EŞQ boyadı məni qana.
Nə aqiləm, nə divanə
Gəl, gör məni EŞQ neylədi.
Gah tozaram yollar kimi
Gah əsərəm yellər kimi
Gah coşaram sellər kimi
Gəl, gör məni EŞQ neylədi».

EŞQ İnsanın vücudunu əlindən alır. Bəziləri belə bir fikir yürüdürlər ki, guya «MƏHƏBBƏT həm fiziki, həm də mənəvi olur və əsil MƏHƏBBƏT bunların hər ikisi bir yerdə olanda olur». Halbuki EŞQDƏ, MƏHƏBBƏTDƏ kamil olmaq istəyən hətta gözəl surətlərdən belə çəkinməlidir. Çünki gözəl surətə, gözəl əndama bağlanmaq həqiqi Aşiqi kamal sahibi olmağa qoymaz. Ona görə də aqillər söyləyiblər ki:

«EŞQ əhlinin surətpərəst olması onun cahilliyini göstərir. Çünki ağıllı adam ayrılması mümkün olan, yəni zahiri gözəlliyi daimi olmayan bir şeyə bağlanmaz. EŞQ sahibi surətə, çöhrəyə görə iradəsini itirməz, həqiqət çövhərini, cəhaləti, ehtirasa qurban verməz».

EŞQ, MƏHƏBBƏT səviyyəli və zəngin İnsanların qidasıdır. İnsan həyatda yalnız iki şey qarşısında aciz və gücsüzdür – MƏHƏBBƏT və Ölüm. Bu iki şeyə qalib gəlmək, onları öz istədiyi kimi ram etmək hələlik heç kimə nəsib olmayıb. Bunu elm də təsdiq edir. Ona görə də ölüm kimi MƏHƏBBƏTLƏ də zarafat etmək olmaz. Çünki ölümdən fərqli olaraq MƏHƏBBƏT həyat, yaşamaq və yaratmaq təcrübəsidir.

EŞQ fəlsəfəsində ən böyük Aşiq Arif, ən böyük əlçatmaz Məşuq Tanrıdır. Əlçatmaz Məşuqun Yerdəki təcəllası Qadındır.

EŞQ ən kiçik problemləri belə böyük problemlərə çevirməyə qadirdir. Atalar söyləyiblər ki:

«SEVGİNİN qarşısında bütün qılınclar belə korlaşar».

«SEVGİ od deyil, amma oddan yamandır».

«Dünya EŞQLƏRİN teatrıdır».

«EŞQDƏ susmaq danışmaqdan faydalıdır».

«EŞQ dərdi çəkən başqa dərdə məhəl qoymaz».

«Hər bir MƏHƏBBƏTDƏ min sirr gizlənir».

«Sevməyi balıqdan öyrənin, çünki o, sudan çıxan kimi ölür».

«SEVGİSİZ İnsan cilalanmamış almaz kimidir».

«İnsan ancaq SEVƏNDƏ qürurundan əl çəkir».

«EŞQSİZİN canı da olmaz, imanı da».

«EŞQİN gözü kordur»,

«Kin kini bitirməz, EŞQ bitirər».

MƏHƏBBƏT həyatın simfoniyasıdır. ONUN da musiqi kimi dili yoxdur, ona görə də ONU lal-kar da anlayır.

MƏHƏBBƏTİN ağlı olanların ağlını almaq və hətta ağlı olmayanlara ağıl vermək gücü vardır. İnsanların MƏHƏBBƏTƏ olan ehtiyacı təbiətin günəşə olan ehtiyacı qədərdir. Ona görə də SEVGİ ümidsiz olsa belə gözəldir. SEVGİLİNİN yolunu gözləmək Cəhənnəm əzabı olsa da SEVƏN İnsan buna dözər.

EŞQ üçqat oğru kimidir. O yatmır, çox cəsarətlidir və İnsanı soyaraq lüt edir.

MƏHƏBBƏT nə qədər güclü olsa da O gül ləçəyi kimi çox zərifdir.

EŞQ susuzluq kimidir, yalnız vüsala çatanda sönür. Halbuki ONU okeanlar da söndürə bilməz. MƏHƏBBƏTİN rəğbətə, dostluğa ehtiyacı olsa da O, daha çox istəklə yaşayır, ümidlə qidalanır.

EŞQ utancaqlığa qalib gəlməyin ən sınanmış üsuludur.

İnsan üçün EŞQ, MƏHƏBBƏT ən ali duyğu və dəyərdir.

EŞQİ ayrılıq, hicran daha da gücləndirir.

Çılğın MƏHƏBBƏTDƏN qorxmaq lazımdır, çünki O hər an nifrətə çevrilə bilər.

MƏHƏBBƏTİN əsl mahiyyəti özünü düşünməkdən daha çox özünü başqa «Mən»də tapmaqdır.

EŞQ elə bir bəladır ki, bütün normal İnsanlar ONA mübtəla olmaq istəyir.

İnsanları qarşılıqlı hörmətdən belə MƏHƏBBƏT bir-birinə tez bağlayır.

MƏHƏBBƏT qəzəbi belə söndürməyə qadirdir.

MƏHƏBBƏT qüruru belə susdurur.

MƏHƏBBƏTİN qarşısında ölümün dəhşəti belə gücsüzdür.

MƏHƏBBƏT təbii ağac kimidir. O, ÖZ – ÖZÜNƏ bitir, İnsan varlığının ən dərin qatlarına kök atır, İnsan ürəyində böyüyərək həyatının sonuna qədər davam edir.

İlk rəssamın – Tanrının qələmini belə MƏHƏBBƏT yondu. Deməli, bütün Kainatı və İnsanın memarı belə EŞQDİR, İnsan onu SEVƏNİN məhsuludur.

İnsan yaradılışından gözəldir, SEVƏNDƏ daha da gözəlləşir.

EŞQ, xəstəsini belə məmnun edən yeganə xəstəlikdir.

Müdriklər söyləyiblər ki:

«MƏHƏBBƏT bütün ürəkləri açan bir açar kimidir».

«EŞQ ÖZÜNDƏN başqa bir loğman tanımaz».

«EŞQ civə kimidir. ONU açıq ovucda saxlasan da, yumruğun içində saxlaya bilməzsən».

Sülhü təmin edən yeganə silah MƏHƏBBƏTDİR,

Həyatda İnsan üçün ən böyük fəlakətlərdən biri də SEVGİNİN nifrətə çevrilməsidir.

MƏHƏBBƏTİN nə olduğunu bilməyən İnsan yaşamır deməkdir.

SEVMƏK başqalarının yaşamadığını yaşamaq, görə bilmədikləri möcüzəni görməkdir.

İnsan ağlını belə inkişaf etdirən MƏHƏBBƏTDİR. Çünki MƏHƏBBƏT İnsanı hər cür eybəcərliklərdən qoruyur.

SEVGİSİZ İnsan baxan, fəqət görməyən kor kimidir. Belə İnsana baxar kor da demək olar. İnsan ürəyindəki ən gözəl tumurcuq EŞQ tumurcuğudur.

EŞQ İnsan bədəninə daxil olanda ağıl belə oranı tərk edir.

SEVGİ, MƏHƏBBƏT İnsanlığın məhək daşıdır. ONA müqavimət göstərmək ONU yeni silahla silahlandırmaq deməkdir.

SEVGİSİZ həyatı yaşamağa dəyməz.

EŞQ, MƏHƏBBƏT ağla, məntiqə sığmaz. O, ağla, məntiqə qulaq assa, məhv olar. Çünki həqiqi EŞQ özünü unutmaq deməkdir.

İnsan yalnız SEVƏNDƏ yaşamağı öyrənir.

MƏHƏBBƏTDƏ riyakarlıq olmaz, olarsa o, MƏHƏBBƏT olmaz.

MƏHƏBBƏT İnsanı qoruya bilməsə də, onu həyata bağlayır.

İnsan xoşbəxtliyi yalnız SEVƏNDƏ dərk edir.

EŞQ ismətlə, namusla birləşərsə ən qiymətli cəvahirat alınar.

EŞQ dəniz dalğaları kimi qalxıb enir və sonda qayalara çırpılıb səngiyir.

Dünyanın heç bir neməti İnsanı SEVGİ qədər doyura bilməz.

Daş hasarlar belə SEVGİYƏ mane ola bilməz. ONUN mahiyyəti azadlıqdır. O, itaətlə, qısqanclıq və ya nifrətlə bir araya sığmaz. O, yalnız məcburiyyət qarşısında saralıb solar.

MƏHƏBBƏT əbədi bir ehtiyacdır.

EŞQİ müharibə kimi asan, bitirmək çətindir.

MƏHƏBBƏT ölümü belə unutdurur, onu boş bir xəyala çevirir. Çünki O, ölüm qorxusundan da güclüdür.

Müdriklər buyurublar ki:

«EŞQ çadırının qurulduğu yerdə məntiq axtarma».

«EŞQİN şövqünə can verməyənin ömrü zay olar».

MƏHƏBBƏT ehtirasların ən güclüsüdür. Çünki O, eyni anda həm ağıla, həm ürəyə və həm də bütün bədənə hakim kəsilir.

Şirin xəyallara dalmaq, göz yaşları axıtmaq, ah çəkmək, qəm, kədər, sevinc EŞQİN yol yoldaşlarıdır.

MƏHƏBBƏT o qədər güclüdür ki, ona mübtəla olan İnsanı yenidən yaradır. ONUN gücü dağları belə yarmağa qadirdir.

EŞQ sahibləri söyləyiblər ki:

«Olsaydı məndəki EŞQ, Fərhadi – mübtəlada
Bir ah ilə verərdi, min Bisitunu bada».

Alimin bütün həyatı boyu güc – bəla ilə öyrəndiyini MƏHƏBBƏT bircə gündə öyrənir.

MƏHƏBBƏT İnsanı böyük işlərə ruhlandırdığından onun kiçik işləri görməsinə mane olur. EŞQ, MƏHƏBBƏT duyğunun elm, məntiq üzərindəki qələbəsidir. Çünki EŞQ aləmində ağıl ürəyin kölgəsidir. Müdriklər demişkən:

«EŞQDİR hər nə var aləmdə
Elm bir qilü-qal imiş ancaq».

«EŞQ həyat həqiqətlərinin özündən gəlir».

Həm SEVMƏK, həm də qəddar olmaq qeyri – mümkündür.

Xoşbəxtliyə MƏHƏBBƏT, şəfqət və mərhəmətlə çatmaq olar.

EŞQ hər şeyin başlanğıcı, səbəbi və nəticəsidir. ONA heç nə hökm edə bilməz, əksinə, O, hər şeyə hökm etməyə qadirdir.

MƏHƏBBƏT əslində yaşamaq istəyidir. O, qorxu ilə bir araya sığmaz.

EŞQ İnsana kədərdən daha çox sevinc bəxş edir. ONUN ölçüsü və sərhədi yoxdur.

SEVGİ dolu ürək həmişə cavan qalar.

İnsan ən gözəl xatirələri üçün SEVGİYƏ borcludur.

AŞİQ eşq yolunda başını belə verməyə hazır olan seçkin İnsandır. AŞİQLƏRƏ görə Eşq dərdini dərdsizlərə söyləmək, Eşq cövhərini hər namərdə satmaq olmaz.

Bəladan zövq alan, can möhnətindən xoşlanan, boş həvəsi, mən – sən fikrini tərk edən İnsanlar gerçək AŞİQDİRLƏR.

AŞİQ məhəbbətin şövqü ilə can verməsə, ömrü boşa qədər.

AŞİQ olan candan keçər.

AŞİQ Eşq bağını möhnət ilə becərməli, nəfsini öldürməli, içinə Eşq nuru doldurmalıdır. Çünki EŞQ AŞİQLƏR üçün həqiqət yolunu işıqlandırır.

AŞİQİN könlü Eşqin xəlvət yurdudur, Eşq məskənidir.

Məkansız AŞİQİN məkanə Haqqdır. ONUN bədəni ölər, ruhu ölməz.

AŞİQİN daimi işi Məşuqu sevmək, qəm yeməkdir. Yuxarıda deyildiyi kimi Məşuq AŞİQİN ümidi, ümidgahı, qəmi, qəm dağıdanı, gözünün işığı, bədənindəki Ruhu, damarındakı qanı, həyatdakı gülü, bülbülü, sünbülü, reyhanı, laləsi, bənövşəsi, Göydəki Günəşi, Ayı, Ulduzu, xəyalındakı düşüncəsi, bir sözlə, hər şeyidir.

Məcazi anlamda AŞİQLƏRİN eşq oxları Səmanın sinəsini deşdiyindən şəfəqlər gülgün olub qan rənginə boyanır.

Eşq yolunda üz verən hər bir bəlanın AŞİQ üçün xüsusi bir zövqü var. Ona görə də AŞİQLƏRİ Eşqin vüsalından

məhrum eyləmək günah sayılır. Çünki AŞİQİN həyatı sevdiyinin vüsalındadır. Bu vüsala çatmaq üçün AŞİQ canından belə əl çəkər.

AŞİQİN Ruhuna sevdiyinin gözəl nitqi belə zövq verər.

AŞİQ ən böyük ehsan sahibidir. Bu anlamda ehsan verən AŞİQİN məhəbbəti ehsanı yeyən Məşuqun məhəbbətindən daha artıqdır. Çünki ola bilər ki, ehsan yeyən Məşuqun məhəbbəti ehsan verən Aşiqə yox, ehsanın özü olsun.

Dərd, qəm, bəla nəcib varlıqlar olan AŞİQLƏR üçün sağlam bir qidadır. Ən ağır sınaqlar AŞİQLƏRDƏ qürur doğurur.

AŞİQ Haqq yolçusudur. Bu yolda onun çırağı Eşqdir.

AŞİQİN qəlbində daima bahar gülür.

AŞİQ elə bir yoxsuldur ki, hər diləyi ən böyük zənginləri belə diz çökdürər.

Hicran – ayrılıq elə bir ağır yükdür ki, ona AŞİQDƏN başqa heç kim davam gətirə bilməz. Vüsal – qovuşmaq elə şirin bir şərbətdir ki, onu AŞİQDƏN başqa heç kim içməyə dözməz.

Ruhlar belə AŞİQLƏRİN dodaqlarında görüşürlər.

AŞİQLƏR vaxtın necə keçdiyini belə hiss etməzlər.

Aşiq üçün hər cəfa bir Məhəbbət, hər bəla bir səadətdir.

Aşiqlər Məhəbbətlə haqqa doğru uçarlar.

Eşq sövdası çıxılmaz bir yoldur.

Məhəbbətlə çırpınan bir çoban qəlbi kin və ədavət püskürən sultan qafasından daha şərəflidir.

Bütün bəşəriyyəti xilas edəcək bir qüvvə varsa, o da Məhəbbətdir.

Həyatda hər kəsin bir Eşqi, bir Tanrısı var.

«Gözəl sevimlidir, cəllad olsa da
Sevqi xoşdur, sonu fəryad olsa da» (H. Cavid).

«Sevgisiz bir başda əqrəblər gəzər» (H. Cavid).

Aşiqlər Eşq əhli üçün Məhəbbətdən bir Kəbə yapdırmışlar.

Məhəbbətsiz bütün xilqət mənasız bir heçdir.

Yaradılışdan məqsəd şübhəsiz ki, Məhəbbətdir.

Həyatda sevib sevilməyən bəxtiyar olmaz.

Dünyada varsa səadət, xoşbəxtlik o, Eşqdir.

«Hər Eşqin sonunda göz yaşı vardır
Axar damla – damla sel olub gedər».

İnsan qəlbinə ilham verən yeganə amil varsa, o da Eşqdir. Eşq insanın bilgi qaynağı, ilham mənbəyidir.

Məhəbbətin çox yönləri olduğundan onun çox dərinliyinə varmaq sonda İnsanı çox ağır təhlükələr qarşısında qoyar.

Dünyada Sevgi çox olsaydı, ölüm azalardı.

Sevgi insanlara Tanrı payıdır.

Məhəbbət insanı gözəlləşdirir, ülvüləşdirir.

Həzz və zövqlərin ən alisi Eşqdir. Həqiqi Eşq sadəliyi və gözəlliyi sevir. Sadəlik və gözəlliksə düzgün mühakimə və harmoniya ilə bağlıdır. Deməli, həqiqi Məhəbbətə azğınlıq, eşqbazlıq, pozğunluq və şəhvətlə bağlı şeyləri calamaq olmaz.

Hər hikmətin açarı Tanrı Sevgisidir.

Eşq elə bir şeydir ki, ürəyə düşən kimi sevdiyindən başqa insanın hər şeyini yandırır. Bu zaman Aşiq Eşqin səsindən özgə bir səs eşitməz, sevgilisindən başqa kimsəni görməz.

Eşq bütün dünya nəğməsinin sədasıdır.

Tanrı buyurmuşdur: «Mənim razılığım ilə bir-birini Sevənlər üçün Peyğəmbərlərin… belə qibtə edəcəkləri nurdan minbərlər vardır (Hədis)».

Peyğəmbər (s) buyurmuşdur: «Sevməkdə olduğu kimi, Sevgini söyləməkdə də savab vardır» (Hədis).

İctimai həyatı belə idarə edən ən mühüm amil hörmət və Məhəbbətdir.

Məhəbbətin bütün cəhətləri nuranidir.

Sevgi Tanrı qanununun icrasıdır.

Məhəbbətə ən layiq şey elə Məhəbbətdir. İnsanı səadətə sövq edən Məhəbbət ən böyük alqışa layiqdir.

İnsanın ən dadlı neməti, ən ülvü duyğusu, ən parlaq səadəti Məhəbbətdir.

İnsan qəlbi üçün ən saf sevinc Məhəbbətə əsaslanan ruhi ləzzətdir.

Məhəbbət bir dağ selidir ki, heç bir məcraya sığmaz.

Sevgi elə incə bir duyğudur ki, heç bir sözə, misraya, dastana sığmaz.

Məhəbbətin sonu ahdır, fəqandır. Buna baxmayaraq minlərlə insan onun qurbanı olub, olur və olacaq da.

Məhəbbət dildə yox, qəlbdə olur.

Eşq ilahi zənginlikdir.

Məhəbbətin yaradıcısı mərifətdir.

Eşq birdən – birə çarpan ildırıma bənzər.

Bütün insanların ürəyində Sevgi üçün zəmin, sevmək üçün imkan mövcuddur. Lakin heç də bütün hallarda imkan gərçəkliyə çevrilmir. Kimisi Məcnun, kimisi Doncuan olur. Sevgi və nifrət insan qəlbinin iki sirli, möcüzəli və təzadlı qütbüdür. Ürəkdən Sevən insan ürəkdən nifrət edə bilməz və əksinə, ürəkdən nifrət edən şəxs ürəkdən Sevə bilməz. Eyni vaxtda həm Sevmək, həm də nifrət etmək olmaz.

Sevgi risq deməkdir.

Sevgi zəkanın və təbiətin qanunudur.

Məhəbbətin nəfəsi dünya xausunu nizama salır.

Sevgi bütün kitabların kitabıdır.

Sevgi kədəri və sevinci, ölümü və həyatı, bir sözlə, bütün təzadları, ziddiyyətləri özündə birləşdirir.

Sevgidən könüllü imtina etmək özü özünü qətlə yetirmək deməkdir.

Sevgisizliyə çağırış mənəviyyatsızlığa çağırışdır.

Sevgini özündə öldürmək mənəvi cəlladlıqdır.

Sevməməklə öyünmək öz ölümünü alqışlamaq deməkdir.

Məhəbbət irsən keçmir, onu insan özü yaradır.

İnsan öz Sevgisi ilə ömrün yeni bir mərhələsinə qədəm qoyur.

İnsan qəlbi Sevgi ilə doludur, lakin O bir çox insanlarda üzə çıxa bilmir, çünki buna onun günahları mane olur.

Tanrı öz düşünən və danışan övladını elə yaratmışdır ki, o, digər canlılardan fərqli olaraq həm də Sevə bilir. Deməli, insan digər canlılardan təkcə təfəkkürü, ağlı, nitqi ilə deyil, habelə Sevgisi ilə də fərqlənir.

İnsan min illərdir ki, «Qiyamət günü»nə, «Axirət aləmi»nə, Tanrıya doğru intəhasız bir yol getməkdədir. Bu yolda onu uçurum və vadilər, eniş və yoxuşlar, ənginlik və labrintlərlə yanaşı həm də insanlara xas olan Məhəbbət,

xeyirxahlıq, ehtiras və cəhalət müşayət edir. İnsan itirə – itirə, qazana – qazana, öz günah və xeyirxah əməlləri ilə yüklənərək Tanrı dərgahına doğru yol gedir.

## III FƏSİL
## Türklərin tarixi missiyası

### Dünya və Türklər

**İnsan yaranandan düşmənçiliklə qarşılaşıb. Bu düşmən ilk öncə Şeytan idisə, daha sonra Şeytana qardaş Qabil qoşuldu. Qabil Habili öldürdü. Beləliklə fərqlilik yarandı. Fərqlilik köləlik, köləlik quldarlıq, quldarlıq isə arsızlıq, əxlaqsızlıq yaratdı.**

Qorxu və inamsızlıqla yola çıxan İnsan yeni düşüncə və idarəçilik formaları icad etdi. İnsanlar bir-birlini öldürərək, bir-birini kölə edərək və nəhayət, biri ağa, biri qul olana qədər çarpışaraq vuruşdu, üst İnsan, orta İnsan, alt İnsan formalaşdırdı. Bu düzən belə davam edə-edə, nəhayət, «Birələr Filləri» uddu, irqçilik yarandı.

Hələlik dünya tarixşünaslığının qəbul etdiyi ilk dövlət sayılan Şumerlərdən tutmuş Elam, Misir, qədim Anadolu, Asur, Midiya, Yunan, Roma, Çin, Hind, Etrüsk və qədim Germanlara, ilk dinlərdən tutmuş bəlli başlı dinlər olan Buddizm, Hinduizm, Musəvilik və Xristianlığa qədər bəşər tarixinə bəlli bütün dövlət və dinlərdə insanlar siniflərə bölünmüş, insanlıq bu və ya digər dərəcədə aşağılanmışdır. İnsanlar ağalara və kölələrə bölünmüşdür.

Dünya tarixinin hər səhifəsində bu və ya digər dərəcədə yeri olan Türklərin üç qitədə min beş yüz illik hakimiyyəti dönəmində köləlik olmamışdır. Əksinə, Türklər özlərindən daha çox hakimiyyətləri altına aldıqları xalqlara fövqalədə parlaq dövrlər yaşatmışlar. Onlar yalnız ayrı-ayrı xalqları hakimiyyətləri altında saxlamaqla yetinmiş, onların normal

həyat tərzlərinə, adət-ənənələrinə, dinlərinə hörmətlə yanaşmış, hətta onlarla qaynayıb qarışmış və bugünkü superetnos olan yeni Türkləri meydana gətirmişlər.

Halbuki bugünkü Avropa mədəniyyətinin beşiyi sayılan Roma imperatorluğunda kölələr hətta alətlər sinfinə aid edilmişlər. Roma ideoloqlarına görə alətlər üç qismə ayrılır. Səssiz alətlər – arabalar, söz söyləməyən alətlər – heyvanlar və söz söyləyə bilən alətlər – kölələr.

Tarixin dırnaqarası «mədəni» xalqlarından fərqli olaraq tarixin heç bir dönəmində Türklər özlərinə qul saxlamamış, üzərlərində hakim olduqları xalqlardan qul kimi istifadə etməmişlər. Özləri də heç kimə qul olmaq istəməmişlər. Hətta ərəblər tərəfindən əsir alınaraq xilafətin mərkəzinə gətirilən və «məmlük» adlandırılan Türklər az zaman keçməmiş hakimiyyəti ələ almış – «Məmlük Türk dövləti» yaratmışlar.

Tarixdə Türklərdən başqa Həzrəti Adəmdən bu günə qədər para ilə satın alınan əsirlərin sultan olduğu heç bir yerdə görünməmişdir.

Miladdan öncə birinci minillikdə Zaqros dağları ətrafında yaşayan ön Turanlılar özlərini Perslərdən fərqləndirmək üçün özlərinə «Ari» – Təmiz, perslərə isə «çirkli» dedilər. Gerçəkçi düşüncələri, əxlaqi əsaslara bağlılıqları, dini duyğularının qüvvətli olması baxımından özlərini «Ari» adlandıran ön Turanlılar dövlət qurduqları bir dönəmdə perslər hələ qəbilə dövrünü yaşayırdılar. Miladdan öncə doqquz yüzüncü illərdə Turanlıların qorxusundan güneyə doğru köç edərək Pers imperatorluğu quran farslar daha sonra Turan mədəniyyətinin bir çox ünsürləri ilə yanaşı, «Ari» sözünü də mənimsəyərək özününküləşdirdilər və daha sonra sözün ilkin mənasını tamamilə dəyişdirərək ona irqçilik donu geydirdilər. Nəhayət, bu söz Avropalıların üstün irq iddialarının təməl daşına çevrildi.

Qədim Türklərdə «Aydan arı, sudan duru» kimi «təmzlik, paklıq» anlamında olan «Ari»liyi özününküləşdirən, ağa-qul tendensiyasını saxlayan perslər ön Turanlılardan fərqli olaraq öz əxlaqi çinkinliklərindən əl çəkməyərək hətta ən ali sayılan

xanədan üzvləri belə ailəiçi evliliyi – bacı, qardaş, ata qız evlənmələrini saxladılar və buna da «təmiz» qan adı qoydular.

Ön Turanlılardan sonra tarix səhnəsinə çıxan Hunlar, Göytürklər, Qaraxanlılar, Qəznəvilər, Səlcuqlular, Atabəylər, Moğollar, Osmanlılar, Qaraqoyunlular, Ağqoyunlular, Teymurilər, Səfəvilər və s. kimi Türk imperatorluqlarında çox ciddi əxlaqi ailə disiplini hökm sürmüş, Roma imperatorluğundakı kimi ağa-qul münasibətləri olmamış, yalnız savaş əsirliyi və qəbilə tabeliyi olmuş, heç bir irqi ayrıseçkiliyə yol verilməmişdir.

Tarixin heç bir dönəmində Türklər savaş əsirləri ilə Assurlular kimi – ələ keçirdikləri düşmənin dərisini soyub zəbt etdikləri şəhərin qapısından asmamış, farslar kimi fillərə çeynətməmiş, şirlərə parçalatmamış, qədim yunanlar və romalılar kimi əsirləri qladiator döyüşünə çıxarıb bir-birinə parçalatmamış, diri-diri minlərlə insanı çarmıxa çəkdirməmiş, qadın və cocuqları birlikdə öldürməmiş, islamdan öncəki ərəblər və Amerikanı fəth edən Avropalılar kimi əsirləri toplu halda tonqalda yandırmamış, başqa xalqlar kimi onların bədən üzvlərini ayrı-ayrılıqda kəsərək işgəncə ilə öldürməmiş, ermənilər kimi hamilə qadınların qarnına qaynar samovar bağlamamış, cocuqların başının dərisini soymamış, trubalara doldurub hər iki tərəfdən qaynaqlatmamış, serblər kimi kütləvi şəkildə diri-diri torpağa gömməmiş, faşistlər kimi insan dərisini soymamış, ingilislər kimi plantasiyalarda qulları bir qarın çörəyə gecə-gündüz işlətməmişlər.

Tarixin «mədəni» xalqlarından fərqli olaraq Türklərdə tarixən siniflərə bölünmə anlayışı olmamışdır. Millət bütünlüklə ordudan ibarət olmuşdur. İnsanları miskinləşdirən, onları üstünlük sırasına görə siniflərə ayıran Buddizm, İnduizm, Veda dini də Türklərin sosyal bərabərlik sistemini poza bilməmişdir. Əksinə, Hindistan sosyal həyatının əsas ünsürü sayılan kasta sisteminin zillətindən Türk-Hind imperatorluğu dönəmində, qismən də olsa, qurtulmuşdur. Hələ XVI yüzillikdə Türk Əkbər Şah Hindistanda böyük sosial reformalar həyata keçirmiş, siniflər fərqini aradan qaldırmağa çalışmış, hindlilərlə müsəlmanların bərabərliyini təmin etmiş və tarixdə «savaş

əsirliyini aradan qaldıran ilk xaqan» adını qazanmışdır. Bütün bunları və Türklərin Hindistandakı başqa fəzilətlərini yüksək dəyərləndirən müstəqil Hindistanın ilk baş naziri Nehru bu gerçəyi minnətdarlıqla belə ifadə etmişdir:

Hindistanda böyük sosial reformalar həyata keçirmiş, siniflər fərqini aradan qaldırmağa çalışmış, hindlilərlə müsəlmanların bərabərliyini təmin etmiş və tarixdə «savaş əsirliyini aradan qaldıran ilk xaqan» adını qazanmışdır. Bütün bunları və Türklərin Hindistandakı başqa fəzilətlərini yüksək dəyərləndirən müstəqil Hindistanın ilk baş naziri Nehru bu gerçəyi minnətdarlıqla belə ifadə etmişdir:

«Hindistanın quzey batısından gələn mücahidlərin (təbii ki, Türklər nəzərdə tutulur – A.M.) və islamın Hind tarixindəki əhəmiyyəti böyükdür. Çünki islam (Türklər vasitəsilə Hindistana aparılan islam – A.M.) Hind cəmiyyətində yayqın olan fəsadı söndürmüş, sinif ayrılığını və insanları cəmiyyətdən təcrid etmə – pariya sistemini aradan qaldırmış… müsəlmanların inandıqları və yaşadıqları İslam qardaşlığı və bərabərliyi nəzəriyyəsi Hindlilərin təfəkküründə dərin təsir yaratmışdır».

Bəşər tarixinin «mədəni» xalqlarından fərqli olaraq tarixən Türklər heç bir xalqı «barbar» adlandırmamışdır. Lakin Türklərə gücü çatmayan, onları öz əsarəti altına ala bilməyən çinlilər, romalılar, farslar, ərəblər Türkləri «barbar» adlandırmış, əsir aldıqları Türklər və başqa xalqlarla son dərəcə qəddar davranmışlar.

İlk öncə yunanca danışarkən fikrini tamam anlada bilməyənlər, daha sonra başqa xalqlara, sonda isə insanları köləyə çevirmək üçün «mədəni olmayan» anlamına gələn «barbar» sözü, nəhayət, yunanlara düşmən olan xalqlara verilən bir ad oldu. Hətta tarixdə yunanca danışanlardan heç kimə «barbar» deyilmədi. Özgələri «barbar» adlandıran yunanlar ən inkişaf etdikləri dövrlərdə belə tarixdə analoqu olmayan, insan ləyaqətini tapdalayan, köləliyi dövlət siyasətinin ana xəttinə yüksəltmiş, toplumun doxsan faizini köləyə çevirmişlər. Bu isə insanlıq tarixində ən böyük barbarlıqdır.

İnsan mənəviyyatını, ləyaqətini alçaldan bu yanaşma tərzi nə qədər barbar, vəhşi olsa da XVIII əsrdə mədəni Avropada köləlikdən insanlıq üçün daha iyrənc olan irqçilik yarandı.

Mədəni Avropanın ən böyük düşünürləri belə **irqçilik** azarından qurtula bilməmişlər. Belə ki, ingilis düşünürlərindən Con Foskedən tutmuş fransız Volter və Monteskuyə, şotland David Humdan tutmuş alman Kant, Hegel və Şellinqə və ən nəhayət, irqçiliyin simvoluna çevrilmiş Fridrix Nitşe və faşist Hitlerə qədər bu ideyanın daşıyıcıları və sonda «Dünyadakı bütün alt insanların yox edilməsi» fikrinə gəlib çıxmış və zaman-zaman hətta bunu həyata da keçirmişlər. Halbuki, tarixdə heç bir Türk düşünürü irqçiliklə bağlı bir cümlə belə söyləməmişdir.

Üç qitədə minillik bir hakimiyyətə sahib olan Türklər tarixə yön verən böyük mədəniyyətlər yaratmaqla yanaşı, heç bir dövrdə irqçiliklə bağlı tarixi bir qüsur işlətməmişlər. Onlar Tanrının Qırmancı Atillanın: «Tək ataya və irqə dayanan bir millət zəifdir. Bizə qatılmaq istəyən bütün yabançılara qucaq açmaq, onlara sayqı göstərmək, dilimizi, adət-ənənələrimizi öyrətmək vəzifəmizdir» vəsiyyətinin birinci hissəsinə bütün tarix boyu əməl etmişlər. Əgər belə olmasaydı Türklərin hakim olduğu məmləkətdə heç bir xalq XXI yüzilə öz adları ilə gəlib çıxa bilməzdilər. Onda tarixdə nə rus, nə fars, nə ərəb, nə yunan, nə bolqar, nə alban, nə serb, nə xorvat, nə rumın, nə erməni, nə də kürd qalardı. Söhbət minillik bir hakimiyyətdən gedir.

Çox təəssüflər olsun ki, Türklər bu ulu şəxsiyyətin vəsiyyətinin ikinci hissəsinə – dil və adət-ənənənin öyrədilməsinə əməl etməmiş və bununla da tarixi bir xəta etmişlər ki, bu xətanın əzabını indiki bizlər çəkirik.

Tarixdə Türklər irqçi deyil, beynəlmiləlçi, təqlidçi, qorxaq deyil, yaradıcı, igid, cəsur millət olublar.

Əfsuslar olsun ki, Türklər tarixi yaratdı, amma yazmadı.

Tarixdə Çinlilər, Hindlilər, Slavyanlar, Romalılar, Bizanslar, Yunanlar, Germanlar, Fransızlar, Farslar, Ərəblər, bir sözlə, dünyanın bəlli başlı xalqları və dövlətləri ilə bu və ya başqa şəkildə əlaqədə və mübarizədə olan Türklər adı çəkilən

hər bir xalqın və dövlətin tarixində və mədəniyyətində öz sözünü dedi. Fəqət bunları yazıya köçürmədi. Ona görə də Türklər haqqında yazıda yalnız düşmən fikir və mülahizələr kök saldı. Türkün qılıncına gücü çatmayan düşmənləri qisası qələmlə aldılar. Onlar Türkün yaratdığı bütün maddi, mədəni və mənəvi dəyərləri özününküləşdirdi, əvəzində Türklər düşmən qələmində «barbar», «vəhşi» və s. adlandırıldı.

Türk düşmənçiliyi təkcə təmasda olduqları ərəblərin, farsların, rusların, çinlilərin, yunanların əsərlərində deyil, onların vasitəsilə heç bir zaman qarşı-qarşıya gəlmədikləri xalqların da tarixi mənbələrində öz əksini tapmışdır. Bütün bunlar isə sonda dünya tarixşünaslığında bir Türk düşmənçiliyi ideyasını formalaşdırmışdır.

Dünya tarixini bir cümləyə sığışdırmalı olsaq, belə bir deyim alınar: «Tarix xalqların bir-biri ilə mübarizəsi tarixidir». İstər qılıncla, istərsə də qələmlə olsun.

Bu mübarizədən qalib çıxanlar yaşama haqqı qazanır, məğlub olanlar isə tarixə qovuşurlar. Tarix bir etnos üzərində yeni-yeni super etnosları formalaşdıraraq dünyada hakim mövqeyə çıxarır. Üzərində formalaşan hakim etnoslarda tənbəllik, ağalıq, mənəm-mənəmlik yarandığından müəyyən bir tarixi dövrdən sonra əlindən heç bir iş gələ bilməyən bu hakim etnosun özü məhkum etnosa çevrilir və yerini dövlətdə daha çox əməyə cəlb edilən, hər işdən başı çıxan etnosa təhvil verir. Bu gün biz Türklər iki yüz illik əməyə cəlb edilmiş etnoslardanıq. Zaman yetişib. Tarixdə öz sözümüzü yenidən deməliyik. Tarixi xətalarımızdan ibrət dərsi almalıyıq.

XX əsr millətlərin sınaq əsri idi. Bu əsrin sınağından çıxan millətlər tarixdə yaşama haqqı qazandılar.

XXI əsr isə mllətlərin yarış əsridir. Bu əsrdə yarışdan qalib çıxan millətlər hər şeyi diktə etməyə qadir olacaqlar. Yarışdan geri qalmamaq üçün çox şey lazımdır. Lakin ən əsası özünəinamdır.

Özünə inan, ey Türk! Sən özünə inansan, yenidən böyük olacaqsan!

## Türklərin Cahan Hakimiyyəti idealı

Ən azı beş min illik dövlətçilik tarixinə malik olan bir millətin təbiidir ki, özünəməxsus mənəvi – əxlaqi, dini – fəlsəfi dünyagörüşü olmuşdur. Çox təəssüflər olsun ki, indiyə qədərki tədqiqat əsərlərinin çoxu subyektiv xarakter daşımış, ideoloci – siyasi düşüncə sisteminə tabe tutulmuş, Türk millətinin tarixi, mənəvi – əxlaqi, dini – fəlsəfi dünyagörüşü tamamilə saxtalaşdırılmışdır.

Tarix şüuru din duyğusu qədər qədimdir. Bu şüur insanların mənəvi aləmi və mədəni səviyyəsi yüksəldikcə daha da zənginləşmiş, dərinləşmişdir. İlkin ibtidai dövrlərdə ata – babalara təzim və onların təqdis edilməsi əcdad kultlarının təşəkkül tapmasına və getdikcə milli hiss və duyğuların yaranmasına gətirib çıxarmışdır.

Həyatın insanlığa yüklədiyi imtahanların sonu yoxdur. Bu anlamda hər bir millət və xalq da sonu görünməyən sınaqlar qarşısındadır. Bu imtahanlardan şərəflə, ləyaqətlə çıxan xalq və millətlər həyatda yaşamaq haqqı qazanırlar. Tarix göstərir ki, bu yaşama haqqını qazanmaqda xalq və millətlərin elmi, texnoloci və iqtisadi inkişafı ilə yanaşı mənəvi dəyərləri də mühüm əhəmiyyət kəsb edir. Din, əxlaq, hürriyət, ədalət və bunlara dayanan bütün mənəvi dəyərlər millətin yaşama haqqına bağlı dəyərlərdir.

Bu maddi və mənəvi dəyərləri vəhdətdə götürən Türk xalqı tarixin amansız sınaqlarından şərəflə çıxaraq həyatda yaşama haqqı qazanmışdır. Türk başlanğıcını mükəmməl bir soydan alan, təkamül yolu ilə formalaşan əzəmətli bir millətin adıdır.

Türklər bu bəlalı Yer kürəsinin cəfakeş övladları olmuş, Onlara «Yetkin İnsan» anlamına gələn «Türk» adını Tanrı Özü vermişdir (Mahmud Kaşqarlı).

Bəşər tarixinə özünün mənəvi – əxlaqi damğasını vuraraq qəbilə, tayfa, xalq və nəhayət millət mərhələsinə yüksəlmiş Türk kimliyi insanlığın yetkinlik, kamillik zirvəsinə ulaşmışdır.

Türk kimliyindən soyundurulmuş, təcrid edilmiş bəşər tarixi quru, cansız bir cəsədə bənzəyər. Bütövlükdə bəşər tarixi bir Bədəndirsə, Türk onun Ruhudur. Bədəni Ruhsuz təsəvvür etmək, Kainatı Tanrısız təsəvvür etmək deməkdir. Bütün bunları nəzərə alan və Türklərlə birbaşa əlaqədə olan dünyanın bir çox müdrik və dahi şəxsiyyətləri göstərmişlər ki:

«Türklər hansı işə əl vurarsa, mütləq bacarar. Bəsrənin ədəbi, yunanın hikməti, Çinin sənəti Türk üçün çoxdan məlum şeylərdir» (Cahiz).

«Kəsə Türk dilində həm dadlı, həm də heybətli danışa bilmək üçün Türk doğulmaq lazımdır. Bununla belə Türk dilini öyrənməyim mənim üçün ən böyük xoşbəxtlik oldu» (Qolland).

«Türklərin qalibiyyətləri kimi məğlubiyyətləri də şanlı və ibrətlidir. Onlar özlərinə yaraşan bir igidlik və qəhrəmanlıqla ölməyi bacarırlar» (Eugen).

«Konstantinapolu 1204 – cü ildə işğal edən xristianlarla müqayisədə 1453 –cü ildə işğal edən Türklər olduqca humanist hərəkət etmişlər» (Uspenski).

«İstanbulda qalıram. Çünki Türkləri sevirəm. Onlar Cənnətdən bir guşə olan bu bənzərsiz məmləkətə yaraşan bənzərsiz insanlardır» (Bonneval).

«Türklər xristianlardan fərqli olaraq xaçpərəstlərlə çox gözəl davranmışlar. Dinlərinə, mülklərinə, dillərinə, hətta qanun və idarələrinə də toxunmayıblar» (Urquhard).

«Türklər dəfələrlə güzəşt etmək məcburiyyətində qalan, hiylə və intriqaya əsaslanan diplomatiyanı Öz fatehlik və alicənablıq ləyaqətlərinə yaraşdırmazlar» (Vanda).

«Türklər digər dinlərə qarşı kin duymazlar. Onlar yalnız bütpərəstlərlə dinsizləri kiçik tutarlar» (Dozy).

«İstanbul bütün gözəlliyi və həşəməti ilə Türkə yaraşır. Türk uzun əsrlər axtara – axtara özü üçün yaradılan bu Cənnət guşəsini tapdı» (Theopil Gantier).

«Gəlin, Türkün əzəli vəziyyətləri, tarixi fəzilətləri və yüksək qabiliyyətlərini inkar etməyək» (Beacon Spiel).

«Türklər yaltaqlıq, yalvarmaq, aldatmaq, ikiüzlülük, yalançılıq, kələk, hiylə, dostlarına qarşı təkəbbür, yoldaşlarına qarşı fənalıq, pis niyyət nədir bilməzlər» (Cahiz).

«Mən Türklərin millətləri idarə edə bilmələrindəki sirrini də anlayıram. Onlar millətlərə bir dəfə qalib gəlir. Qazandıqları zəfəri ruhlarında və nəsillərdə yaşatmağı bacarırlar» (General Çernyayev).

«Türklərin qonaqpərvərlikləri, əhdə sədaqətləri, iztirab çəkənlərə qarşı şövkət və mərhəmətləri dillərdə dastandır» (Sezar Cantu).

«İstanbulda yaşadığım müddətdə tanımaq fürsətini bulduğum Türk xalqına qarşı dərin və içdən gələn bir simpatiya duyuram» (Cules Lermina).

«Türk səssiz, sakit və ciddi, böyük bir ağıl sahibi və yaxşı bir müşahidəçidir. Ancaq iş həyatında hiyləgər və yalançı deyil. Ticarətdə uğur qazanmamasının səbəbi də budur» (Busbucq).

«Zülmü qəbul etməyən bir igidlik sahibi, geniş qələbə eşqi, mühitləri özünə uyğunlaşdırmaq zövqü, meyli və qabiliyyəti Türklərin əsrləri dolduran tarixində açıq – aydın görünür və oxunur» (Hammer).

«Müəzzəm ruhlu Türk millətinin arasında Vətənimi unutmaqdan qorxuram. Vətən çox əzizdir, lakin Türk də əziz və çox əzizdir» (Qonte de Bonneval).

«Türklər İmperatorluğun şərəf və inkişafı üçün həyat və zəkalarını sərf edənləri mükafatlandırdıqları kimi, fəzifələrini yerinə yetirməyənləri də cəzalandırmaqdan geri qalmazlar» (Vanda).

«Türklərin ürəkləri təmizdir. Onlarda boş fikirlər, əcaib düşüncələr yoxdur. Türklərin vücudları və səsləri kimi danışdıqları dil də əzəmətlidir» (Cahiz).

«Türk əsgərlərinin qəhrəmanlığı, cəsurluğu bütün Birləşmiş Millətlərə və xüsusilə Amerika xalqına bir ilham qaynağı olmuşdur» (Ross).

«Çox mərd və ləyaqətli gördüyüm Türk xalqını yaxından tanıdığım zaman məmnunluq duydum» (Henri Kissincer).

«Türklərin göstərdiyi qəhrəmanlıq sadəcə Türk xalqı üçün deyil, bütün dünya tarixi üçün əhəmiyyətlidir» (Ross).

«Bütün siniflərin bərabər olması duyğusu, hikmət və ahəng dolu saysız – hesabsız atalar sözlərində ifadəsini tapmış mütləq tənasüb, bir növ patriarxal sadəlik, hər cür bayalılığı

özündən uzaq tutan Türk xalqının ən gözəl xüsusiyyətlərini təşkil edir» (Karl Barth).

«Ancaq mərd, böyükürəkli Türklərin yanında yer aldığımızı göstərmək və Onları (Türkləri) haqq, həqiqət, ədalət naminə müqəddəs hesab etmək üçün biz də eyni şeyi edəcəyik, tarixi gur səslə çağıracayıq» (Vilyam Pitt).

«Türklər öz aralarında yaşamağa izn verdikləri və ehtiqadsız tanıdıqları insanları Avropanın bir çox yerində əsrlərlə edildiyi kimi odda yandırmadılar» (Bayron).

«Türklərin tarixdə gördüyü işləri bir kəlmə ilə qəhrəmanlıq adlandırmaq olar. Bunun üçündür ki, Türklərə heyranlığım bir qat daha atmışdır» (Ross).

«Fikir azadlığına, vicdan azadlığına toxunmayan adil Türklərin varlığı heç olmasa sabah belə bir ölkənin var olacağını mənə hiss etdirir» (Kampanella).

«Türklərin dinlərinə və böyüklərinə sədaqətləri nəhayətsizdir. Bu sədaqəti başqa millətlərə aşılamağı belə düşündülər» (Bayron).

«Herodotun Türkinaus, Tövratın Toqarıma deyə haqqında danışdığı Türk, bu tarixçidən və bu müqəddəs Kitabdan daha qədim əsrlərin tanıdığı bir millətdir» (Hammer).

«Türk əsillərin əslidir. Süni olmayan bu yüksək əsilzadəlik Ona (Türkə) Təbiətin hədiyyəsidir» (Pyerre Loti).

«Şərq hiylə və əfsanələr aləmidir. Türk o rəngarəng aləmin gözüdür, dilidir, işığıdır və yaşayan həqiqətidir» (Pyerre Loti).

«Türklərin mədəniyyət əsrinə girmələri üçün yalnız qədim keçmişlərinə dönüb baxmaları kifayətdir» (Ziya Göyalp).

«Böyük Türk! Sənin böyüklüyünün hüdudu yoxdur» (Atatürk).

«Türkləri öldürmək olar, ancaq məğlub etmək olmaz» (Napoleon).

«Türklər bir soy, bir millət olaraq Yer üzünün ən şərəfli insanlarıdır (Lomartin).

«Türklər düşmənlə vuruşarkən amansız bir qasırğaya, qorxunc bir dənizə, insafsız bir ildırıma bənzərlər. Onlar dost qarşısında bir səhər mehi,aydın bir göldür» (Tasso).

«İnsanlığa şərəf verən Türk millətinin düşməni olmaq insanlığa düşmən olmaqdır» (Lomartin).

«Türklər ya ölərlər, ya hicrət edərlər, fəqət qul olmazlar» (Əlibəy Hüseynzadə).

«Mənim bir ordum var, adına Türk deyərlər. Kim Sənə (Peyğəmbərə) tabe olmasa, Mən Öz Ordumu o xalqın üzərinə yeridərəm» (Hədis).

«Türk dilini öyrənin, çünki Onlara (Türklərə) uzun müddətli hakimiyyət verilmişdir» (Hədis).

«Düşmənə hücum edəkən ildırıma bənzəyən Türk, dost yanında və silahsız qalmış düşmən önündə bir səhər mehi, şəffaf bir dənizdir» (Tasso).

«Qılıncı insafsız bir məharətlə işlədən Türk əli, məğlub etdiyi düşmənin yarasını sarımaqda da ustadır» (Bayron).

«Biz Türklərin kobudcasına tapdanmış haqlarını da müdafiə etmək istəyirik. O Türklərin ki, sevdikləri yeganə şey haqdır, həqiqətdir, heç bir haqsızlıq etmədikləri halda haqsızlığa məruz qalmışdır» (Vilyam Pitt).

«Bütün Türklər bir fikir üzərində düşüncəyə dalmış filosoflara bənzəyirlər. İnsan paşadan tutmuş kiçik bir baqqala qədər bütün Türklərin eyni məktəbdə yetişmiş, eyni mərtəbəyə sahib olan senyorlar olduqlarını zənn edir» (Karl Barth).

«Türklərin alicənablıqları alınlarında və əməllərində yazılıbdır» (Lomartin) və s.

Bütün bu fikir və mülahizələr bir yerə toplansa mükəmməl bir kitab olar.

Türk Tanrı tərəfindən bəşəriyyətə ərməğan edilən xüsusi missiya sahibidir. Türksüz bəşər tarixi etibarsız, içiboş, mənasız, ölü məzarıstana bənzəyərdi.

Türkün doğuşu Cahan üçün bayram, ölümü matəmdir. Tarix boyu ədalətə dayanan bir hakimiyyət quran Türklər milli, dini və insani duyğulara bağlı qalaraq bunların ahəngi içərisində Cahan hakimiyyəti idealına inanmış, əsrlər boyu Çin, Orta Asya, Sibir,,Hindistan, Rusya, Əfqanıstan, Xorasan,

Yaxın Şərq, İran, Azərbaycan, Qafqaz, İraq, Anadolu, Surya, Rumeli, Şərqi və Orta Avropa, Balkanlar, Misir və bütün Şimali Afrikada hökmranlıq etmiş, tarix boyu bir çox dövlət və imperatorluqlar qurmuşlar. Bunlardan Şərqi Hunlar, Qərbi Hunlar, Ağ Hunlar, Xəzərlər, Göy Türklər, Uyğurlar, Qarluqlar, Bulqarlar, Qaraxanlılar, Qəznəvilər, Xarəzmlər, Səlcuqlular, Moğollar, Tulunilər, İxşidilər, Osmanlılar, Elxanilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və s. tarixin danılmaz dövlət və imperatorluqlarıdır. Bu müəzzəm tablo Türklərin iki min beş yüz illik bir mədəniyyətə sahib olduqlarının göstəriciləridir.

Tanrının bütün Kainata hakimliyini qəbul edən Türklər Cahan hakimiyyətini onlara Tanrının həvalə etdiyi düşüncəsinə inandıqlarından bu Tanrı əmanətinə sayğı göstərmək üçün təkcə özlərinin deyil, hakim olduqları bütün məmləkət, xalq və dinlərin hamisi kimi çıxış etməyi özlərinə borc bilmiş və üç qitədə hakim olduqları min illik hakimiyyətləri dönəmində bu Tanrı borcunu yerinə yetirməyə səy göstərmişlər. Bir yandan sayı bəlli olmayan səkkizayaq xərçəng Çinlə, bir yandan qoyun dərisinə girmiş canavar perslərlə, bir yandan nüfuzlu və əridici Bizans İmperatorluğu ilə, bir yandan barbarlıqlarını hələ tam atmamış slavyanlar, latınlar, germanlar, anqlo – saksların istila alətlərinə çevrilmiş mürtəce kilsə xristianlığı ilə uzunmüddətli mücadilələr belə Türkləri sarsıda bilməmiş, əksinə İsa Məsihdən on səkkizinci əsrə qədər tək bir qələbə göstərilə bilməz ki, o nəticə baxımından Türklərinki qədər böyük və cahanşümul olsun.

Təbiətlə birgə addımlayaraq bişən, Təbiət və Cəmiyyət qanunlarını qavrayan, müsbət düşünüb müsbət davranan Türklər insanlıq üçün sözün həqiqi anlamında bir Tanrı neməti olmuşdur. Əgər Türklər olmasaydı xaçlıların və ərəb ortodokslarının əlində bəşər sivilizasiyasından, mədəniyyətindən əsər – əlamət belə qalmazdı. Şərqin ilk rönesansı – intibahı Türklərin adı ilə bağlıdır. Avropanın XVI əsr rönesansını Türklər XII əsrdə həyata keçirmişdilər. Tolerantlığı dünyaya bəxş edən ilk millət də məhz Türklərdir. Belə ki, xaçlıların və ərəblərin din qovğaları ilə xarabazarlığa

çevrilən Şərq Səlcuq, Osmanlı və Səfəvi Türklərinin sayəsində yenidən canlandı, bölgəyə bir sakitlik, bir sülh hakim oldu. Türklər Yaxın Şərqə ümumi bir nizam – intizam, sabitliklə yanaşı bir doğruluq, bir ədalət gətirməklə Romalıların «Haqq güclünündür, zorundur» tezisini tarixə gömdülər. Bütün dünya hüququ bu gün belə Türklərin «Haqq ədalətdədir» tezisinin damğasını daşımaqdadır. Bu damğa ilə özü və üzü qapqara bir aləmə Türklər yalnız doğruluğu, bir – biri ilə anlaşma zehniyyətini, ədaləti gətirməmiş, həm də onları əməlləri ilə yerinə yetirmişlər. Türklər haqq, ədalət yolunda milyonlarla şəhid vermiş bir millətdir.

Türklərin bu ədalətli və insani dünya nizamı məfkurəsi və onun tətbiqi sayəsində gördükləri işlərin nəticəsidir ki, tarixən Ərəb Xilafəti və Bizans İmperatorluğundan təzyiq və zülm görən bir çox xalqlar, xüsusən, xristian xalqları orta əsrlərdə öz milli varlıqlarını və dinlərini qoruyub saxlamaq üçün Türklərə sığınmış, onları özlərinin xilaskarı sanmış, Türk hakimiyyətini könüllü olaraq qəbul etmişlər. Orta əsr Türk, İslam qaynaqları ilə yanaşı xristian mənbələri də Türklərin bir hami, bir qurtarıcı olduqlarını təsdiqləməkdədir.

Türklər tarixən hakimiyyətləri altında olan xalqlarla özləri arasında heç bir ayrı – seçkiliyə yol verməmişlər. Bütün bunlar xristianlığın «Yaşamaq üçün qovğa» təfəkkürünün əksinə olaraq Türk sülh və əmin – amanlığı, ədalət və doğruluğu Türklərin orta əsr dünyasına nə bəxş etdiyini bir daha tarix qarşısında sərgiləməkdədir. Əgər Türklərin Cahan hakimiyyəti ideyası ədalətə, insanlıq duyğularına, millətlərin arzu və istəklərinə əsaslanmasaydı, Türk hakimiyyətinin əzəmət və qüdrətinin uzun əsrlər boyu yaşaması da mümkün olmazdı. Türklərin ədalətə, insanlıq duyğusuna, hakim olduqları xalqların arzu və istəklərinə əsaslanmasının nəticəsidir ki, Onlar ingilislərin ancaq yüz il hakim ola bildikləri Hindistanda doqquz yüz il, Qərbi Avropalıların əlli – atmış il əsarətdə saxlaya bildikləri ərəb ölkələrində təqribən min il hökmranlıq etmişlər. Çünki Türklər Avropalılardan fərqli olaraq yerli xalqlara ikinci dərəcəli xalq kimi baxmamış, onlara nə öz dillərini, nə də mənsub olduqları dinlərini zorla qəbul

etdirməmişlər. Türklərin bu insani davranış və siyasətləri hər şeydən əvvəl Onların Özlərinin ilahi mənşədən gəlməsinə inanmaları və Cahan hakimiyyəti məfkurəsindən irəli gəlmişdir. Bu hiss və duyğular Türklərin İslam din və mədəniyyətinə yiyələnmələri ilə daha da güclənmişdir. İslam dinini Öz Cahan hakimiyyəti və dünya nizamına uyğun görən Türklər digər dinlərdən fərqli olaraq İslam dinini daha münasib bilmiş, bu dini Öz Ruh və inanclarına daha uyğun hesab etmiş, onu ümumi bir din halına gətirməklə Tanrının Həzrəti Məhəmməd Peyğəmbərə (s) buyurduğu istəyi şərəflə yerinə yetirmişlər. İstər Qaraxanlı, istər Qəznəvi, istər Səlcuqlu, istər Teymuri və istərsə də Osmanlı və Səfəvi Türkləri bu tarixi missiyanı yerinə yetirərkən hakim olduqları ərazilərdə siyasi iqtidarı, ictimai ədaləti, dinlər arası ahəngi qorumuş, Türk haqqında məşhur hədisdəki «Cundi – Allah » - Allahın ordusu adını doğrultmuşlar.

Türk xalqı tarixlərinin ilk çağlarında siyasi təşkilat və hərbi qabiliyyətləri sayəsində qonşularını məğlub edərək üstünlük qazanmışlar. Qədim Türk yazılı abidələri və Türk dastanlarının tədqiqi göstərir ki, Türk xalqı hələ qədimdən çox yüksək bir milli duyğu və şüura malik olmuşdur. Bu milli duyğu və şüurla milli hakimiyyətlərini yaradıb gücləndirən Türkləri bu vəziyyət təmin etmədiyindən nəticədə Onlar Dünya Hakimiyyəti idealına bağlanaraq bu işə səylə girişmişlər. İnsani, milli və dini dəyərlərə yiyələnən Türklər ümmətçilik idealına yiyələnmiş, bu ideala sadiq qalaraq əsrlərcə yalnız özlərinə deyil, bütün insanlığa xidmət etmişlər.

Türklər milli və insani duyğuları ilə tarix səhnəsinə çıxmış, bütün mövcud dinləri yaşayaraq siyasi təşkilatlanma və hərbi qabiliyyətləri ilə Cahan Hakimiyyəti davasına girişmiş, üç qitə arasında dinləri, mədəniyyətləri çulğalaşdıraraq bəşər mədəniyyəti tarixini zənginləşdirmişlər. Elmi, dini, ictimai, iqtisadi və siyasi baxımdan durmadan yüksələn Türklər Asiya və Avropa xalqlarını bir – biri ilə qaynadıb qarışdıraraq ümumbəşəri mədəniyyətin yaranmasında əvəzsiz xidmətlər göstərmişlər.

Türk xalqının, Onun qəhrəman hökmdar və sərkərdələrinin qüdrəti və dühası sayəsində artıq XVI əsrdə Yer kürəsinin böyük bir qismi ayrı – ayrı Türk xalqlarının hakimiyyəti altında idi. XVI əsr tarixə «Türk əsri» kimi daxil olmuşdur.

Bütün bu xidmətlərin əvəzində çox təəssüflər olsun ki, uzun sürən xaçlı yürüşləri bəşəriyyətin illərlə əldə etdikləri mədəniyyətləri alt – üst etmiş, Şərqin Qərbə qarşı bir şübhə, bir əndişə bəsləməsinə səbəb olmuşdur. Bu Səlib yürüşləri Türklərin universal dünyagörüşlərini zədələmiş və nəticədə dünyanı iki düşmən məzhəb qovğasına sürükləmişdir. Türklərin bu xaçlı yürüşlərinin qarşısını qanları bahasına alması bəşəriyyəti bu qoxunc təhlükədən xilas etdi.

Türklər qan verdi, can verdi qoca Şərqi təkcə Öz hakimiyyətinə almadı həm də Onu qorudu, tarixi missiyasını şərəflə yerinə yetirdi.

Tarixdə hər bir millətin yüksəliş və eniş dövrü olur. XVIII əsrdən etibarən güclənməyə başlayan Türk düşmənciliyi yeni elmi – texniki tərəqqiyə yiyələnərək Türkləri məğlub duruma saldı. Tarixdə hər hansı bir xalq bu qədər basqıya, suiqəsdə məruz qalsaydı, heç şübhəsiz ki, tarix səhnəsindən silinərdi. Lakin Türk insanı bu məğlubiyyətin, gerilmənin tam çöküşə düşməməsi üçün nə etmək haqqında fikirləşməyə həm vəziyyətdən çıxma ümidi, həm Qərbi Avropaya çatma düşüncəsi beyinlərdə hakim kəsilməyə başladı. Çox təəssüflər olsun ki, bu ümid və düşüncəni bütün ziyalılarımız və dövlət adamlarımız dərk etmədi. Ona görə də fərqli «reseptlər» ortaya çıxdı. Qərbdən və Şimaldan mərhələ – mərhələ sıxışdırılan Türk dünyası XVIII əsrdən başlayaraq sürətlə yüklədiyi zirvədən üzü aşağı yuvarlanmağa başladı və nəhayət, iki yüz il ərzində bütün qazandıqlarını itirərək sonda məğlub duruma düşdü. Lakin Türklərin soylarından gələn daxili enercisi, dinamik qüdrəti, idarəçilik qabiliyyəti Onları həyatın yüklədiyi ağır imtahanlardan şərəflə çıxardı, Türkü XXI əsrə altı müstəqil dövlətlə daxil etdi. İndi belə Türklərin bu durumuna qısqanclıqla, düşməncə yanaşanlar Onları hər vəchlə tarix səhnəsindən silməyə çalışır, hər fürsət düşdükcə zərbələr

vurmaqda davam edirlər. Tarixən Türk düşmənləri «Türk» sözünə qarşı belə dünyanın bir çox ölkəsində savaş başlamışlar. Çünki «Türk» adı bu adı daşıyanlar üçün nə qədər qürur qaynağıdırsa, Türkün düşmənləri üçün bir o qədər qorxu, vahimə qaynağıdır. Bu vahiməni, bu qorxunu ortadan qaldırmaq üçün dünyadakı Türk düşmənləri uzun müddət baş sındırmış və nəhayət, Türkü parçalayaraq ona Tatar, Özbək, Qazax, Qırğız, Türkmən, Başqıt, Azərbaycanlı və s. adlar qoydular. İndi artıq ayıq – sayıq olmalıyıq, düşmənlərin hər bir fitnə – fəsadına, həmləsinə layiqincə cavab verməyə çalışmalıyıq. Bunun üçün ilkin şərt mövcud Türk dövlət və xalqlarının beynəlxalq aləmdə bir – birlərinə dayaq durmaları, bir – birləri ilə mədəni, iqtisadi, siyasi və hərbi əlaqələrini genişləndirmələridir.

Türk olmaq hələ Türkü sevmək, Onun yüksəlməsinə çalışmaq demək deyil. Türkü sevmək, Onun yüksəlməsinə çalışmaq ilk öncə Ona vəcdlə vurğunluqdan keçir. Bu vəcdlə vurğunluğun əsasında Türkün tarixini, dilini, ədəbiyyatını, mənəvi dəyərlərini dərindən öyrənmək durur. Unudulmamalıdır ki, tarixdə ən böyük qüsurumuz «öz əlimizlə yaratdığımız və yaşatdığımız xarici gözəllərə aşiq olub onlarla evlənməyimiz», yəni öz dilimiz və ədəbiyyatımızın əvəzinə hakimiyyətimiz altında olan xalqların dil və ədəbiyyatlarını zənginləşdirməmiz olub. Türklərin tarixində min il rəsmi siyasi – hərbi hakimiyyətlə milli dil və milli mədəniyyət hakimiyyəti üst – üstə düşmədiyindən ərəbcə və farsca yazan şair, ədib və filosoflarımızın yaratdığı maddi – mədəniyyət nümunələri başqa xalqların adına yazılmış, hətta Türkün qanı, canı bahasına qurduğu dövlətləri başqalarının adına çıxmışlar. Taix bir ibrət dərsidir. Bu böyük xətamızı bir daha təkrar etməməliyik. Tarix boyu Vahid Tanrıya, min il ərzində İslam dininin təlqin etdiyi Allaha tapınmış, haqq və ədalət uğrunda milyonlarla şəhid vermiş bir millətin – Türk millətinin ilahi himayə və yardımı ilə əbədi yaşayacağına, yenidən Öz tarixi missiyasını şərəflə yerinə yetirəcəyinə varlığım qədər inanıram.

Ulu Tanrım Öz himayə və yardımını Türkdən əsirgəməsin.

**Amin.**

## Tanrı ordusu – Türklər

Böyük məqsədi olan və o məqsəd uğrunda çalışan, çarpışan bir millət Böyük Millətdir.

Mənəviyyat, əxlaq və ədalət üzərində qurulan yolla gedən, milli ləyaqətini, milli əqidəsini, milli məğrurluğunu qoruyan, heç bir xarici qüvvə qarşısında əyilməyən, sınmayan, mərdanə dayanmağı və yaşamağı bacaran bir millət Böyük Millətdir.

Xeyirxahlığa, ədalətə görə zərər çəkən millət Böyük Millətdir.

Təəssüflər olsun ki, Türkün bu tarixi xeyirxahlığını, ədalətini, böyüklüyünü dünya xristianları və Avropanın «mədəni» xalqları və dövlətləri düzgün dəyərləndirmədilər.

Halbuki Türklərin Avropaya gəlişi Avropanın etnik xəritəsini kökündən dəyişdirmiş, Avropanın bəlli-başlı xalqlarını Roma imperatorluğunun etnik yoxetməsindən qurtarmış, onlara tarixdə yaşama haqqı qazandırmışdır.

Türklərin Avropa xalqları üzərindəki başqa bir önəmli təsiri onların bir-biri ilə amansız çatışmalardan qurtarması və onları bir uzlaşmaya məcbur etməsi olmuşdur. Belə ki, birinci Türk Hun hakimiyyəti bitdikdən və German qəbilə birləşmələrinin Roma imperatorluğunu çökdürdükdən sonra, ta Türklərin Avropaya ikinci gəlişinə qədər Avropa xalqları kilsənin təhriki ilə bir-biri ilə şiddətli məzhəb çatışmalarına girişmiş, bir-birlərini az qala yox etmək təhlükəsi ilə üzləşmişlər.

Türklərin Avropaya Batı Xanın başçılığı ilə ikinci gəlişi bu amansız məzhəb çatışmalarına son qoymuş, Avropanı yenidən bir uzlaşmaya sövq etdirmişdir. Avropa xalqlarının bugün mövcud olan bir çox mədəni dəyərlərinin ilk toxumları məhz o dövrdəki Türk təhlükəsi nəticəsində yaranmışdır.

Türklərin Anadoluya, daha sonra isə Avropaya üçüncü gəlişi isə bütövlükdə Ortodoks xristian dünyasını xaçlı yürüşlərindən xilas etmişdir.

Bu üç mühüm amilə və qarşılıqlı olaraq üç böyük Türk imperatoru olan Atilla, Batı Xan və Fatehə görə Avropa bugünkü yüksəlişində Türklərə çox şey borcludur.

Türklərin Avropa xalqları üzərindəki mühüm təsirlərindən biri də Türkün hərb sənəti və ordu sistemidir. Avropa və həmçinin orta əsr Rusiyası bunu bu hərbçi millətdən – At belində doğulub, at belində ölən millətdən – əxz etməsəydi, kilişləşmiş ilkin toplumlarının çərçivəsindən qurtula bilməyəcək və deməli, bugünkü səviyyələrinə də yüksələ bilməyəcəkdilər.

Türklərdən hərb sənətini mənimsəyən, Türklərin İslam tarixində oynadığı rolu xristian tarixində oynayan və Avropanın altını üstünə çevirən Normanlar məhz Türk silahları sayəsində siyasi və hərbi hakimiyyətə yiyələnmişdilər.

Türklər Avropanın əkinçilik mədəniyyətinin inkişafında da mühüm rol oynamışlar. Belə ki, Türklər Avropaya hərbi geyim, üzəngi, qoşqu arabaları, əyri və düz qılınc, oxu yeddi yüz metr məsafəyə sərrast atan uzun yayla bərabər, həm də Avropada əkinçilik sənətini yüksəltməyə və bununla da əhali artımına gətirib çıxaran qoşqu ləvazimatı gətirmişlər.

Bütün bu xeyirxahlıqların əvəzində xristian dünyası Türklərə qarşı təkcə siyasi-hərbi blok yaratmaqla kifayətlənməmiş, bu işi bütün yönlərdə, xüsusilə dində, ədəbiyyatda, tarixdə, incəsənətdə, musiqidə fəlsəfədə və hətta iqtisadiyyatda da davam etdirmiş və etdirməkdədirlər.

Xristianlıq «dində zorlama olmaz» anlayışından imtina edib basqı dininə çevrildikdən sonra xristianlığı qəbul etməyən bütün xalqlara «barbar» adı qoydular. Daha sonra Avropa xalqlarının əksəriyyəti xalq arasında yayılan həqiqi xristianlığı, daha doğrusu, İskəndəriyəli papaz Ariusun da təbliğ etdiyi «Tək Tanrı»nı deyil də, Avropanı beş yüz il qaranlıq dünyada saxlayan kilsə xristianlığını – əslində Qərbi Roma imperatorluğunun məqsədlərinə xidmət edən və Yunan çoxallahlığını üçə endirən, bununla da İsa Məsihi Roma tanrıcıqları arasına qatan «Ata, Oğul və Müqəddəs Ruh» dünyagörüşünü qəbul etdikdən sonra «barbar» adlandırmadılar. Xristianlığı qəbul etməyən Türklər isə «barbar» adlandırıldı və bu deyim XX əsrə qədər davam etdi.

Xalq arasında yayılan həqiqi xristianlığa görə Müqəddəs Ruh, əslində, Tanrının Tanrılıq gücüdür və Ondan ayrı deyildir. Başqa sözlə, Tanrı Müqəddəs Ruhu bölə bilməz və Onu kimsəyə keçirə bilməz.

Kilsə xristianlığı isə İsa Məsihin Tanrının Oğlu olduğunu və Ata Allah tərəfindən yaradılmadığını, Ata Allah ilə eyni cövhərdən olduğunu irəli sürərək «Ata Allah, Oğul Allah və Müqəddəs Ruh» deyə Tanrını üçləşdirmişdir.

Xalq arasında qəbul edilən Təkallahlı xristianlıqla siyasətə xidmət edən çoxallahlı kilsə xristianlığı uzun müddət mübarizə aparmış və sonda kilsə ilə imperatorların iş birliyi ilə «dində zorlama olmaz» anlayışı tərk edilmiş və bunun əleyhinə gedənlər ciddi cəzalandırılmış, xristianlıq basqı dininə çevrilmişdir.

Əgər xalq arasında yayılan həqiqi xristianlıq Kilsəyə də hakim ola bilsəydi, din tarixinin, ictimai və siyasi tarixin, mədəniyyət tarixinin və qarşılıqlı olaraq bu dinə xidmət edən xalq və millətlərin də inkişaf tarixi başqa cür olar və bütövlükdə bəşər tarixində bir uzlaşma yaranardı. Bu uzlaşma isə ilk öncə yeni dini dünyagörüşün yaranmasının qarşısını alar, dünyada vahid Tanrı, vahid din dünyagörüşünü formalaşdıraraq xalqlar və millətlər arasında dini çatışmalara son qoyardı. Əfsuslar olsun ki, bu, belə olmadı və Dünya dini çatışmaların hərb meydanına çevrildi. Yer kürəsi insan qanı ilə suvarıldı. Və əgər bugünkü xristian dünyası heç bir məntiqə sığmayan tarixi xətasından əl çəkib bu mütləq həqiqəti dərk etməsə, əzəli, əbədi, «Tanrıdan başqa ilahi yoxdur» ayəsini qəbul etməsə, insanoğlunun bundan sonra daha hansı müsibətlərə düçar olacağını təsəvvür belə etmək mümkün olmayacaq.

Tarixən Türk düşmənçiliyinin də əsasını məhz bu Kilsə xristianlığı qoymuş və bu düşmənçilik bu gün də davam etməkdədir. Xristian təəssübkeşliyinə kor-koranə xidmət edən kilsə imkan verməyib ki, Avropa Türk böyüklyünü, Türk ədalətini, Türk mədəniyyətini qavraya və ən başlıcası Türkü lazımınca tanıya bilsin.

Türklərin tarixən «zalım, qaniçən, barbar» indi isə «mədəniyyətsiz, qeyri-demokratik, Avropa dəyərlərinə cavab

verməyən» yarlıqlarının da kökündə məhz Kilsə xristianlığı dayanır.

Xristian aləmində Türklərə qarşı yeni-yeni dualar icad edən kilsə xadimləri – papalar, papazlar, yepiskoplar, kardinallar, keşişlər – xalq arasında bir Türk düşmənçiliyi yayır, Türklərdən qorunmaq üçün gündə beş dəfə dua etməyi bütün təbliğat menyülərinə daxil edirdilər. Onlar bununla da kifayətlənməyib əhali arasında Türk düşmənçiliyini daim yaddaşlarda həkk etdirmək üçün kilsələrdə zəng çalınması haqqında göstərişlər və hətta fərmanlar vermişdilər. Həmçinin xristian dualarında Tanrı, Həzrəti Məryəm, Həzrəti İsa ilə yanaşı «Türk» adı da ən çox səslənən söz olmuşdu. Kilsə təbliğatı nəticəsində xristian dünyasında «zəng səsi» və «Türk» adı bir qorxu simvolu kimi «şərti refleks» halına gəlmişdi.

Türk düşmənçiliyini Avropa xalqlarının beyninə həkk etdirməkdə bir çox Avropa tarixçiləri, yazıçıları və hətta bəstəkarlarının da xüsusi «xidmətləri» olmuşdur. Onlar əsərlərində Türk qorxusu ilə yanaşı Türk düşmənçiliyini də ön plana çəkərək Türkləri təhqir etmiş, aşağılamış, hətta Türk böyüklərini bir-birinə qarşı qoymuşlar. Belə ki, Avropanın Servantes, Lope dö Veqa  və Xristofer Marlovdan tutmuş Volter və Miltona qədər sayılan ədibləri Türklərin əleyhinə xəyallarından keçən bütün iyrənc fikir və düşüncələrini kağıza tökməkdən çəkinməmiş, Türklər haqqında heç bir məlumatı olmayan Avropa oxucusunda Türklərə qarşı nifrət yaratmağa müvəffəq olmuşlar.

Hətta tarixi Vyana məğlubiyyətindən sonra cəsarətlənən və bu Türk düşmənçiliyini körükləyən teatr əsərləri, opera və baletlər yaratmış dramaturq və bəstəkarlar da bu işə rəvac vermişlər. Belə ki, təkcə XVIII əsrdə Türkləri təhqir edən, onları lağa qoyan 50-yə qədər opera yazılıb və səhnəyə qoyulmuşdur. Bu əsərlərdə Türklər ya hərəmxana gözətçisi, ya əsir və ya qadın taciri, ya şəhvət düşkünü, ya da qana susamış obrazlardır. Bu cılız yaradıcılıqdan hətta əsərlərinin bir çoxunu Türk mehtər musiqisindən yararlanaraq yazan Motsart kimi ünlü bəstəkar belə qurtula bilməmiş, Türk modasının Avropada ən dəb dövründə Alman İmperatoru Cozefin sifarişi

ilə «Saraydan qız qaçırma» kimi operasını səhnədə canlandırmışdır. Opera başdan-ayağa kin və qana susamış vəhşi Türk obrazının - Osmanın üzərində qurulmuşdur.

Bütün bu əsərlərlə Türklər başkəsən, zalım, insanları asmaqdan, yandırmaqdan, dərisini soymaqdan, zəhərləməkdən zövq alan kimi təqdim edilmişdir.

Avropanın və onların içimizdə yaşayan qulbeçələrinin kilsə xristianlığına dayanan bütün tarixi və ədəbi əsərlərindən fərqli olaraq xalq ədəbiyyatı nümunələrində Türklər xeyirxah, mədəni, zəkalı, əvəzi olmayan insanlar kimi dəyərləndirilmişdir. Həmçinin, az da olsa, Türkləri yüksək qiymətləndirən ədəbi əsərlər də vardır. Bunlara misal olaraq XIII əsr Alman xalq dastanı «Nibelunqen Dastanı», Fransa kralı I Fransuanın Osmanlı Sultanı tərəfindən yardım və dəstək gördüyü dövrlərdə və Almaniyada, Protestantların Avropada amansız basqı altında qaldığı dönəmlərdə yazılmış əsərləri göstərmək olar.

Yuxarıda sadalanan və sadalanmayan Türk düşmənçiliklərini görən və anlayan hakim Türklərin bütün bu iftira və böhtanlara vaxtında cavab verməməsinin bir çox səbəbi vardır. Bizcə ən mühüm səbəb Avrasiyada hakim olan Türklərin qarşısında dayanan bir sualla bağlı idi: Ya öz törələrinin də əleyhinə olaraq üç Tanrılı xristianlığı qəbul edib hakimiyyətləri altında olan müsəlmanları da xristianlaşdırmaq – bununla da əbədi hakimiyyətlərini təmin etmək, ya da öz törəsinə də uyğun olan Tək Tanrılı islamı xristianlara da qəbul etdirib üç qitədə hakimi-mütləq olmaq. Türklər ədaləti əsas götürüb «qızıl orta»nı seçdi. Nə xristianları islamlaşdırdı, nə də özünün mənsub olduğu müsəlmanları xristianlaşdırdı. Və hətta hakimiyyətləri altında olan yəhudiləri də nə islamlaşdırdı, nə də xristianlaşdırdı. Hər üç müqəddəs dinə hörmətlə yanaşdı və uzun müddət bu üç dinə bağlı insanların bir arada sərbəst yaşamasını və fəaliyyət göstərməsini təmin etdi.

Əslində bu yeni bir bəşəri mədəniyyətin təzahür forması idi. Əfsuslar olsun ki, «mədəni» Avropaya kilişləşmiş kilsə xristianlığı təəssübkeşliyi imkan vermədi ki, yüksək bəşəri mədəniyyəti düzgün dəyərləndirsin. Əvəzində Avropa və onun

kilsə xristianlığı min illik tarixi mübarizədən sonra Rusiya imperiyasını və hətta müsəlman ərəbləri də bu işə cəlb edərək nəhayət, XX əsrin əvvələrində sonuncu Türk imperatorluğuna son qoydular. Və nəticədə «Din davasını un davası» ilə əvəz edib Türklərin hakim olduğu əraziləri öz aralarında bölüşdürüb müstəmləkəçilik siyasətlərini davam etdirdilər.

Bugünkü Avropa Birliyinin mahiyyətində də bu xristian təəssübkeşliyi və Türk «qorxusu» dayanır. Əslində bugünkü Avropa Birliyi keçmişdəki Türklərdən qorunmaq üçün çəkilən «Çin səddi»ni xatırladır. Bu quruma «Xristian Birliyi» deyilsə, daha məntiqli olar.

Bugün belə Türk dünyası onun iç düzənini demokratiya pərdəsi altında pozan Avropaya və onun vasitəsilə hakimiyyət başına gətirilənlərə etinasız yanaşır, «müasirləşməyi» «Avropalılaşma» kimi başa düşür. Türk toplumu ağıl yolu ilə deyil, təbliğatla yönləndirilir.

Unudulmamalıdır ki, iki minillik tarixdə Türklər Avropada məğlubedilməz imici qazanmışlar. Bu fikir Avropanın qəlbində əbədi iz buraxmışdır. Onlar indi də Türklər haqqında o fikirdə, o düşüncədədirlər. Avropa ölkələrinin Türklər haqqında siyasətlərində bu qorxunun çox böyük təsiri vardır. Atalar demişkən: «Göz gördüyündən qorxar».

Avropalılara görə imkan olan kimi Türklər yenə də «ovçunu belə ova çevirməyə» qadirdilər.

Avropalıların bizlərə bu baxışı indiki durumumuzda bizə gülünc görünə bilər. Fəqət bu bir gerçəklikdir.

Dünya tarixini bütün yönlərdən incələyən Avropalılar yaxşı bilirlər ki, Assurları yerlə yeksan edən, Misirin belini qıran, Çinliləri «Çin səddi» çəkdirməyə vadar edən, bütün Avropanı və Yaxın Şərqi uzun müddət əsarətində saxlamış Böyük Roma İmperatorluğunu diz çökdürməyə məcbur edən, bütün ərəb xilafətini ələ keçirmiş Şərqi Roma İmperatorluğunu tarixdən silərək Konstantinopolu fəth edən, üç qitədə uzun müddət söz sahibi olan, taleyinə Tanrı tərəfindən əbədi hakimiyyət yazılan bir millətin hər an hakimimütləqə çevrilmək şansı var.

***Tanrı bu şansı Türklərə bəxş etsin.***
**Amin.**

## Dünyanın tacı – Türklər

Millət də insanlar kimi tarixə bağlılığı ilə, iman və inamla, ülkü ilə yaşayar, yüksələr, xoşbəxt olar. Tarixini, keçmişini unudan, inamsız və ülküsüz yaşayan bir millət özünü boşluqda hiss edər, davranışları və yaşayışı təsadüflərə bağlanar və nəticədə instinktlərinin təsiri altındakı hadisələrin içində sürüklənər, boğular, məhv olar. Deməli, millət bölünməz, parcalanmaz bir Ruh halında olmalıdır.

Yaşadığımız çağda düşmənlərimiz düşüncə və inanc həyatımızı, sənət, mədəniyyət və əxlaq dünyamızı silahı ilə deyil, özünəməxsus mədəniyyəti və ideologiyası ilə istila etməyə girişmişlər. Onlar bunda başarı əldə etdikdən sonra silahlı qüvvələrini işə salmadan da bizləri asanlıqla özlərinə tabe etdirəcəklərinə tam əmindirlər.

Tarixi düşmənlərimiz artıq yüz illərdir ki, Türkün min illər boyu yaratdığı bəşər tarixinə örnək ola biləcək maddi, mənəvi və əxlaqi dəyərlərini məhv etməyə, yerinə özlərinin insanlığa utanc gətirəcək Lut dövründən qalma əxlaqsızlıqlarını yerləşdirməyə çalışırlar.

Türkün düşmənləri Türkün tarixini, intellektlərini, fiziki və mənəvi fəaliyyətini, hətta daxili yaşantısını belə öz «olmaz!»larının çərçivəsinə salıb Türkü özünə və dünyaya bu bacadan baxmağa məcbur edirlər.

Tarixi düşmənlərimiz, Türklərin yüz illər boyu ədalətlə idarə etdikləri ölkələri və xalqları öz müstəmləkələrinə çevirərək sömürməyə başlayıblar. Bütün bunlar azmış kimi, tarixi düşmənlər, Türklərin qılafa sığışdırdıqları ərazilərinə də göz dikərək – qonşuluqdakı yunan, fars, erməni və kürd maşalarını da hərəkətə gətirərək – Türkləri tamamilə məhv etməyə qərar veriblər. Tarixi düşmənlərimiz bütün bunlarla da kifayətlənməyib, demokratiya pərdəsi altında, artıq, Türklərin iç düzənini pozmağa, onun min illər boyu qoruyub XXI əsrə

gətirib sıxardığı əxlaqi dəyərləri məhv etməyə, bir sözlə, Türkləri tarix səhnəsindən silməyə çalışırlar.

Bütün bunları ona görə edirlər ki, Türkdən qorxurlar.

Çünki Sən məzlum görkəminlə də qorxuncsan, ey Türk!

Dünya dövlətləri ayrı-ayrılıqda Sənə gücləri çatmadığından, əlbir olub, nəhayət, Səni min ildən sonra yendilər. Yenməklə yetinməyib Sənin bütün tarixi uğurlarını da inkar etdilər. Sənin yaratdığın bütün maddi və mənəvi dəyərləri özgələrinin adına çıxdılar.

Halbuki bugün Səni özlərinə düşmən hesab edən Avropalılar tarixən Səninlə təmasdan sonra qəbilə həyatı yaşamaqdan xilas oldu. Sənin gəlişindən öncə Avropa mağara dövrünü yaşayırdı.

Avropaya «Dövlətçilik» ağlını Sən bəxş etdin.

Uzun müddət Roma imperatorluğunun basqısı altında inləyən, dillərini belə unudan Avropalıları Roma quldarlığından Sən azad etdin. Avropaya yaşama haqqını Sən verdin.

Asiya və Avropa mədəniyyətlərini Sən çulğalaşdırdın. Avrasiya mədəniyyətini Sən yaratdın. Tarixi «İpək yolu»nu Sən saldın.

Bəşər mədəniyyətinin guya beşiyi sayılan Yunan, Roma və Bizans imperatorluqlarından fərqli olaraq – tarixdə ilk dəfə sərvət yoğunlaşmasının qarşısını alaraq – tirançılığı Sən yasaqladın.

Bəşərin bəlli-başlı xalqları qul əməyindən, təhkimli kəndlilərdən, kölələrdən, savaş əsirlərindən və sonda irqçilikdən yararlanaraq insanlığa yaraşmayan müstəmləkəçilikdən, bütün arsızlıqlardan istifadə edərək inkişaf etdikləri halda, sən belə bir inkişafdan şüurlu surətdə imtina edib quldarlığı yasaqladın, feodal torpaq sahibliyini ləğv etdin, köləliyə son qoydun, savaş əsirlərini tərki-silah edib sərbəst buraxdın, hakim olduğun xalqları milliliyindən ayırmadın, heç bir ölkədə müstəmləkəçilik siyasəti yeritmədin, tarixin heç bir dönəmində irqçiliyə, arsızlıqlara yol vermədin. Sən nə qul, nə quldar olmağı qəbul etdin.

Sən dözümlü siyasətinlə sabitliyin düşməni sayılan din və etnik çatışmaların, çəkişmələrin qarşısını almaqda tarixən böyük məharət göstərdin, üç böyük dinin və bu dinlərə tapınan neçə-neçə xalq və millətin bir arada əsrlər boyu yaşamasını təmin etdin.

«Mədəni» Avropalılardan fərqli olaraq Sən tarixdə ilk dəfə ixracatı dayandırıb, idxalatı sərbəst buraxdın və bununla da qıtlığı aradan qaldıraraq, insanlığı düşündün, Özünü insanlığa qurban verdin. Bu da Sənin tarixi məğlubiyyətinin başlanğıcı oldu. Belə ki, Sən «mədəni» Avropadan fərqli olaraq, insan əməyini tam istismar edən «izafi dəyər gətirən dəyərə» - kapitala və sələmə qarşı oldun, səbr və təmkinlə əbədiyyətə qədər yaşayacaq bir dövlət qurmaq üçün ölümsüz olacağını umduğun bir düzəni inşa etməyə çalışdın və bütün dünyanı bir mərkəzdən idarə etməyə səy göstərdin. Bundan duyuq düşən, lakin Səni xaricdən partlatmağın qeyri-mümkün olduğunu dərk edən düşmənlərin bu müəzzəm olayın qarşısını almaq üçün hər cür rəzilliyə, alçaqlığa, terrora baş vurmuş, Sənin qəlbinə Şeytan kimi yol taparaq Səni içəridən yeməyə başlamış və sonda istəklərinə nail olmuşlar.

Sən tarixən quru ərazilərdə yaratdığın mədəniyyəti sularda da həyata keçirmisən. Belə ki, Sən, hətta, kürəkçiləri belə «mədəni» Avropalılar kimi kölələrdən deyil, maaşlı insanlardan seçərək gəmiçiliyi də insaniləşdirmisən. Bunun nəticəsidir ki, Aralıq Dənizindəki «mədəni» Avropalıların donanmalarından qaçan kölələr gəlib Sənin donanmalarında maaşlı insan kimi çalışmışlar. Beləliklə Sən dənizdə də ədaləti bərpa etmisən. Bu ədalətindən istifadə edən yabançılar dənizlərdə sərbəst hərəkət edərək öz ticarətlərini genişləndirib zənginləşmiş… və sonda Sənə qarşı çıxmışlar. Sən dənizlərin bəkçisi oldun, yabançılar isə xeyrini gördülər. Bu da Sənin, ədalət naminə yol verdiyin növbəti bir tarixi xətan idi.

Tarixən bu qədər əzəmətli olan Sənin bu vəziyyətə düşməyinin nədənləri çoxdur. Bunda bir çox daxili və xarici amillərin təsiri vardır. Fəqət, bizcə, ən mühüm amil Sənin kosmopolit təfəkkür olan bəşəri İnsan, bəşəri Mədəniyyət, bəşəri Dil və bəşəri Dövlət yaratmaq istəyin olub.

Sən Şərqdən Qərbə, Şimaldan Cənuba və əksinə – bütün dörd Qitəni öz mənəvi enercinlə, ruhunla, nəfəsinlə, mədəniyyətinlə doldurdun. Fəqət sonda Özün tükəndin… boşaldın…

Sən öz tarixi passionarlığınla bəşəri döl yaratdın. Ölgün xalqlara yeni qan, yeni can verdin. Onlara öz sağlam nütfənlə tarixdə yaşama haqqı qazandırdın, yeni həyat bəxş etdin. Daxili enercini bütünlüklə yadlara payladın, Özün yaddan çıxdın. Ağlını, Təfəkkürünü, Hissini qurban verdin və bunlar da Səndən küsüb uzaqlaşdı; Səndən intiqam aldı. Həyatın bu çəkici nemətindən, «Tanrı əmanəti»ndən Sənin qədər yararlanan ikinci bir millət hələ yer üzündə olmayıb və bəlkə də olmayacaq. Bu məqamda ulu Sabirin yana-yana söylədiyi bir fikri – kiçik bir dəyişikliklə xatırlamamaq olmur:

«Ərkəklərimiz Sonyalara bənd olacaqmış
Fatma - Tükəzbanları neylərdin, ilahi?»

Daha bəsdir! Özünə dön! İlahi təfəkkürünü Özünə qaytar! İndi də bir müddət hissini ağlına, təfəkkürünə qurban ver. Qurban ver ki, Öz gücünlə yaşaya və yenidən şərəf qazana biləsən. Sənin qurtuluş və yüksəlişinin çarəsi öz milli ülkünə sarılmağın, müasir dövrün bütün elm və texnologiyasına yiyələnməyin, kimsədən yardım diləmədən, kimsəyə sığınmadan özünə qayıdışındadır. Ulu ayədə buyurulduğu kimi: «Sən özünə qayıdanda böyük olursan», ey Türk!

Sən bəşəri mədəniyyət yaratmaqla öz milli mədəniyyətini qurban verdin.

Sən bəşəri dil yaratmaq istəməklə öz dilinin inkişafını məhdudlaşdırdın. Belə olmasaydı indi ən azı Asiya və Avropada, qismən də Afrikada xalqlar – Türk dilində danışar, Türk dilində yazardılar. Sənin bu tarixi səhvindən bugün Anqlo-sakslar maksimum istifadə edirlər.

Tarixən Özünə o qədər arxayın oldun ki, Sənin hakimiyyətin dönəmində Səni təhqir edən «Şahnamə»lərə, «Min bir gecə»lərə və bunlara bənzər yüzlərlə əsərlərə etinasız yanaşdın və nəticədə bütövlükdə bəşər tarixi Səninlə müqayisədə əsil-nəsilsizlər tərəfindən saxtalaşdırıldı.

Sən Günəş kimi Şərqdə parladın… Qərbdə qürub etdin.

Qərbin Sənə qarşı düşmənçiliyi əslində, qorxu qarışıq heyranlıqdan doğmuşdur. Axı Sən tarixdə heç bir millət və xalqa nəsib olmayan və bəşəri mədəniyyəti bir-birinə bağlayan tarixi imperiyalar qurmusan. Sən bu ard-arda qurduğun imperiyalarla tarixdə uzunmüddətli və ədalətli imperiyalar silsiləsi yaratmısan.

Sən dünyanın bugün gəldiyi «qloballaşma» və «mədəniyyətlərin dialoqu» ideyasının ilkin şərtlərini hələ orta əsrlərdə gerçəkləşdirmisən.

Sən hələ orta əsrlərdə özünəqədərki bütün siyasət elminin mirasını ələkdən keçirib, məğlub dövlət və imperiyaların yıxılma səbəblərini birər-birər incələmiş, kimsəyə nəsib olmayan minillik hakimiyyət qurmusan.

Sənin min illər boyu yaratdığın mədəniyyət əngin tarixi təcrübələri ilə süzülmüş bir mədəniyyətdir. Bu mədəniyyətin gücüdür ki, Səni uzun illər boyu qəvi düşmənlərinin ağır zərbələrindən qoruyub bugünə gətirib çıxarmış, Sənin gücünü dünyaya təsdiq etdirmişdir. Bütün qədim və orta əsrlər dönəmində hər cəhətdən üstün olan Sən yalnız barbarlıqda Çinlinin, yunanın, farsın, ərəbin, avropalıların «əlinə su tökməyə» qadir deyilsən. Fəqət qələmi düşmən əlinə verdiyindən Sənin yaratdığın bütün maddi – mədəniyyət nümunələri düşmənlərin tərəfindən ya məhv edildi, ya da mənimsənildi. Ancaq düşmənlərin unutdular ki, ən böyük mədəniyyət imperiyalarda təzahür edir. Sənin imperiyalar tarixini inkar edə bilmədilər.

XX əsrdə hər cəhətdən çılpaq qalan Sən yenə də özündə təpər tapdın, Türklüyü yaşatdın. İntellektlərinin ağlı və zəkası, qazilərinin iradəsi və şəhidlərinin qanı sayəsində XXI əsrə altı müstəqil, üç yarımmüstəqil dövlətinlə qədəm basdın. Qədəmlərin mübarək!

Ey Türk! Sən Qurd oğlu Qurdsan. Sənin gözlərin «qaranlıqda» daha yaxşı görür. Sənin dünya üçün nə məna ifadə etdiyini düşmənlərin də yaxşı bilir. Sən tarixdə o qədər güclü, o qədər yenilməz olmusan ki, Sənin «Türk» adın düşmənlərin üçün bir qorxu, özün üçünsə bir inamdır. Sənin «Türk» adın hər din inamı kimi, artıq, millət adından əlavə bir

ideologiya, bir siyasət, bir idarəçilik, bir ədalət, bir əxlaq inancı sayılmışdır. Ona görə də, sən Qərbin insanları çürüdən, qısırlaşdıran əxlaqından özünü qoruyub, öz əxlaqı dəyərlərinə sahib çıxsan, dünya yenə də Səni qəbul etməyə, Səninlə hesablaşmağa məcbur olacaq. Çünki zəncidən, ərəbdən, hindlidən və b. fərqli olaraq, Sənin genin safdır, sağlamdır. Sən tarixən Yer kürəsinin biricik Təkəsi – Qoç oğlu Qoçusan!

Ey Türk! Bugünkü Sən və Sənin təmsil etdiyin müqəddəs Türküstan iki qitənin on almaz qaşlı üzüyüdür. Sən hər tərəfi düşmənlə əhatə olunmuş bir durumdasan. Ətrafını sarmış böyük və kiçik düşmənlərin böyük və kiçik ağızlarını açaraq hərəsi Səndən öz gücləri daxilində pay almağa – bu almaz qaşları qoparmağa çalışırlar. Bugünkü zəif durumunda bütün bu düşmən qüvvələrə qarşı durmaq o qədər də asan deyil. Fəqət unutma ki, «El bir olsa, dağ oynadar yerindən». Sənin birliyin bugünkü mövcudluğun, gələcək yüksəlişindir.

Ey Türk! Tarix Səninlə fəxr etməli, Səninlə qürur duymalıdır. Çünki Sən Tanrının əbədiyaşar bir millətisən!

Sən Tanrının Yer üzündə düşünən beyni, vuran əli, qalib ordususan!

Sən tarixin ədalət mücəssəməsisən! Tarixdə kimsə Səninlə müqayisə oluna bilməz.

Sən Yer kürəsinin əzəmət simvolusan!

Sən insanlığın tacı, bəşərin incisisən!

Sən insanlığa qürur, cəsarət, ədalət bəxş etmisən!

Sən bugünkü hakim millətlərə bir örnəksən! Sən onlara ayrı-ayrı xalqları və millətləri, ayrı-ayrı din və məzhəblərə xidmət edən insanları necə idarə etməyi öyrədən tarixi bir öyrətmənsən!

Bugünkü hakim millətlərin və dövlətlərin Səndən öyrənəcəyi çox şeylər var.

Əlbəttə, bugünkü Türk dünyasının da Qərbdən öyrənəcəyi çox şey var. Lakin bu gerçəyi mifləşdirmək, Türk dünyasının özünə inamını qırmaq, güvənli bir gələcək bəxş edən Türkün potensial gücünü dəyərləndirməmək deməkdir.

Bütün bu sadalanan və sadalanmayan Türk özəlliklərini, bugünkü Yer kürəsində Onların yerləşdiyi ərazilərin

zənginliyini və Türk insanının potensial gücünü nəzərə almayaraqdan bütün Türk dünyasını Qərbə doğru sürükləmək müəzzəm Türk millətini tarixə gömmək deməkdir. Türkün tarixini, mədəniyyətini, potensial gücünü dərk edən, dünyada gedən prosesləri dərindən analiz edən, Türkün dostunu düşmənindən ayırd etməyi bacaran, xüsusilə də dış dünyadan tam xəbərdar olan Türk aydınları heç bir vəchlə buna yol verməyəcəklər.

Sən daim yüksəkdə dayandın, uca oldun, ulu oldun! Ululuq isə ölümsüzlükdür, əbədilikdir. Daim ulu olasan.

**Tanrı Səni əbədiyaşar etsin, Ey Türk!**

***Amin.***

## Bugünkü dünya düzəni və Türklər

**«Türk ordusu daim basaraq ölkələr almış,**
**Ən sonda siyasətdə basılmış da, bunalmış.**
**İdrakı sönük başçıların qəfləti ancaq**
**Etmiş, edəcək milləti həp əldə oyuncaq».**

**Siyasətin** tarixi insanlıq tarixi qədər qədimdir. **Siyasət** əslində insanları idarə etmə sənətidir. **Siyasətin** əsasən iki növü vardır: daxili siyasət, xarici siyasət

Daxili **siyasətin** həmsöhbəti vətəndaşlardırsa, xarici **siyasətin** həmsöhbəti yabançılardır. Vətəndaşla davranış yabançı ilə davranışdan fərqlidir. Vətəndaşdakı anlayışı yabançıdan gözləmək olmaz.

Dövlətərarası əlaqələri müəyyənləşdirən xarici siyasət min illər boyu maraq və ilgi çəkən sehirli bir fəaliyyət növü olmuşdur.

Daxili **siyasətin** əsasında ədalət, xarici siyasətin əsasında isə milli mənfəət dayanmalıdır.

Milli hədəfi və strategiyası olmayan bir xarici siyasət yanız hadisələrin arxasınca sürünər və mənsub olduğu xalqı da uçuruma yuvarladar.

Müasir siyasət klassik diplomatiyadan çox fərqlidir. Artıq siyasət bir intriqaya və ya aldatma sənəti deyildir. Taleyranın kralları, vəzirlərin şahları barmağında oynatdığı siyasət artıq bu gün dəyərini itirmiş, diplomatiya qapıları bütün dünyada aralanmış, demokratik cəmiyyətlərdə hətta açılmışdır. Siyasət qapalı qutudan çıxmış, sirr və müəmma pərdəsi qalxmışdır. Texnoloci yeniliklər, demokratikləşmə, siyasəti imtiyazlı şəxslərin əlindən almış, basın və yayımın ixtiyarına vermişdir.

Bugünkü **siyasət** geniş düşüncə, uzaqgörənlik, milli hədəf, bəlli strategiya, durğunluqdan uzaq böyük risq və cəsarətli addım tələb edir. Ən əsası müasir siyasətin təfəkkür reformuna ehtiyacı vardır.

XX əsrin üç müəzzəm fırtınası – I Dünya müharibəsi, II Dünya müharibəsi və Soyuq savaş – üç imperiyanı çökdürmüş, bunların əvəzində XXI əsrdə üçüncü bir nəhəng tam gücü ilə ortaya çıxmışdır.

Öz çətirini həm Avropa, həm Asiya, həm Amerika və həm də Afrika üzərində tutmağa çalışan, Yaxın və Orta Şərqdə bir dizayner rolu oynayan bu müəzzəm hərbi və iqtisadi nəhəngə qarşı dünyada yeni güc mərkəzləri formalaşmaqdadır. Bunlardan biri və birincisi də məhz Avropa Birliyidir. Bu Birliyə daxil olan Avropa dövlətləri öz aralarında gizli və açıq danışıqlar apararaq birlik yaratmış və bütün gücü ilə dünyada söz sahibi olmağa çalışırlar. Az bir zaman içində vahid iqtisadi birlik, vahid pul və vahid bank sistemi yaratmağa nail olan bu birlik artıq dünyada söz sahibi olan ABŞ – a qarşı hərbi cəhətdən olmasa da, iqtisadi cəhətdən meydan oxumaqdadır.

Bu məqsədlə Avropa Birliyi ABŞ – la rəqabətə girərək onun nüfuz sahibi olmağa çalışdığı bölgələrdə təşəbbüsü ələ almağa səy göstərməkdə, çökmüş Sovet İmperiyasının nüfuz dairəsində olan ölkələrdə öz iqtisadi gücünü nümayiş etdirməkdə, söz sahibi olmağa səy göstərməkdədir.

Bütün bunlar isə gələcəkdə müəzzəm imperiyanın mövqelərinin sarsılmasına gətirib çıxara və bunun yerində bir Avropa İmperiyası meydana gətirə bilər ki, bu da Türklüyün məhvi deməkdir.

Tarixin müəyyən dövrələrində Türklərlə savaşda uduzan bu birliyə daxil olan millət və dövlətlərin Türk düşmənçiliyi bir aksiomadır. Bu düşmənçilik bu gün də açıq və ya gizli şəkildə özünü göstərməkdədir.

Bunu doğuran bir çox səbəblər vardır. Ən başlıcası isə tarix boyu Çinliləri «Çin Səddi» çəkdirməyə məcbur edən, Roma İmperatorluğunu sarsıdan, üç yüz il bütün Rusiyaya ağalıq edən, İslam dininin öncüllüyünü yaparaq bütün Yaxın və Orta Şərqi min il idarə edən, Üç Xaçlı yürüşünü darmadağın edən, İstanbulu fəth edərək Şərqi Roma İmperatorluğunu tarix səhnəsindən silən, Vyana qapılarına dayanaraq Avropanı əsrlər boyu qorxu altında saxlayan bir millətdən tarixi intiqam almaq hissidir.

Dış dünya bütün bunları nəzərə alaraq daim Türkdən çəkinmiş, onun yenidən böyüməsi və güclənməsinə hər vəchlə mane olmağa çalışmışdır.

Bu gün bu işdə Fransa, Rusiya, Yunanıstan və onların əlində vasitəyə çevrilən ermənilər daha çox fəallıq göstərməkdədirlər.

Din amilini də buraya əlavə etsək, bu gün Türklərin dünyada nə qədər təkləndiyinin şahidi olarıq.

Lakin bütün bunlar o demək deyildir ki, biz Türklər bu keçici durumla hesablaşmalı, ona boyun əyməliyik. Unudulmamalıdır ki, dünya dövlətləri biz Türkləri özümüzdən daha yaxşı tanıyır. Və məhz tanıdıqları üçün də bizimlə belə davranırlar.

Bu gün də Batı dünyası demokratiya pərdəsi altında xaçlı ruhunu içində yaşadaraq Türk mənliyini sarsıtmağa, onu tamam məhv edə bilməsə də özündən asılı vəziyyətdə saxlamağa çalışmaqdadır.

Heç təsadüfi deyildir ki, **demokratiya, insan hüquq və azadlıqlarından dəm vuran Avropanın gözü qarşısında, Avropanın göbəyi sayılan Bosniyada, Azərbaycanın tacı sayılan Dağlıq Qarabağda, Qafqazın məğrurluq simvolu sayılan Çeçenistanda faşizm rüzgarları əsdi, Bosniyalılar, Türklər və Çeçenlər soyqırımına məruz qaldı, Avropa isə susdu.**

Milyonlarla Bosniya müsəlmanı, Türk və Çeçen yerindən, yurdundan didərgin düşdü, «Demokratik Avropa= susdu. Nədən susdu? Niyə susdu? Çünki ölən, işgəncələrə məruz qalan, diri-diri torpağa basdırılan, başının dərisi soyulan, gözü çıxarılan, burnu, qulağı kəsilən, yerindən – yurdundan didərgin düşənlər içində xaçlı ruhunu daşıyanlar deyildi. Bu işdə Serbiya, Yunanıstan və Ermənistan sanki bir katalizator rolunu oynadı.

Avropanın bu ərköyün baları həmişə Türklərin zəif dövründə daha da fəallaşaraq zəhərlərini artırmış, Türklərə qarşı dünyada analoqu olmayan vəhşiliklər törətmişlər. Türklər nə qədər haqlı olsalar da Qərb daim onları haqlı çıxarmışdır.

**Fəqət Qərb bir şeyi unudur ki, güc nə qədər haqq olsa da, haqq ən böyük gücdür.**

Tarixdə Yalta sisteminin (Yer kürəsinin qütbləşməsi və ya NATO, Varşava blokuna bölunməsi) birtərəfli yıxılması, yəni Sovet İmperatorluğunun çökməsi Dünya siyasi coğrafiyasını dəyişdirdi.

Avropada kapitalist istehsal münasibətlərinin həyata vəsiqə alması və Rusiya imperiyasının tarix səhnəsinə qədəm qoyması ilə geriləməyə başlayan Türk dünyası nəhayət Sovet İmperiyasının çöküşü ilə yenidən tarix səhnəsinə qədəm basdı. Tarix uzun müddətdən sonra yenidən Türklərin üzünə gülməyə başladı.

Türklüyün önünə Adriatik dənizindən Çinə qədər uzanan müəzzəm bir sahə açılmış oldu. Asiya qitəsinin üçdə birini əhatə edən və iki yüz milyonluq nəhəng bir ali etnosu – Türkləri içində bəsləyən bu sahədə altı müstəqil və iki yarımmüstəqil Türk dövlətlərinin bayrağı dalğalanmaqdadır.

Çox təəssüflər olsun ki, bu dövlətlər içərisində tarixi – ənənəvi dövlətçiliyini qoruyub saxlaya bilən Türkiyə Cumhuriyyəti dünya Türklərinin uzun müddət gözlədiyi bu böyük məsuliyyəti yüklənməyə cəsarət etmədi və bununla da bağışlanılmaz tarixi bir xətaya yol verdi. Halbuki uzun müddət Rus İmperiyasının məngənəsində çırpınan biz Türklərin Türkiyə Cumhuriyyəti Dövlətindən umacağımız çox şeylər var idi. Təəssüflə qeyd etməliyik ki, hətta Rusiyaya dayanaraq

Ermənistanın haqsız təcavüzü qarşısında Azərbaycanı qorumaqda Türkiyə diplomatiyası imtahandan qeyri – kafi qiymət aldı.

Dünyanı titrədən Sovet İmperiyasının əlindən qurtularaq öz müstəqilliyini yenicə qazanmış, zorla müharibəyə cəlb edilmiş, Quzey Azərbaycan və digər Türk Cumhuriyyətlərinin hələ dünyada səsi və sözü olmadığı bir dönəmdə onların dünya çapında müdafiəyə çox ehtiyacı var idi. Və bu müdafiə məhz Türkiyə dövlətindən bəklənirdi.

**«Qonaq umduğunu yemədi».**

Ankaranın siyasi imtahandan qeyri – kafi qiymət alması Milli hökumətimizin xarici qüvvələrin əli ilə devrilməsi, millətlərarası mövqeyimizi və Türkiyəyə olan inamımızı zəiflətdi.

Bundan yararlanan böyük dövlətlər bu boşluqdan istifadə edərək Azərbaycan və digər Orta Asiya Türk dövlətlərində yerləşdilər. Bu yerləşmənin ən qorxunc tərəfi ayrı-ayrı Türk dövlətlərində ayrı-ayrı xarici güclərin söz sahibi olmaları və Türkiyənin bundan kənarda qalmasıdır.

Halbuki ilk əvvəllər xarici dünya bu dövlətlərdə söz sahibi kimi Türkiyəni görür və bu ölkələrə addım atmağa cəsarət etmirdilər. Dünyada söz sahibi olan ABŞ belə bu Respublikalara Türkiyə vasitəsilə daxil olmağa çalışırdı. Türkiyənin ləng və çəkingən siyasəti ucbatından təşəbbüs əldən verildi.

Dünyanın yenidən düzənlənməsi dönəmində Türkiyənin belə ləng hərəkəti təkcə Türkiyəyə deyil, bütün Türk dünyasına ağır başa gəldi.

Qorxunc İmperiyanın çöküşü bütün dünyaya, xüsusilə, Avropaya yeni nəfəs və cəsarət verdi. II Dünya savaşından sonra Avropa ilk dəfə olaraq Yaxın və Orta Şərqə və Balkanlara addımlamağa cəsarət etdi. Türkiyə bu məsələdə də Avropadan geriyə qaldı.

Dünyanın zəngin ölkələrini öz nüfuz dairəsinə keçirmək üstündə bir-biri ilə yarışa girən ABŞ və Avropa dövlətləri öz milli mənafeləri naminə hətta savaşdan belə çəkinməyərək yeni dünya düzəninə yeni şəkil verməyə çalışmaqdadırlar. Heç bir

mədəniyyət, tarix, dil və din baxımından Yaxın Şərq, Azərbaycan, İran və Orta Asiya ilə əlaqəsi olmayan bu dövlətlərin adı çəkilən ərazilərdə söz sahibi olmağa çalışmaları və ən başlıcası, gələcəkdə buna nail ola bilmələri Türk diplomatiyası və Türk dünyası üçün utanc gətirici və üzücü bir haldır. Bu tarixi qatarı qaçırsaq, gələcək nəsillərimiz bizləri bağışlamayacaqlar.

Kod adı «İrak savaşı» olan və əslində dünya təkəsi ABŞ-ın neftlə zəngin Yaxın və Orta Şərqdə sahib çıxmağa çalışması Avropa Birliyi ölkələrinin, xüsusilə, Fransa və Almaniyanın qismən də Rusiya və Çinin bundan pay istəməsi məsələləri daha da gərginləşdirmişdir.

Dünya sanki Üçüncü Dünya Savaşının astanasındadır.

İlk öncə Kiprdə Türk Federativ Dövləti yaranandan, daha sonra Körfəz müharibəsindən bu günə qədər ilk dəfə olaraq Dünyanın nəzər-diqqəti yenə də Türkiyəyə yönəlmişdir.

Ankara ilk dəfə olaraq millətlərarası diplomatiyanın mərkəzinə çevrilmişdir. Türklərə bəxş edilən bu tarixi imkandan əndişələnən Türk düşmənləri hər vəch ilə Türkiyəyə təzyiq göstərməyə, ölkə daxilində problemlər yaratmağa çalışmaqdadırlar.

**Körfəz müharibəsində başı qarışdırılan və bundan da gərəkli bir yarar qazanmayan və əksinə, iqtisadi burulğana düşürülən Türkiyə xarici güclərin təsiri ilə Türk dünyasını da unudaraq öx daxili işləri ilə uğraşmağa məcbur edildi. Bu burulğandan yaxa qurtarmamış onu yeni İraq savaşı haqladı.**

İraq məsələsi istər Avropada və istərsə də NATO-da çatlar yaratdı. Bizcə, bu çatlardan ən çox yararlanmağa çalışan Rusiya, Çin və qismən də Yaponiya olacaq.

Əgər məsələyə geniş aspektdən yanaşsaq və ən azı anqlo-saksların XXI əsrin birinci yarısında dünyada siyasi, iqtisadi, hərbi və mədəni cəhətdən güc sahibi olduğunu nəzərə alsaq, Türkiyənin ABŞ-ın və onun həqiqi strateci müttəfiqləri olan İngiltərə, Kanada və İsrailin, həmçinin ABŞ və İngiltərəni dəstəkləyən İspaniya və digər dövlətlərin yanında olması gələcəkdə Türkiyə və bütövlükdə Türk dünyasına xeyir gətirə bilər.

Bu yeni dünya düzənsizliyində Türklərə qarşı tarixi Avropa düşmənçiliyini nəzərə almamaq, bitərəf qalmaq və ən başlıcası güclər nisbətini düzgün dəyərləndirməmək, siyasi savadsızlıqla yanaşı, həm də çox şeyi itirmək deməkdir.

Bu gün birdən artıq şəxsi kartla, yəni balans siyasətilə dünya siyasətində oyun oynamaq – uduzmaq deməkdir. Ulu Şah İsmayılın söylədiyi kimi: «Bir əldə iki qarpız dudmalı degül».

Həyat təsdiq edib ki, risq etməyən fərdlərin də, millətlərin də, dövlətlərin də hər hansı bir şeyə nail olması qeyri mümkündür. Türkiyənin və bütövlükdə Türk dünyasının bu risqə ehtiyacı var.

**Birincisi,** ona görə ki, Türkiyə bu müharibəyə qatılmamaqla təkcə Səddamsonrası İraqın deyil, bütöv bölgənin taleyinin müəyyənləşməsində söz sahibi ola bilməz və ciddi itgilərə məruz qalar.

**İkincisi,** zəiflədilmiş Türkiyə iqtisadiyyatı müharibənin doğurduğu çətinliklərlə daha da zəifləyər və ölkə dünya bankı və Amerika yardımından məhrum qalar.

**Üçüncüsü,** Türkiyənin qonşuluğunda xarici dövlətlərin yardımı ilə bir düşmən Kürd dövləti qurula və Türkiyə üçün əbədi problem yaradıla bilər. Türkiyə hər tərəfdən düşmən dövlətlərlə əhatə olunar.

**Dördüncüsü,** İraqda yaşayan qardaş Türkmənlər soyqırımına məruz qala bilər.

**Beşincisi,** Türkiyənin son əlli ildə az və ya çox dərəcədə dünyadakı biricik güclü müttəfiqi olan Amerika ilə münasibətləri soyuya və Türkiyə dünyada tamamilə təklənə bilər.

Bugünkü gündə Türkiyənin təklənməsi isə təkcə Türkiyəyə deyil, bütün Türk dünyasına ağır zərbə ola bilər və dünya Türklərinin milli maraqları ciddi təhlükə qarşısında qala bilər. Ona görə də Sovet İmperiyasının dağılmasından sonra Yaxın və Orta Şərqdə pozulan tarazlığı bu savaşa aktiv qoşulmaqla Türkiyə qismən də olsa nizamlaya bilər. Belə ki, Amerika müttəfiqləri ilə birgə İraqda recimi dəyişməklə bölgədə 6+4 – Səudiyyə Ərəbistanı və beş Körfəz ölkəsi üstəgəl

ABŞ, İngiltərə, Türkiyə, İsrail formulunu gerçəkləşdirərək Suriya və İranı da təzyiq altında saxlayar və bununla da düyünə düşmüş Fələstin problemini İsrailin, Kipr, Kürd, Dağlıq Qarabağ və Güney Azərbaycan problemini də Türklərin xeyrinə həll edərək Türkiyə və İsrailin bölgədə güclənməsinə şərait yaradar.

Bu və digər məsələlərdə Azərbaycan və bütövlükdə Türk Dünyası da Türkiyənin yanında olmalı, ona dəstək verməli və bununla da vaxtilə böyük Bismarkın söylədiyi «Türklər bulanıq suda ov etməkdə ən mahir ovçudurlar» fikrini ilk dəfə olaraq gerçəkləşdirməlidirlər.

«XXI əsr Türk əsridir». İndi dünya Türklərinin bu tezisi təsdiqləməsi, qismən də olsa öz sözlərini deməsi zamanıdır.

Zamanı düzgün dəyərləndirmək isə qələbənin rəhnidir.

***Tanrı Türkün öz cəsarət, qeyrət və qələbəsini özünə qaytarsın!***

***Amin!***

## Tarixi sorumluluq

Artıq dünyada siyasi coğrafiya yenidən cızılır, tarix yenidən yazılır. İki qütblü üç bloklu dünya alt – üst oldu, Dünya yarım əsrdən sonra rahat nəfəs aldı, Sovet İmperatorluğu tarixə qovuşdu, bu qoca qayanın parçalanması ilə Dünya bir qütblü qaldı. Bu qütbün adı Amerika Birləmiş Ştatları – fransız filosofu Raymond Aronun deyimi ilə İmperiya Respublikasıdır.

**Sovet İmperatorluğundan ayrılan Respublikalar üçüncü Dünya dövlətləri cərgəsinə daxil oldu. Dünya bir tərəfdə iyirmi dörd sənayeləşmiş ölkəyə, digər tərəfdə isə yüz əlli bir inkişaf etməkdə olan ölkəyə bölündü. İnkişaf etmiş ölkələrdə təqribən bir milyard insan, inkişaf etməkdə olan ölkələrdə isə yeddi milyarda yaxın insan yaşamaqdadır. Bir tərəfdə silahlanma üçün trilion dollarlar, digər tərəfdə milyonlarla ac insan…**

Hərbi, iqtisadi birliklərin alt – üst olduğu, düzənin yerini düzənsizliyin tutduğu, iki zidd rüzgarın əsdiyi bu dünyada təzəcə imperiya əsarətindən çıxan və hələ dünyada nə baş verdiyini gərəyincə anlamayan Azərbaycan kimi dövlətlərin vəziyyəti daha acınacaqlıdır. Hələ müstəqilliyin dadını tam ala bilməyən bu ölkələrin başının üstünü bir müharibə kabusu da qapsadı. Özünü itirən, kommunist və marksizmin caynağından yenicə qurtulan bu ölkələrin başının üstünü bir irqçilik, bir faşizm qılıncı kəsdirib durdu. Daxili çəkişmələr, məhəlli ixtilaflar, etnik çarpışmalar bu ölkələri daha da zor duruma saldı. Doğrudur, bu müəzzəm imperiyanın dağılması ilə Türk dünyasını ayıran divarlar yıxıldı, qapılar açıldı, milyonlarla Türk qucaqlaşıb öpüşdü. Fəqət Türkiyənin bir dövlət olaraq çəkingənliyi ücbatından istər Azərbaycan və istərsə də Orta Asiya Türkləri bu sevincdən tam yararlana bilmədilər. Halbuki, Türkiyə bu fürsətdən tam istifadə etməli, Rusiyanı Amerikanın da köməyi ilə bu regionlardan tamamilə uzaqlaşdırmalı idi. Bu yöndə ilk öncə regionda bir Türk milləti formalaşdırmaq üçün təfəkkür reformu edilməli idi. Artıq bir dövlət olaraq Türkiyə dünya çapında yetmiş milyonluq Türkiyə Türkü adından yox, iki yüz milyonluq bir Türküstan (Türküstan dedikdə biz bütün Türk Cumhuriyətlərini nəzərdə tuturuq – A. M.) adından çıxış etməli idi. Türküstanın iqtisadi potensialı, yüz əlli milyonluq gənc və dinamik əhalisi, Türkiyə silahlı qüvvələrinin gücü və nüfuzu, elmin və texnikanın *(güclü olmasa da)* normal inkişafı əslində Türk dünyasının qüvvət qaynaqlarından idi. Ona görə də böyük bir əraziyə, gərəkli əhaliyə və müəzzəm təbii sərvətlərə malik Türküstan türkünün dünyaya baxış sistemi, milli hədəfi və strategiyasını geniş tutması lazım idi.

**Hadisələrə seyirci kimi baxmaq yox, onlara şəkil və istiqamət vermək gərək idi. Türk dünyası, Türk milləti artıq müdafiəyə yox, hücuma keçməli idi. Axı «Ən yaxşı müdafiə hücumdur»!**

Belə bir düzəndə bizlər bir millət olaraq önümüzə çıxan imkanları dəyərləndirərək yeni bir siyasət oluşturmalı, Türk

dünyasının bugününü və gələcəyini nəzərə alaraq millətimizi yüksək hədəfli məqsədlərə doğru hazırlamağı bacarmalıyıq.

Bunun üçün ilk öncə bütün Türk dünyası anlamalıdır ki, Dünya dəyişməkdədir. Bugünkü Türk dünyası yeni bir dünya ilə qarşı-qarşıyadır. Ona görə də dəyişən dünyada Türklər öz yerini müəyyənləşdirməlidirlər. Bu işi tarazlaşdırıcı siyasətlə aparmaq olmaz. Türk dünyası artıq bütün yönləri ilə öz yerini bilməli, xarici və daxili siyasətlərini buna uyğunlaşdırmalı, öz strategiya və taktikalarını müəyyənləşdirməlidirlər.

Dəyişən dünya dəyişik problemlərlə qarşı-qarşıya olduğu kimi Türk dünyası da bu baxımdan problemlər girdabındadır. Yaxın Şərqdə və bütövlükdə dünyada siyasi coğrafiya dəyişməkdədir. Bu dəyişiklik Türklər üçün daha çox sorumluluq gətirməkdədir.

**Türk dövlətləri bir müstəqil dövlət olaraq artıq ayılmalı, özlərini və xarici aləmi tanımalı, öz xarici və daxili siyasətlərini müəyyənləşdirməli, asılılıqdan, başqalarına boyun əyməkdən qurtulmalıdırlar.** Bunun üçün ilk növbədə siyasətlərində açıq mövqe ortaya qoymalı, milli mənafelərini qəti bir şəkildə müəyyənləşdirməli, özlərinə bir çətir axtarmaq taktikasından tamamilə uzaqlaşmalıdırlar.

Onlar artıq ən azı yerləşdikləri regionda qapı döyən bir dbvlət deyil, qapısı çalınacaq bir məmləkət olduqlarını təsdiq etdirməli və buna uyğun davranmalıdırlar.

Bu ölkələr bir dövlət olaraq ilk öncə xalqına guvənməli, xalqdan gizlin heç bir siyasət yürütməməli, siyasətlərini əprimiş, dar qəliblərdən çıxarmalıdırlar.

Bu müstəqil dövlətlər artıq ən azı bu gün üçün öz dostu və düşmənlərini tanımalı, siyasətlərini buna uyğun qurmalıdırlar.

Tarixin hərəkətdə olan qatarını yaxalamaq, ona minmək, dünyada gedən prosesləri düzgün dəyərləndirmək ana vəzifələrdən olmalıdır. Tarix ən böyük müəllimdir. Gələcəyi görməyən və ya görə bilməyənlər tarixə baxmalı, ondan ibrət dərsi almalıdırlar. Onlar alçalan dumanlar içində itmək yox, yüksələn buludların üstünə çıxaraq dünya və gələcəyi görməlidirlər. İllərdən bəri ruhlarına hakim kəsilən

hərəkətsizlik qəlibindən çıxmalı, olanlardan qorxmamalı, risqdən çəkinməməlidirlər.

Dünya Türkləri artıq yalqız olmadıqlarını dərk etməli, əl-ələ verib bir-birlərinə dayaq durmalı, iki yüz milyonluq müəzzəm bir gücə arxalanmalıdırlar. Milli ruhun gücləndirilməsi bu yöndə ən böyük güc qaynağı olmalıdır. **Avropa qapılarından Çin dənizinə qədər uzanan böyük və zəngin bir ərazidə tarix boyu əvəzsiz bir mədəniyyət yaradan, bütün dünya xalqlarının tarixində bu və ya digər dərəcədə iştirak edən, bütün dünya dinlərini yaşayan və yaşadan, əsrlər boyu eyni dili danışan bir millətin belə yaşamağa, hissə qapılmağa haqqı yoxdur.** Ömürlərinin çox uzun olmayacağı hamıya bəlli olan Müstəqil Dövlətlər Birliyi və Avropa Birliyi kimi amorf təşkilatlara üzv olmaq əvəzinə mövcud Türk dövlətləri Müstəqil Türk Dövlətləri Birliyi kimi perspektivli bir iqtisadi, mədəni, siyasi və hərbi qurum yaratmalıdırlar. Belə bir siyasətin gətirəcəyi dinamizm iç potensialı hərəkətə gətirərək dünya Türklərinin XXI əsrdə söz sahibi olmağına gətirib çıxaracaqdır. Bütün bunların asan başa gəlməyəcəyini bilirik. Bu radikal təfəkkürün əleyhinə xarici və daxili qüvvələrin olduğunu və gələcəkdə də olacağını dərindən dərk edir və bu qüvvələrin hansı gücə malik olduqlarını da anlayırıq.

Fəqət biz onu da anlamalıyıq ki, inanan, öz gücü ilə yaşamağa can atan bir millət insanlıq şərəfini hər şeydən üstün tutur. Bunun üçün düşünmək, çalışmaq lazımdır. Bu, millətin yüksəlişinin biricik yoludur. Bir millətin yüksəlişi hər şeydən öncə yüksək mənəvi inama sahib olmaq, böyük və güclü olmağa çalışmaqdan asılıdır. Çünki yüksək mənəvi inama sahib olmaq, böyük olmağa çalışmaq milləti xoşbəxtliyə aparan şərəfli bir yoldur. Böyüklüyün başı özünəinam, mənəvi saflıq, millətə sevgi, gerçəkliklərə qarşı sayğı və elmli olmaqdır. Bilgi, elm isə insanlığı və qarşılıqlı olaraq milləti qaranlıqdan qurtaran işıqdır. Bütün maddi zənginliklər, insanların iqtisadi inkişafı da öz qaynağını məhz mənəvi dəyərlərdən və bilgidən alır.

Mənəvi dəyərlərdən və elmdən məhrum bir millət öz mövcudluğunu qoruyub saxlaya və gələcəyə addımlaya bilməz. Ona görə də yeni müstəmləkəçiliyin – neo –kolonalizmin gizli

metodu milliyyətçilik ideologiyasını sarsıtmaq, özlərinin işlətmədiyi əcaib etik və guya «mədəni» dəyərləri üçüncü dünya ölkələri xalqlarına tətbiq etmək və mədəni köləlik zəncirini onların qollarına vurmaqdır. Əcaib, süni, insanlığa yad və zərərli məsələləri Avropa dəyərləri adı altında üçüncü dünya ölkələrinə ixrac etməklə yeni müstəmləkəçilər əsarətdə saxlamaq istədikləri xalqları buna inandırmağa, bununla da öz məqsədlərinə çatmağa çalışırlar.

**Bütün Türk aləminə də üçüncü dünya ölkələri gözü ilə baxan bu «mədəni» soyğunçular yerlərdə də özlərinə uyğun bildikləri insanları hakimiyyət başına gətirir, onları hər cəhətdən müdafiə edir, onların öz xalqlarının başına açdığı bütün iyrəncliklərə göz yumurlar. Bütün bunların nəticəsidir ki, bu gün bütün maddi nemətlərlə zəngin olan Türk ölkələrində kəndlər, şəhərlər qaranlıq, dağlar, meşələr çılpaq, insanlar yoxsul, millətin dodaqları çatlaq, mədələri boş, həyata küskün, gələcəyə ümidsizdirlər.**

Mövcud iqtidarların yürütdüyü siyasət hiylə, iftira, böhtan, yalanla yoğrulduğundan ana Vətənimiz Türküstanda bir tərəfdə bütün bunlardan bəhrələnən az bir qism tox insanlar *(əgər bunlara İnsan demək mümkünsə – A.M.)* o biri tərəfdə isə işsiz – gücsüz milyonlarla ac – yalavac insan ordusu formalaşmışdır.

Bir tərəfdə gözəl Vətənimiz Türküstanın bütün nemətlərindən bəhrələnən misyonerlər və onlarla iş birliyində olanlar və onların «gül balaları», digər tərəfdə günün əcaib Avropa modasına uyub restoran və barları dolduran ortabab, yarımçılpaq, göbəyi açıq gənc qız və oğlanlar. **Hər tərəfdə isə lüt-üryan məmləkət qocaları, qarıları, gəncləri və cocuqları!**

Bir tərəfdə altı yaşdan tutmuş on altı yaşına qədər ailə qayğısı ilə yüklənən, qızmar günəş altında günəşin hərarətini, şaxtalı qış günlərində qışın sazağını bölüşərək sosyal ədalət axtaran vətən cocuqları, digər tərəfdə isti otaqlarda, villalarda sosyal ədalət nitqləri hazırlayan ədalətsiz, vicdansız, şüursuz, ruhsuz insanların ərköyün balaları.

Bir tərəfdə ildə milyon dollarlar xərclənən içki məclislərindən yüksələn qəhqəhələr, digər tərəfdə bir içim su

üçün sabahdan axşama qədər növbə gözləyən yoxsul binaları, susuzluqdan şoranlaşan kəndli torpaqları.

Bir tərəfdə xarici və daxili ağalarına güvənərək məmləkətdə at oynadan, küçələrdə ən müasir maşınlarda şütüyərək millətin namusunu hərraca qoyan qızsaçlı meşşan oğlan və oğlansaçlı qızlar, digər tərəfdə dünyanın müxtəlif ölkələrinə bir tikə çörək üçün səpələnən milyonlarla gənc.

Əlbəttə, bütün bunlar beş-on ilin və beş-on insanın əsəri deyildir. Bunlar yüzilliklərin yüzilliyimizə daşıdığı yüklərdir. **Tarix boyu gözəl məmləkətimizin üzərində bütün dünyanın gözü olub. Doğudan batıya, quzeydən güneyə tarix səhnəsinə çıxan hər bir dövlət və millət bu ölkəyə sahib çıxmağa çalışıb.** Tarix boyu bu ölkə üzərində gözü olmayan bir dövlət və millət varsa, o da hələ millət və dövlət olmayandır.

Bütün bunlarla yanaşı şərəfsiz iqtidarları da göz önündə tutduqda aydın olur ki, başqa millətlərin qurd kimi yetişdirildiyi bir dövrdə xalqımızın quzu kimi yetişdirilməsi bir suç, bir qəflət, bir xəyanətdir. Bir iqtidarın və onun başçısının öz vətəninin və torpağının istehsal gücünü bilə-bilə millətini bu gündə yaşatması, onun müqavimət gücünü qırması tarixi bir xəyanətdir.

Qədim və şərəfli bir keçmişi olan, zaman-zaman zor durumlardan ləyaqətlə çıxan qəhrəman millətimiz Türk qürur və şüuru, Türk əxlaq və fəziləti, Türk millətçiliyi ideologiyası ilə bu durumdan da alnıaçıq, üzüağ çıxacaq. Bu, keçmişdə belə olub, gələcəkdə də belə olacaq.

**Tanrı bizə yar olsun!**

**Amin.**

## Milliyətçilik bir Milli Kimlik məsələsidir.

İnsanın yaradılışı haqqında üç dünyagörüşü mövcuddur: 1) Dini; 2) Elmi; 3) Fəlsəfi. Dinin də öz elmi, öz fəlsəfəsi vardır.

Dini – fəlsəfi düyagörüşə görə bütün insanlıq bir ata ananın, yəni Həzrəti Adəmlə Həvva ananın cocuqlarıdır. İnsanlığın bir kökdən törədiyi və daha sonra ailələrə, qəbilə və

tayfalara və nəhayət xalq və millətlərə ayrılmasını səmavi dinlər olan Musəvilik, Xristianlıq və İslam qəbul etmişdir. İnsanlıq anlayışı baxımından bu dünyagörüş sağlam bir əxlaqi təmələ dayanır. Çünki bu dünyagörüş insan sifətində yaradılan və ya mövcud olan hər kəsi bir – birinin qardaşı, bacısı hesab edir.

İslamın müqəddəs Kitabı olan Qurani – Kərimin 49 - cu surəsi «Hucurat»ın 13- cü ayəsində buyrulur ki:

«Ey İnsanlar! Doğrusu Biz (Tanrı – A. M.) sizləri bir kişi və bir qadından yaratdıq. Sonra bir – birinizi tanıyasınız deyə sizi millətlərə və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınız, pis əməllərdən ən çox çəkinənizdir. Allah hər şeyi bilən və xəbərdar olandır» (əl – Hucurat, 13) Beləliklə ortaya ayrı – ayrı dillər, müxtəlif rəngli insanlar və nəhayət, müxtəlif mədəniyyətlər çıxmışdır. Sosial bir varlığa çevrilən insan fərdi səviyyədə olduğu kimi ictimai səviyyədə də fərqlənməyə başlamışdır. Toplum içində fərdlər bir – birindən fərqləndiyi kimi, insanlıq aləmində də xalqlar, millətlər bir – birindən dillərinə, dərilərinə, antropoloci quruluşuna, adət – ənənələrinə, mədəniyyətlərinə və nəhayət dinlərinə, inanclarına görə fərqlənmişlər. Müqəddəs ayədə buyrulur ki:

«Göylərin və Yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun (Allahın – A. M.) qüdrət əlamətlərindəndir» (Ər – Rum, 22).

Hər hansı bir xalq, millət bir – birindən nə qədər fərqli olsa da onların bir – birlərinə bənzərlikləri daha çoxdur. Əslində bəşəriyyət bir – birinə bənzər və bənzəməz tərəfləri ilə rəngarəng bir çiçək dəstəsi kimidir.

Üstün ağıl, zəka və iradə, iman, inam, eşq, əxlaq, nitq, alət yaratma və işlətmə və s. kimi xüsusiyyətlər yaradılanlardan yalnız insana məxsus olduğundan bütün mədəniyyətlərin, elmin, fəlsəfənin və ideologiyaların da yaradıcısı insanlardır. Müqəddəs ayədə buyrulur ki:

«Biz (Allah – A. M.) insanı ən gözəl biçimdə yaratdıq» (Ət – Tin, 4).

Dini dünyagörüşdə insan bütün yaranmışların əşrəfi, aləmlərin, kainatın, bütün varlıqların göz bəbəyi kimi

vəsfləndirilmişdir. Bu baxımdan insanoğulları bir – birinin dostu, qardaşı, sirdaşıdır. Bütün bunlarla yanaşı bəşər həyatı eyni zamanda bir yarış və bir imtahan meydanıdır. Bir toplum içində fərdlərin bir yarışı olduğu kimi bəşəriyyətdə də millət və xalqların arasında bir rəqabət, bir yarışma mövcuddur. Bu rəqabət və yarışma millət və xalqları yaradıcılığın, inkişafın çox qüvvətli bir ünsürünə çevirmiş, onları hərəkət və fəaliyyətə sövq etməklə mənəvi bir motor rolu oynamış və oynamaqdadır. Çox təəssüflər olsun ki, millət və xalqlar arasındakı bu rəqabət, bu yarış inkişafa, sevgiyə, birliyə və bütövlükdə insanlığa xidmət əvəzinə zaman – zaman çox vəhşi, barbar, insafsız, mərhəmətsiz mücadilələrə, müharibələrə səbəb olmuş, Tanrısı bir, mənşəyi bir, əsli – kökü bir olan insanı ağır məşəqqətlərə düçar etmişdir. Doğrudur, rəqabət, yarış, mübarizə təkcə insan həyatının, millət və xalqların deyil, bütün təbiət və cəmiyyətin dəyişməz bir qanunudur. Ancaq bu qanundan yaradılmışların əşrəfi sayılan idrak və zəka sahibi olan insanoğlu insanlığın xeyrinə istifadə etməli idi. Fəqət nə yazıq ki, belə olmadı.

Hirs, qəzəb, kin, ehtiras, qisas, qısqanclıq, qan tökmək və s. bu kimi heyvani nəfslər insan təbiətinin bir parçasına çevrildi. Müqəddəs ayələrdə buyrulduğu kimi: «İnsan yaxşılıq (etmək – A.M.) etdiyi kimi pislik də (etmək – A.M.) istəyər» (İsra, 11). «İnsan həqiqətən mənfəətinə də çox düşgündür» (Əl – Adiyat, 8). «İnsan həqiqətən çox həris, tamahkar və kəm hövsələ yaradılmışdır» (Əl – Məaric, 19). «İnsan özünü dövlətli sayaraq azğınlıq edər» (Əl – Ələq, 7, 6). Bütün bunlarsa insanı və bütövlükdə insanlığı bir – birindən fərqləndirmiş, mübarizəyə sövq etdirmişdir. Məhz bu mübarizə və vəhdətdən də ailələr, tayfalar, qəbilələr, ümmətlər xalqlar və millətlər meydana gəlmişdir.

Ailə insanlığın keçdiyi hər mərhələdə və hər yerdə mövcud olmuş və olmaqdadır. Ailə özündən böyük bütün toplumların – tayfaların, qəbilələrin, xalqların, ümmətlərin, millətlərin çəyirdəyidir.

Eyni dinə inananların təşkil etdikləri bəşər topluluğuna ümmət deyilir. Xalq və millətdən daha geniş bir topluluq olmasına baxmayaraq, insanlıq ümmət mərhələsini bugünkü

millət şüuruna çatmadan öncə yaşamışdır. Şübhəsiz ki, geniş anlamda ümməti təşkil edən topluluqlar ayrı – ayrı dil və mədəniyyətə malik olan etnoslardan meydana gəlmişlər ki, bu etnoslar daha sonra özlərini millət olaraq ifadə etmişlər.

Bugünkü anlayışla millət məfhumu XVIII əsrin sonlarında meydana gəlmişdir. Bunun ilk öncə Avropada meydana gəlməsi ilə bütün XIX əsr boyu güclü bir axın kimi dünyanı sarsıtdı.

Millət, Milliyət və Xalq sözü bir çox dillərdə başqa – başqa anlamlarda işlənmişdir. Etimoloci cəhətdən **millət** (nasion) latınca «irq» və ya «doğuş» terminindən törəmişdir. İlk çağlarda qəbilələrlə bağlı bir anlam daşımış, fəqət sonralar sadəcə bir xalqı və ya «ərazi əhalisi»ni (folk) və **milliyəti** (nasionality) deyil, eyni zamanda, müstəqil və hökmran olan dövləti anlatmaq üçün işlədilmiş və müəyyən qarma – qarışıqlıq yaratmışdır. Cəmiyyətlər sağçılara və solçulara bölündükdə isə bu termin daha da anlaşılmaz şəklə düşmüş, **Millətçilik** – nasionalizm, **Milliyətçilik, Xalqçılıq** isə milli vətənpərvərlik (le patriotisme national) kimi şərh edilmiş və hətta **Millətçilik irqçilik** adlandırılaraq «gerilik» kimi qələmə verilmişdir. Bütün bunlar qarma – qarışıqlıq yaratmaqla bərabər, həm də millətin yaratdığı sözlərin məna və mahiyyətinə varmadan özlərini müasir hesab edən solçu imperiyaçılar onları da siyasətə tabe tutmağa çalışmışlar. Yerli məzlum solçular da buna uyaraq özləri də bilmədən müstəmləkə millətlərin Millətçilərinə «irqçi», «geriçi» damğası vurmağa çalışmışlar. Beləliklə, yüzlərlə, minlərlə məqalə və kitablar nəşr edərək **Millətçiliyi** aşağılamağa çalışmış, dolayısı ilə imperialist dövlət və millətlərin «dəyirmanına su tökməyə» yardım etmişlər. Sağçılarsa bu gün artıq **Millətçiliyi Milliyətçiliklə** əvəzləmiş, ona yeni anlam verməyə məcbur olmuşlar. Bizcə, **Millətçiliklə Milliyətçilik** arasında heç bir məna fərqi yoxdur. Fərq yalnız məzlum millətlə hakim millətin **Millətçiliyindədir.** Daha doğrusu, hakim millətin **Millətçiliyi irqçlik,** məzlum millətin **Millətçiliyi** isə özünü qorumadır. «Məzlum millətlərin Millətçiliyi **demokratik** xarakter daşıyır». Ona görə də biz hər

iki eyni mənalı terminindən – Millətçilik və Milliyətçilikdən istifadəni məqsədəuyğun sayırıq.

Millətin, milliyətin, xalqın ilkin göstəricisi dildir. Dillə yanaşı millətin ən mühüm göstəricilərindən biri də dindir. Din mənəviyyatla bağlı olduğundan və insan həm də mənəvi varlıq olduğundan o dinsiz yaşaya bilməz. Formasiyası, inkişaf səviyyəsindən asılı olmayaraq heç bir cəmiyyət və xalq dinsiz yaşamamış, yaşamır və yaşamayacaq.

Mədəni dünya XX əsrə müasir millət olma eşqi ilə daxil oldu. Avropada 150 illik bir zaman içində tam formalaşan müasir millətlər meydana gəldi. Çox təəssüflər olsun ki, insan təkamülünün bugünə qədər ulaşıla bilən ən mükəmməl siyasi və ictimai təşkilatı olan müasir anlamdakı millətləşmə prosesi bizdə çox sonralar başladı və başlandığı andan da beşiyində boğuldu.

İnsanlığın tarix boyu inkişafını izlədiyimiz zaman mədəniyyət yaratmaq və millət olmaq istəyi bütün xalqların qayəsi olmuşdur. Bu qayə insanların öz milli mədəniyyətlərinə bağlılığından və öz millətlərinə sədaqətdən doğmuşdur. Yüksək bir milli mədəniyyət yarada bilməmiş, millət ola bilməmiş bir toplum zəif və inkişaf etməmiş nadan bir fərd kimidir. Bunlar başqa xalqların içində ərimiş, yox olmuş, tarixə mal olmuşlar. Şəxsiyyətsiz insan insan sayılmadığı kimi, kimliksiz toplum da millət sayıla bilməz.

İndiki halda müdriklərin, dahilərin, kamil insanların təsəvvür etdikləri insanlıq və insanların vahid birliyi bir xəyal və ya çox uzaq bir ehtimal kimi görünməkdədir. Bugün üçün gerçək görünən millətlərin varlığı, onların bir – biri ilə rəqabəti, yarışı və hətta mübarizəsidir. Unudulmamalıdır ki, insanlıq hətta tək bir siyasi idarə altında birləşsə belə, milli mədəniyyətlər mənəvi dəyərlər real olaraq öz mövcudluqlarını qorub saxlayacaq. Çünki mədəniyyət və mənəvi dəyərlər insan təbiətinin ayrılmaz bir parçası və xüsusiyyətini təşkil etməkdədir. İnsanlıq tarixi boyunca ən mühüm və ən böyük rol oynayan toplumlar yalnız oricinal, özünəməxsus və böyük mədəniyyəti olan millətlərdir. Əslində elə ən böyük mədəniyyət millət ola bilmə mədəniyyətidir. Dünya millətlərin dünyasıdır.

Hər bir fərd belə dünyaya bir millətin nümayəndəsi olaraq gəlir və həyatını həmin millətin bir üzvü kimi yaşayıb başa vurur. İnsanlar bəzi zərurətdən dolayı maddi məkanlarından ayrıla bilərlər, fəqət aid olduğu millətin milli kimliyindən, hətta milli mədəniyyətindən tam təcrid oluna bilməz. Milli kimlik və qarşılıqlı olaraq milli mədəniyyət insanla birlikdə daşınır və insan hansı məkanda oursa olsun doğulub boya başa çatdığı, içində böyüdüyü millətin mənəvi dəyərlərini qoruyub saxlayır. Milli kimlikdən, milli mədəniyyətdən məhrum olmaq başqa millətə çevrilmək deməkdir.

Öz millətinə, əslinə, nəslinə, milli mədəniyyətinə bağlı olan onu sevən, ən başlıcası, millətini yüksəltməyə çalışan insanlara milliyətçi deyilir. İnsan üçün milliyətçilik ailə sevgisi qədər təbii bir duyğudur. Ata – anaların uşaqlarına, uşaqların valideynlərinə, qardaş – bacıların, sevgililərin bir – birlərinə olan bağlılıq və məhəbbətləri nə qədər təbiidirsə, fərdlərin mənsub olduqları millətə sevgisi və bağlılığı da bir o qədər təbiidir. Milliyətçilik əslində öz millətinə bağlılıq şüuru və duyğusudur. Hər bir fərd ağlı kəsəndən düşünməyə başlamış və özünə belə suallar vermişdir ki, mən kiməm? hansı nəsildən gəlmişəm? Kimin oğlu və ya qızıyam? mən hansı milli mədəniyyətə malikəm?, hansı toplumun bir parçasıyam?, ictimai kimliyim nədən ibarətdir?, çox nəhəng insanlıq aləmi içində mənə ən yaxın olanlar, mənə ən çox bənzəyənlər kimlərdir?, keçmişim hansı etnosla bağlıdır?, gələcəkdə hansı topluma bağlana bilərəm?, Yer kürəsində hansı torpağa «Vətən» deyə bilərəm. Bu sualları özünə verib onlara cavab tapanlarda millət sevgisi yaranmış, onlarda mənsub olduqları millləti yüksəltmək duyğusu baş qaldırmış, milliyyətçilik ideologiyası beləcə yaranmışdır.

Hər bir ideologiyanın özünəməxsus ideya sistemi vardır. Əslində ideya və ya məfkurə ictimai bir fikirdir. Məfkurə hər hansı bir cəmiyyətin maddi və mənəvi varlığını daha kamil bir şəklə salmaq üçün əldə edilən qənaətdir. Tarix də həyat kimi təkamül yolunu təqib etməyə məcburdur. Bu anlamda ideya cəmiyyəti təkamüldən uzaqlaşdıran hər cür əksliklərə qarşı çıxan qüvvətli bir fikir, düşüncə sistemidir. Məfkurə yalnız

cəmiyyətin təkamülünü buxovlayan zəncirləri qoparmaq, tarixin intiqamını almaqla yetinməz. O, həm də tarixin haqqını, şərəfini özünə qaytarar, onu ən yüksək zirvəyə qaldırar, sonda onu uzaq qayəsinə ulaşdırar.

Məfkurə cəmiyyətin uğradığı haqsızlıq və şərəfsizliyi anladan, cəmiyyətin durğunluq və süslüyünü doğuran səbəbləri aşkara çıxaran və bunlardan çıxış yollarını göstərən ən güclü, ən sistemli fikirlər toplusudur. Bu anlamda ideya hər şeydən əvvəl təfəkkürün məhsuludur.

Fərdlərin həyatında iztirab və fəlakətlər nədirsə, millətlərin müqəddəratında da şərəfsizlik, faciə və hailələr odur.

Hər bir insanın ruhu, duyğusu, vicdanı, mənəviyyatı olduğu kimi millətlərin də kollektiv ruhları, duyğuları, vicdanları və mənəviyyatları vardır. Milli ideologiyalar da məhz millətlərin bu ruhi və mənəvi keyfiyyətlərindən doğulur. Milli ideologiya bir neçə nəfərin yaratdığı əsər deyil. Hər millətin öz varlığını müqəddəs bir amal içində duyması parlaq bir anlayışdır ki, bu anlayışa milli ideologiya və ya məfkurə deyilir. Milli ideologiyası olmayan bir millət ölmüş deməkdir. Millətlərin **məfkurəsi** dil, din, tərbiyə, ruh və duyğularını birləşdirib hamısını bir siyasi sərhəd daxilində toplamaq və millətin bütün mənafelərini qoruyub saxlamaqdan ibarətdir.

Məfkurə, siyasi, iqtisadi fəlakətlərdən daha çox millətlərin təfəkkürlərinin dəyişməsi ilə bağlıdır. Təfəkkürün, həyata baxışın dəyişməsində tarixi, ictimai, siyasi, iqtisadi və mədəni amillərlə yanaşı fikir, düşüncə, məfkurə də mühüm rol oynayır. Bütün bunlar xəmiri yoğurur, bərəkəini isə məfkurə doğurur. Məfkurəsi daima canlı qalan və fəaliyyətdə olan millətlər öz qurtuluş və inkişaflarına daha tez nail olurlar. Onlar qonşularının tərəqqisindən, dünyadakı mədəni inkişafdan asanlıqla və təcili surətdə yararlana bilirlər. Milli ideologiyları zəif olan və ya heç olmayan millətlər isə geri qalır və faciələrə düçar olurlar. Onların təfəkkürləri pozulur, fikir cövhərləri çürüyür. Belə millətlərin təkcə qabiliyyət və istedadları deyil, əxlaqi və mənəvi dəyərləri də itir, bütün inkişafdan məhrum olur və millət bütövlükdə başqalarının yeminə çevrilir.

Millətlər yalnız milli ideologiyaları, təfəkkür və xarakteri ilə mədəniyyətə, texnologiyaya, elmə və sonda dövlətə yiyələnə bilərlər. Bu yolda yüzlərlə yüksək səviyyəli insanlar, əvəzsiz elm, mədəniyyət, incəsənət, ədəbiyyat xadimləri qurban getmiş, millətlərini sonda hürriyətə ulaşdırmışlar. Türk dünyasında bu proses gec də olsa, XIX əsrin ikinci yarısından başlayaraq XX əsrin 20 – ci illərinə qədər davam etmişdir.

Belə ki, Türklərin düşdüyü ağır vəziyyəti dərindən duyan milli məfkurə sahibləri, fikir və düşüncə fədailəri, millət şəhidləri milləti düşdüyü vəziyyətdən çıxarmaq yollarını düşündülər və imkanları daxilində əllərindən gələni etdilər. Onlar bu məqsədlə ilk olaraq elmin tərəqqisində, millətin qurtuluşunda əsas olan fikirlər irəli sürdülər. Bu fikir və düşüncələr nəhayət milliyyətçilik ideologiyasını formalaşdırdı. Türk milliyyətçiliyinin adı «Türkçülük» oldu.

Türk milliyyətçilərinin əsas məqsədi Türk millətini yüksəltmək, Onu inkişaf etmiş millətlər səviyyəsinə qaldırmaqdır. Bu məqsədlə onlar ilkin şərt kimi Milli Dövlətin yaradılması və onun qorunması fikrini irəli sürdülər və nəhayət millətin gücü ilə buna nail oldular. Deməli, dövləti quran millətdir. Ona görə də dövlətin əsas vəzifəsi millətə xidmət etməkdir. Millətə xidmətin əsasında isə demokratik dəyərlər dayanır. Bu anlamda Türk milliyyətçilik fəlsəfəsinin əsasını Milli Deemokratiya ideyası təşkil edir. Demokratiya ən dar anlamda xalq hakimiyyəti deməkdir. Demokratiya millətin siyasi, mədəni, iqtisadi hakimiyyəti deməkdir. Siyasi demokratiya siyasi azadlıq deməkdir. Mədəni demokratiya mənəvi azadlıq deməkdir. İqtisadi demokratiya sosial ədalətə dayanan maddi azadlıq deməkdir.

Türk milliyyətçiliyinə görə millət ictimai birliklərin ən böyüyü, ən mükəmməli, ən müqəddəsidir. Millət tarixi, mənəvi, ictimai və orqanik bir bütündür, tamdır. Millət keçmişdə, bu gün və gələcəkdə mövcud olan canlı varlıqdır. Millət fərd, zümrə sosial qrup və siniflərdən fərqli olaraq fani deyil, əzəldən əbədiyyətə uzanan dəyərlər xəzinəsidir. Türk milləti ədalətə aşiq, demokratik bir millətdir. Türk millətinin bu müqəddəs dəyərlərinə önəm verən Türk milliyyətçiləri Türklər yaşayan

bütün ərazilərdə, bu müqəddəs Vətən torpaqlarında, Milli Demokratik Dövlətlər qurulmasına və bu dövlətlərin əbədiyaşar olmasına səy göstərmiş, bütün mənalı həyatlarını bu yolda sərf etməkdən qürur duymuşlar. Həyatdan köçənlərin Ruhu şad, bu yolda çalışanların ömrü uzun olsun. Amin.

Ömrünün böyük bir hissəsini milliyyətçiliyin tarixini və mahiyyətini incələməyə sərf edən məşhur amerikan sosioloqu Carlton İ. H. Hayes «Milliyyətçilik: bir din» adlı əsərində göstərir ki: «Dili, milliyyət və milliyyətçilik sözlərinin normal və əsas hissəsi olaraq görürəm və bunun çox zaman niyə inkar edildiyini… anlamaqda çətinlik çəkirəm».

Müəllif daha sonra yazır: «Bugünlərdə milliyyətçiliyin dünya çapındakı zəfərinin – və dünya dininin – gələcəyi haqqında nə düşündüyüm soruldüğunda hardasa otuz il əvvəl yazmış olduğum və indi o günkündən daha gerçək olan bir məqaləmin son paraqrafına müraciət edirəm: Milliyyətçilik artıq açıq – aydın bir cahanşümul hadisədir və müasir mədəniyyətin həm maddi, həm də mənəvi inkişafını kökdən həyata keçirməkdədir. Milliyyətçilik insanlığın siyasi əlaqələri ilə yanaşı, iqtisadi və mənəvi ilişgilərini də getdikcə daha çox öz təsir dairəsinə almağa bənzəməkdədir».

«Milliyyətçilik modern və çağdaş dünyadakı aşkar və aparıcı bir hərəkatdır».

«Milliyyətçilik modern bir inkişafdır. Mənbəyini və yüksəlişini Avropada tapmış, Avropanın təsiri və nümunə olması ilə Amerikada və Qərb mədəniyyətli digər bütün bölgələrdə özünə yer tapmışdır. İndi artıq sadəcə xristian Qərbə məxsus deyildir. Son zamanlarda Asya və Afrikanın geniş ərazilərindəki Müsəlman, Hindu, Konfüsucu və Budist mədəniyyətinə mənsub dövlət və xalqların gözə çarpan bir xüsusiyyəti halına gəlmişdir. Xüsusilə, İslam dünyasının dörd bir tərəfində milliyyətçilik özünü açıq – aydın göstərməkdədir».

«Milliyyətçilik, ən son mərhələsində… istismarçı imperatorluqların yaranmasını şərtləndirir». Fəqət bu da bir danılmaz faktdır ki, milliyyətçilik həm də istismarçı imperatorluqların çöküşünü şərtləndirən ən mühüm amildir (A. M.).

Milliyyətçilik mövzusu bu gün artıq fəlsəfənin, siyasətin, sosiologiyanın, psixologiyanın, iqtisadiyyatın, ədəbiyyatın və hətta statistikanın təhlil və mübahisə obyektlərindən biridir. Bu ideologiya artıq 150 ilə yaxındır ki, incələnməkdə, maraqlı tədqiqat və elmi əsərlər yazılmaqda, onun haqqında bir – birinə zidd müxtəlif fikirlər söylənməkdədir.

«Bəsit ifadə ilə milliyyətçilik, vətənsevərliyin və milliyyət şüurunun qovuşması kimi də tərif edilə bilər».

«Milliyyətçilik vətənsevərlikdir».

Bir çox materialist ideologiyalardan, xüsusilə, kommunist ideologiyasından fərqli olaraq Milliyyətçilik dini xarakterə malik olduğundan onun mənəvi bir dəyəri var. İnsan yalnız yeməklə yaşaya bilməz. Bu üzdən milliyyətçiliyin aşıladığı duyğu yalnız bir qrup insan üçün deyil, bütövlükdə aid olduğu millətin bütün üzvlərini əhatə edir. Milliyyətçilik insanın ölümsüzlüyə, hürriyyətə duyduğu bir inam sistemidir. Milliyyətçilik insanları millətinin tarixi keçmişi ilə bağlayaraq onu və gələcək nəsilləri millətin gələcək həyatı ilə eyniləşdirir.

Milliyyətçiliyin əsas hədəfi ən azından aid olduğu millətin milliyyətinə, milli dövlətinə, hürriyətinə, şəxsiyyət və müstəqilliyinə təminatdır.

Milliyyətçiliyin istər imperializm və istərsə də kommunist ideologiyası və digər kosmopolit dünyagörüşlər üzərindəki müəzzəm tarixi qələbəsi sübut etdi ki, o, həm populyar və həm də əbədiyaşar bir din duyğusu aşılamaqda daha yüksək qabiliyyətə malikdir.

Tarixi və bugünkü insanoğlunun təbiətüstü din duyğusunun əsasını Atəşpərəstlik, Buddizm, Hinduizm, Konfüsyçculuq, Musəvilik, Xristianlıq və İslamiyyət təşkil edirsə, artıq XVIII əsrdən başlayaraq günümüzədək təbiətaltı və ya başqa deyimlə, Cəmiyyət dini duyğusunun əsasını Milliyyətçilik təşkil edir və belə görünür ki, gələcəkdə də o, təşkil edəcək. Bəzi alimlər göstərirlər ki: «Milliyyətçiliyin müxtəlif növləri və hətta dərəcələri vardır». Bunlardan bəziləri təbiətüstü tarixi dinlərlə uzlaşaraq onlarla əlaqəyə girmiş, bəziləri, xüsusilə, materialist və ateist dünyagörüşə malik yarı – dini bir xüsusiyyət kəsb edərək kommunizm kimi utopik bir din

halına gəlməyə çalışmış, bəziləri isə öz içlərinə qapılaraq dünyaya qapalı, qısqanc bir din olmağa səy göstərmişlər.

İlk öncə qəbiləçiliyin bir ifadəsi olan milliyyətçilik daha da inkişaf edərək dövlətlərin, imperatorluqların ifadəsinə çevrildi. Milliyyətçiliyin çiçəklənmə dövrü XX əsrdir. İstər I Dünya müharibəsi, istərsə də, xüsusilə, II Dünya müharibəsi milliyyətçiliyin yüksəlişinə daha böyük təkan verdi və bu «Soyuq savaş» dönəmində daha da inkişaf edərək bir «din» halına gəldi. Bu gün artıq Qərbi Avropada, Rusiyada modern milliyyətçilik bir «din» mahiyyəti qazanmış durumdadır. Milliyyətçiliyin çağdaş dünyada yeni formaları bir az da gizli şəkildə təzahür etməkdədir.

Milliyyətçilik əslində bir milli kimlik məsələsidir.

XXI əsrdə belə milliyyətçiliyin dünyadakı zəfərinin şahidiyəm. Milliyyətçilik artıq açıq – aydın bir cahanşümul ideya və müasir mədəniyyətin həm maddi, həm də mənəvi inkişafının təməl daşıdır. İnsanlıq tarixinin siyasi, ideoloci, iqtisadi, hərbi və mənəvi dayaqlarını təşkil edən milliyyətçilik getdikcə daha da vüsət almaqdadır. Məndən soruşulsa ki, dünyada əbədiyaşar ideologiya hansıdır? Mən tərəddüd etmədən deyərdim: Milliyyətçilik.

Unudulmamalıdır ki, dünyaya gələn hər bir fərd ailəsinin üzvü olduğu kimi həm də aid olduğu millətin bir üzvü olur. Bu anlamda böyük bəşəri varlıq olan millət həm də böyük bir ailədir. Millətə sədaqət həm də ailəyə sədaqətdir. Vətən deyilən milli məkan da millətə mənsub ailələrin yuvasıdır. Deməli, vətənpərvərlik də milliyyətçiliyin ayrılmaz bir parçasıdır. Vətənə xəyanət həm də millətə xəyanətdir. Milləti inkar etmək gerçəyi inkar etməkdir, varı yox saymaqdır. Milləti inkar etmək şəxsiyyətini inkar etmək deməkdir. Atalar demişkən: «Əslini danan haramzadədir». Bu səbəblə, şəxsiyyətini qorumaq, ailəyə sədaqətli olmaq, vətəni sevmək həm də milləti qorumaq, ona sədaqətli olmaq, onu sevmək, onu yüksəltmək deməkdir. Bu anlamda **milliyyətçilik** kökü insan ruhunun dərinliklərinə varan, insan mənliyini yüksəldən, insana kimlik şüuru qazandıran psixoloci və ictimai bir zərurət, əbədiyaşar bir ideologiyadır. Ona görə də milliyyətçilik daima llətin

bütününü qucaqlayan, ağuşuna alan bir ideologiya kimi daima sevilməli, bəslənməli, onun üzərinə heç bir kölgə salınmamalı, ondan heç bir pis məqsəd üçün istifadə edilməməlidir. Bu ideologiyanın daşıyıcılarının əsas məqsədi hər şeydən əvvəl aid olduğu millətin müstəqilliyi, istiqlalıdır, millətini yabançı işğal və istismardan qurtarmaqdır. Müstəqillik, istiqlal varsa, onu qorumaq başlıca qayəsidir ki, bu da maddi və mənəvi, iqtisadi və mədəni cəhətdən yüksələrək inkişaf etmiş millətlər cərgəsinə qoşulmaq deməkdir. Dünyada acizin haqqı yoxdur. Acizin heç bir şeyi olmadığı kimi istiqlalı da olmaz, olsa da qalmaz.

Bu ideologiyanın daşıyıcıları uğrunda hər an can verməyə hazır olduqları Vətən torpağını mübarək və müqəddəs sayır, onu qorumağı özlərinə borc bilirlər.

Bu ideyanın daşıyıcıları yaşadığı cəmiyyətlərdə azadlıq, ədalət və demokratiya istəyirlər.

Bu ideyanın daşıyıcıları öz varlıqlarını aid olduqları millətin varlığından ayırmaz, milləti bütöv bir orqanizma hesab edər və millətin hər bir üzvünü özlərinə qardaş qəbul edərlər.

Bu ideyanın daşıyıcıları milli mədəniyyəti, milli və mənəvi dəyərləri, milli adət – ənənələri yaşatmaq və yüksəltməyə çalışır və onları yabançı təsirlərdən, bu və ya digər yıpranmalardan qorumağı özlərinin vəzifəsi sayarlar.

Bu ideyanın daşıyıcıları millətin kollektiv məhsulu olan milli dilə, milli tarixə sayğı ilə yanaşar, onları bilər, sevər və öyrədərlər. Milli qələbələrlə fəxr edər, milli fəlakət və iztirablara yanarlar.

Bu ideyanın daşıyıcıları millətin gələcəyi haqqında ümidli və inamlıdırlar. Bütün çətinliklərə sinə gərərək dinamik bir inkişafa yol açar, millətini dünya millətləri ailəsinin azad, şərəfli, bərabər haqlara sahib, qüdrətli bir üzvü olmasına çalışarlar. Vətənləri, millətləri və dövlətləri üçün bütün fədakarlıqları göstərərək idealist bir əxlaqa sahib olar, siyasi həyatlarını milli dəyərlərlə səmimi bir şəkildə bağlamağa çalışarlar.

Yaşadığımız XXI əsrdə belə sadalanan bu fikir və mülahizələrdən vaz keçə bilən nə bir millət və nə də bir dövlət var. Bütün bunlardan sıyrılaraq mövcud olmaq, bəxtiyar

yaşamaq qeyri – mümkündür. Hətta bütün bunlar olmadan ləyaqətli bir vətəndaş olmaq da mümkün deyil. Ona görə də milliyyətçiliyə qarşı çıxanlar bilməlidirlər ki, onlar insanın şərəf və ləyaqətinə, səadətinə qarşı çıxırlar. Real həyatda hər bir insan üçün cahan onun Vətəni, insanlıq da onun millətindən ibarətdir. Başqa deyimlə, Vətənini qoruyan Cahanı qoruyar, millətini sevən də insanlığı sevər. Çox təəssüflər olsun ki, «Dünya vətənim, millətim insandır» deyimi əslində real həyatda özünü doğrultmayan populist şüardan başqa bir şey olmadı. Bu deyim o zaman həqiqət ola bilər ki, bütün insanlıq bunu qəbul etsin. Bu isə qeyri – mümkündür. Millət sevgisi, milliyyət şüuru olmadan insanlığı sevmək olmaz. İnsanı, insanlığı sevmək istəyən millətini sevməli, dünyanı gözəlləşdirmək istəyən Vətənini gözəlləşdirməlidir.

Öz millətini sevib yüksəldən, Vətənini gülzara çevirən, millətləşmə mərhələsini tamamlayan xalqlar xoşbəxt xalqlardır. Yalnız öz vətənini və millətini sevən, onu yüksəldən insanlar insanlıq və dünya içində qiymətli və yararlı varlıqlar sayılır. Bütün mütəfəkkirlər, dahilər, sənətkarlar ilk öncə öz millətlərinin ruhuna tərcüman olmuş, bunu ləyaqətlə bacardıqları üçün bütün insanlığa mal olmuş və klassikləşmişlər. Ona görə də insanın öz vətəni və millətini sevməsi, onu yüksəltməyə çalışması, bütün insanlıq üçün xeyirxah olması, sülh, əmin – amanlıq səadət və rifah diləməsi deməkdir. Deməli, milliyyət hissinin və milliyyətçiliyin məhvinə çalışmaq hər bir millətə edilən ən böyük pislik və əslində insanlığa qarşı düşmənçilikdir.

Öz millətləşmə dövrünü vəhşi təcrübələrinin dəhşəti ilə də olsa tamalamış millətlər indi millətləşməkdə olan xalqların milliyyətçiliyinə qarşı çıxır, milliyyətçilik ideologiyasını hər vəchlə tənqidə çalışırlar. Onların bu tənqidlərinin əsasında əslində əldə etdikləri dünya hakimiyyətini özlərinə xas metod və politikalarla davam etdirmək durur. Onlar bunu pozmaq istəmirlər. Çünki güc onlarda, iqtisadiyyat onlarda, mədəniyyət onlardadır. İnsanlığın hər cür yaşayış standartını onlar müəyyənləşdirir. Bugünkü dünya düzənini onlar formalaşdırmışlar və indi də bu düzəni pozmaq istəmirlər.

Onlara görə onların düşüncəsindən kənar başqa mədəniyyət, başqa standart, başqa iqtisadiyyat, başqa siyasət olmamalıdır. Bir Yaponya örnəyi onlar üçün yetəri qədər qorxulu görünür. Dünən Sovet İmperiyasının parçalanmasında milliyyətçiliyə istər – istəməz saygı duyan və onu dəstəkləyən Qərb ideoloqları indi inkişaf etməkdə olan ölkələrdə milliyyətçilik ideologiyasına qısqanclıqla yanaşır, bu düşüncə sistemini hər cür aşağılamağa çalışırlar. Acınacaqlısı budur ki, milliyyətçilik ideologiyasını əsas götürərək millətləşməyə çalışan xalqların öz içindən çıxan bəzi kosmopolit düşüncəli mütəxəssislər də hər cəhətdən özlərini insanlığın ağası hesab edən, öz millətləri ilə qürur duyan, bir əsr ərzində iki dünya müharibəsi edərək bütün mədəni insanlığı qana bulamış, «mədəni» Qərbin ayrı – ayrı fikir adamlarının təsirinə düşərək milliyyətçilik ideologiyasına qarşı çıxır, yeri gəldi – gəlmədi onu tənqidə çalışırlar. Bu kosmopolitlər unudurlar ki, indi də bir xeyli Qərblinin masqalarını yırtsan, makiyaclarını qaşıyıb töksən onların sifətində Qərb insanının prototipi, örnəyi və modelləri olan Mussolinidən, Hitlerdən, Stalindən cizgilər görə bilərsən. Əslində bu gün Hitlerə, Mussoliniyə, Stalinə tüpürən bir alman, bir italyan, bir rus dolayısı ilə də olsa öz üzünə tüpürdüyünün fərqində olmalıdır. Çünki bunları yetişdirib ərsəyə gətirən «barbar» Şərq deyil, «mədəni» Qərbdir. Əlbəttə, belə məhəmətsiz, vicdansız, vəhşi, istismarçı, imperialist və qan püskürən faşist, kommunist və nasist ideologiyaların milliyyətçilik ideologiyası ilə heç bir əlaqəsi yoxdur. Onlar şovinizmdir, irqçilikdir. Qərbin ikiüzlü və ikili standartlı davranmaları hər zaman mümkündür. Fəqət onlar əzilməkdə olan xalqların XXI əsr milliyyətçiliyinin inkişafını durdura bilməyəcəklər.

### Müqəddəs dava

*Mən dünyaya ün salan Türküstanın oğluyam,*
*Bu Torpaqda doğuldum, bu Torpağa bağlıyam.*

İnsanlar kimi millətlərin də böyük idealları vardır. Hər bir millətin uzaq vədəli strateci hədəfləri, siyasətləri olur. Hər bir millət ilk öncə milli ideologiyasını yaradır, ona əsaslanaraq istiqlal savaşına başlayır, azadlıq əldə etdikdən sonra birlik və bərabərliyini təmin edərək strateci hədəflərə doğru yola çıxır.

Hər bir millətin fəxr edə biləcəyi özünəməxsus milli dili, milli mədəniyyəti, milli dövlətə aparacaq milli hədəfləri, milli qürur mənbələri, milli qəhrəmanları, milli azmanları vardır. Sizləri bu milli və strateci hədəflərə doğru irəliləməyə çağırıram.

Hər bir xalq ilk öncə «közü öz qabağına eşir». Bu gün dünyada söz sahibi olan dövlətlər və o dövlətləri təmsil edən xalqlar çalışırlar ki, məzlum xalqlar arasında nifaq salaraq onları öz rifah və səadətləri üçün çalışdırsın, imperialist bir düşüncə ilə varlıqlarını davam etdirsinlər. Bu gün hətta dini əldə alət etmiş, yer üzündə olan məzhəbləri birləşdirərək məzlum xalqları sömürmək üçün papa, patriarx, xaxam, ayətülla belə əl– ələ vermişlər.

Sizləri bu həyat həqiqətlərinə diqqət yetirməyə çağırıram.

Avropa xalqları milli dövlətlərini qurub, özlərini dünyaya sahib çıxmağa hazırlayırlar.

ABŞ və Almaniya dünya ağalığı, İngiltərə yenidən Böyük Britaniya İmperatorluğu, Rusiya Sovet İmperatorluğu xülyasında, Fransa Napolnonun fəth etdiyi ölkələrin xəyalı içində, Çin Kommunist İmperatorluğunu sürdürməkdə, İtaliya italyanca danışan bütün ölkələrə hakim olmağa çalışmaqda, Yunanıstan Aristoteldən miras qalan «Yunan soyunun ən mükəmməl soy» olduğu iddiasında…

Bu gün istər Asiya, istər Afrika və istərsə də Cənubi Amerika xalqları hələ də milli mövcudiyyət uğrunda mübarizə

aparır və ya milli dövlət qurmağa səy göstərir, imperiyaların məngənəsindən qurtulmağa çalışırlar.

Bütün bu həyat həqiqətləri qarşısında bizim də, bir vaxtlar Yer kürəsinin üç qitəsində söz sahibi olmuş böyük İmperatorluqlar quran, Avropanı titrədən, Şərqi diz çökdürən Türklərin də Vahid Türk Dövləti yaratmağa haqqımız vardır.

Unudulmamalıdır ki, «Su gələn arxa bir də gələr», Yetər ki, arxımızı bulalım.

İdrakı sönük başçılarımızın qəfləti ucundan bu günə düşən, Böyük Türküstanı param – parça olan, Güney Azərbaycanı farsın, Güney Türküstanı çinlilərin, Sakası, Altayı, Tatarıstanı, Başqırdıstanı, İtil boyları, Dərbəndi rusun, Kərkük və Mosulu ərəblərin, Qərbi Azərbaycanı və Dağlıq Qarabağı ermənінin əlində olan bir millətin susmağa haqqı varmı?!

Türk Tanrı ordusudur. Tanrı ordusunun susmağa haqqı yoxdur. Unutma ki, Sən məzlum görkəminlə də qorxuncsan, ey Türk!

Dili, tarixi, dini, mədəniyyəti bir olan xalqın birləşmək istəməsindən daha təbii nə ola bilər ki?!

Bizi aşağıdakı suallara cavab tapmaq daim düşündürməlidir.

Nədən başqa xalqlar birləşmək istəyərkən alqışlanır, bizlər isə daşlanırıq?!

Bu masqara düşüncənin kökünü birdəfəlik kəsməliyik, ey Türk!

Nədən bu gün özünü dərk edən millət və dövlətlərin milli ideologiyaları, milli siyasətləri olsun da, biz Türklərin olmasın?!

Milli ideologiyamız və milli siyasətimizin əsası «Bütövləşmək, Millətləşmək və Dövlətləşmək»dir.

Əlbəttə, bu ideallara çatmaq bir qüvvət, güc tələb edir. Zatən biz də qüvvətlənmək, güclənmək istəyirik və artıq deyilib ki, «Güc birlikdədir».

**Böyük millətin böyük idealları olur. İdealsız bir millət məhvə məhkumdur. Bir əzəmətli millət kimi, bizim idealımız da Bütöv Azərbaycanı qapsayan Böyük Türkistan davasıdır.**

Özümüzü bu müqəddəs Davaya – maddi və mənəvi gücümüzü səfərbər edib, bir millət kimi kimsəyə yem olmamağa, tarixdə əbədi yaşamaq haqqımızı qazanmağa hazırlamalıyıq.

İmperiya əsarətində və ya totalitar recimlərdə yaşayan insanlar iki cür olur: manqurtlar və idealistlər.

Manqurt dil, din, vətən, millət, mənəviyyat duyğusundan uzaq bir insandır. Manqurtlaşan insanlar azadlığın, müstəqilliyin nə olduğunu bilməzlər.

Vətən manqurtlar üçün bir torpaq parçasıdır. Onlar üçün önəmli olan, sadəcə, qarınlarının doymasıdır. Bu baxımdan, manqurtlar ac itlər kimi sahiblərinin əlinə baxarlar.

Manqurtlar söylənən hər sözü, verilən hər bir əmri qəbul edərlər. Çünki onların düşüncə qabiliyyətləri yoxdur. Manqurtlar elə kölələşirlər ki, öz millətlərinə, vətənlərinə xəyanət etdiklərinin fərqinə belə varmırlar.

Milli təfəkkürün, milli ideologiyanın dar düşüncə olduğunu irəli sürən, özlərini «azad düşüncəli» kimi göstərməyə çalışan qalstuklu manqurtlarımız da vardır. Beləri unudurlar ki, hər bir xalqın öz ideologiyası, öz yaşam tərzi vardır. Bunsuz heç bir millət həyatda yaşamaq hüququ qazana bilməz.

Bu mal – mülk sahibi olan qalstuklu manqurtlar, qınından çıxıb qınını bəyənməyən soysuzlar, millətimizi zorla Qərb qəlibinə sığışdırmağa çalışanlar, əvvəllər «böyük İskəndər, böyük Napoleon, böyük Pyotr» deyə bağıranlardan, Çingiz xan, Əmir Teymur, Mehmet Fateh, Şah Xətai kimi azmanlarımıza «quduz canavar» adı qoyanlardan heç nə ilə fərqlənmirlər.

Unudulmamalıdır ki, Avropanın yaratdığı hər hansı bir ideologiyanın arxasında məhz onları yaradanların mənfəəti güdülmüş və güdülür. İlk öncə xeyirxah məqsədlərlə ortaya çıxan bu ideologiyalar sonda dövlət ideologiyasına çevrilərək həmin ölkənin və xalqın xidmətinə yönəldilir.

Bu ideologiya Qərb küləyi kimi yumşaq görünsə də, Şimal küləyi kimi sazaqlıdır; tədricən millətimizin sümüyünə işləyir, beyinləri iflic edir, milli varlığımızı sarsıdıb başqalaşdırır.

Böyük Olcasın söylədiyi kimi **«Bizi üzü Qərbə dəfn edirlər. Fəqət unudurlar ki, Qərb əslində Çin dənizindən Şərqdədir».**

Ona görə də biz ilk öncə «içimizdəki şeytanlara», «bizi üzü Qərbə dəfn edənlərə», fitnə – fəsad salanlara, içimizdəki soysuzlara, tariximizə, vətənimizə, mənəviyyatımıza, milli düşüncəmizə, bir sözlə **Türklüyümüzə** qarşı çıxan bütün xarici və daxili düşmənlərə qarşı **cihada** qalxmalıyıq.

Müqəddəs amallarımızı, birlik və bütövlük düşüncələrimizi yıxmaq istəyənlərə, qazilərimizi təhqir edənlərə, şəhidlərimizə xor baxan, onların ruhunu təhqir edənlərə, haramla, rüşvətlə yaşayan heyvan ruhlu alçaqlara qarşı cihada qalxmalıyıq.

Qoyun dərisinə bürünərək «Azərbaycan vətəndaşı», «Türkiyə vətəndaşı», «Özbəkistan, Qazaxıstan, Türkmənisitan, Qırğızıstan vətəndaşı» adı altında bizi içimizdən yeyən yadqanlı canavarlara, milli sərvətlərimizi başqalarına sərf edən «milli» xainlərə, özlərinin əyyaş həyatı üçün fironlara yaltaqlanaraq millətimizin bədbəxtliyi üzərində öz xoşbəxtliyini qurmağa çalışan ikiüzlülərə, riyakarlara qarşı **cihada** qalxmalıyıq.

Yüksək dövlət postlarında oturub millətimizə yuxarıdan aşağı baxan saxta diplomlu çinovniklərə, milli varlığımızı, bütövlüyümüzü xəncərləyən yerlibazlara, tayfabazlara qarşı **cihada** qalxmalıyıq.

Xalqımızı soyan sələmçilərə, vergilərdən yayınan qaçaqmalçı milyonçulara, millətin qanını gənə kimi soranlara, cəzasız qalacaqlarından arxayın olaraq dövlətin və millətin onillərlə birikdirdiyi paraları xarici banklarda yatıranlara, «dövlət malı dəniz, yeməyən donuz» təfəkkürlülərə, vicdanları güvələşmişlərə qarşı **cihada** qalxmalıyıq.

Siyasi mövqe və iqtisadi mənfəət üçün firon qarşısında ikiqat əyilənlərə, ölkədə yerlibazlıq, qohumbazlıq və simsarlıqla qarşıdurma yaradanlara, milli intellektlərimizi tərki – vətən edənlərə, kütləvi informasiya vasitələrində milli varlığımızı, mənəvi dəyərlərimizi altdan – altdan yıxmağa çalışan gözə – görünməz qüvvələrə, din adına milli bütünlüyümüzü təhlükə altında qoyan məzhəbpərəstlərə qarşı **cihada** qalxmalıyıq.

Millətin böyük əksəriyyətini, gündəlik çörəyə möhtac qoyan, gənclərimizi tərki – vətən edən, məmləkətin xeyli hissəsini işığa, qaza, suya həsrət qoyan çapovulçulara qarşı **cihada** qalxmalıyıq.

Təbii ki, imperializm köləliyinin mənfur xislətini anlamayanlar, qəlbində millət, vətən eşqi daşımayanlar, məfkurənin əzəmətli qüvvətini mənliyində hiss etməyənlər, mücadilə etmək üçün ölümdən qorxanlar, həyatlarından məmnun olanlar, despota, ikiüzlüyə, mənfəət üçün büqələmun kimi rəngdən – rəngə, şəkildən – şəklə düşən soysuz və ədəbsizlər, içində millətimizə qarşı kin bəsləyənlər, qadına, pula, şəhvətə kölə olan bəsit ruhlu insanlar bu cihadda iştirak etməyəcəklər. **Çünki hər bir mübarizənin öz adamları vardır. Böyük davaların insanları da böyük olmalıdır.**

**Sizləri Böyük olmağa çağırıram.**

**Böyük dava insanlarını böyük, kiçik dava insanlarını kiçik fəlakətlər gözləyir. Heç bir mübarizəyə qoşulmayanları isə sonda daha böyük fəlakət – Şərəfsizlik fəlakəti gözləyir.**

İldırımlar daim yüksəklərdə çaxar və zərbələri ilk dəfə zirvələrə dəyər. Küləklərin qarşısında ilk dəfə dağlar sinə gərər. Böyük dava adamları olan idealistlər də zirvələr, dağlar kimidir – ilk zərbəni onlar alarlar. Çünki onlar şüurlu şəkildə bu insanlıq davasına qoşulmuşlar. Onlar fikir, düşüncə sahibidirlər.

Onlar ilk öncə özlərini, daha sonra içində bulunduğu cəmiyyəti köləlikdən insanlığa, əsarətdən hürriyyətə doğru yüksəltməyə çalışırlar.

**Vətən, millət onlar üçün müqəddəsdir. Ona görə də onlar Vətəninin, millətinin və bütövlükdə insanlığın inkişafına xidmət edən kimsələrdir.**

Həyatları min bir əzablar içində keçən belə insanlar daim izlənmiş, təqib edilmiş, olmazın işgəncələrə məruz qalmışlar. Fəqət yollarından dönməmiş, ölüm anlarında belə zülmə, istibdada, haqsızlara qarşı sinə gərmişlər.

**Onların ruhunda qorxaqlıq deyilən əcaib xəstəlik yoxdur.**

**Onlar iztirablar içində mücadilə etməyi özlərinə şərəf bilərlər.**

**Onlar gələcək nəsillərin səadəti üçün bütün həyatlarını fəda edərlər.**

**Onlar günəş kimidirlər, qaranlıqları yarar, aid olduqları millətlərə və bütövlükdə insanlığa yol göstərər, xoşbəxtlik və səadət bəxş edərlər.**

**Onlar mübarizələrində bir mücahid kimi, gələcək nəsillərə bir örnək – ya şəhid, ya qazi olarlar.**

**Onlar sevən, inanan, qorxu bilməyən, bütün hücumlara köks gərən, lazım gələrsə, başını verən, şərəflə Yaşayıb, şərəflə Ölən insanlardır.**

**Onlar haqq yolunun yolçuları, müqəddəs cihadın bayraqdarıdırlar.**

Sizləri belə ideal düşüncəli insanlardan olmağa çağırır, dərin eşq, sonsuz həyəcan, qüdrət və əzm, səbr və səmimiyyətlə aparacağımız bu Müqəddəs Davada başarılar diləyir, qələbələr arzulayıram.

***Tanrı Türkü yüksəltsin!***

***Amin!***

## Lidersizlik

Tanrı heç bir milləti lidersiz etməsin. Xüsusən də Türk millətini. Çünki Türk milləti bütün yaşayışı boyunca liderində özünü görmüş, bütün  taleyini ona bağlamış, bununla da dəfələrlə yer üzündə hakim olmuş, özünü güclü, qüvvətli sanmışdır. Milli xüsusiyyətləri ruhunda yaşadan, milli qüruru ölümündən üstün tutan, milli şüuru vicdanında hiss edən Türk lideri daima Vətəninə və millətinə şan – şöhrət, şərəf qazandırmışdır.

Bütün bunların əksinə olaraq bu xüsusiyyətlərdən məhrum olan qorxaq, çəkingən, vəsvəsəli liderçiklərin başçılıq etdikləri dövrdə millət və dövlət zəifləmiş, geriləmiş və çıxılmaz vəziyyətlərə düşmüşdür.

Müəzzəm tariximizdə buna bənzər yüzlərlə faktlar məlumdur. Böyük mütəfəkkir Hüseyn Cavidin dediyi kimi:

«İdrakı sönük başçıların qəfləti ancaq
Etmiş, edəcək milləti həp əldə oyuncaq».

Bəli, millətimiz idrakı sönük başçılarımızın qəfləti ucundan əldə oyuncağa çevrilib.

Tarix göstərir ki, millətimiz liderlərinə uyğun olaraq güclü və zəif dövrlər yaşamış, güclü dövrlərdə hakim, gücsüz dövrlərdə məhkum olmuşdur.

Xalqımızın bugünkü durumu da liderinə tam uyğun şəkildədir. Lidersiz cəmiyyət həmişə çaşqın və pərişan olar.

Bugünkü Türk dünyası sanki bir inamsızlıq bataqlığına yuvarlanmaqdadır. Bu bataqlıqdan qurtulmaq üçün Dünya Türkləri boylu qalıb doğuş sancıları keçirməkdə böyük bir mübarizəyə özünün maddi və mənəvi gücünü sərf edə biləcək bir lideri doğurmaqdadır. Müdriklər söyləyiblər ki: «Dahilər zamanın təpikləri altından doğulur». Unudulmamalıdır ki, bütövlükdə bəşər intelektlərin çiyinləri üzərində hərəkət edir. Bəşərin və qarşılıqlı olaraqhər bir millətin inkişafı liderlə də bağlıdır.

Xalqını soyan, bir gənə kimi onun qanını soran, sözü ilə əməli bir – birinə zidd olan, millətin bütünlüyünü pozan, yerliçilik salan insandan lider ola bilməz. Ormanların hakimi aslan, yaylaların hakimi bozqurd, zirvələrin hakimi qartal olduğu kimi, cəmiyyətin də hakimi millətçi liderdir. Lider olmaq üçün ilk növbədə:

- Millətçi olmalı, öz səadətini millətə qurban verməlisən;
- Milləti bir bütün olaraq acısı, şirini ilə seməyi bacarmalısan;
- Özünə və xalqına inanmalısan;
- Həyatda heç nədən qorxmamalısan;
- Hər cür təhlükəyə qarşı sinə gərməlisən;
- Həyatda şərəflə, namusla yaşamalısan;

- Bütün rəzalətlərə qarşı çıxmalısan;
- Millətin xoşbəxtliyi üçün həyatını sərf etməlisən;
-Heç bir var – dövlətə, maddi sərvətə aldanmamalı, sərvət düşkünü olmamalısan;
- Ətrafına elmli, inamlı, əxlaqlı insanları toplamalısan;
- Elmli, bilikli;
- Əxlaqlı;
- İmanlı və inamlı;
- Ləyaqətli;
- Fəzilətli;
- Sözü ilə əməli bir;
- İradəli;
- Səbirli;
- Ədalətli;
- Səmimi;
- Haqq, həqiqət tərəfdarı;
- Vicdanlı olmalısan;
- Millətin bütün təbəqələrini birləşdirməyi, milləti bir tam halına gətirməyi bacarmalısan;
- Millətin istəyini anlayaraq, onun bütün maddi və mənəvi imkanlarını səfərbər etməlisən;
- Milləti milli hədəflərə doğru istiqamətləndirmək üçün bir sükan rolu oynamalısan;
- Millətin bütün dədlərini bilməli və ona çarə tapmalısan;
- Dünyada gedən prosesləri, dövlətlərarası münasibətləri düzgün qiymətləndirib millətə xeyiri olanını seçməlisən;
- Öz ətrafında hamıdan seçilməli, onlarla rəsmi davranmalısan. Əks təqdirdə, liderliyi itirib adi insana çevrilərsən;
- Öz kadrların arasında düzgün iş bölgüsü aparmalısan;
- Heç bir dedi – qodu və şayələrə əhəmiyyət verməməlisən;
- Ağlını, zəkanı yalnız millətin böyük məsələlərinə sərf etməli, beynini adi məsələlərlə yormamalısan;
- Adi insan olmadığını, təfəkkür və hərəkətlərinlə sübut etməlisən;

- İctimai inkişafın qanunauyğunluqlarını böyük mütəfəkkirlərin əsərlərindən öyrənməli və onları şəraitə uyğun tətbiq etməyi bacarmalısan;

- Mənəvi abidə olan bəşərin qəhrəmanlıq səlnaməsinə xitab edərək millətin bayraqdarı kimi onu yeni və müqəddəs mübarizəyə yönəltməli, qələbəyə ulaşdırmalısan;

- Milləti hədəflərə çatdırmaq üçün millətin ruhuna xitab etməli, o ruhu təmsil etməlisən;

- Milləti yeni yüksəliş və müqəddəs amallara doğru aparmalısan.

- Vətənpərvər;

- Qurucu və yaradıcı;

- Çalışqan və əzmli;

- Böyük təbliğatçı olmalısan;

- Millətin ruhuna xitab etməli, o ruhu təmsil etməlisən;

Deməli, Türklər elə bir lider istəyir ki, o, bütün milli və bəşəri dəyərləri özündə cəmləşdirmiş olsun.

Millətimiz elə bir lider istəyir ki, o, maddi sərvətlərə, pula, qadına, şəxsi ehtiyaclarına kölə olmasın.

Millətimiz elə bir lider istəyir ki, o, milli mənafeyi hər şeydən üstün tutsun.

Millətimiz elə bir lider istəyir ki, o, hədəflər yolunda iman və inamla addımlasın.

Millətimiz elə bir lider istəyir ki, o, özünün uzun müddət yıpranmamış və istifadə olunmamış milli dəyərlərini üzə çıxarıb elm və məntiqə əsaslanan üsullarla onu həyata tətbiq etsin, millətin şərəfini ucaltsın, Türk dünyasının etibarını qazansın, Türk xalqının tarixi əzəmətini özünə qaytarıb dünyaya tanıtsın.

Millətimiz elə bir lider istəyir ki, o, 200 milyonluq bir xalqın bütün zümrələrini bir araya gətirib onun birlik və bərabərliyini təmin etsin, xalqın arasında yerliçilik, məzhəbçilik, sinfi ayrıseçkilik salıb xalqı parçalayanlara qarşı mübarizə aparsın, onlara ən ağır zərbəni endirsin.

Millətimiz elə bir lider istəyir ki, o, millətinin bütün arzu və istəklərini yerinə yetirib onu məsud etsin.

Millətimiz elə bir lider istəyir ki, o, nəyin bahasına olursa olsun, Vətən torpağını düşmənlərdən azad edib ərazi bütövlüyünü bərpa etsin.

Millətimiz elə bir lider istəyir ki, o, milli ideyasından dönmədən, ölümü göz önünə alaraq milləti hərəkətə gətisin və millətin gücü ilə Türkün zəfər bayrağını şərəflə ucaltmağa çalışsın və buna nail olsun.

Millətimiz elə bir lider istəyir ki, o, ətrafına mənfəətpərəstləri, rüşvətxorları, qabiliyyətsiz qohum – əqrabaları deyl, millətin real potensial gücü olan milli, elmli, qabiliyyətli, imanlı insanları toplayıb ideal bir dövlət qursun:

- Elə bir dövlət ki, orada dövlət hər dəyişən iqtidarla yenidən dəyişikliyə uğramasın, hər yeni gələn məmur və işçi özündən əvvəlkinin yaratdığı əsərləri yıxmağı özünə hünər bilməsin.

- Elə bir dövlət ki, orada hər bir siyasət adamı buqələmun kimi rəngdən rəngə, şəkildən şəkilə düşməsin, ölkə üçün, millət üçün xeyirli nədirsə, onu söyləsin və onu həyata keçirsin. Daha əsaslı metodlar göstərsin və onları xalqa detallarına qədər izah etsin. Xalqa inkişafın yollarını aşılasın.

- Elə bir dövlət ki, orada Milli məclisi təmsil edən millət vəkilləri bir – biri ilə buynuz – buynuza deyi, ağılları, zəkaları, elm və bilikləri ilə milli mənfəət nədirsə, millət nəyi istəyirsə, millətə nə lazımdırsa, onu dilə gətirsin, ona uyğun qanunlar qəbul etsinlər. Bir – birlərinə simsarlıq deyil, millətə vəkillik etsinlər. Sensasiya deyil, qanun yaratsınlar. İqtidar və müxalifət davası deyil, əxlaq və məntiqə əsaslansınlar. Yumruqlar deyil, təfəkkürlər danışsın. Təhqirlər deyil, tənqidlər söylənsin. Eqoizm deyil, səmimiyyət hökm sürsün. Ən mükəmməl əsərlər ortaya qoyulsun.

- Elə bir dövlət ki, orada «Şah qanun deyil, qanun şah olsun». Ədalətə dayanan haqq və hüquq gerçəkləşsin. Xalqın hər bir fərdinin hüquq və azadlığı qanunla qorunsun. Rüşvət verən və rüşvət alan olmasın. Olarsa cəzalandırılsın.

- Elə bir dövlət ki, orada müasir dövrün tələblərinə cavab verə biləcək qadir ordusu olsun. Millətin tarixi hərbi məharəti

özünə qaytarılsın. Gəncləri hərbi vətənpərvərlik ruhunda tərbiyə edilsin.

- Elə bir dövlət ki, orada təhsil alan ön planda olsun. Ali və orta məktəblərdə milli tərbiyə ilə yanaşı müasir dövrün tələblərinə cavab verəcək milli kadrlar hazırlansın. Universitetlərdə çalışan professor – müəllim heyəti boğaza qədər siyasət və rüşvət batağına girməsinlər, onlar çiçəklənəcək Vətənin həqiqi müəllimləri, elm və ürfan sahibləri olsunlar. Tələbələrə yaradıcılıq, vətənsevərlik və elm öyrətsinlər. Təqlidçi deyil, yaradıcı kadrlar hazırlasınlar. Öz bilik və təcrübələrini müxtəlif xarici ölkə tələbələrinə deyil, doğma Vətənin balalarına öyrətsin və bundan böyük həzz duysunlar.

- Elə bir dövlət ki, orada hökuməti idarə edən kadrlar rüşvət və hər cür milli mənafeyə zidd olan şeylərdən uzaq olsun, tutduqları vəzifələri layiqincə yerinə yetirsin, bütün bilik və bacarıqlarını xalqa xidmətə sərf etsinlər.

- Elə bir dövlət ki, orada ticarətlə məşğul olanlar doğru və dürüst olsun, qaçaq mal alverindən, saxtalıqdan uzaq olsun, dövlət büdcəsinə daxil olacaq vergiləri vaxtlı – vaxtında ödəsin, onların azad ticarətinə tam şərait yaradılsın.

- Elə bir dövlət ki, orada gəncliyin dövlət quruculuğundakı işi özünü qabarıq şəkildə biruzə versin, gəncliyin gücündən maksimum istifadə edilsin, onların fəaliyyətinə tam şərait yaradılsın, istedadlı gənclər dövlət idarəçiliyində iştirak etsin.

- Elə bir dövlət ki, orada nəzarət mexanizmi elə təşkil edilsin ki, milli mənafelər ön planda olsun, hər şey hüquqa, ədalətə əsaslansın, vətəndaş haqsız yerə cəzalandırılmasın.

- Elə bir dövlət ki, orada bütün kütləvi informasiya vasitələri xalqın dərdlərini dilə gətirsin, bu dərdlərin həlli yollarını göstərsin, milli şüuru gücləndirsin, milli əxlaqı ön plana çəksin, xalqı savadlandırsın, yalnız və yalnız həqiqəti yazsın, xalqa demokratik dəyərləri aşılasın.

- Elə bir dövlət ki, orada iş adamları işçi və digər zümrələri istismar etmədən qanunlara uyğun çalışsın və cəmiyyətin inkişafı üçün əllərindən gələni əsirgəməsinlər.

- Elə bir dövlət ki, orada din adamları xalqımızın mənəvi aləmini nurlandırsın, fanatizmə uymadan əxlaqa, gözəlliyə, yaxşılığa xidmət edən dinin saf və təmizliyini qoruyub saxlasın, onu xalqa təlqin etsin, keçmişin xürafatına saplanıb qalmadan milləti irəliyə – Haqqa doğru yönəltsin.

Məhz bunları həyata keçirə biləcək bir liderə xalqın ehtiyacı var.

Lider özünə güvənməli, qabiliyyətinə inanmalıdır, özünə hakim olmayan heç bir zaman başqalarını xoşbəxt edə bilməz.

Böyük Nihal Atsızın buyurduğu kimi:

«Qəhrəmanlıq nə yalnız bir yüksəliş deməkdir,
Nə də ulduzlar kimi parlayıb sönməməkdir.
Bunun üçün ölümə biir atılış gərəkdir
Atıldıqdan sonra da bir daha dönməməkdir».

Liderlər üçün səadət qət edilən məsafələrdir.

Liderlər millətin içindən çıxmalı, millətin önündə olmalı, milləti hərəkətə gətirməli və millətin milli hədəflərinə zəfər bayrağını sancmalıdırlar.

Liderlər adətən millətin böhran anlarında özlərini göstərirlər. Bu da onu göstərir ki, liderlərin ortaya çıxmasında ağıl, zəka, iradə, cəsarətlə yanaşı millətin də rolu böyükdür. Əgər millət hazır deyilsə, o, liderinin arxasınca gedə biləcək durumda deyilsə, liderin vəziyyəti çox ağır olar və hətta müqəddəs amalı həyata keçirməyə gücü çatmaz.

Tarixən milli birliyin yaradılması və milli istiqlalın qazanılması adətən liderlərin sayəsində əldə edilir. Bu işdə zəka və iradə ilə yanaşı şans da mühüm rol oynayır.

Ölümü belə göz önünə alan liderlər çox zaman miskin, bədbin və ümidsiz kütlələrə duyğu və həyəcan aşılayır və milləti irəliyə doğru apararaq məqsədə ulaşdırırlar.

Lidersiz və ya saxta liderlərlə idarə olunan millət geri qalmağa məhkumdur. Bir müddət köləlikdən qurtulsa da, tezliklə köləlik zəncirini boynuna taxacaq.

Belə bir vəziyyətdə millət yenə də həqiqi liderə ehtiyac duyacaq və belə bir lideri yetişdirəcəkdir.

Qələbə üçün milli təfəkkür və qələbəyə inam əsas şərtdir.

Milli şüura və qələbəyə inam ümidlə millətimizi aydın üfüqlərə yüksəldəcək liderlərə eşq olsun.

## Güvəncimiz sizlərsiniz, ey Türk Gəncliyi!

**Ey Türk gəncliyi! Unutma ki, Türk böyük səltənət yaratdı, böyük hikmət yaratdı, böyük sənət yaratdı, fəqət böyük VƏHDƏT yarada bilmədi. Böyük imperatorluqlar, əzəmətli dövlətlər yaratdı, fəqət TÜRK AİLƏSİNİ dağıtdı. Türkiyə yaratdı, Turanı dağıtdı, Türk Birliyi yarada bilmədi. Türk əvəzinə osmanlı, azərbaycanlı, özbək, qazax, türkmən, qırğız, başqırd, tatar, uyğur, yakut, balkar adları ilə xırdalandı. Türk dövləti əvəzinə Hun, Qaraxanlı, Qəznəvi, Səlcuq, Moğol, Atabəylər, Elxanilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Osmanlı, Əfşar, Qacar dövlətləri yaradıb, mətanət, dəyanət, şücaət göstərdik. Var olmağı bacardıq, fəqət BİR olmağı bacarmadıq.**

**Ey Türk gəncliyi!** Bil ki, mənsub olduğun millətdə Peyğəmbər müqəddəsliyi, Babək, Koroğlu qəhrəmanlığı, Səlcuq cəngavərliyi, Osmanlı möhtəşəmliyi, Şah İsmayıl qüdrəti, Yunus İmrə ruhaniyəti, Nəvai, Füzuli məhəbbəti, Atatürk xadimliyi, Elçibəy millətçiliyi olduğu halda onu səfalətə sürükləyir, böyük bir hailənin qarşısında qoyurlar. Türkün bir-birini sevməməsi, bir-birini tanımaması, bir-birindən ayrı düşməsi, bütün dünyaya səpələnməsi, sünni-şiə qovğası və ən başlıcası, min illər boyunca davam edən özünə qarşı düşmənçilik Böyük Türk millətini bugünkü duruma saldı.

**Ey Türk gəncliyi!** Türk milli qürurunu, milli dilini, milli mədəniyyətini və onun ən yüksək forması olan milli dövlətini yaratmaq, qorumaq və yaşatmaq sənin ən ümdə vəzifəndir.

**Ey Türk gəncliyi! Unutma ki, bu gün artıq Turan tərsinə çevrilib. Onun başı Türkiyə, ürəyi Azərbaycan, qalan bütün bədəni Orta Asiya, Qazaxıstan, Tatarıstan, Başqırdıstan və Yakutiyadır.** Bu müəzzəm orqanizmin hər hansı bir üzvü zədələnərsə, bütün Bədən ağrıyar. Beyin pozular, göz görməz, ürək dayanar. Əl, qol, qıç qıc olar. Türk təklənər.

**Ey Türk gəncliyi!** Bilməyin gərəkdir ki, bütün dünya Türkün qılıncının zəhmini hiss edib, fəqət Türk idrakının, Türk zəkasının əzmini hələ hiss etməyib. İdrakını, zəkanı dünyaya duyur. Bu, sənin ən ümdə vəzifəndir.

**Ey Türk gəncliyi!** Bil və agah ol ki, Şər hər an sənin qarşındadır. Bu şəri öz yolundan qovacaq yeganə ideya Sənin millətçiliyindir. **Tələsmədən və gecikmədən Özünü Şərlə döyüşə hazırla! Bu döyüş qılınc döyüşü deyil ki, qoluna güvənəsən. Bu döyüş idrak, zəka döyüşüdür. Bu döyüş ideya döyüşüdür. Bu döyüş ruh döyüşüdür. Şəri idrakınla, zəkanla, ruhunla boğ!** Cəhalət və xurafat qaranlığını nurla parçala, dağıt!

**Qabaqcıl ol!** Unutma ki, qabaqcıl olmasan təqlidçi olacaqsan. Təqlidçilik özgələşmədir. Özgələşmə isə fəlakətdir, əримədir, yoxolmadır. Özgələşmə Türkün belini qırar. Özgələşmə mədəniyyət yaratmaqdan daha çox, mənimsəmək, yamsılamaqdır. İdrakı, zəkanı söndürməkdir.

**Ey Türk gəncliyi!** Sənə ən əvvəl BİRLİK gərəkdir – Mənəviyyat birliyi, İdrak birliyi, İnam birliyi, İradə birliyi, Ruh birliyi, İş birliyi. **Türk birliyi yalnız Türk idrakı, Türk zəkası, Türk mənəviyyatı, Türk əxlaqı və Türk iradəsiylə mümkündür.**

Həyatda çox az adam sözün həqiqi anlamında siyasətçi ola bilər. Lakin siyasətçilərin əməllərinə qiymət vermək Sənin haqqındır. Ağı qaradan seçməyi bacar. Əks təqdirdə çox böyük bəlalara mübtəla olarsan.

**Ey Türk gəncliyi!** Unutma ki, öz milli şərəf hissindən ilham alan, vətəndaşlıq borcunun nə olduğunu bilən və onu vicdanla yerinə yetirən insanlar məqsədlərinə nail olurlar.

**Ey Türk gəncliyi!** Yadda saxla ki, həyatda yalnız haqq uğrunda savaşanlar müqəddəslik, əbədilik qazanırlar. Çünki müqəddəslik haqq uğrunda maddi və mənəvi gücünü sərf edən insanların şərəfli həyat yolunu, dərin eşq, milli həyəcan, qüdrət, əzm, səbr və səmimiyyətlə yaşadığı ömrün məntiqi nəticəsidir. Müqəddəslik tariximizə, vətənimizə, millətimizə, əxlaqımıza, azadlığımıza qarşı çıxan güclərin fitnə-fəsadlarını darmadağın etməkdir.

**Ey Türk gəncliyi!** Unutma ki, tarixi düşmənlərimiz böyüklükləri gözə girən ulu babalarımızın qisasını almaq üçün hər cür alçaqlıqlara əl atırlar. Onlar ilk öncə bəşər övladının minillər boyu lənətlə damğaladığı mənəvi eybəcərlikləri mədəniyyət pərdəsi altında Türk dünyasında yayır, ekranlarımızı iyrənc parnoqrafik filmlərlə dolduraraq gözümüzün qarşısında türklüyümüzü çirkaba bulayır, bizi özgələşdirməyə çalışırlar. Tarixi düşmənlərimiz bütün bunlarla da kifayətlənməyib, Vətənimiz olan Türkiyə, Orta Asiya və Azərbaycanda etnik münaqişələr yaradaraq ölkəmizdə erməni, kürd və s. kimi oyuncaq dövlətlər yaratmağa cəhd göstərir və bəzən də buna nail olurlar. Çox təəssüflər olsun ki, «içimizdəki şeytanlar» da TAMAH ucbatından bütün mənəvi dəyərləri maddi dəyərlərə dəyişərək bu işdə düşmənlərimizə yardım edirlər.

**Ey Türk gəncliyi!** Unutma bu gün Qarabağ problemi, Cənubi Azərbaycan problemi, Kipr problemi, Uyğur problemi, Kərkük problemi Ümumtürk problemidir. Bütün bunları unudan Türk, Türk sayılmaz. Etinasızlığın, dönüklüyün, əqidəsizliyin, ləyaqətsizliyin hökm sürdüyü bu illərdə Sizlərdən türk mərdliyi, türk inamı, türk cəsarəti, türk mənəviyyatı tələb olunur ki, bununla da, sadalanan problemləri həll edib, sözün həqiqi anlamında Türk olasınız. **Türk olmaq millətləşmək deməkdir. Millətləşmənin, bütövləşmənin, mənəvi möcüzəsinə inanın.** Çünki inam insana, insanlığa gərək olan ən dəyərli mənəvi duyğudur. İnam mütləqi, əbədini, kamil mənanı gördüyündən insanı mütləq həqiqətə, mütləq xeyrə ulaşdırır. İnam insanı saflaşdırır, kamilləşdirir, onu mütləq idraka, mütləq iradəyə, mütləq mənəviyyata çatdırır.

**Ey Türk gəncliyi!** Nə qədər ki, düşmənlərimiz türklüyü öldürə bilməyib, sönməyən közü inamınla, idrakınla, mənəviyyatınla, iradənlə alışdırmağa çalış**. Unutma ki, düşmənlərimiz Türk mədəniyyətini dandılar, Türk mərdliyini avamlıq, Türk sərtliyini qəddarlıq, Türk əzəmətini vəhşilik kimi qələmə verməklə yaradıcı Türk dühasını inkar etdilər.** Düşmənlərimiz indi də Türkdən qorxurlar. Buna görə də bizləri həmişə təkləməyə çalışırlar. Sən məzlum görkəminlə də

qorxuncsan, ey Türk! Əzəmətli olsan nə edərlər!? Əzəmətli olmaq üçün özünə qayıtmalısan. Sən özünə qayıdanda daha böyük olursan, ey Türk!

Saxta, riyakar, hər fürsət düşdükdə milləti satanlara, bütünlüyümüzü parçalamaq istəyənlərə, Vətənimizi bölgələrə bölənlərə qarşı amansız ol. Onları təsirsiz hala gətirmək üçün ölümü belə göz önünə al. Çünki böyük işlər görmək istəyənləri həmişə böyük fəlakətlər gözləyir. Böyük davaların insanları həmişə bu fəlakətləri gözləyən, lakin çəkinmədən mücadilə edən fədai, mücahid şəxsiyyətdirlər. Belə şəxsiyyətlərin ruhunda bu mücadilənin özü bir zövq halına gəlir. Belə şəxsiyyətlər günəş kimidirlər, qaranlıqları yırtar, insanlığa işıq və istilik gətirərlər. Belə insanlar dağlarda qartal, ormanlarda aslan, yaylalarda bozqurda bənzərlər. Onlar savaşlarda ya qazi, ya da şəhid olmaq istərlər. Onlar düşüncələri yolunda hər cür əzablara qatlaşaraq mübarizə aparar və bununla da gələcək nəsillərə örnək vermək istərlər. Bu yolda şərəflə mücadilə edib müqəddəs davanın bayraqdarı olar, qəhrəman kimi ölərlər.

**Ey Türk gəncliyi! Unutma ki, dünya güclülərindir. Güclü olmaq üçün isə ilk növbədə milli ruhun güclənməsi gərəkdir.**

Bunu da unutma ki, sonda «siyasət tüfəngin ağzından çıxar».

Bilməlisən ki, millət milli mənəvi varlıq olmaqla, həm də maddi varlıqdır. Tarix boyu millətlərin və xalqların, istər azadlıq uğrunda mübarizələrinin, istərsə də xarici müdaxiləyə qarşı savaşlarının ən ağır yükünü yoxsullar çəkmişdir. Haram yollarla varlananların millətə canı yansaydı, heç bir ölkədə ac tapılmaz, heç bu mübarizə və müharibələrə də ehtiyac duyulmazdı. Ona görə də, millətin maddi və mənəvi gücünü bir yerə toplamaq üçün onun qan damarını təşkil edən kütlənin müəzzəm gücündən maksimum istifadəyə çalış. Milli gücümüzün və özəlliklə, milli dirçəliş və milli birliyimizin əsası budur. Bu Əsas Türk millətinə milli ideologiya, demokratik recim və müasir dövlət bəxş edəcək**. Xalqın gücündən, millətin bükülməz qolu, dönməz üzündən düzgün yararlan!** Milli ideologiyaya söykənərək, demokratik recim yaradıb, müasir dövlət qur!

**Ey Türk gəncliyi!** Bil və agah ol ki, Qərb aləmi yalnız Sizin gücünüzü gördükdən sonra Sizinlə hesablaşacaq və yalnız o zaman Dünya böyük fəlakətdən qurtulacaq. «Haqqımız gücümüzdədir». Deməli, Sizin inkişafınız həm də Yer Kürəsində olan bütün məzlum xalqların özgürlüyü, inkişafı deməkdir. Axı millət olaraq yalnız Türk «Tanrı ordusu» və deməli, «Haqq ordusu» ünvanını qazanıb. Öz adını Özünüzə qaytarmağa çalışın, ey Türk gəncləri. Bu həm də sizlərin tarix və Tanrı qarşısındakı borcunuzdur. Unutmayın ki, Türk ədalətinin yenidən bərqərar olması XXI əsr Dünya düzənini tənzimləyəcək, onu daha da gözəlləşdirəcəkdir. Bu yolda Tanrı yardımçınız olsun! Amin!

**Ey Türk gəncliyi!** Unutma ki, milli dəyərlərin əleyhinə olan hər bir fəaliyyət və təfəkkür mürtəce xarakterlidir. Türklüyün qurtuluşu, yalnız və yalnız «türklük yolu və düşüncəsi ilə demokratiya körpüsündən keçir».

Unutma ki, böyük Türküstanın bir parçası olan Azərbaycan tarixin amansız gücü ilə ikiyə parçalanıb. Bunun şimal hissəsi yarımmüstəqillik əldə etsə də, böyük bir hissəsi fars şovinizminin əsarəti altındadır. Sənin vəzifən Böyük Türküstanın bu yaralı ürəyini sağaltmaq, Azərbaycanı birləşdirmək, sözün həqiqi anlamında Müstəqil, Bütöv Azərbaycan dövləti yaratmaqdır.

**Ey Türk gəncliyi! Unutma ki, Sənin varlığın, bu günə gəlib çıxmağın, öz adını yaşatmağın ilk öncə ana dilinə – Türk dilinə bağlıdır. Ana dilini təkcə sevmək azdır.** Onu yaşatmaq, zənginləşdirmək, gələcək nəsillərə ötürmək Sənin başlıca vəzifəndir. Yadda saxla ki, dil öləndə millət də ölür. Dil yoxdursa, millət də yoxdur.

**Ey Türk gəncliyi!** Tarixini öyrən. Unutma ki, keçmişini bilməyən, gələcəyini itirər. Güclü milli tarixçilər ordusu yarat. Unutma ki, Sənin tarixini əsrlər boyu düşmənlərin yazıb. Elə yazıblar ki, Sən nəinki özünü tanıyasan, hətta özündən utanasan. Tarix boyu siyasətlərin qurbanı olmuş əzəmətli tarixini özün öyrən, özün yaz, özün öyrət! Yadda saxla ki, Sənin tarixin – Sənin mədəniyyətin, elmin, fəlsəfən, dinindir. Tarixini öyrənsən – mədəniyyətini, elmini, fəlsəfəni, dinini öyrənərsən.

Və görərsən ki, sən bir millət olaraq tarixdə heç bir millətə nəsib olmayan on beş imperatorluq, altmış dövlət, səkkiz respublika yaratmısan. Fəqət Sənin yaratdığın mədəniyyəti Sənin düşmənlərin çinlilərin, farsların, ərəblərin, rusların adına yazmışdır.

**Unutma ki, Sənin babaların tarixi yazmamış, yaratmışlar.** Fəqət bilməlisən ki, yaşatmaq yaratmaq qədər müqəddəsdir. Yaratdığını yaşatmaq üçün yaz! Və Səni sevməyənlərə anlat ki, dünyanın ən mədəni xalqı mənəm, dünyanın ən dəyərli xəzinəsi mənimdir və Mən bəşər tarixinə bunları bəxş etmişəm.

**Ey Türk gəncliyi!** Yadda saxla ki, xoşbəxtliyi azadlıq, azadlığı isə igidlik doğurur. Bu gün məmləkətimiz bir inamsızlıq bataqlığında boğulmaqda olsa da millətimiz bir qəhrəmanını doğmaq üçün boylu qalmaqda, doğum sancıları keçirməkdədir. Sənin vəzifən özünü o ana hazırlamaq, millətimizi qələbəyə ulaşdırmaqdır. Qələbə qələbəyə inananlarındır. Tanrı bu şərəfli yolda Sizləri milli ruh və şüurla Qələbəyə çatdırsın. Amin.